# X A L İ Q

بسم الله الرحمن الرحيم

**Bismillahirrəhmanirrəhim**

**Bakı - 2011**

## Müəlliflər:

***Babayev E.B. (Ərəblinski)***
***Babayev E.B. (Ərəblinski)***

Zaqatala, Balakən, Qax və Şəki vilayətlərinin böyük din xadimi olmuş Şeyx Şahsəlim Əlibəy oğlu Ərəblinskinin nəvələri :

***Elman (1942-ci il)***
***Elxan (1947-ci il)***

Azərbaycan Respublikasının Zaqatala şəhərində ziyalı ailəsində anadan olmuşlar.

**Əziz oxucularımız**

1985-ci ildən üzərində çalışdığımız və 1993-cü ildən bu günə qədər müxtəlif illərdə ardıcıl olaraq təmənnasız 15 dəfə müzakirənizə verilən «Xaliq» kitabı, nəhayət, çoxlarınızın mənəvi və maddi köməyi ilə bilavasitə Allahın yardımı və iradəsi ilə tamamlanaraq 2011-ci ildən yeni bitkin bir halda Sizə bu nəşriyyat vasitəsilə təqdim olunur.

Biz müəlliflər hamınıza öz minnətdarlığımızı və təşəkkürümüzü bildiririk. Allahın adı ilə çəkdiyiniz zəhməti bizə halal edin.

Bir olan Allah bütün xeyirxah işlərinizdə köməyiniz olsun. Amin.

## Bir olan Allahın adı ilə

**Həyata qulluqda yüksək insani keyfiyyətlərinə görə**

**bu kitab şəxsən hörmətlə:** ______________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

**Müəlliflər tərəfindən**

/ 20 ildə **pay edilib**.

Kitabın artırılmasına və yayılmasına kömək edənlərin

Allah ruzisini bol edər inşaallah.

Allah köməyiniz olsun! Amin.

***Müəlliflər.***

## TƏQDİMAT

Əziz oxucularımız, həsrətlə gözlədiyimiz «Xaliq» kitabının 16-cı dəfə işıq üzü görməyinə səmimiyyətlə kömək edən İbrahimovlar və Babayevlər ailəsinə Sizin və bizim adımızdan böyük minnətdarlığımızı bildiririk. Allahın yardımı və rəhməti onların və əzizlərinin üzərindən əskik olmasın inşaallah!!

***Hörmətlə müəlliflər***


Redaktor:

Texniki redaktor: Elçin Vaqif oğlu İbrahimov

Kompüter dizayneri: Zaur Dursun oğlu Əfəndiyev

Rəssam-dizayner: Nəcəf Çingiz oğlu Muradəliyev

Mətni yığan: Afaq Hacı Məmmədrza qızı Teymurova, Nəcibə Elman qızı Ərəblinski

Korrektor: Turan Vahab oğlu Həsənzadə

# MÜRACİƏT

***Rəhman və Rəhim Allahın adı ilə***

Hörmətli kitab sahibləri və oxucularımız.

Allahın iradəsi ilə «Xaliq» kitabını əmanət olaraq Sizə saxlayırıq.

Hər nəslin payı var bu əmanətdə…

Diqqətlə oxuyun. Təmkinlə, yetirdiklərindən nəticə çıxarıb və tətbiq edib faydalanın. Əminik ki, Allahın köməyi ilə Sizin fədakarlıq tələb edən pak dini-etiqadınızın bərkiməsində kitab öz xidmətini hər bir an təmənnasız və müasirliklə edəcəkdir inşaallah. Bilin ki:

Etiqad gücüdür hər islahatın.
Hər dövrün həll edən müqəddaratın…

Əminik ki, insaniyyətlik təlimləri daima haqq dinimizin, şəriətimizin, saf ədəb-ərkanımızın, mənəviyyatımızın və yüksək əxlaqi-mədəniyyətimizin əsası olub və olacaqdır inşaallah. Çunki:

İnsanlıq hamının məhz nemətidir.
Saçdığı nurudur, qiyafətidir.
Bu vergi hər canın hədsiz nəfidir.
Göyün də, Yerin də o əşrəfidir!
Məhz ona ayrılıb tarixi möhlət,
Qiyamət günü də qoyulub son hədd
Ki, Yerdə Behiştlik yaradıb, qura.
Xəlifə sayıla, qulluqda dura!
Həm aça mənsubluq hər imkanını,
Həm yapa özünə pay məkanını!
Cəhalət döndərmiş onu hədəfə.
Kamillik yol verməz bu ağır səhvə.

Əminik ki, Allahın yardımı ilə və Sizin bilavasitə fəaliyyətinizlə bu kitab, hamımızın ümüd bəslədiyi, səmimi əməkdaşlığımızın, sədaqətli dostluğumuzun, birlik və bərabərliyi təmin edəcək adil idarəçiliyimizin və nizam-intizamımızın, ümumiyyətlə firavan həyatımızın qurulmasında etiqadımızın əyani bir təlimatına çevriləcəkdir:

Olsanız mübariz, dözümlü, mətin,
Carçısı, dayağı haqq-ədalətin.

Sizə sağlamlıq, əmin-amanlıq və bol bərəkət bir olan Allahdan diləyirik inşaallah.

***Hörmətlə, müəlliflər***

## KİTAB SATILMIR

***Rəhman və Rəhim Allahın adı ilə***

Əvvəla biz, müəlliflər, kitabın daxili aləmini bir qədər açıqlayan bu dəyərli girişi çox səmimi, aydın və qısa izahatlarla qələmə almaqla oxucuların qəlbinə ilk yol açan hörmətli Hacı Sabir Həsənliyə, Turan Vahab oğlu Həsənzadəyə, Solmaz Yavər qızı Süleymanovaya, Şahin Hacı oğlu Əliyevə hədsiz minnətdarlığımızı bildiririk. Həmçinin onun yeni nəşri üçün öz zəhmətlərini əsirgəməyən hörmətli Akif Ağa Mehdi oğlu Əlizadəyə, Hacı Məmmədrza Məmmədrəhim oğlu Əliyevə, Muxtar Ağaəli oğlu Məmmədyarova, Burxan Cahangir oğlu Əzizova, Sübhi Əhməd oğlu Qazıyevə, Vaqif Bağır oğlu İbrahimova, Şaban Məhəmməd oğlu Əbdürrəhmanova, Nizami Xıdır oğlu Musayevə, Nəsib Cəfər oğlu Abbasova, Adil Əli oğlu Əskərova, Heydər Allahyar oğlu Cəfərova, Şölə xanım Qurbanəli qızına, tərcüməçilərə: Ramiz müəllimə, Səadət xanıma, Rahim Allahverdi oğluna, Nəcibə Elman qızına və bütün redaksiya heyətinə böyük ehtiramla təşəkkürümüzü yetiririk.

**Allah daima Sizə kömək olsun. Amin.**

# GİRİŞ

***Rəhman və Rəhim Allahın adı ilə***

Allahın müqəddəs adlarından birini daşıyan "XALİQ" kitabı, milliyyətindən, irqindən və dinindən asılı olmayaraq hər bir insanı özünü və ətrafı dərindən dərk etməyə yönəldir. O, tariximizin bəzi məqamlarında dini xurafatın yaratdığı şəkk-şübhələrin izlərini qəlbimizdən təmizləməyə və Allaha olan inamımızı rəşadət tələb edən sədaqətli sevgiyə qədər gücləndirməyə çalışır. O, Xaliqin həyatımızda tutduğu əvəzsiz və müstəsna yerini belə bildirir:

Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Qərar və hökmünə sədd yox heç yanda.
Burda həm neçə min sirli Dünyanda…
Günəşdən, havadan, torpaqdan, sudan
Xəlqinə Sənsən ən zəruri olan!..

Və qeyd edir:

Ey ulu Tanrımız, ey Pərvərdigar,
Sənə tən, müqəddəs, pak kimimiz var?!
Pozulmaz yazıdır ilk xeyir-duan,
Bu sirli məntiqlə püxtələşir can.
Yoxsa tam itirər həyat mənasın,
Dirilik təməlin, abi-havasın...

Kitab Onun ölçüyə sığmayan tam xeyirxah fəaliyyətindən, hər anın nümunə və ibrətgahı olan təkzibedilməz xüsusiyyətlərinin yaratdığı İlahiliyindən, bəşəriyyətin mənəvi ehtiyacına, zəruri tələbatına dönən salehliyin, paklığın ən yüksək zirvəsi olan İnsaniyyətlik dəyərlərindən bəhs edərək, bir olan Allahın bütün kainatın yaradıcısı kimi tükənməz səlahiyyət və nüfuz sahibi olduğunu özünə məxsus incəliklərlə təsdiqləyir:

Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Önündə kainat, zaman çöküb diz,

Hər bir güc sahibi mütidir şəksiz!
... Sən küllü ixtiyar sahibisən bir.
Dünyalar, varlıqlar yapmağa qadir.
Allahsan əbədi, xilqətin çoxdur.
Müqəddəs və təksən, şərikin yoxdur!

XX əsrin tanınmış din xadimi, 1937-ci il repressiya qurbanı Şeyx Şahsəlim Əlibəy oğlu Ərəblinskinin nəvələri Elman və Elxan Bəşir oğlunun "Xaliq" kitabı, sonsuz kainatın əbədi sahibi və hakimi olan yaradanımızın ilahiliyinin fasiləsiz yaydığı hərarətli nuru, insaniyyətlik təliminin yeganə təməli olduğunu qeyd edir. Allahın dəyişməz iradəsi kimi bu həqiqəti aram-aram açıqlamağı müəlliflər özlərinin haqqıniyyəti və məsuliyyətli borcları sayırlar.

Ucadan-ucadır bu müqəddəs ad,
Hər cana məlhəmdir Ona etiqad!
Nə qədər yüksəksə məhz aliliyi,
Ölçülməz adillik və adiliyi...

Hədsiz inam və səmimiyyətlə "Ön söz"ün yetirdiyi bu hikmət öz ətri, ahəngi və təravəti ilə kitabın bütün daxili aləminə hopub. Daima böyük ehtiram və hörmətlə Xaliqə müraciət, Onun yeganə, hamının ümid bağladığı, pənah gətirdiyi əvəzsiz, ali və müqəddəs varlıq olduğunu təsdiqləyir.

...Xaliqsən-hər bir can əmanətindir.
Varlığın-xəlqinə zəmanətindir.
...Olmusan dinimiz, etiqadımız.
Varsan ki, əminik var imdadımız...

Kitab həyatımızın banisi kimi Xaliqin dahiliyini, qadirlik qüdrətini, tükənməz yaradıcılıq qabilliyini vurğulayır:

Ey kamil Dünyanı quran, Banisi.
İstedad, idrakın mütləq Dahisi.
Gündə min can növü dirçəldir zəkan,

Verir bu hünərin həyata təkan...

Allahın böyük kəramətini, mərhəmət və rəhmini, təmkin və səbrini, səy və zəhmətini, atalıq və müəllimlik himayəsini bir qədər də ətraflı açıqlayan "Xaliq" kitabı sözsüz ki, möhtərəm oxucuların hədsiz marağına səbəb olacaqdır inşaallah.

Yaradıb misilsiz Cənnət məkanı,
Hər mövcud varlığa xas kamil canı
Və olub dayağı, Rəbbi, loğmanı,
Sərf edir səy-zəhmət, ölçülməyən təb.
Bu qədər qayğıya nədir bəs səbəb?
Düşünək, bəşərdən nə edir tələb?!

Bu əbədi həyat naminə qurulan aləmlərin sıx əlaqələrini, vəhdətlik təşkil edən işlərini onlar düşündürücü bir hikmətlə qələmə alıblar:

...Üst-üstə, iç-içə yeddidir aləm,
Dörd varlıq cinsi var - surəti-sənəm:
Mələklər, ruhlardır, cinlər, insanlar,
Mənsubluq işləri, tarixləri var!
Bir amal yapılır dörd mərhələdə,
Dörd səmtdə iş gedir qızğın hələ də.
Hər hökmü dörd gözəl cinsədir aid,
Dörd fərdi məqsəddir, idarə vahid!..

Xaliqin sabit dövlətçiliyinin əsası olan nizam-intizamının, haqq və ədalətinin, daimi inadı və bilavasitə yardımı ilə müstəqil rifahımızı qurmağa yönəltdiyi insani təlimatlarının müasirliklə işıqlandırılması bu kitaba xüsusi məhəbbət oyadır:

İnsanlıq hamının olsa hakimi,
Qorunsa hüququ və haqqı kimi,
Yaranar hər yanda güclü nəzarət,
Cinayət törənməz, yoxsa əsarət!..
Edək min illərin çin bu niyyətin,
Qərq olaq nuruna insaniyyətin!

Bu əyani cənnət Cahana bizi gətirməklə bəxş etdiyi hədsiz səadəti nəzərə alan və müqəddəs dini kitabların "Tövrat"ın, "Zəbur"un, "İncil"in, "Quran-i-Kərim"in tarixlərdən gələn haqq səsinə səs verən "Xaliq" insanları bir daha tükənməz hikmət və misilsiz qüdrət sahibi olan Allaha səmimi iman gətirib, təlimlərinə şəksiz və qorxusuz sığınmaqla Qiyamətəcən zəmanət verdiyi bu gözəl həyata məsuliyyətli qulluğa çağırır. Kitab bu xidmətlə bağlı hər bir sahədə bütün xeyirxah işləri Allahın önündə bəşərin ən ali vəzifəsi kimi qiymətləndirir. Üzərimizdə bu vəzifənin ağırlığını duymaqdan ötəri Allahın önündə and içməyimizin vacibliyini bildirir. Həqiqətən daimi sayğısına və qayğısına insani münasibətimizi hidayətimiz və itaətimiz ilə göstərməyi tövsiyə edir.

...Bu cana mənsubluq hava da, su da,
Hər maddi neməti, Günün nuru da,
Çalışaq bizə sərf olmasın əbəs
Önündə doğruldaq alınca nəfəs!..

Həmçinin bütün xeyirxah işlərimizi Allahın adıyla başlamağa və tamamlamağa dəvət edir.

Kitab Xaliqin üzərimizdəki misilsiz haqqını çox səmimiyyətlə vurğulayır:

Yox Sənə bərabər nəzərimizdə,
Ölçüsüz haqqın var üzərimizdə!
Nə qədər önündə qılsaq səcdəni,
Öyünsək Səninlə, öysək də Səni,
Bənzər bir zərrəyə ibadətimiz.
Ölçüyə sığarmı səadətimiz?!

Müəlliflər ilkin peyğəmbərimiz Adəm əleyhissəlamın yaranmasından, Yer üzərində Allahın ləyaqətli bir təmsilçisi kimi onun məsuliyyətli vəzifə borcu olan insaniyyətliyindən, bunu bərqərar edə biləcək əyani işlərindən bir qədər dolğun və aydın, həqiqətlə daha çox səsləşən fikirlər yetirir həmçinin müasir dövrümüzlə sıx əlaqələndirirlər.

Adəm peyğəmbərin nəhəng yırtıcıların əhatəsində vahi-

məli, qorxulu bir dövranda yaşayışını və fəaliyyətini təmin edə biləcək, bütün imkanların sahibi olmasının zəruri səbəblərini aydınlaşdırırlar:

O, ilkin edirdi məhz dörd aləmin
Qadirlik gücünün birliyin təmin!
Tükənməz imkana malik qaməti,
Yaratdın, şüurlu etsin xidməti!..
Hər canı bağlasın iradəsinə
Və olsun cavabdeh Yer kürəsinə!..

Tarixin gedişatında uğursuzluqlarla qoşa yüksələn nailiyyətlərimizin hələ insana məxsus qabilliyindən çox-çox geri qaldığını xatırladır. Bununla əlaqədar vaxt itgisinin böyük günah olduğunu diqqətimizə çatdıran "Xaliq" kitabı, bir olan Allahın məhəbbətini qazanmaqdan ötrü əlbir xariqələr yaratmaq üçün insanları şövqə gətirməyi özünün ən yüksək məqsədlərindən biri kimi sayır. Son peyğəmbərimiz Məhəmməd əleyhissəlamın Allahın vəhyilə yetirdiyi ilahiyyat və insaniyyət təlimlərinin ümumbəşəri əhəmiyyətini, zəruri adət və ənənəmizə çevrilən dini etiqadımızın Namaz və Oruc kimi əsaslarının ali amallarını açıqlayan "Xaliq" kitabı bəşəriyyəti iftixarla müqəddəs "Quran-i-Kərim" ayələrindən öyrənməyə və layiqincə faydalanmağa səsləyir:

Məhəmməd Rəsulun...hər bir ayəsi
Dərslikdir Dunyanın camaatına,
Gərəkdir insanlıq təlimatına.
Daim var zəruri tələbat buna,
Çəkəndir adillik, haqqın yoluna!..

Allahın iradəsi ilə müasir dövrümüzün ilahiyyat təlimlərinin bəşəri qavrayışını əks etdirən "Xaliq"və həyatda öz əvəzsiz yerini tutan müqəddəs "Quran-i-Kərim" kitablarının əsas ali niyyətlərinin mahiyyətcə üst-üstə düşməsi, hər ikisinin demək olar ki, bir kökdən yarandıqlarına dəlalət etsə də "Xaliq", bütün səmavi kitabların insanların önündə qoy-

duqları, bir olan Allaha etiqadın tələblərinin düzgün mənimsənməsinin və tam faydalanmasının müasirliklə qulluğundadır.

...Qoy bilsin hər işdə səy göstərənlər,
Kimisə müqəssir daim görənlər.
...Allaha etiqad vacib insana.
Zamindir xoş ömrə həmi ad-sana.
...Etiqad gücüdür hər islahatın
Hər dövrün həll edir müqəddaratın.

Əsl mənada Allahın yetirdiyi ayələrin hələ bəzilərinin müasir elmin nailiyyətləri ilə təsdiqləndiyini görüb həqiqətən onların ən ali qüdrət tərəfindən olduğunu qəbul edən materializmə və onun dialektikasına əsaslanan ateizmin dərin köklərinə və qədim ilahiyyat kitablarının ali amallarının ləyaqətli varisi olan müqqəddəs "Quran-i-Kərim"ə arxalanaraq "Xaliq", dinimizin mif və uydurmalardan uzaq olduğunu qətiyyətlə vurğulayır. İnamlı dəlillərlə onun ali elm olduğunu Xaliqin iradəsi kimi təsdiqləyir:

İndi də həyatın qulluğuna din
Çağırış səsidir insaniyyətin!
Mahiyyət, qüdrəti hədd-hüdud bilməz,
Elmlər elmidir, inkar edilməz!..
Dinimiz nurudur sabahımızın,
İradə, hökmüdür Allahımızın!..

Dini-ilahiyyat kitablarının ali amallarını Allahın iradəsi ilə yaşadan və bu sahədə təsəvvürümüzü qədim anlayışların əfsanələrindən qopartmağa çalışan "Xaliq", həmişə arxalandığımız əbədi ədalət və haqq sahibinin yetirdiyi insaniyyətlik təlimlərinin möhkəm təməlinə söykənməklə, həyata fədakar qulluğa çağıran, müasir dini-ilahiyyat kitabıdır. Onun hamıya yönəlmiş "Çağırış"ının bir bəndinə nəzər salaq:

...La ilahə illəllaha, o Allahu əkbərə,

O Tanrıya, Yaradana, o Rəbbinə, Rəhbərə
Məhz qulluğun həyatadır, varlığadır, bəşərə.
Oyan! Göstər rəşadətli vəfanı bu günündə.
Qalx! Andımız, borcumuz var bir Allahın önündə!...

Allahın tarazlıq qanunlarına əsaslanaraq ətrafımızın sirlərini bir qədər də açıqlaması, siyasətə, demokratiyaya və müstəqilliyə ilk ilahiyyat təlimi kimi baxımını çatdırması, kitabın maraq oyadan təsirini artırır. O, çox sadə dildə gələcək elmi nailiyyətlərimizdən, cəmiyyətin yaradacağı ictimai əsasların yüksək zirvəsindən, dinclik və rahatlığımızı təmin edə biləcək bir dövranın ilk bəşəri məramnaməsindən xəbər yetirməklə Allaha «Son söz»ündəki müraciət çox səciyyəvidir:

Ən fitri idraka, zəkaya, elmə,
Ən yüksək şüura, təfəkkür, helmə,
Ruhlara xas olan həyata, ömrə
Və mənsub olsaq da ən gözəl dövrə
Gərəkdir idarən həm nəzarətin,
Keçmişin etməsin təkrar xilqətin!..
Nə Cahan görməyə fəlakətləri,
İnsana nalayiq hərəkətləri.
Nə pozğun əxlaqı, çirkin əməli
Ola son imkana xitam verməli!
Əstafurullah.

Bu Cahanda hökm sürən zorakılıq və haqsızlığa, soyuqluq və biganəçiliyə qarşı öz kəskin səsini ucaldan kitab, insanları bu həyat naminə Yer kürəsini dəhşətli fəlakətlərdən qorumağa çağırır:

İnsanlığı ucaldaq ki, nailliklər itməsin,
Bu Aləmdə fəlakətlər hökmranlıq etməsin,
Ümidlərlə dolu həyat faciəli bitməsin...

Və ya:

Fəlakət seçməyir yaxşını-pisi

Amansız məhv edir hər cinsi-irsi!
Mənəvi həm maddi o çəkər dağı,
Ölçülməz ziyanın ucu-bucağı.

Və ya:

Hamıya yeganə Vətəndir Kürə.
Kövrəkdir, əzizdir, verək əl-ələ...
Yer üzü cənnətə dönsün yenidən,
Narazı qalmasın bizi xəlq edən!

"Xaliq" kitabı bir həyat fəlsəfəsidir. O, xalqlar dostluğunu, bəşəri birliyi, ümumi həmrəyliyi, faydalı rəqabət və əməkdaşlığı, əmin-amanlığı, təmiz insani-əxlaqi keyfiyyətləri, ali dövlət və dövlətçiliyi Allahın yetirdiyi təlimatlar kimi təbliğ edən və Onun önündə hər bir kəsin məsuliyyətini bildirən tərbiyəvi, təsirli, təqdirəlayiq müasir bir salnamədir.

Tariximizdə ilk dəfədir ki, Allahın böyük mərhəmət və rəhmini qazanmaqla müəlliflər, Onun haqq və ədalət qanunları ilə birgə müxtəlif zəruri insani təlimlərinin əsasını münasib təfsilatları ilə çatdıran və müqəddəs adlarından birini daşıyan "Xaliq" kitabını yazmaq məsuliyyətinə nəsib olublar:

Yetsin xoş məramlı xəbər hər yana.
Nəzərlər yönəlsin Azərbaycana!
Mübarək çağrışın burdan ellərə
Nur yayıb göstərsin yol möminlərə...

Bu kitab, insaniyyətlik baxımından çox adilliklə fəhlədən - dövlət başçısına, körpədən-qocaya qədər hamının xeyirxah marağını və insani mənafeyini Allahın adıyla müdafiə edir.

Kitab siyasi qurumundan asılı olmayaraq dövlətdə bütün təbəqələrin həmrəylik və birlik, dostluq və yoldaşlıq ünsiyyətləri ilə yüksək yaradıcılıq çərçivəsində yaşamaqlarının əsasını bu təlimlərin həyatımıza tətbiqində gördüyündən, hamıya onların mahiyyətini dərk etməyi və əyani faydalanmağı tövsiyə edir:

Allahın haqq-ədaləti təməlidir həyatın.

Şamil etsək, nizamlayar intizamın hər qatın.
Yeganə pak həqiqətdir, alınmazdır o satın..

və ya:

Məramı, məqsədi bu qanunların
Rahatlıq, dincliyin yapsın canların...
Ki, quraq ən gözəl rifahımızı,
Sən zamin durduğun sabahımızı.

Əsl daxili müstəqillik şəraitində bu haqq və ədalət qanunlarının daim sabit qalması ilə hamıya eynilə şamil olunması, birlik və bərabərliyin möhkəm təməlini yaradacağını kitab xüsusi incəliklərlə aydınlaşdırır.

Əslində "Xaliq" bir olan Allaha insanın həm ehtiramı və itaəti ilə həm də əyani qulluğu ilə sıx əlaqəli səcdəsini açıqlayan müasir ibadət kitabıdır.

O, bu səcdənin və ibadətin zəruriliyinə heç kəsdə şəkk-şübhə qalmasın deyə bunun mahiyyətini dolğun izahatlarla, aram-aram açıqlayan "Müraciət"dən, 9 fəsil, 63 əsas və 70 yardımçı bölgüdən ibarətdir. O, ata-babalarımızın mənsub olduğu avazlı və oxunaqlı şer dili ilə Allaha və insanlara xitabən yazılmışdır.

Kitab keçmişimizin, bu günümüzün və gələcəyimizin səhnələrini özündə canlandırmaqla, Allaha möhkəm və əbədi bağlılığımızı da məharətlə tərənnüm edir:

Adil hökmü olan Sən.
Canı verən, alan Sən.
Harayına xəlqinin
Həm yetən Sən, qalan Sən!

Kitab ilk dəfədir ki, "Vidalaşma", "Tapşırma", "Yad etmə" və "Ehsan" bölgülərində yas mərasimlərini ana dilimizdə səsləndirir. Ona görə də Allahımıza sığınmaqla, təskinlik tapmağımıza daha çox yardımçı olur.

"Xaliq" kitabı sanki, əsrlər boyu insanların dini-etiqadına bağlı böyük ümidləri ilə Allahın iqamətgahına doğru

tədricən ucaltdıqları sonsuz ülvi pillələri nəzəri olaraq tamamlayır.

O, bəşəriyyətin Allaha, Onun yaratdıqlarına, yetirdiklərinə əyani münasibətini göstərən daxili xüsusiyyətlərinin güzgüsüdür.

Kitab sanki, neçə min illərlə daima Allahın adıyla "Səpilib bəslənən" dini-ilahiyyat təlimatlarının müasir dövrümüzdə yetirdiyi qavrayışımızın bol məhsulunun məcmusudur. Onun açıqladığı mənəvi və maddi dəyərlərin əhəmiyyəti ölçüsüzdür! Allahın köməkliyi ilə bu dəyərlərin həyatda bərqərar edilməsi, insan nəslinə əməli saleh və mənəvi paklıqla, Yaradanımızın hüzurunda bu əyani Cənnətin bir hakim rəsulu kimi adını doğrultmağa imkan yaradacaqdır inşaallah.

Allahın təlimin beyninə cəmlə,
Cəhalət yağıdır et ona həmlə!
Bil, dayaq nöqtənsə o Pərvərdigar
Yeri də yerindən çevirmək olar!...

"Xaliq" kitabı XX əsrin son illərində yazılmış əsərlər içərisində əhatə etdiyi mövzunun açılışına, çox mənalı, dolğun məzmununa və zəruriliyinə görə öz müasirlik gücünü, əhəmiyyətini həyatımızda daima saxlayacaqdır!

Kitabdakı ən sabit haqq və ədalətin yaradıcısı və qoruyucusu olan Allahın adıyla yetirilən bir demokratik fikrə nəzər salaq:

Qanunlar dövlətin olsa hakimi,
Səslənsə hər şəxsin öz haqqı kimi
Artırar nəzarət, məsuliyyəti,
Çəkər sıx birliyə cumhuriyyəti...
İlahi, ədalət, haqqınla, bir-bir
Etsək hər təlimi bərqərar, əlbir.
Canlanar hökumət yeni sifətdə,
Olmazdı bitərəf, müxalifət də.
Dövlətin adillik olar yarağı,

Qorunar hamının haqqı, marağı.
Qalmazdı bir eldə yadlıq, nadanlıq,
Tutardı yerini kamil insanlıq.

Onun hər bir Vətən övladına aid olan hikmətini də açıqlayaq:

Həm ola hakimi öz diyarının,
Həm sərbəst yaratmaq ixtiyarının...
Vəhdətsə işilə, insaniyyəti,
Qoruna hüququ, səlahiyyəti!..

Əminik ki, "Xaliq"kitabı, Allahın iradəsi ilə üzümüzə gələn XXI əsrdə ümumi əmin-amanlığımızı, həmrəylik və birliyimizi, faydalı əməkdaşlığımızı yarada biləcək, bəşərin yüksək dəyərli insaniyyətlik təlimatlarından birinə çevriləcəkdir inşaallah.

Əgər Allahın təlimlərini ən yüksək məsuliyyətli tədbirlərə çevirib ali qanunlarımızda əks etdirib hamılıqla qəbul edib, icra etsək kitabın yetirdiyi çin olardı:

Rəbbimiz siyasət xiridarıdır.
İcraçı xəlqidir, bu qərarıdır!
**Qəbul et**, tövsiyə və təlimlərin.
Odur xoş rifahın güdən əllərin.
...**Əməl et**, qorunsun haqqın, marağın.
Yığsın hər böhranın əlin-ayağın!
**Əməl et**, qanunlar elə sazlansın,
Hər insan hüququ tam tarazlansın!
Qardaşlıq zəmnində birlik yarana,
Əyani Behiştlik Yerdə canlana!
**Əməl et**, insanlıq bərqərar ola,
Zindan və Cəhənnəm daim boş qala!

Uzun illərin (1985 - 2011-ci ildə tamamlanmış) zəhməti ilə yaranan kitabın dəyəri bir də ondadır ki, gəlir naminə, qazanc məqsədi ilə yazılmayıb və satılmayır.

Bu kitab bütün oxucularını hədsiz dərəcədə təmkin və sə-

bir sahibi olmağa dəvət edir.

Kitab müəlliflərin arzusu ilə irqindən, milliyyətindən, dinindən asılı olmayaraq ancaq xoş gələcəyimiz, gözəl, xeyirxah işlərimiz və insaniyyətliyin bərqərarlığı naminə çalışanlara Allahın adıyla pay edilir.

İnanırıq ki, "Xaliq" ürəyində Allah sevgisi olan hər bir kəsin sevimli kitabına çevriləcəkdir inşaallah!

Allah köməyiniz olsun.
İlahi, amin.

***Hacı Sabir Həsənli***
***Turan Vahab oğlu Həsənzadə***
***Solmaz Yavər qızı Süleymanova***
***Şahin Hacı oğlu Əliyev***

# I Fəsil

***Rəhman və Rəhim Allahın adı ilə***

***Niyyətimiz:*** Bir olan Allahımızla günümüzü və bütün işlərimizi başlamaq və tamamlamaqdır inşaallah.

Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd

## FATİHƏ

**1.** Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...
**2.** Əbədi sahibi bütün xilqətin,
Adillik paklığın, haqq-ədalətin.
**3.** Lütfündür kəramət rəhim-rəhmətin,
Bərəkət ruzinlə, maddi nemətin.
**4.** Sənsən həm dinimiz, etiqadımız.
Varsan ki, əminik var imdadımız!
**5.** Təmkin və səbrinin əvəzi varmı?
Rəhman və Rəhim-ə tən tapılarmı?
**6.** Günəşdən, havadan, torpaqdan, sudan
Xəlqinə Sənsən ən zəruri olan.
**7.** Hər anın nümunə, ibrətgahısan,
Varlığın müqəddəs bir Allahısan!
**8.** And olsun, gözündən düşənlər ki, var
Əziyyət, əzabda daim çırpınar!
**9.** İlahi, xəlqinə varlığındır bəs.
Şükür ki, kölgəndə alırıq nəfəs.
**10.** Yox Sənə bərabər nəzərimizdə.
Ölçüsüz haqqın var üzərimizdə.
**11.** Layiqsən əbədi, hədsiz hörmətə,
Önündə səcdəyə və ibadətə!

Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd
Əssalamü əleyküm və rəhmətullahi və bərakətuhu...

## ÖN SÖZ

***Rəhman və Rəhim Allahın adı ilə***

Yerləri, Göyləri yaradan Dahi,
Ölçülməz bu seçkin, vergin, İlahi.
Məmnunuq lütfündən, kəramətindən,
Meylindən, qayğından, mərhəmətindən
Ki, hədsiz inam var təcəssümündə.
Tarixin çox çətin bir mövsümündə
Etimad göstərdin biz qardaşlara,
Edək din elmindən həkk yaddaşlara.
"Xaliq"lə iradən, nurun yayılsın,
Şövqündən silkinib xəlqin ayılsın.
Sayəndə göstərsin daim bu güzgün
Baxanın daxili aləmin düzgün;
Müqəddəs Varına münasibətin.
Hər qəlbin yaxşılıq, pislik nisbətin.
Duyğusun, seçkisin, etiqadını,
Nələrdi yaradan dərd, fəryadını?!
Vəhyinin qavrasın hər tövsiyəsin,
Tapsın hər qanunda təlimin əksin!
Törədə bilməsin fəlakət, bəla,
Sərt, adil tədbirlər qarşısın ala.
Bu mövcud qaydalar elə sazlana
Hər insan hüququ tam tarazlana!
Cahandan həm alsın kamını hərə,
Həm qalsın füsünkar o varislərə!
Hər nəslin payı var bu əmanətdə.
Yaraşmaz haqlara məhz xəyanət də!
Yetsin xoş məramlı xəbər hər yana,
Nəzərlər yönəlsin Azərbaycana!
Mübarək çağrışın burdan ellərə
Nur yayıb göstərsin yol möminlərə!

Qayıtsın hər azan imana, dinə
Və möhkəm sığına İlahi - Sənə.
Ki, yetsin hər kəsə göndərdiyin həb.
Ey fitri İstedad, görünməyən Təb!
Əlhəmdü lillahi Rəbbil aləmin.

Ucadan-ucadır bu müqəddəs ad!
Hər cana məlhəmdir Ona etiqad.
Nə qədər yüksəksə məhz aliliyi,
Ölçülməz adillik və adiliyi.
İltifat göstərən, lütf əskiltməyən,
Önündə heç kəsin haqqı itməyən
Və odur eşidən fəryadımızı,
Bir Ondan gözlərik imdadımızı.
Vaxtında yetəndir hər bir kəsinə.
İntizam, inadı, səliqəsinə,
Verdiyi ruziyə, bol nemətinə,
Kəramət, rəhminə, mərhəmətinə,
Hər anın nümunə, ibrətgahına,
Varlığın əvəzsiz bir Allahına
Ehtiram olardı ibadətimiz!
Onunla bağlıdır səadətimiz!
Şükür və təriflər sayğısınadır,
Var-yoxa yanğıyla qayğısınadır!

Nurundan zərrəni açıqlar kitab,
Adıyla hamıya olunur xitab:
Bəşərin puç olar nailiyyəti,
Ucalda bilməsə insaniyyəti.
Əskilməz kök salmış qorxunc yamanlıq.
Bərqərar edilməz əmin-amanlıq.
Xaliqin təlimin qavrayıb yayaq

Ki, olsun rahatlıq, dincliyə dayaq.
Artırsın, bərkitsin əlaqələri,
Qayğıkeş və həmrəy etsin elləri!
Daima əl tutaq bir-birimizə,
Döyməyək nə başa, nə dizimizə.
Xeyirxah olarsa hər zəhmətimiz,
Firavan yaşarıq köməyilə biz.

Öyrənək zəruri tariximizdən
Ki, tutsun həmişə o əlimizdən.
Sətirlər girdikçə bəhsə, təmkinlə,
**Ey insan**, hər fikrin sədasın dinlə!
Dərd-bəla basdıqça hey başımızdan
Çox şeylər silinib yaddaşımızdan.
Bilsəydik insani vəzifəmizi
O, nədən, nə üçün yaradıb bizi?
Bilsəydik qadirlik qüdrətin, əsl
Allahı Cahanda kim edir təmsil?
Hər sözün-söhbətin, işin, əməlin
Xaliq tək qurardıq möhkəm təməlin!
Olmazdı ədavət, sədd aramızda.
Qəlbləri sarsıdan dərd, yaramız da.
Bu kitab bağlıdır çağrış səsilə
Xaliqin hökmü və iradəsilə
Yetirir töhfsiyə, məsləhətlərin
Ki, olaq təmkinli, düşünək dərin
Və nəzər salağın tariximizə,
Bilək nə qismətdən nəsibdir bizə?
Qavrayaq ətrafı, özümüzü də,
Tam açaq mənsubluq əyri-düzü də.
Öyrənək səhvləri etməyək təkrar,
Deməyək:-Şeytanın günahı tək var.

Min bir don geydirsək günahımıza,
Sirr deyil, bəllidir Allahımıza!
"Tövrat"da, "Zəbur"da, "İncil", "Quran"da
Və insan qurduğu hər bir dövranda
Allaha inamın, həm etiqadın,
Bəşərə nümunə olan pak adın
Müqəddəs sanına təzim, vəfasın,
İlahi qüdrətlə bağlı sədasın
Qavrayaq, həkk olsun yaddaşımıza,
Kafirlik açmasın dərd başımıza!
Olmayaq aldadan həmi aldanan.
Qırğınlar törədən, haqqları danan.
Cahanda qalmasın bəlalardan iz!
Yapmasın fəlakət əməllərimiz
Ki, çəkək cəfasın hamı birlikdə,
Axtaraq qurtuluş məhz təskinlikdə.
Ürəklər daş olsa, qulaqlar da kar,
Hər yanda edilsə insanlıq inkar
Aləmdə törənər bəla o qədər,
Paylansa hər ömrə gen-bol bəs edər.
Hər bir an atlıdır, idrak piyada,
Ardınca çatdırmır həddi-ziyada.
Lakin o yetirib qavradıqları,
Tədricən tarixdən aradıqları
Tükənməz qidadır düşüncəmizə.
Gəlməyə məhz düzgün nəticəmizə.
Musanın, Davudun o həyat tərzi,
Allaha inamın bəşərə ərzi.
İsanın çağrışı və faciəsi,
Məhəmməd rəsulun
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

Hər bir ayəsi
Dərslikdir Dunyanın camaatına,
Gərəkdir insanlıq təlimatına.
Daim var zəruri tələbat buna,
Çəkəndir adillik, haqqın yoluna.
Davranış, ünsiyyət və yaşayışın,
Həmrəylik, birliyin həm asayişin,
Tarixi sədasın düzgün yetirib,
Başımız çəkəndən dəlil gətirib,
İnamla çağırır insaniyyətə
Ki, qulluq eləyək məhz bu niyyətə!
Dəyişək Cahana baxışımızı.
Köksündə iz salan naxışımızı!
Sığınıb yaradan Allahımıza,
Göz açaq şükürlə sabahımıza.
Son qoyaq talana, hər hərc-mərcliyə.
Ümidlər, istəklər puç olsun niyə?
Allahın iradə, hökmün edən car
Ayələr, ən vacib hikməti açar;
Hər xalqın, hər "dinin" ali məqsədin
Cəmləyib olarsa “insaniyyət - din"
Qurtarar bəşəri hər bəlalardan!
Saxlamaz qəlblərdə iz yaralardan.
Qaytarar insana məxsus tacını,
Ödəyər hey artan ehtiyacını!
Günəşə bənzəyib əməlimizlə
Dəyişək aləmi hünərimizlə.
İlahi qüdrətin - Pərvərdigarın
Doğruldaq inamın və etibarın!

Dinimiz bir çağırışdır insanlığa insanı!
İnsaniyyət-yaşatmaqdır, qorumaqdır hər canı.

Bu ali bir məsuliyyət verib hədsiz imkanı.
Oyan! Çatmış xariqələr zamanı bu günün də.
Qalx! Andımız, borcumuz var məhz Allahın önündə!

**Unutmayaq ki**, bir olan Allahın bizə bəxş etdiyi tövsiyə və təlimlərinin, bu təbiətin misilsiz gözəlliklərinin və ötən nəsillərin saxladıqları ən nadir şeylərin hələ də mahiyyətini və mövcud dəyərlərini lazımınca dərk edə bilməmişik. Çunki, Allaha etiqadımız, əhatəmizə qayğımız və nailliklərə sədaqətimiz olduqça zəifdir!

İlahi, əskiltmə köməyini Sən
İradə hökmünü dərk edənlərdən.
Hər qəlbin şəfqətli həbibi Sənsən.
Hər dərdin ecazkar təbibi Sənsən.
Hər mömin bəndə*ni qoru azardan,
Xatadan, bəladan, mərdimazardan.
Bədnəzər gözlərdən, cadu yazardan!
İlahi, amin.
Nurunla nurlanan kitabları məhz
Mədaxil edənlər xeyrini görməz!
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin.

***Müəlliflər.***

## İBADƏT

***Rəhman və Rəhim Allahın adı ilə***

***Niyyətimiz:*** Bir olan Allaha əbədi və möhkəm bağlılığımızın həm varlığına böyük ehtiramla könüllü sığınmağımızın həm də Ona-Həyata fədakar qulluğumuzun vacibliyinin mahiyyətini bir qədər açıqlamaqdır inşaallah.

Allahu əkbər!..
Ey ulu Tanrımız, ey Pərvərdigar,
Sənə tən, müqəddəs, pak kimimiz var ?!
Səninlə bağlıdır bu rifahımız.
Sənədir səmimi etirafımız.
Bu milyon illəri keçib gəlincə
Nəsillər çıxarıb mühüm nəticə.
Nəhayət əyani duymuşuq bunu -
Həyatdan ayrılmaz mövcudluğunu!
Tək Sənsən sahibi bu kainatın.
Ən ali hakimi mövcud həyatın.
Günəşdən, havadan, torpaqdan, sudan
Xəlqinə Sənsən ən zəruri olan.
Varınla varlanır varlıqlar qərəz
Ən varlı Varlıqsan yox Sənə əvəz!
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Qərar və hökmünə sədd yox heç yanda -
Burda həm neçə min sirli Kahanda
Sən, külli ixtiyar sahibisən bir.
Dünyalar, varlıqlar yapmağa qadir.
Allahsan əbədi, xilqətin çoxdur.
Müqəddəs və təksən, şərikin yoxdur!

Xaliqsən, hər bir can əmanətindir.
Varlığın xəlqinə zəmanətindir.
Rəhmanlı  rəhimli, mərhəmətlisən.
Təmkinli, səbirli, kəramətlisən.
Sönməyən Günəşi Sənsən xilqətin,
Adillik, paklığın, haqq-ədalətin.
Hər anın nümunə, ibrətgahısan,
Varlığın əbədi bir Allahısan!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Yaradıb varlığı həm öhdənə tək
Götürüb edirsən qulluğu gerçək.
Hər canın harayın məhz anmağınla,
Köməyə müntəzir dayanmağınla
Layiqsən əbədi, hədsiz hörmətə.
Önündə səcdəyə və ibadətə!
Misilsiz gücün var cəsarətin də.
Könülsüz yox bir can itaətində!
Şükür və təriflər bu sayğınadır,
Var-yoxa yanğınla həm qayğınadır!
Bu ülvi aləmin məkandır bizə.
Sanındır nur verən düşüncəmizə.
Dühandır* bəsləyən minlərlə nəsli.
Var ikən varlığın itərmi əsli?
Hər biri gücünün bir carçısıdır,
İradə-hökmünün icraçısıdır.
Sənsiz, bir can belə almaz kam nə həzz.
Bu mövcud həqiqət təkzib edilməz.
Cahanlar, aləmlər yapan da Sənsən.
Varlığa həyansan məhz xəlq edənsən!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.

Pozulmaz yazıdır ilk xeyir-duan,
Bu sirli məntiqlə püxtələşir can.
Yoxsa tam itirər həyat mənasın,
Dirilik təməlin, abı-havasın.
Çünki o əqidən, kamil idrakın
Daima yaradır hər şeyin pakın.
İnamın - dönürsə ömrünə varın,
İnadın - artırır saf duyğuların!
Bu qadir qüdrətin təsvir edilməz.
Xəlqinin yolunda maneə bilməz.
Hamının səadət gətirənisən.
Gündəlik ruzisin yetirənisən.
Adınla bağlıdır zəfərlərimiz.
İmdada yetənsən büdrəyəndə biz.
Daima möhtacıq kəramətinə,
Mərhəmət rəhminə və rəhmətinə.
Əlində ömrümüz, aqibətimiz,
Qiyamət qünümüz, axirətimiz.
Əlhəmdü lillahi Rəbbil aləmin.
Ey kamil Dünyanı quran, Banisi.
İstedad, idrakın mütləq Dahisi.
Bizlərə paydırsa ömür illərin
Cahandır meydanı xariqələrin.
Nə işdən yapışsaq bu məkanında
Hər işlək əlin də, hər zəkanın da
Dayağı hər şirin diləklərinin
Olursan, nurusan bəbəklərinin!
Hər nədən, hər kimdən görsək yamanı
Bir Səndən dilərik möhlət, amanı.
Ey bütün bəşərin ümid, pənahı,
Bilən dərd-sərini, yuyan günahı.
And olsun xəlqinə Varlığındır bəs!

Şükür ki, kölgəndə alırıq nəfəs.
Sevilən müqəddəs bir Varlıqsan pak
Ki, duyur öyməyi iftixar idrak.
Məhz dayaq Sən olsan, ey Pərvərdigar,
Yeri də yerindən çevirmək olar!
İnşaallah.
Əlhəmdü lillahi Rəbbil aləmin.
Banisi və Rəbbi bu aləmlərin.
Ən ali Şahidi iş-əməllərin.
Sahibi hər elmin, ağıl-kamalın.
Bərəkət-nemətin, izzət-calalın.
Ən həlim ünsiyyət, mədəniyyətin.
Ən mütləq mərifət, səlahiyyətin,
Haqların haqqısan, uğurlar uğru.
Əməli salehsən, xeyirxah, doğru.
Olmusan dinimiz, etiqadımız.
Varsan ki, əminik, var imdadımız.
Büsbütün varlığın yaradanısan,
Gözünün nurusan, gücü, canısan.
Hər qəlbin şəfqətli həbibi Sənsən.
Hər dərdin ecazkar təbibi Sənsən.
Yox Sənə bərabər nəzərimizdə.
Ölçüsüz haqqın var üzərimizdə.
Sənədir səcdəmiz, ibadətimiz,
Verdiyin həyatdır səadətimiz!
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...

## SƏCDƏ*

***Rəhman və Rəhim Allahın adı ilə***

***Səcdə və Təzim***: Bir olan Allahın önündə hər bir kəsin həm mənəvi - ehtiram hörmətinin, həm də maddi - tam varlığı ilə qulluğa müntəzir olduğunun əyani əməlinin təzahürüdür.

Allahu əkbər!..la ilahə illəllah
Rəhmanlı rəhimli, ey qadir Allah.
İnsanı yapmısan qulluğu ola,
İradə, hökmünə tam sadiq qala.
Göstərə mətanət, dəyanətini,
Sarsılmaz inamın, itaətini!
O, Yerdə Behiştlik yarada, qura,
Xəlifə sayıla, qulluqda dura.
Varına ehtiram, hörmət eləsin,
Adınla bağlasın hər ifadəsin
Və etsin yaddaşa ibadətin həkk,
Yaşatsın mənəvi dəyərləri tək!
Doğrulda önündə etimadını,
Səcdəsi qoruya şərəf, adını.
İnşaallah.
Ey bütün varlığın Banisi, Rəbbi
Həm verən təlimi, ruzi və həbbi
İnsan həm özünü, həm Cahanı dərk
Etsəydi tutardı ətəyindən bərk.
Yığıb hər sahədə atılan daşı,
Tanısa simanda sadiq sirdaşı
Bilərdi dəyərin təyinatının,
Mənəvi, həm maddi təminatının.
Bilərdi bu yetkin hər təlimatın
Ən əsas şərtidir gözəl həyatın.
Bilərək insani məsuliyyətin,

Dayağı olardı haqq-ədalətin.
İnşaallah.
Durub hər sərvətə, nemətə sahib,
Hər azğın nəfsə O, gələrdi qalib!
Sığınıb ləyaqət, səxavətinə,
Ləkələr yaxmayıb sədaqətinə,
Qoruyub müqəddəs din-imanını,
Artırıb rəhmini və amanını;
Duyaraq hər canın ağrılarını
Əl tutub çəkərdi qayğılarını.
Qalmazdı iz ağır bəladan-dərddən,
Böhrandan, səfalət, fəlakətlərdən!
Aləmdə baş verməz hərcmərclik daha
Dərk edib sığınsaq birgə Allaha.
Hər zülmət guşəyə nuru saçılar,
Bağlanmış düyünlər, sirlər açılar!
Qalmazdı bir eldə yadlıq, yamanlıq,
Tutardı yerini kamil insanlıq.
Xeyirxah zəhmətdə var böyük hikmət
Ki, Allah eləyir Behiştlik qismət!
Əlhəmdü lillahi Rəbbil aləmin.

## TƏZİM*

***Rəhman və Rəhim Allahın adı ilə***

Cahanlar yaradan, aləmlər quran.
Varlığı xəlq edən və həyan duran.
Düşünən beyinlər, hər canlı qamət
Bir Səndən diləyir rəhim, kəramət.
Dəyişər dövranlar, həyat tərzimiz.
Qalacaq etiqad, təzim, ərzimiz.
Nə bəla gələrsə məhz xəlqinə ilk
Müqəddəs Varında tapar təskinlik.
İnşaallah.
Hər anın hökmünə gətirməyə tab
Hər dildə, dinlərdə Sənədir xitab.
Hər nədən, hər kimdən görsək yamanı
Bir Səndən dilərik möhlət, amanı.
İnşaallah.
Əbədi sahibi bu kainatın,
Ən ali hakimi mövcud həyatın,
Nə qədər səhvləri bağışlayırsan
Ki, tutsun layiqli yerini insan.
Cahanda çox şeyi etsə də tələf,
Yenə də edirsən nəvazişlə əfv.
Yanğınla yanaşıb tövbələrinə,
Qılırsan bir əncam dərdi-sərinə!
Dünyanı böləndən iki sahilə
Etmədin bir ömrə tam müdaxilə
Ki, hədsiz nəfsimiz, hissiyatımız
Süstləşər, canlanmaz bu həyatımız.
Ölçülməz qüdrətin, səlahiyyətin,
Lakin hər təlimi ilahiyatın
Tədbirli, təmkinli qayğınla Sənin
Çevrilir malına hər bir bəndənin.

Həm edir qulluğu uyğun yaşına,
Həm də ki müstəqil qavrayışına.

O, bizi yaşadan, kamilləşdirən,
Hər şeydən xəbərdar, hər sirri bilən
İlk gündən keçirtmir xəlqin sınaqdan,
Bəslənən ümidlər sına nahaqdan.
Hər yetən hikməti dərk eləyərək
İnamla, inadla, şükürlə gərək
Fəzilət, izzətə, hədsiz şəfqətə,
Kəramət, mərhəmət, rəhm, rəhmətə,
Ən gözəl hisslərə, xasiyyətlərə,
Ən ali, ən təmiz ad, sifətlərə
Malik O müqəddəs, xeyirxah və pak
Varlığa, təzimlə sığına idrak!!
Yox Ona bərabər nəzərimizdə,
Ölçüsüz haqqı var üzərimizdə.
Ayıl, ey ağılın bəsirət gözü!
Qavrayıb dərk elə nəhayət düzü.
Çəkilsin şüurun qəflət yuxusu,
Qəlb bilsin nədəndir mövcud qorxusu?!
Bilərək ehtiyat edir çoxumuz,
Onunla bağlıdır bu var-yoxumuz.
Əlində ömrümüz, gələcəyimiz,
Axirət yerində görəcəyimiz.
Körpədən - qocaya, fəhlədən - şaha
Hamının sirdaşı olubdur daha.
Qorxuruq, itirək bu rəğbətini,
Hamilik, qayğısın, məhəbbətini.
Qorxuruq, əvəzsiz dostu itirək,
Bəxtəvər bu cana xələl yetirək.
Bu qorxu yönəldir həm hidayətə,

Həm saleh sığınaq pak şəriətə!
Daima çalışır hey lehimizə,
Səyimiz dönməsin əleyhimizə.
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Bir kəsə istəməz verə cəzanı,
Sevməyir hiyləni, zoru, yalanı!
Bizə bu sevgisi əvəzsiz paydır,
Hikmətlər cəmlənən çox zəngin laydır.
Adillik, amanı həm sayğısıdır,
Hamilik, həyanı həm, qayğısıdır,
Qəlblərin harayın həm anmağıdır,
Köməyə müntəzir dayanmağıdır,
Bərəkət, neməti, kəramətidir,
Mərhəmət rəhmidir həm rəhmətidir!
Həyat bu sevginin möcüzəsidir,
Ecazkar təbiət bir bəhrəsidir.
Onunla bağlanan var-yoxumuzdur,
Sevgisi canımız həm ruhumuzdur.
İnşaallah.
Sözsüz ki, önündə bütün bunların
İmanı, əxlaqı, işi qulların
Sevgisin bildirir, həm o məqalar,
Təmasda bu hissin şükrü tamamlar!
Allaha sevginin dəyərini bil.
Ömrün bu dəyərin zərrəsi deyil.
Yapdığı xilqəti tən tutma Ona.
Əstafurullah.
Körpə tək sığınıb Yer, Göy nuruna!
Gör, bütün canlılar əmanətidir.
Varlığı xəlqinə zəmanətidir.
Salehlik, paklığa məhəbbəti var,

Sevginə pay Onun həm Cənnəti var!!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Bəs nə vaxt ucaldar insan adını,
İlahi, doğruldar etimadını?!
Gərək bu Kürədə vahid ola din,
Hər bəndən təzimlə qazana rəhmin!
Saxlayıb ləyaqət, mənəviyyatı,
Qorumaq naminə mövcud həyatı
Apara durmadan axtarışları
Və ola kamalı bu işdə yarı.
İnşaallah.
Tam bitkin elmdən qurduğu həyat
Hələ çox sehirli, sirlidir heyhat.
Lakin bu aləmdə hər xeyirxah iş
Baş tutar Allaha olsa sitayiş.
Bir Ona səmimi etiqad, təzim
Bəşərdə birliyi eləyər tənzim!
Çünki O, yetirir hər hərəkətin
Adına tam layiq öz bərəkətin.
Cahanda bu qədər edib dəllallıq,
Xaliqdən almasa xəlqi halallıq,
Ruzisi kəsilər, ağır günahı
Min bəla yetirər ona sabahı!
Əlində ömrümüz, aqibətimiz,
Qiyamət günümüz, axirətimiz.
Ucadan ucadır o müqəddəs ad!
Haqq-hesab çəkəndir! Verməz hesabat!
Bir Xaliq, rəğbətin qazanan kəsin
Sağlamlıq nemətin əsirgəməsin.
İnşaallah.
Ey sönməz Günəşi bütün xilqətin,
Adillik, paklığın, haqq-ədalətin.

Nurunla nurlanmış bu kainatda,
Qüsursuz yapdığın kamil həyatda
Günahlar o qədər törədir bəşər,
Qarşısın almasan xeyri basar şər.
İlahi, bağlıyıq kəramətinə,
Möhtacıq rəhminə və rəhmətinə.
Xaliqsən, gözümüz fərağındadır,
Fikrimiz həmişə sorağındadır.
Yedikçə səhvlərin zərb kötəyindən
Körpə tək tuturuq bərk ətəyindən.
Himayən qorusun bizi azardan,
Xatadan, bəladan, mərdimazardan.
Bədnəzər gözlərdən, cadu yazardan.
İlahi, amin.
Bismillahirrəhmanirrəhim...
Və edər imtina köməyindən kim?
Hakimi olduğun ömür möhlətdir,
Mülkündə varlığa ayrılan həddir.
Hər bir can fərqlənir təyinatıyla,
Mənsubluq işiylə, təminatıyla.
Bilinsin dəyəri dəqiq hər zatın,
Çəkək hər itkinin tam hesabatın.
İnşaallah.
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Bu ülvi aləmin məkandır bizə,
Sanındır - nur verən düşüncəmizə.
Dühandır - bəsləyən minlərlə nəsli,
Var ikən, varlığın itərmi əsli?
Altında yeddi qat büllur bələyin
Hər kəsə, hər şeyə yer etdin təyin.
Bir kimsə bacarmaz gizlin, hardasa,

Verdiyin müqəddəs bir ömrü basa.
İlahi, yaşamaq səxavətindir.
Adilsən, ədalət, haqq, niyyətindir.
Çevirib cənnətə bu diyarını
Xəlqinə tapşırdın ixtiyarını
Ki, etsin qayğıyla istifadəsin,
Adınla bağlasın hər ifadəsin.
Himayən zaminsə xəlqin varına
Cüzidir ibadət etibarına.
Əstafurullah.
Lakin hey toplaya şan-şöhrət adı
Sənədir ümidi və etiqadı.
Tükənməz səbrinə sığınıb hər can,
Köməyə möhtacdır yapdığın Cahan.
Daima halisən dərd-sərimizdən,
Əskiltmə nəzəri üzərimizdən.
Hər qəlbin şəfqətli həbibi Sənsən.
Hər dərdin ecazkar təbibi Sənsən.
Bu gündən sağ çıxsaq sabahımıza,
Min şükür! Bir Sənə-Allahımıza.
Əlhəmdü lillahi Rəbbil aləmin.

**Unutmayaq ki**, bir olan Allaha etiqadımız, elmimiz və istedadımızla bağlı əməli işlərimizdən yayılan insaniyətlik nurumuz keyfiyyətcə yüksəlib artmasa lap qızıldan malikanələri və mələklərə xas bir həyatı bizə bəxş etsəydilər, bu dəyərlərin qədrini bilməzdik! Bu, nə yaşayışımızı nə də mövcud münasibətlərimizi dəyiş-məzdi! Çunki, belə bir həyata iddialı olsaq da, hazırda heç bir xüsusiyyətlərimizlə buna layiq deyilik. Əstafurullah.

## ƏRZİMİZ

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey bütün varlığın Banisi, Rəbbi
Həm verən təlimi, ruzi və həbbi.
Ərz edib, tutmamış bərk ətəyindən
Halisən xəlqinin hər istəyindən.
Ən kiçik xoş istək sahibin belə
Bədnəzər gözlərdən daim hifz elə.
İnşaallah.
Hər evin ocağı, çırağı yansın,
Ən şirin istəklər orda canlansın.
İnşaallah.
İstəksiz qazanmaz bir bəndən ad-san.
İstəksiz verilməz ziyafət, ehsan.
İlahi, gündəlik etdiyin kömək
Azdırmı? İstərik daha çox görək!
İstərik edəsən ruzimizi bol
Və ola uğurlu tutduğumuz yol.
İnşaallah.
İstərik xoş olsun güzəranımız
Və uzun ömrümüz, sağlam canımız.
İnşaallah.
İstərik çataq hər niyyətimizə,
Hər işdə olasan Sən dayaq bizə.
İnşaallah.
İstəklər həyata keçərsə az-az,
Ömür tək istəkdən göz qəti doymaz!
İstəklər yaranır zəruriyyətdən,
İstəkdən Cahanı canlandırdın Sən.
İstəklər hər ömrün yaraşığıdır.
Hər işin, əməlin o işığıdır.
Məhz qəti inamla daima Sənin

İradə, hökmünü əməl edənin
Hər bağlı qapını açsan üzünə,
Bilər bu Cahanı cənnət özünə!
Hər Adəm övladı-incidir nadir,
Ölçüsüz imkana, qüdrətə qadir
Olsa da, möhtacdır mərhəmətinə,
Zəfərlər yetirən məhəbbətinə
İnşaallah.
Sayəndə yaşaya yeddi dövrünü,
Xeyriylə bəzəyə mövcud ömrünü.
Kaş insan mənsubluq nurunu yaya,
Yarımçıq işlərin tam tamamlaya!
Doğrulda sərf olan kaş zəhmətləri
İlahi, verdiyin hər nemətləri
İnşaallah.
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin
İlahi, amin.

## AND

***Rəhman və Rəhim Allahın adı ilə***

***Niyyətimiz:*** Allahın önündə and içməklə məsuliyyə - timizi bildirməkdir inşaallah.

Ey ulu Tanrımız, Yaradanımız.
Önündə and içək gərək hamımız!
Çünki hey yaradıb yetirdiklərin,
Atalıq qayğınla pay verdiklərin
Bəşərin zəruri var, nemətidir.
Məhz Sənin varlığın səadətidir!
Ey ağıl verənim, açan gözümü.
Andıqca ətrafı, Səni, özümü,
Dəyilməz varlığa dönür əcdadım,
İnsani amalım, ləyaqət, adım.
Həmi bu varislik canım, qamətim
Bildirir böyükdür məsuliyyətim.
Çünki mən alınca ta son nəfəsi,
Canımın sağdırsa bircə zərrəsi
Kürəndə bir hakim elçinəm, Səni
İrsimdir, yeganə təmsil edəni!
**1.** Əbədi sahibi bu kainatın,
Ən ali hakimi mövcud həyatın.
Ey bizim nümunə, ibrətgahımız
Sənə and içirəm, bir Allahımız!
Haqların-haqqını dərk eləyərək,
Rəzillik mənbəin tərk eləyərək
Sığınıb mərhəmət, kəramətinə,
Canımın imkanı, məharətinə
Çalışım məhz olsun təmiz niyyətim
Həm Sənin önündə, həm cəmiyyətin.
İşimlə göstərim sədaqətimi,
Nəfsimlə basmayım ləyaqətimi!

**2.** Sənə and içirəm, varlığın Rəbbi.
Ey verən təlimi, ruzi və həbbi.
Bu cana nəsiblik hava da, su da,
Hər maddi nemətin, Günün nuru da
Çalışım mənə sərf olmasın əbəs.
Önündə doğruldum alınca nəfəs!
**3.** Çalışım peşəmin məhz sayəsində,
Mövqeyim, xidmətim səviyyəsində
Gərəkli, xeyirxah bir əməyə də.
İnsani borcumu yetirməyə də!
**4.** Basmayım ləyaqət, mənəviyyatı,
İnsan tək qoruyum mövcud həyatı.
Hər yanda səylərim olsun məhsuldar.
Gərəksə qayğımı etməyim inkar!
**5.** Çalışım seçməyə qaradan-ağı,
Əfvini duymağı, bağışlamağı
Və olsun istəyim əməlimlə ərz,
Əyani işimdən Sən alasan həzz!
**6.** Sənin hər tövsiyə-təlimatının
Bəşərə zəruri məlumatının
Çevrilim atəşli bir carçısına,
Ən ali dininin icraçısına
Və olum mübariz, dözümlü, mətin,
Carçısı, dayağı haqq-ədalətin
Ki, yaysın bu haqqı hər ibadətim
Səninlə xəlq olub məhz səadətim!
**7.** Allah, haqq yolunda vardır təmənnam,
İmkan ver, borcumu mən yetirim tam!
Edim ta ömrümü Sənin eşqinə
Həsr pak işlərə, şəriət, dinə.
Bərqərar etməyə hər tədbirini
Et qazı ya şəhid, seçdir birini!

Əlhəmdü lillahi Rəbbil aləmin.
**Zati-Alilərə**
***Rəhman və Rəhim Allahın adı ilə***
**1.** Sənə and içirəm Pərvərdigarım
Ey səcdə qıldığım müqəddəs Varım.
Vətənə, dövlətə, xalqa xidmətim
Hökmünlə olarsa ali qismətim,
Dönər ən müqəddəs amalıma bu.
Nur səpər düşüncə, kamalıma bu.
Qoruyum rahatlıq, dincliyimizi,
Ümumi həmrəylik, birliyimizi.
**2.** Çalışım qanunlar elə sazlansın,
Hər insan hüququ tam tarazlansın.
Dövlətin adillik olsun yarağı
Qorunsun hamının haqqı, marağı.
İlahi, ədalət-haqqınla, bir-bir
Edək hər təlimi bərqərar əlbir,
Canlansın iqtidar yeni sifətdə,
Olmasın bitərəf, müxalifət də!
Firavan yaşayaq zəhmətimizlə,
Sevinək naillik, sərvətimizlə.
**3.** Banisi və Rəbbi bu aləmlərin.
And içdim, yoxsa da şəkk-şübhələrin.
Mənəvi paklığa layiq əxlaqı,
Səxavət, adillik ədalət, haqqı
Cəmləyib özümdə, mərhəmətimlə
Yetim hər haraya səy-zəhmətimlə.
Bərkidim ellərlə əlaqələri,
Güclənsin inam və dostluq telləri.
Vətəndən həm alsın kamını hərə,
Həm qalsın füsünkar o nəsillərə.
İradən açarsa, yol niyyətimə,

Bu andım çevrilər siyasətimə!

**Müqəddəs kitablar önündə şəhadət**
***Rəhman və Rəhim Allahın adı ilə***
Banisi və Rəbbi bu aləmlərin,
Əl basdım yoxsa da şəkk-şübhələrin,
Tam haqqa qulluqdur, təmiz niyyətim
Həm Sənin önündə, həm cəmiyyətin!

**Əbədi ümid yerimiz**
***Rəhman və Rəhim Allahın adı ilə***
Ey, sönməz Günəşi bütün xilqətin,
Adillik paklığın, haqq ədalətin.
Sənsiz-bu ümidlər kimə bağlanar?
Kimi-öz həyanı, dayağı sanar?
Bəşərin vardırmı qeyri dayağı,
Güvənə Varına körpə sayağı?
Köməyi, qayğısı həyanı olsun,
Ömrünün hər anı bir ondan umsun?!
Ey ulu Tanrımız, ulu Yaradan
Təlim və qayğına möhtacıq hər an.
Andıma zidd olsa əməlim, səyim
Münasib tədbir gör və ol köməyim.
Səhvimi seçkimin qəbahəti bil,
Kəramət sahibi, etmə tam zəlil!
Çünki hey möhtacıq mərhəmətinə,
Tükənməz rəhminə və rəhmətinə.
Hər hökmü ədalət naminə yazan
Hamıya əyani dərs olar cəzan!
Bismillahirrəhmanirrəhim
Vəssalamü əleyküm və rəhmətullahi və bərakətuhu…
Əlhəmdü lillahi Rəbbil aləmin...

## II Fəsil

## CAHAN

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Yapmısan neçə min səyyarələri,
Dolansın məramlı dairələri?
Pozmayıb səmtini təyinatını,
Saxlasın mənsubluq yeddi qatını?
Yararsız yaşayış üçün mühiti
Ram edib yaradan bu şəraiti,
Nə qədər vaxt və güc eləmisən sərf,
Ağıla sığmayan təhlükələr dəf?!
Hüdudsuz zülmətin heçliyində Sən
Neçə min Dünyalar peyda etmisən?
Neçə min möhtəşəm Günəş yandırdın?
Neçə min Cahanı Sən canlandırdın?
Neçə min Kürəni sərt şaxtaların,
Kəsərli çovğunun, qarlı layların,
Caynaqlı buzların cəngindən aldın,
Aramla himayən altına saldın?
Yığdırıb cürbəcür bol sərvətlərin,
Bəsləyib yaşatdın təbiətlərin!
Neçə min varlıqlar yapdın misilsiz?
Əvəzsiz incidir, dilli ya dilsiz.
Hər biri sığınıb Yaradanına,
Qulluğu eləyir öz məkanına.
Cahandır varlığa yeganə Vətən,
Varsa da hüsnünə kainatda tən.
Dühanla canlanıb canlılar kimi,
Çox nəhəng olsa da duyur hər himi.

Çevirdin cənnətə səthini bütün,
Varlığa münasib bir həyat üçün
Ki, gözəl, ecazkar siması Yerin,
Səfalı suları, havası Yerin
Hər canı yaşatsın nəvazişilə,
Hər biri yarasın ona işilə!
Duyaraq ləzzətin abı-havasın,
Həyatın dəyərin, ömrün mənasın
Hər biri yaşasın yeddi dövrünü,
Xeyrilə bəzəsin ötən ömrünü.
İnşaallah

Önündə kainat, zaman çöküb diz.
Hər bir güc sahibi mütidir şəksiz!
Zülmətlə, Günəşi qoydun üz-üzə,
Böldürdün vaxtı tən gecə, gündüzə.
Mirvari anlardan yığaraq ili,
Fəsillər yaratdın əcəb sehirli.
Hər biri mülkünü bəzər rəngiylə,
Saxlayıb dövrünü öz ahəngiylə
Göstərir müstəsna ləyaqətini,
Cahanın yaşadır təbiətini.
İlahi, nələri hopdurdun Yerə,
Müxtəlif ətir, rəng və bar yetirə?
Əbədi qalanlar həsrət işığa
Sayəndə çatmışlar bu yaraşığa!

Ötsə də zamanda saysız əsrlər,
Bir Sənə bəllidir həyati sirlər.
Qavramaq Cahanı yaratdığın tək,
Hesabsız zəkanın əməyi gərək.
Hər qurğun kamillik möcüzəsidir.

İdrakın ən yetkin nümunəsidir.
Hikmətin hər şeydə mövcuddur lay-lay.
Hər zərrən sərvətdir, tükənməz bir pay.
Hər şeyin tərkibi həcminə uyğun
Zəngin güc, qüvvəni saxlayır durğun.
Gərəksə salırsan haldan hallara,
Mövcud güc-qüvvəsi hey gəlsin kara.
Hər biri həyatın açır bir üzün.
Hər şeyin yapmısan gecə-gündüzün
Özünə münasib zənginliyilə,
Şüura sığmayan ənginliyilə.
İlahi, büsbütün bu varlığı Sən
Dövrün bir qismilə təmin edirsən.
Qüdrətin ölçülməz, təsvir edilməz,
Xəlqinin yolunda maneə bilməz.
Hamının səadət gətirənisən,
Gündəlik ruzisin yetirənisən.
Adınla bağlıdır zəfərlərimiz
İmdada yetirsən büdrəyəndə biz.
Əlhəmdü lillahi Rəbbil aləmin.
Qapalı dövrəndə hər mübadilən
Kürədə saxlayır tarazlığı tən.
Çevrilir vaxtında nə isə nəyə,
Hasili yetirməz ziyan Kürəyə.
Hər şey bir-birinə edir xidməti.
Bundadır həyatın əsl hikməti.
Hər canlı gücünün bir carçısıdır,
İradə, hökmünün icraçısıdır!
Torpaq, su, hava, od sərvətin Allah
Cahanı cənnətə çevirmiş vallah.
Olmasa biri bu amillərindən,
Əskilməz tələfat aləmlərindən.

Zaminlər varlığın libasına da,
Cismani sağlığın qidasına da.
Yapılmış canlılar onların dən-dən
Seçilmiş ən təmiz zərrələrindən.
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Qərar və hökmünə sədd yox heç yanda.
Burda həm neçə min sirli Dunyanda
Həyatı yaradıb bitkin elmdən,
Elmi tam qoyaraq xidmətinə, Sən
Əsası etmisən bütün işlərin,
Həyatı-banisi yüksəlişlərin.
Tərəqqi və helmin qoydun təməlin,
Hər səyyin məntiqlə o edə həllin;
Dünənin ən yaxşı əməli, hissi
Yüksəlib sayıla bu günün pisi!
İnşaallah.
Tükənməz səbrinə sığınıb Kürə.
İlahi, qoyma bir fəlakət görə.
Kürələr saysızdır, Kürəm-əvəzsiz.
Nəsibdir bizlərə, əzizdir-əziz!
İlahi, yaşadan odur xilqəti,
Həm onun xilqətdir sərvət - neməti!
Həyat bir ayəndir, bənzər xitaba,
Hikmətlər şərh edən kamil kitaba.
Onda tam təsirin açır bu Kahan,
Ecazkar Kainat, füsunkar Cahan.
Hər canın həkk olub onda niyyəti,
Taleyi - qüdrəti, səlahiyyəti.
Onda bər-qərardır hər nemətimiz,
Bağlasan puç olar aqibətimiz.
Bir vaxtlar duyacaq cəmi bəşərin,
Həyatın mənasın, ömrün dəyərin!
İnşaallah.

# İNSAN

***Rəhman və Rəhim Allahın adı ilə***

Əbədi sahibi bu kainatın,
Ən ali hakimi mövcüd həyatın.
Altı gün bu Yerə, Mavi tavana,
Bir gün də sərf etdin Adəm Həvvana?
Yeddi gün ərzində yapdın Dünyanı,
Hər sirri eləyir valeh duyanı!
O Səndən səy, zəhmət çox edib tələb,
Hey fitri istedad, görünməyən təb?!
Neçə min illərsə Sənin bir anın,
Nə qədər tədqiqat görmüş məkanın?!
Cənnətə dönüncə Kürənin səthi,
Çəkdiyin zəhmətin ölçülməz qəti.
Sıxdırıb yaratdın Yerin qatların,
Həyatın yığdırıb ehtiyatların
Düşünüb minlərlə can növü tapdın,
Cahana gətirtdin, dirçəliş yapdın.
Mənəvi həm maddi təminatıyla,
Müstəqil həm azad xoş həyatıyla.
Əsasən Günəşdən qidalananlar,
Qüsursuz həyatdan kamın alanlar
Yaşayıb çox ciddi nəzarətində,
Günahsız idilər bu Cənnətində.
Əlhəmdü lillahi Rəbbil aləmin.
Verdikçə canlara asudəlik tam,
Davranış, ünsiyyət dəyişdi tamam?
Pozuldu əvvəlki hər intizamı,
Sərbəstlik lap alt-üst etdi nizamı?
Bəlalar artdıqca təsadüflərdən
Həyati qanunlar gedirdi əldən?
Təsadüf canları etdikcə şikar

Əsas Gün qidası olundu inkar?
Təsadüf çevirdi yemə hamını,
Can-canın duyduqca mövcüd tamını?
Təsadüf artırmış tələbatları?
Təsadüf pozmuşdur dinc həyatları?
Təsadüf əlindən gedirdi bada
Qanadsız uçanlar bir vaxt səmada?
Yırtdıqca pəncələr, caynaqlar, dişlər
Canları dəyişdi yeni vərdişlər?
Təsadüf doğurub zəruriyyəti?
Təsiri sarsıdıb bu təbiəti?
Etdi tam sərbəstlik günlərin qara,
Məsumlar döndülər yırtıcılara?!
Əstafurullah.
Bilərək hər canın aqibətini
Və şəxsi keyfiyyət, ləyaqətini.
Görərək məhv edir güclü, gücsüzü.
Nahaq qan tökülür gecə, gündüzü.
Aləmi bürümüş hədsiz zor, hiylə.
Didişir canlılar biri-birilə.
Sərbəstlik çaşdırmış elə canları,
Hər anı izləyir ölüm onları.
Yoxdur! Yox cavabdeh Yer kürəsinə.
Hər canı bağlayan iradəsinə.
Yox-edən bərqərar haqq-ədaləti.
Yox-çəkən önündə məsuliyyəti!
Çırpışan yaşamaq, yemək naminə
Cahanı götürməz şəxsi zaminə.
Bu Kürə olandan sınaq meydanı,
Talelər məruzdur buna hər anı.
Ehtiyac duyaraq yeni bir cana
Ki, etsin nəzarət daim Cahana.

Yerin hər qatının bilsin tərkibin.
Qüdrəti ram etsin suların dibin!
Hər mövcud mühiti məhz doğma duya.
Dəryada, quruda olan canlıya
Məhəbbət, qayğısın əsirgəməsin,
Dilindən salmasın Allah kəlməsin!
Hər canlı dilini bilsin mükəmməl,
Hökmünü anlayıb etsinlər əməl.
Ünsiyyət yaratsın, olsun ilbəil
Tam kamil, tam qadir, bir hakim adil.
Hər qaynar nöqtədən gəlsin sorağı,
Hər yanda O, haqqın olsun dayağı.
Məhz əmin-amanlıq xəlqə yetirsin
Və Sənə dönüşsüz iman gətirsin!
Hər candan daha çox qulluğu ola.
İradə, hökmünə tam sadiq qala.
Göstərə mətanət, dəyanətini,
Sarsılmaz inamın, itaətini
Xəlifən - dinində olanlarına
Elçin tək - rifahın quranlarına!
O, Yerdə Behiştlik yarada, qura,
İnsani qayğıyla qulluqda dura.
Doğrulda önündə etimadını,
Səcdəsi qoruya şərəf, adını.
İnşaallah.
Mənəvi sığınıb kəramətinə,
Möhkəm bel bağlayıb mərhəmətinə
Götürə boynuna ən ağır işi,
Aramla dəyişə bu dirçəlişi,
Qarışa hər canın o, iqbalına,
Son qoya qorxulu qalmaqalına.
Düzgün baş çıxarıb əhatəsindən,

Məhz ali məqsədin tam öhdəsindən
Gəlməklə, daimi olsun imanın!
Bu niyyət, yapdırdı cismin İnsanın.
Şükür məsləhətinə.
Cahanda rəsulu olan Allahın,
Sahibi-hər yeni dövrün, sabahın.
Ölçüsüz qüdrətə həm qadir olan,
Həm kamil can ikən Tanrıdan uman
İnsana, qorxmadan bu diyarında
Vermisən hər şeyin ixtiyarın da.
Kürənin güvənib bol sərvətinə,
Və Sənin əskilməz səxavətinə,
Yetirsin yerinə vəzifəsini,
Cahanda istəyin tapsın əksini
Və olsun sahibi elə dövranın,
Sayılsın ən gözəl dövrü zamanın!
Bir ali sakini kimi həyatın
Törəsin, qorusun əbədiyyatın!
Çoxalıb artdıqca nəslinin sayı
Hər yanda, hamıya çatsın harayı.
Ümumi səylərin cəmiylə ancaq
Bərqərar oluna buyurduğun haqq!
İlahi, qoymadın Adəmini tək.
Buyurdun, məhz ona etsinlər kömək
Müqəddəs və ulu Nur mələkləri:-
Həzrəti Cəbrayıl əleyhissəlam,
Həzrəti İsrafil əleyhissəlam,
Həzrəti Mikayıl əleyhissəlam,
Həzrəti Əzrail əleyhissəlam,
Bu çətin işində bütün günləri
Hər mələk hökmünə müntəzir dursun.
O, Yerdə qüsursuz dövranı qursun!
Heç nədən etmədin məhrum insanı

Ki, onun tükənməz olsun imkanı.
Çünki bu məqsədə zəhmətlə yetər.
Zəhmətsiz naillik qorunmaz, itər!
Dəryada, quruda, havada əsl
Xaliqin eləsin varlığı təmsil.
Günəşə bənzəsin əməllərilə,
Dəyişsin aləmi hünərlərilə!
İnşaallah.

**Xüsusiyyətlər**

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey ulu Tanrımız, ey Pərvərdigar,
Sənə tən, müqəddəs, pak kimimiz var?!
Sənsən həm yaşadan, kamilləşdirən,
Ən yüksək kürsüdə həm əyləşdirən.
Bəşərin açılır bəsirət gözü,
Sayəndə qavrayır nəhayət düzü,
İnsanlıq hamının məhz nemətidir,
Saçdığı nurudur, qiyafətidir!
İnsanın görünməz tən hissəsidir.
Keyfiyyət, dəyərin silsiləsidir.
Göstərən müxtəlif xasiyyətlərin,
Şüurun, mərifət-əxlaq hisslərin,
Bacarıq, düşüncə, qavrayışını,
İstedad, elmini, davranışını.
Bildirən mənsubluq güc-imkanını
Həm canın yaşadan, həm məkanını!
Bu vergi hər canın hədsiz nəfidir,
Göyün də, Yerin də o, əşrəfidir!
Məhsulu olsaq da zəruriyyətin
Verib bu görkəmi məhz mərhəmətin.
Torpağın sehirli dərin qatından,
Varlıqlar mayası ehtiyatından
Götürüb, yoğurub yapdın insanı,

O gündən daimi oldun həyanı!
**Vermisən helmini***- layiq ömrünə.
**Təfəkkür** - yovuşsun keçid dövrünə.
Həm **həlim, mülayim mədəniyyəti,**
Həm yüksək **mərifət, səlahiyyəti,**
Sığınıb tövsiyə, təlimatına,
Çox ciddi yanaşsın təyinatına!
Günəşdən aldıqca əsas qidanı
Cahanı rəmz etsin xırdaca canı.
**Ruh verdin** - qovuşsun əbədiyyata,
Biganə olmasın cari həyata!
**Nitqini** - ünsiyyət, əlaqə qursun.
**Ürəyi** - duyğular ondan yoğrulsun.
Vermisən dil, burun, göz, qulaq və əl,
Etsin hiss duyğusun ürək, beyin həll.
Bu yeddi üzvünün həssaslığıyla
Hər bir şey qavransın tam varlığıyla!
Vermisən elə bir **məhəbbət, sevgi**,
Qalsın hər canlının **qayğısına** ki,
Yapılsın əlilə, ülvi niyyətin
Və çəksin Cahanın məsuliyyətin!
Vermisən ən **həssas hissi, duyğunu**,
**Yanğınlı ünsiyyət** sevdirsin onu,
Ən gözəl qaməti, **ahəngdar səsi**,
Ürküsüz anlana hər iradəsi!
**Ağılı** - dərk etsin əhatəsini.
**Yaddaşı** - həkk etsin nəticəsini.
**Təmkinlik** - cəmləsin qüvvət, səyini.
**Düşüncə** - qurmağa gələcəyini.
**Zəka** ki, qavrasın ətrafını tam.
**İdrak** ki, eləsin aləmini ram.
Elə bir **iradə** - hisslərə hakim.

**Həssaslıq** - nəzərdən yayınmasın him.
**Nikbinlik** - həyatı müqəddəs bilsin.
**Nəzakət** - ürəkdə oyanmasın kin.
**Cəsarət** - güvvənsin qadirliyinə.
**Hünər** - don geydirsin adiliyinə,
Göstərə daxili məxsus imkanın.
Yaşada **qeyrətin, namusun** canın.
**Səxavət** - bərkitsin səlahiyyətin.
**Mərhəmət** - yetirsin ilahiyatın.
**Sədaqət** - dönməsin O, Allahından!
**Mətanət** - hey etsin qulluğunu can.
**Qətiyyət** - inansın əqidəsinə.
**Ciddiyyət** - yol açsın iradəsinə.
**Fərasət** - çıxmağa hər çətinlikdən.
**Qüdrətin** - yoğurdun gücdən, bilikdən.
**Nəciblik** - istəyib, əzizləməyə.
**Qayğını** - hər canı məhz izləməyə.
**İnadı** - artırsın təcrübəsini,
Fəth etsin amalın son pilləsini.
**Nəzəri** - götürsün gördüklərindən.
**Əlləri** - duymağa varı dərindən.
**Kamillik** - anlayıb mahiyyətini,
Şahı tək qorusun təbiətini!
**Rəşadət** - göstərə inam, sevgisin!
**Qabillik** - etməyə etimadı çin.
**Dəyanət** - yetirə vəzifəsini.
**İnamı** - artıra güc, qüvvəsini.
Varlığı eləsin həm dörd aləmin
**Qadirlik** gücünün birliyin təmin!
Yaşadıb üçlüyün ənənəsini,
Yarada dördlüyün təntənəsini!
**Ədalət** - qorusun haqqı hər yanda.

**Adillik** - hər cana olsun həyan da.
**Səbrini** - gözləsin, həm də dinləsin,
Vaxtında **məsləhət**, **kömək** eləsin.
**Ləyaqət** - basmaya insaniyyətin.
**Əzəmət** - ucaltsın Yerdə surətin.
Tanınsın **xəlifən, rəsulun** kimi
Həm təmsil etdirsin **Ali hakimi**.
**Mərifət -** bəzəyə **əxlaq-kamalın**.
**Vicdanı -** danmaya **haqqın-amalın**.
Hər qəlbin **şəfqətli həbibi** ola.
Hər dərdin **ecazkar təbibi** ola.
Günəşə bənzəyə **əməllərilə,**
Dəyişə aləmi **hünərlərilə**
Və ola sahibi elə bir ömrün
**Min illər idarə** edə hər dövrün!
**Nəzər**
***Rəhman və Rəhim Allahın adı ilə***
Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
Rəngarəng geyimli sirli Cahanda
Dəhşətli ölümlər olduğu anda,
Pəncələr, caynaqlar edəndə tələf.
Yayanda vahimə, qorxu hər tərəf,
Bəlalı xəlqinə bir həyan tapdın.
Kamil və qüdrətli insanı yapdın
Ki, olsun hər cana, gərəksə dayaq.
O, təmsil etdiyin ali sayaraq,
Yırtıcı canlarla dursun üz-üzə,
Uzatsın əlini hər ümidsizə!
Zirehsiz, kamil can, adi bir bədən,
Ən nəcib duyğular biruzə verən,
Çox məftun baxışla, xoş görkəmiylə

Vəzifə borcunu yetirən, elə
Uyuşdu dövrana zərər çəkmədən.
Zirehsiz, kamil can, adi bir bədən.
Hər yanda ədalət, haqqı qoruyan
Cahanda olmayıb silahsız bir an!
Xaliqin verdiyi zəhimli silah,
İnsanı hər şeydən qoruyub vallah.
Mülayim, mehriban görünən nəzər
Gah dönər məlhəmə, gah canı üzər!
Gərəksə, gözündən şimşək çaxardı,
İtaət etməyən alovlanardı!
İlahi, insanın ilkin nəzəri
Söndükçə çoxalıb hər dərdi-səri.
Lakin tam itməyib, deyilir hələ:-
Bədnəzər gözlərdən bizi hifz elə!
İlahi, adına layiq insanın,
Cahana yeganə zamin olanın,
Görəsən, nə üçün anlayışına
Marağı, gətirdi nələr başına?
Ən hakim qüvvədən alçaldıb an-an
Etdi tam asılı öz məkanından.

**Təkamül**

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey bütün bəşərin ümid, pənahı,
Bilən dərd-sərini, yuyan günahı.
Hər nədən, hər kimdən görsək yamanı
Bir Səndən diləriк möhlət, amanı!
İlk insan meyvəyə salandan tamah,
Çevirdi Yeri yem mənbəyinə, ah
Hər meyvə tamından çəkisi artdı.
Bu, yeni görkəmə keçid yaratdı.
Döndərib səmtindən ilkin həyatın,

Sarsıtdı insani mənəviyyatın.
Fəth edib qidanın yeni növünü,
Tədricən gödəltdi məxsus ömrünü.
Ən qorxunc amillə gəldi üz-üzə!
Qüdrətin, qayğını verdi biruzə,
Təkamül edildi ciddi idarə,
Qoymadın çevrilək eybəcərlərə!!
İtdikçə verdiyin nailiyyətlər,
Yarandı səhvlərdən məhz ziddiyyətlər.
Basdıqca haqları mənafeyimiz,
Çox qorxunc qüvvəni yapıb beynimiz
Çevirdi timsalın ölməz Şeytana*.
Odur ki, insandan qaçmaz heç yana.
Ağılda yer tutar, əməldə olar.
Qanıdır, canıdır onun günahlar!
Nifaqlar böyüdür qida mənbəyin,
Qırğınlar köpdürür çirkin cəmdəyin!
Yığılan səhvlərdən fəlakət yapır,
İradə qırılır, ağıllar sapır.
Odlanır toruna düşən, düşməyən.
Ondan hey ziyandır Cahana dəyən.
Dövranlar görübdür məharətini.
Bəşərin mənəvi hey qarətini.
Allah, bu bəd nəfsin qorxunc cəngindən
Qəribə yapdın son qurtuluşu Sən.
Nə qədər iz salsa əhatəsinə
İnsanda dirçəlib, onunla yenə
Tərk edir cismani məkanını o.
İtirir gücünü, imkanını o.
Yəni o əqidən, kamil idrakın,
Yenidən yaradır hər şeyin pakın.
İnamın - dönürsə ömrünə varın,

İnadın - artırır saf duyğuların.
Hər hansı mühitə gətirdiyin pak,
Münasib şüuru, qabillik, idrak
Götürüb o qədər kamilləşir ki,
Önündə xidmətdə azalır çirki!
İlahi, bəşərin günahlar çulu
Bəlkə də Şeytanın deyil məhsulu?
Müqəssir odur ya təqsirlər bizdə,
Nəfsdən törənən əməlimizdə?!
Bəlkə O, Adəmin təqdimatında
Sərt açmış duyduğu təfsilatın da?
- Tam nurdan bizik, o, nəm, soyuq gildən.
Mələklə bərabər olmaz ət bədən!
Və etdi tən ona olduğun inkar.
Bəlkə bu dövrünü edibdir izhar?!
Hələ yox bu xəbis hissiyatlardan
Tam azad olmağa münasib dövran!
Adıyla bağlarıq hər günahı biz,
Təskinlik yetirə cəhalətimiz.
Ədalət naminə yerin tutsa haqq,
Görəsən, insana olmazmı dayaq?
O, Sənin hökmünü həm öz buyruğun
Yetirir əzmlə hər kəsə uyğun.
O, Yerə Adəmlə gəlməyib əbəs.
Əbədi bu həyat naminədir bəhs!
Şeytanı təqsirkar günahımızla
Etmərik, yaşasaq Allahımızla!
İnşaallah
Nəfsdən törənən şeytana lənət!!
Qoymaz ki, qazanaq layiqli rəhmət.
Hər dövrə vəba tək dərd yükləyəndir,
Hər mənfur işlərə sürükləyəndir!

Allah, pis yollara çəkən səbəblər,
Haqsızlıq, pozğunluq dirçəldən dəblər
İnadlı səyinlə tərk etsə bizi,
Görməzsən nalayiq əməlimizi.
Vəhyinin qavrasaq hər tövsiyəsin,
Tapsa hər qanunda təlimin əksin
Bu tədbir bərkidər iradəmizi,
Qoymarıq dirçələ bir natəmizi!
Doğruldub əvəzsiz etimadını
Bir daha alçaltmaz insan adını.
İnşaallah
Lakin hey duyacaq varlığın Tacı
Kəramət, rəhminə məhz ehtiyacı.
Dövranlar qursa da, azalmaz giley.
O, qabil qüdrətdən itirmiş üç şey;
Bu qısa ömrüylə olarmı insan
Tam kamil, tam qadir və tam hökmran?
Ən uzun bir ömrü Sən vermişdin pay.
Hanı bəs Adəmə aramızda tay?
Getdikçə günaha qurşansaq belə
Ömrümüz tən olar on-on beş ilə.
Günəşdən almasaq əsas qidanı
Hələ çox tökərik günahsız qanı.
Aləmlər görəcək fəlakətləri,
İnsana nalayiq hərəkətləri.
Əstafurullah.
Daim yük düşərsə ayağımıza
Ümid yox bir daha uçmağımıza.
İlahi, Sən yetir qurtuluş bizə,
Ən böyük pay olsun gənc nəslimizə!
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin.

## RUHLAR

***Rəhman və Rəhim Allahın adı ilə***

Qüsursuz varlığı yaradan Dahi,
O uzun ömrümüz hanı, İlahi?
Hanı min illərlə yaşayan insan,
Tam kamil qüdrətə malik olan can?!
Əbədi bir ruhu, saxlarıq ani,
Cahanı sayırıq doğma həm fani.
Kövrəksə canımız xalis simuzər.
İradə almazdır, qanımız gövhər.
Bənzərik zahirən buludlara çox,
Aləmdə görünüb gah oluruq yox.
Misilsiz kamillik əşrəfi, bir dürr,
Ruhuyla keçirir çox qısa ömür.
Həyatın olsa da ruhlar özülü,
Varlıqdır füsunkar bəzəyi, gülü.
Cismani sağlığa baissə o ləl,
Qadirlik gücünə can olur təməl.
Hər biri gücünün bir carçısıdır,
İradə, hökmünün icraçısıdır.
Yoxdur, yox dirçələn ruhsuz həyatda!
O, olur qəlibdə ya ehtiyatda.
Kamillik, qadirlik məhsuldur o.
Hər yeni bir canda məhz uludur o!
Görünməz camalın vaxt da qocaltmaz.
Qərarın olmasa o, canı atmaz!
Əvəzsiz vergidir, hər müstəsna ad
Olmazmı verdiyin hədiyyənə şad?
Cismani sayılsa, canda hallanar.
Gah düşər yurduna səyyar dolanar.
Tabesiz varıdır Cahanımızın.
Yenilməz gücüdür hər anımızın!

Odur bu Cahanın əsl varisi
Çünki o, yaşadır əbədi irsi.
Olsa da tam üzvü mövcud canların,
Onu ram etməmiş biz insanların.
Təcrübə yığımı zaman-zamandır.
Varlıqdır, varlığı canlandırandır.
Hər ruhun müstəsna məxsus işi var,
İradə-hökmündən çıxmazlar kənar!
Əlhəmdü lillahi Rəbbil aləmin.

Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
Biz ruhi aləmlə bağlıyıq bərk-bərk,
Ağlımız birliyi az eləyir dərk.
Təsadüf sayırıq dəyişsək rəyi,
Duymuruq var bunda ruhların səyi.
Sezilir məkanı əhatəmizdə,
Çək-çevir edilir əməlimiz də.
Yazılır büsbütün xeyir-şərimiz,
Çıxartsın hökmünü əməllərimiz
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində.
Hökmünlə yoxlanır hər ömrün xətti,
Gərəksə, tərk edir o can Cənnəti*.
Gərəksə qorunur təhlükələrdən,
Seçdiyin cəzanı verirlər, hərdən
Ruh keçir təyinli axirətinə,
Salehlər cəlb olur işinə yenə!
Paklığı bir daha verir imkanı
Pişvazın eləsin doğma məkanı.
Bu aləm hər ruha böyük töhfəndir,
Rəhmətin qazanmaq məhz buna təndir!

Allahın adillik qüdrətidir bu,
Həyatın inkişaf sürətidir bu!
İnşaallah.
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı!
Ruhlara versən də gen səlahiyyət,
Tükənməz deyildir, var qoyduğun hədd.
Yayınmaz gözündən qəbahətləri,
Cəzasız qalmayır səhv cəhətləri.
Neçə min illərə tənsə bir anının,
Neçə gün möhləti olur cəzanın?!
Gör, necə xəcalət çəkir nəsillər,
Nəfsinə qapanıb düşən əsirlər?!
Girifdar olublar dözülməz dərdə
Əməllər etdikcə qazancın əldə.
Zalımlıq hissinin anı canların
Əbədi bəlası olur ruhların.
İlahi, bu vacib əməliyyatın
Meyarı deyilmi ən dinc həyatın?!
Yer dönə cənnətə amanlıqda, ilk
Qoynunda canlana yeni Behiştlik?!

**Mülahizələr**
***Rəhman və Rəhim Allahın adı ilə***
Ey kamil Dunyanı quran, Banisi.
İstedad, idrakın mütləq Dahisi.
Yapmışsa canı od, torpaq, su, hava,
Bu birlik itkisin bilmədin rəva.
Torpağa həvalə olan canların
Çox sirli qurmusan son iqbalların.
Onurğa sütunun ilk düyünündə
Saxlayıb hər canın rüşeymin də.

Özlərin salırsan haldan hallara,
Yetsin güc-qüvvəsi daima kara.
Cismindən ayrılan maddələr an-an
Süzülüb torpağın damarlarından
Yığılır müstəsna, məhdud laylara,
Cəhənnəm qatları sayılır ora.
Görünməz, sehirli o aləmdə məhz
Vaxt, təzyiq, hərarət qalır dəyişməz.
Bu yüksək hərarət, təzyiqli qurğun,
İşgüzar olsa da durğundur, durğun!
Cahanlar yaradan, aləmlər quran,
Hökmünlə oranın rəisi olan
Çox ciddi nəzarət edir qatlara,
Fəryadlar qoparan təlx ovqatlara.
Həm də o, halidir tam günahlardan.
Münasib hesabat alır ruhlardan.
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində.
Varlığın mayasın yoğurdur, yenə
Ruh versən, dirçəlsin yapdığın hər nə!
Əlhəmdü lillahi Rəbbil aləmin.

**Gəlmələr**
***Rəhman və Rəhim Allahın adı ilə***
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Axı nə aparır bu Yerdən görən
Kainat dəryasın keçərək gələn?
Yox gözü nə maddi nemətlərində
Nə də ki, qiymətli sərvətlərində.
Bəlkə bu Cahana gətirir pənah?
Vətənin fəlakət bürümüş? Allah,

Naməlum qalırsa əgər gəlişi,
Məqsədi, niyyəti, gördüyü işi,
Bu yüksək elmli məxluqun, demək,
Ən kamil ruhlara göz dikibdir tək?
Misilsiz nemətlə eləsin zatın
Əbədi sakini hər kainatın?!

**Yuxu**

***Rəhman və Rəhim Allahın adı ilə***

Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Sənin hər aləmə nəzarətin var.
Himayən və qayğın birliyin saxlar.
Aləmlər vəhdətsə iş birliyilə,
Hər biri cəlb edir sehirliyilə.
İlkindən zəruri bilərək bunu,
Hər cana məcburi verdin yuxunu.
Xəlq olan xilqətin, qərinələrin
Qurmusan zərərsiz əlaqələrin.
Hər ömrün ödəyib tələbatını
Yapmısan yeddinci* təminatını.
Sorğusuz tabeyik bu iradənə!
Hikmətlər cəmləyən xoş ifadənə.
Məhz yeddi məqsədi eyni bir anda
Güdən həm və icrasın edən hər canda
**1.** Yuxudur! Dəyərdən, təsirdən kənar.
Gərəksə, hər bir an onda canlanar.
**2.** Əvəzsiz məlhəmdir sağlığa yuxu,
Naminə qoyuruq girov var-yoxu,
Bilək, var sərvətə, ömrə nəzarət,
İstəsə qaytarar ya edər qarət!!
Şükür məsləhətinə.

Möhlətdir, silkinə can keçmişindən,
Pak, saleh yapışa qalmış işindən.
Əlində ömrümüz, aqibətimiz,
Qiyamət günümüz, axirətimiz.
**3.** Gücünü duymayan varmı Cahanda?
Dincliyi bərqərar o, edir canda.
Sinirlər düşəndə fəaliyyətdən,
Varlıq əl çəkəndə nailiyyətdən
Elə bərk sığınır hamiliyinə
Ki, rahat dincəlsin, dirçəlsin yenə!
**4.** Can, cari anından olarsa agah
Ruh, ruhi aləmə aparmaz pənah.
Görüşməz həmkarı, əzizləriylə,
Bölüşməz sevinci, dərdi-səriylə.
Olunmaz xəbərdar gələcəyindən.
O, nələr həyatda görəcəyindən.
Bilməsə qorumaz yaratdığını,
Hökmünlə böyüdüb, yaşatdığını.
Qorunur hər canda ruhun vərdişi,
Əbədi idarə olunsun işi.
**5.** Günahın olubsa ya meylin varsa,
Niyyətin yuxunu qarışdırarsa
Səksənək qalxırsan yerindən yaman,
Allahdan dilərsən o saat aman!
Düşün bir, neçə min illərdir anı,
Məhkuma neçə gün verir cəzanı?!
Ruhunda qorxuya yox bir anlıq tab.
Qadirmi əbədi çəkməyə əzab?
Bu zəhm yaddaşa yeridilir, bil,
Cəhənnəm aləmi uydurma deyil!
Ruh canın çəkirsə əziyyətini,
İstəməz korlasın vəziyyətini.

**6.** Qurubdur bir dövrə iki aləmdən,
Ruh sərbəst olur, gah bir cana həmdəm.
Hər keçid anı ya ərəfəsində,
İnciklik, şikayət olur səsində.
Ayrılmaq istəmir vərdişlərindən,
O, mövcud aləmdə öz işlərindən.
Yerini tutduqca yazdığı tale,
Aləmi hər ruhu eləyir valeh!
Yuxumuz, qapalı dövrədə qərəz
Yapdığı həyata təminatdır məhz!
**7.** İlahi, yuxuyla aləmlərə Sən
Sehirli bəndlərdən keçid çəkmisən.
Əsaslı yapdığın keçid bağlanmaz,
Aləmlər arası o, işləyir saz.
Yox onu pozmağa bir canın həddi!
Tək keçər, qayıdar ruhlar sərhəddi.
Cismani get-gəliş olsaydı ora
O ülvi aləmin düşərdi tora.
Qalmazdı əlamət təmizliyindən,
Olardı cismani aləminə tən.
Şükür ki, əvəzsiz Hakimsən, varsan.
Hər canı keçiddə huşsuz saxlarsan!
Şükür məsləhətinə.
Mərhəmət göstərib verəndən ağlı
Ən kamil canlarıq ruh ilə bağlı.
Bu mövcud aləmlər görməsin bəla,
Yaradıb qurduğun əbədi qala,
Ani də buraxma nəzarətindən,
Cismani və səyyar hər ruhunu Sən.
İnsana ilk hədsiz nəvazişlərin
İndi çox çətinə salıb işlərin.
Həm maddi kasıbıq, mənəvi yoxsul,

Cəhalət edəndən varımızı qul,
Dərd hopub hər canın yeddi qatına,
Kim qalır üzü ağ hesabatına?!
İnşaallah.
Ruhları etdikçə tərəqqi valeh,
Zəkalar ucaldır təəssüflər, eh
Ağıllar məhsulu, əsəblər qıza,
Qadirdi son qoya həyatımıza!
Kim bizi bizdən çox olub çaşdıran?
Fəlakət gününü yaxınlaşdıran?
Fəlakət seçməyir yaxşını-pisi,
Amansız məhv edir hər cinsi-irsi!
Mənəvi və maddi o çəkər dağı,
Ölçülməz ziyanın ucu-bucağı.
Göz yumsaq olana-olacaqlara
Bəşərin sığınar pir-ocaqlara.
Allah göstərməsin!
Bismillahirrəhmanirrəhim,
Əlhəmdü lillahi Rəbbil aləmin...
Kimi, kim yaşadır ixtiyarınla?
Taleyi yazılır Ruhi varınla?
Kimə, kim olunur hökmünlə sirdaş?
Kimdə, kim oyadır zəruri yaddaş?
Kimin, kim artırır nadir helmini?
Kimdən, kim varislik alır elmini?
İlahi, məsləhət Sənindir, Sənin.
İtaət borcudur ruhun, bəndənin!
Kamillik, qadirlik qüdrətidir bu,
Həyatın inkişaf sürətidir bu.
Əlhəmdü lillahi Rəbbil aləmin...

## BƏŞƏR

**Əhatəmiz**

***Rəhman və Rəhim Allahın adı ilə***

Əbədi sahibi bu kainatın,
Ən ali hakimi mövcud həyatın.
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Cahanda göstərir hər möcüzən də
Qadirlik gücünü qoşub-düzəndə.
Bilirik, hökmündən bir qüvvə çıxmaz,
Tufanlar ya sellər dağıtmaz, yıxmaz!
Şimşəkdən nə yanmaz meşələr, evlər,
Olmaz nə püskürmə, nə zəlzələlər!
İnşaallah
Sayəndə bu canlı, zəngin sərvəti,
Ecazkar, ahəngdar, saf təbiəti
Məhz həcmi, tərkibi belə dəryalar
Üfunət, çirkabın cəngindən alar.
Bunların mənasın qavrasa bəşər
Sənə və aləmə hissin dəyişər.
Vurmazdı zərərlər təbiətinə,
Düşməzdi ifliclik vəziyyətinə.
Həyati qanunlar olunmaz əvəz,
Bu Cahan xəyanət, rəqabət sevməz.
Məhz həyat mənbəyi Günəş yanırsa,
Nurundan canlılar xumarlanırsa
Kürəndə saxlayır tarazlıqları.
Qoruyur çoxluğu və azlıqları!
Vəhdətlik yaradıb amillərində*,
Həyatı cəmləmiş tam əllərində.
Gün, üç gün saxlasa fəaliyyəti,
Cahan çox itirər nailiyyəti.

Bürüyər hər yanı tufan, boran, qar,
Önündə durmağa varlıqda nə var?
Təsirin ilk duyar canlı təbiət,
Minlərlə üzvünə çəkiləndə xətt.
Min şükür bir Sənə, uzaq görənə,
Buna yer qoymadın ola, törənə!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Eyni iş yorsa da Odlu nəhəngi,
Xaliqsən, önündə açılmaz əngi.
Yerinə yetirir məramnaməsin,
Yazaraq həyatın O, salnaməsin.
Nurunu az alan şikayətlənir,
Təəccüblə vurnuxur gah hiddətlənir.
Varlığa nə qədər vursalar ziyan,
Onlara qətiyyən olmursan həyan.
Çünki Gün sadəcə xidmətindədir
İradə, hökmünü bərqərar edir!
Cahandan azaltmır nəzarətini.
Bəsləyir, artırır hər nemətini.

**Bəşər**

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Bir Sənsən bəşərin ümid, pənahı.
Bilən dərd-sərini, yuyan günahı.
Adilsən, alisən, əməli-saleh.
Yapdığın varlıqlar eləyir valeh.
İncilər içindən seçilsə inci,
Adəm və gül Həvvan olar birinci.

Nəslinin hesabsız artsa da sayı
Hələ yox Kürəndə insanın tayı.
Çatışmaz cəhəti çoxdursa yenə
Nədənsə əzizdir hər bəndən Sənə?!
Müxtəlif dövranlar yaradır, qurur.
Dirçəldir, zəhmətin yerə də vurur.
Axtarır qüsursuz həyat tərzini.
Çətində çatdırır Ərşə ərzini.
Unudur, Cahanın hər zərrəsi tək,
Hər mövcud qanuna tabedir gerçək!
Pozulsa qoyduğun nizam-intizam
Almazlar canlılar bu həyatdan kam!
Yazdıqca canların məramnaməsin,
Verirsən tətbiqlik gücün, nəfəsin.
Ayırdın münasib icra yerlərin,
Versinlər həyata tam xeyirlərin!
Qərarın dəyişməz təbiətində,
Onunla bağlıdır rəiyyətin də!

Cahanlar yaradan, aləmlər quran.
Varlığı xəlq edən və həyan duran.
Torpaq, su, hava, od, şüurlu insan
Necə də fərqlənir, adicə baxsan.
Məhz insan dördündən yoğrulduğundan
Həm kamil, həm qadir can olduğundan,
Görkəm və xidmətdə seçilsə də tam,
İrs qalmış onlardan xasiyyət tamam.
Hər biri qayğını qiymətləndirir.
Hər birin pis rəftar hiddətləndirir!
Cahan kaş görməyə qəzəblərini.
Bəlalar yetirən sərt dəblərini.
Hər biri ən əsas məqsədin anır.

Yaşayır, yaşadır, həyat saxlanır.
İnşaallah.
Xaliqsən, dördlüyün qürurlarını,
Ölçüyə sığmayan şüurlarını
Cəmlədin çox həssas, çox çevik canda,
Dirçəltdin əvəzsiz cahan, Cahanda!
Əlhəmdü lillahi Rəbbil aləmin.
**Ey insan**, canlılar nəvaziş istər.
Barı sən layiqli nümunə göstər.
Xəlq olan varlığın ən gözəlisən
Və Onun Cahanda həm sağ əlisən.
Bəllidir məramın, yetir niyyətin!
Var hədsiz imkanın, səlahiyyətin!
Ey Rəsul, Xəlifə, göstər sayğını,
İnsani yanğına uyğun qayğını!
Hər bir kəs üçün bu şərəfdir, çağır!
Məhz şanlı adının yüküdür ağır.
Xaliqin Cahanı xəlqinə behdir
Və ona insanı tək cavabdehdir!
Yaşamaz çıxanlar itaətindən
Yaxud üz döndərsə, rəiyyətindən!
Əstafurullah.
Bismillahirrəhmanirrəhim...
Kürəndə Adəmin, Nuh və İbrahim,
İsmayıl həm Yaqub, Yusif və Musa,
Davud həm Süleyman, Zəkriyyə, İsa,
Məhəmməd
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd
Və müdrik peyğəmbərlərin,
Bəşəri hörmətə layiq ərlərin
Qazandı ruhları Səndən mərhəmət,

Cismani ölmünə əbədi rəhmət.
İlahi, amin.
İlahi, edərək qüdrətini dərk.
Sığındı hər biri himayənə bərk.
Hey dəvət ediblər itaətinə,
Tutmasın qəzəbin rəiyyətinə!
Bərqərar olunsun inam, etiqad,
Aləmdə insanlar yaşasınlar şad!
Varlığa məhəbbət, Sənə ibadət
Hər yurdda, obada olaydı adət
Ki, Cahan görməyə fəlakətləri,
Bəşərin çəkilə hər dərdi-səri!
Bitkin bir elmdən yaratdıqların
Yaşasın, yaşatsın, artırsın barın
Və qursun ən gözəl bir dövranını,
Əbədi qazansın o, amanını.
Hər işi, əməli olsun lehinə,
Səyləri dönməsin öz əleyhinə.
İnşaallah.
O, edər verdiyi ruzini haram,
Düşünsən O, yoxdur.
Əstafurullah.
Mən isə varam.
Bu Cahan, aləmlər, bütün varlıqlar
Allahın hökmülə xəlq olub və var!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Həm Davud «Zəbur»u, Musa "Tövrat"ı
Vəhyiylə bəşərin edib sovqatı.
Allahın varlığı ilahiliyyat,
Yapdığı zamanı, məkan, rəiyyət,
İsanın edilir şərh "İncil"ində
Və gəzir minlərlə nəslin dilində.

Öz qısa ömrüylə olub nümunə
Çevirdi imanın qüvvətli dinə.
-Allahın quluyam. Dedi, danmadı.
Dəhşətli edamı qorxunc sanmadı.
Məhəbbət Rəsulu, Haqdan yaranan
Sədaqət naminə vermədimi can?!
Belə haqq carçısı azmı müctəhid
Cəhalət əlilə olmuşdur şəhid?!
O sönməz Günəşi, bütün xilqətin,
Adillik, paklığın, haqq-ədalətin.
Çirkablar içində görüb insanı,
Üçündə diriltdi məğrur İsanı.
Görünməz gözlərə etdi camalın
Yetirsin yerinə məqsəd, amalın.
Cahanda qalmasın günah, günahkar.
O, kömək etdiyi olmaz riyakar!
Hər insan qəlbindən qovsun şeytanı*.
Qorusun bəlaya düşən hər canı.
Cahanı min illər gəzir, dolanır,
İmdada yetir həm hallara yanır!
Ürəklər daşdırsa, qulaqlar da kar,
Hər yanda olursa insanlıq inkar
İlahi, xəlqin bax artım, sayına.
Hamının çatarmı O, harayına?!
İnşaallah.

**Bu kamil Dunyanı quran, Banisi.**
**İstedad, idrakın mütləq Dahisi**
Dəyişməz xəlqinə məxsus nizamı,
Vəhdətlik yaradan sərt intizamı!
Hər şey bir-birinə edir xidməti,
Qapalı bu dövrə qırılmaz qəti.
Nə zərər çəkərsə təbiətimiz

O qədər pisləşər vəziyyətimiz!
Həyati qanunlar olunmaz əvəz.
İlahi, Cahanın rəqabət bilməz!
Artdıqca Adəmin nəsli burada
Ərazi bölməklə dönüblər yada.
Aralı düşdükcə biri-birindən
Vərdişlər cəmləyib mühit sirrindən
Yapdılar müxtəlif adət, ənənə,
Bir qaldı dəyişməz etiqad Sənə!
Cahanın sığınıb təbiətinə,
Çevrilib qüdrətli cəmiyyətinə,
Adəmi saysaq da ulu babamız
Sədlər də çəkirik, düşür davamız.
Qondarıb minlərlə çirkin oyunu,
Bəzəyib geydirdik “siyasət“ donu.
Yalan, zor, hiyləni edib aləti,
Artırdıq cəhalət və səfaləti.
Həm milli, həm dini qarşıdurmadan
Biz nələr itirdik və verdik qurban?!
Bəlalar törəndi bundan o qədər
Paylansa, hər ömrə gen-bol bəs edər.
Varlığın tanınmaz etdik Tacını.
Yox dövran, ödəsin ehtiyacını.
İlahi, olmayıb ziyanımız az,
Mərhəmət və rəhmin yenə azalmaz!

**Unutmayaq ki**, böyük xalqları kiçik millətlərə ayıran da və kiçik xalqları böyük millətlərə çevirən də bir olan Allahdır. Həmçinin Allahın mərhəməti və rəhmi bütün uğursuzluqlarımızın da qazancının nəticəsini ölçülməz dəyərlərə malik mövcud nailliklərimizə çevirmişdir inşaallah.

Əlhəmdü lillahi Rəbbil aləmin.

## HƏZRƏTİ MƏHƏMMƏD ƏLEYHİSSƏLAM

***Rəhman və Rəhim Allahın adı ilə***

Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Allahu əkbər!...la ilahə illəllah...
Rəhmanlı rəhimli ey qadir Allah.
Bir Sənsən bəşərin ümid, pənahı,
Bilən dərd-sərini, yuyan günahı.
Bir vaxtlar yaşayış ağırlaşanda,
Haqsızlıq, hərc-mərclik aşıb-daşanda
Eşidib bəşərin sonsuz naləsin,
Göylərə ucalan hıçqırıq səsin,
Ümidlə bir kömək gözləyənlərə,
Səbirsiz günləri izləyənlərə
Yetirdin çox müdrik peyğəmbəri Sən,
Cahanı qurtarsın bəladan, dərddən!
Kəlamın nuruyla xəlqi oyatsın,
İradə və hökmün hər kəsə çatsın.
Qədəmin qoyandan əleyhissəlam,
Kəlamı "Quran"dır, qanunu İslam!
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...
Hər deyən dillərin canına qüvvət!
O, etdi bu haqqı anmağa dəvət.
Həzrəti Məhəmməd əleyhissəlam
Tərbiə, təlimli tükənməz kəlam
Bəşərə yetirib iradənlə pay,
Hikmətlər qapısın açıb taybatay,
Etdi: din, insanlıq elmini hasil.
Müqəddəs "Quran-i-Kərim"i nazil.
Yazmaqla riayət məramnaməsin
Pak, ülvi amala döndü haqq səsin!

Zəkası saçdıqca nur ayəsində,
Qüdrətin şövq edir hər kəlməsində.
Elə bir dövranın yapdı təməlin,
Yetirsin hamıya mübarək əlin.
İnşaallah.
Mənəvi paklığa layiq əxlaqı,
Səxavət, adillik, ədalət, haqqı
Və vacib şərtlərin insaniyyətin,
Əsası eləyib İslamiyyətin
Yetirdi insanın nə edəcəyin
Ki, qursun aləmdə xoş gələcəyin?!
Tam maddi-mənəvi tənzimli dövlət,
Ailə zəmnində bir hakimiyyət.
İnşaallah.
Dövrandan-dövrana "Quran-i-Kərim"
Olubdur əvəzsiz bəşərə təlim.
Səmavi kitabın hər bir ayəsi,
Çağırış, məsləhət və tövsiyəsi
Dərslikdir Dunyanın camaatına,
Gərəkdir insanlıq təlimatına.
Daim var zəruri tələbat buna,
Çəkəndir adillik, haqqın yoluna.
Yazıb ki, Cənnətdə yer var hər kəsə,
Mənəvi paklığı ləkələnməsə!
Hər qılan səcdəni, ibadət edən
Mərhəmət, köməyi görəcək Səndən.
İnşaallah.
**1.** Əbədi imana var sahib duran.
Tam kamil, tam qadir və tam hökmran!
Zaman və məkana qabil, qüdrətli,
Var ikən görünməz, hakim surətli
Allahdır!

**2.** Cahan və aləmlər xəlq edən Xaliq,
Yetirən hər cana ruzi gündəlik.
Yaradan Günəşi, o Ayparanı,
Həyata gətirən və aparanı
Allahdır!
**3.** Banisi və Rəbbi bu aləmlərin,
Ən ali Şahidi iş-əməllərin.
Hər cana varından var verən qərəz
Müqəddəs Varına olmayan əvəz
Allahdır!
**4.** Bağlayan köküylə şüur, zəkanı,
Tərəqqi və elmə verən təkanı.
Bərkidən ümidi, açan imkanı
Və çəkən ən doğru yola insanı
Allahdır!
**5.** Hər şeyin yerini eləyən təyin,
Əbədi dayağı xeyirxah səyin.
Xəlqini yüksəldən, həmi endirən,
Həm seçən cəzanı, həm sevindirən
Allahdır!
**6.** Xəlqinin yolunda hüdud bilməyən,
Hamilik köməyin əsirgəməyən,
Dinləyib çəkməyə hər nazımızı,
Vəhyilə yetirən namazımızı
Allahdır!
**7.** Sahibi olmağa pak dəyərlərin,
Keçməyə təlimin bu hünərlərin.
Eşidən xalqların hey harayını,
Yetirən həmrəylik, Rəhman ayını
Allahdır!
**8.** Hər Adəm övladın tutan bərabər,
Diləkli qəlblərdə o salan lövbər.

Hər işin, əməlin, hər hərəkətin
Yetirən layiqli öz bərəkətin
Allahdır!
**9.** Hər yurdu, yuvanı saxlayan abad.
Xəlqindən götürən düzgün hesabat.
Öyrədən müdriklik, səbir, təmkinlik,
Vaxtında yetirən, verən təskinlik
Allahdır!
**10.** Bəşərə, varlığa etmək qulluğu,
Artırmaq Cahanda maddi bolluğu
Düşünən hər beyni işıqlandıran,
Köksündə bu həyat eşqin yandıran
Allahdır!
**11.** O yazan, hər canın məramnaməsin,
Verən həm tətbiqlik gücün, nəfəsin,
Ayıran münasib icra yerlərin,
Versinlər həyata tam xeyrlərin
Allahdır!
**12.** Hər nəsli yaşadan kəramətilə,
Ruzisi, neməti və rəhmətilə.
Daima güvənib sığındığımız,
Ömrün hər anında pay umduğumuz
Allahdır!
**13.** Yeganə sahibi tükənməz səbrin,
Dinləyən xəlqinin daim hər birin.
Ümidlə niyyətlər ardınca qaçan,
Üzünə hər yeni sabahı açan
Allahdır!
**14.** Körpəyə, qocaya, əlil, xəstəyə,
Yetimə-yesirə, qərib-kimsəyə
Əl tutub bölənə ruzisini tən
Mərhəmət rəhmini əsirgəməyən

Allahdır!

**15.** Hüdudsuz kainat səltənətində
Sükunət, sürətin, ətalətin də
Kamil bir hikmətlə yerbəyer edən,
Bunlarla varlığın xeyrini güdən
Allahdır!

**16.** Hökmün və qərarın çox ehtiyatla
Varlığa yetirən bu kainatla.
Həm cari günündə, gələcəyində
Bildirən nələr baş verəcəyin də
Allahdır!

**17.** Qüdrəti, izzəti, cah-calalıyla,
İstedad, elmilə, təb-kamalıyla
Həm duran hamının O qulluğunda,
İstəyən hamının məhz qulluğun da
Allahdır!

**18.** Həssas bir qayğıyla verən buyruğu,
Can-başla həyata edək qulluğu.
Deyən: Ol mübariz, dözümlü, mətin,
Carçısı, dayağı haqq-ədalətin.
Allahdır!

**19.** Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...
Hər dildə, dinlərdə əskilməyən şan,
Yapdığı hər cana həyan, yovuşan
Allahdır!

**20.** İltifat göstərən, lütf əskiltməyən,
Önündə heç kəsin haqqı itməyən.
Ən sadiq dininə, möminlərinə,
Yetirən töhfəsin, əməllərinə
Allahdır!

**21.** Yazdıran, sırf-dəqiq xeyiri-şəri,

Çıxartsın hökmünü öz əməlləri
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində
Allahdır!
**22.** Müqəddəs yerlərin ziyarətini
Edənin, dinləyən ibadətini,
Səhvlərin izləyən, dərdlərin duyan,
Qananı əfv edən, günahın yuyan
Allahdır!
**23.** Müqəddəs dinimiz, etiqadımız,
Həmişə, hər yanda bir imdadımız,
Günəşdən, havadan, torpaqdan, sudan
Qat-qat bu həyata zəruri olan
Allahdır!
**24.** Əşhədü ən la ilahə illəllah...
Yetirən minlərlə O, rəsulullah.
Hər anın nümunə və ibrətgahı,
Ən saleh şəxslərə açıq Dərgahı
Allahdır!
**25.** Sahibi kəramət, hədsiz şəfqətin,
Fəzilət, mərhəmət, rəhim-rəhmətin.
Əbədi, müqəddəs, xeyirxah və pak
Adıyla eləyən iftixar idrak
Allahdır!
**26.** Büsbütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Hər dövrün ən adil bir iqtidarı,
Qiyamət gününün tək hökmdarı
Allahdır!
**27.** Hər yandan sıxdıran Yerin qatların,
Bağlayan təhlükə ehtiyatların,
Təminat yaradan məhz Qızıl əsrə,

Möhləti, imkanı verən hər nəslə
Allahdır!
**28.** Yetirən diniylə insaniyyəti,
Yönəldən paklığa tam rəiyyəti
Ki, etsin sahibi elə dövranın
Ola ən dəyərli dövrü zamanın
Allahdır!
**29.** Yaradıb varlığı öhdəsinə tək
Götürüb eləyən qulluğu gerçək,
Hər canın harayın məhz anmağıyla
Köməyə müntəzir dayanmağıyla
Bir layiq əbədi, hədsiz hörmətə,
Önündə səcdəyə və ibadətə
Allahdır! Allah!
***Rəhman və Rəhim Allahın adı ilə***
**Unutmayaq ki:**
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Qərar və hökmünə sədd yox heç yanda,
Burda, həm neçə min sirli kahanda
Bir Odur əbədi, xilqəti çoxdur,
Müqəddəs və təkdir, şəriki yoxdur!!
Ecazkar, füsunkar səltənətində
Könülsüz yox bir can itaətində!
Hər biri gücünün bir carçısıdır,
İradə hökmünün icraçısıdır.
Banisi, Rəbbidir bu aləmlərin
Həm ali Şahidi iş - əməllərin.
Sahibi hər elmin, ağıl - kamalın,
Bərəkət-nemətin, izzət-calalın.
Ən həlim, mülayim, mədəniyyətin,
Ən mütləq mərifət, səlahiyyətin.

Ölçülməz qüdrəti, gücü - Qalibdir,
Göylərə, Yerlərə sahib - Xaliqdir.
Hər qəlbin şəfqətli həbibi Odur.
Hər dərdin ecazkar təbibi Odur.
Büsbütün varlığın Yaradanıdır,
Gözünün nurudur, gücü, canıdır!
Həyatda hər bir can əmanətidir,
Varlığı xəlqinə zəmanətidir!
Onunla bağlıdır bu var-yoxumuz,
Həm sağlam canımız, mətin ruhumuz.
Daima möhtacıq kəramətinə,
Mərhəmət rəhminə və rəhmətinə.
Şükür və təriflər sayğısınadır,
Var-yoxa yanğıyla qayğısınadır.
Əlində ömrümüz, aqibətimiz,
Qiyamət günümüz, axirətimiz!

**Unutmayaq ki**, "*Allahu əkbər!*" ifadəsinin mənəvi dəyərlərinin məsuliyyətinin ağırlığını bütün görünən və görünməyən yük daşıyıcılarının cəmi qüdrəti nəinki qaldırmağa hətta tərpətməyə belə çatmaz!

**Unutmayaq ki**, yerində və vaxtında niyyətimizə uyğun ucaltdığımız bu ifadə, bu haraya çağırış həmin anda bir Allaha məxsus hədsiz ən gözəl xasiyyətlərin, xüsusiyyətlərin, hisslərin, keyfiyyətlərin, münasibətlərin, qabiliyyətlərin və səlahiyyətlərin ən yüksək rəmzini özündə tərənnüm etdirir!!

Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin.
İlahi, amin.

## ZAMAN VƏ DÖVRAN

***Rəhman və Rəhim Allahın adı ilə***

Qurduğu Dünyanın vaxtını hər an
Bildirən əbədi məfhumdur - Zaman.
Qurulan dövlətin vaxtını hər an
Bildirən dəyişkən məfhumdur -Dövran.
Zamandır - Allahın! Dövran - insanın,
Zamana toplanır dövrü hər canın!
Zülmətlə Günəşi qoyub üz-üzə,
Böldürüb vaxtı tən gecə, gündüzə.
Mirvari anlardan yığaraq ili
Fəsillər yaradıb əcəb sehirli,
Hər biri həyatın açır bir üzün
Göstərir qüdrətin gecə, gündüzün,
Özünə münasib zənginliyilə
Şüura sığmayan ənginliyilə!
Bunlardır zamanın göstəricisi,
Dünyanın əvəzsiz, nadir incisi!

Əbədi sahibi bu kainatın,
Ən ali hakimi mövcud həyatın
Bizə vaxt ayırıb Qiyamətəcən,
Önündə hökmüylə olacağıq cəm.
Həzrəti İsrafil suru çalanda,
Bu dağlar düzlərə döndüyü anda
Onurğa sütünün ilk düyünündən
Qalxacaq hər bir can rüşeymindən!
**Ey insan**, bu ağır hesabat günü
Açılır hər ömrün sirli düyünü.
Hər yetən ayənin hökmünə uyğun
Ölçülür iradən, nəfsin və duyğun.
Hissimiz ədaya dönər ya dərdə

Əməllər edəndə qazancın əldə.
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində.
Çoxumuz diz çöküb əfvin diləriк,
Hər yetən ayənin gücün bilərik.
Cəhənnəm qorxusun, Cənnət müjdəsin
Görüb dərk edərik tam haqqın səsin
Ki, bizə, Cahana dəqiq ayrılan
Zamana sahibdir, rəhbərdir **"Quran"!!**
O günü (!) duyacaq bütün bəşərin,
Həyatın mənasın, ömrün dəyərin!
İnşaallah.
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin…
İlahi, amin.

# MƏNƏVİYYAT VƏ İNSANİYYƏT MƏRAMNAMƏSİ

## Mənəviyyat

***Rəhman və Rəhim Allahın adı ilə***

***Mənəviyyat*** - insani dəyərlərin təməlidir! Varlığımızı təsdiqləyən ən ülvi və pak daxili xüsusiyyətlərimizin izharıdır.

Əbədi sahibi bütün xilqətin,
Adillik, paklığın, haqq-ədalətin.
Bilir hər niyyətin məhz yiyəsini,
Boynuna götürüb tərbiyəsini,
Hər bir kəs dərk edə öz mahiyyətin,
Vəzifə borcunu, səlahiyyətin!
İnşaallah.

**1.** Hər Adəm övladın tutur bərabər.
O, salır diləkli qəlblərdə lövbər.
Yazıb hər taleyin məramnaməsin,
Verərək tətbiqlik gücün, nəfəsin,
Saxlayır tükənməz istək, niyyətin,
Bərabər hüququn, səlahiyyətin!

**2.** Versə də insana bu diyarında
Tam ali hakimlik ixtiyarın da.
Həm həlim, müləyim bir ünsiyyəti,
Həm yüksək mərifət, səlahiyyəti.
Həm kamil bir canı, düşünən beyni,
Çox sirli taleyi, duyğular eyni.
Hər işin, əməlin, hər hərəkətin
Yetirir layiqli öz bərəkətin!
İnsanı insandan fərqləndirən bir,
Həyata qulluqda keyfiyyətdir.

**3.** Cahanda rəsulu olan Allahın,
Carçısı hər yeni dövrün, sabahın.

İradə, hökmünü məhz ali sayan,
Qüdrəti, imkanı məhdud olmayan
Cahanı götürüb şəxsi zaminə,
Əbədi çalışa həyat naminə.
Bərqərar eləyə haqq-ədaləti
Və çəkə önündə məsuliyyəti!
Əlhəmdü lillahi Rəbbil aləmin.

## İnsaniyyət

***Rəhman və Rəhim Allahın adı ilə***

***İnsaniyyət*** **I.** Həyatımızın mövcudluğunun ən zəruri və vacib mənəvi amillərinin bərqərarlığı naminə həvalə olunan ən ali vəzifəmizə uyğun xüsusiyyətlərimizdir.

Əlhəmdü lillahi Rəbbil aləmin.
Məhz ona ayrılıb tarixi möhlət,
Qiyamət günü də qoyulub son hədd
Ki, Yerdə Behiştlik yarada, qura,
Xəlifə sayıla, qulluqda dura.
Həm aça mənsubluq hər imkanını,
Həm yapa özünə pay məkanını!
İnşaallah.

**1.** İlahi, insanı kamilləşdirdin,
Ən yüksək kürsüdə həm əyləşdirdin;
Hər canlı dilini bilsin mükəmməl.
Hökmünü anlayıb etsinlər əməl.
Hər qaynar nöqtədən gəlsin sorağı.
Hər yanda həyatın olsun dayağı
Ki, əmin-amanlıq xəlqə yetirsin!
Məhz Sənə dönüşsüz iman gətirsin!

**2.** Ona bəxş etdiyin bol sərvətinlə
Əskilməz rəhminlə, səxavətinlə
Qarışsın hər canın o, iqbalına,
Son qoysun aramla qalmaqalına.

Götürsün boynuna bu ağır işi
Və etsin sahmanla o, çevrilişi.
Qanunlar, qaydalar möhkəm yaransın,
Əyani Behiştlik Yerdə canlansın!
İnsan bu məqsədə zəhmətlə yetər,
Zəhmətsiz naillik qorunmaz, itər!
**3.** Bir ali sakini kimi həyatın
Törəsin, qorusun əbədiyyatın.
Aləmdə çoxalıb artdıqca sayı
Hər yanda hamıya çatsın harayı.
Yetirsin hər cana dərdi-sərində,
Bəlalı qalmasın Yer üzərində!
Ümumi səylərin cəmiylə ancaq
Bərqərar olunar buyurduğu haqq!
Cahandan həm alsın kamını hərə,
Həm qalsın füsünkar pay nəsillərə!
İnşaallah.
**4.** Günəşə bənzəsin əməllərilə.
Dəyişsin aləmi öz əllərilə.
Yerinə yetirsin vəzifəsini,
Ən ülvi istəyin tapsın əksini.
Dəryada, quruda, havada, əsl
Xaliqin eləsin insanlıq təmsil!
İnşaallah.

***Rəhman və Rəhim Allahın adı ilə***

***İnsaniyyət* II**. Bizi dini-etiqadımızın təməlinə bağlayan mənəvi dəyərlərimizin, ən yüksək fiziki qadirliyimizin, ümumi bəşəri birliyimizin və əbədi sabitliyimizin ən əsas, ən zəruri təminatçısıdır. Yəni imanımız, sədaqətimiz, gücümüz-qüdrətimiz, pak əxlaqımız, saleh əməlimiz, əmin-amanlığımız və firavan yaşayışımızla bağlı

kamilliyimizi bildirəcək ümum mərifət - mədəniyyətimizdir inşaallah.

İnsanlıq hamının məhz nemətidir,
Saçdığı nurudur, qiyafətidir.
Bu vergi hər canın hədsiz nəfidir,
Göyün də, Yerin də o, əşrəfidir…
…Cəhalət döndərmiş onu hədəfə.
Kamillik yol verməz bu ağır səhfə!

**III**. O, İlahiyat aləminin pillələrinin başladığı ilk astanasıdır. Ona hamılıqla birgə yetməyimiz və yiyələnməyimiz çox zəruridir inşaallah.

Ey bütün bəşərin ümid, pənahı,
Bilən dərd-sərini, yuyan günahı.
Düşünən beyinlər, hər canlı qamət
Bir Səndən diləyir rəhm, kəramət.
İllərdən hördüyün pillələri biz
Hər dövrün sayğacı etdik əvəzsiz.
Yazdığın taleyin ya ömrün sonu
Yanına yetirən yol bildik onu.
Mənəvi paklığın artıran qat-qat,
Və saleh əməllə verən hesabat
Layiqsə, məhz ruhu görər mərhəmət,
Can tapar rahatlıq qazansa rəhmət.
İnşaallah.

Dəyişən Cahana tam baxışını,
Köksündə iz salan hər naxışını,
İnsani ləyaqət, qayğı, məhəbbət
Büsbütün varlığa göstərən əlbət
İlahi, yayınmaz heç nəzərindən,
Ömrünün qorunar hər kəsərindən!
İnşaallah.

Başlayaq sığınıb himayəsinə

Ən yeni bir nəslin tərbiyəsinə
Ki, tutsun bu həyat tərzimizdə, Gün*
Öz əsas mövqeyin yaşamaq üçün!
Cahanda gedərdi əsl çevriliş
Tükənən bu ömrə versək dirçəliş.
Hər xalqın, hər dinin ali məqsədin
Cəmləyib olarsa "insaniyyət-din",
Qurtarar bəşəri hər bəlalardan.
Saxlamaz qəlblərdə iz yaralardan!
Qaytarar insana məxsus tacını,
Ödəyər hey artan ehtiyacını!
Allaha bu yolda iman gətirən
Sayılar hər cana ənam yetirən.
Həyata qulluqdur insaniyyət, din
Güdməli hər canın tam mənafeyin!
Bəşərin puç olar nailiyyəti,
Bərqərar etməsə insaniyyəti!
Adəm və Həvvanın nəsli sayılan,
Sayəndə insani hissi ayılan
Xəlqini sevməzmi, can yandırmazmı,
Bəlasın, ağrısın dərdi sanmazmı?!
Ömrünü tutarmı həyatdan üstün?
Uğrunda verməzmi qanını bütün?
Əyani cənnətə bu Yer dönəndən
Hər cana o, olub yeganə Vətən!
Bir Sənə səmimi etiqad, təzim
Bəşərdə birliyi eləyər tənzim!
Birlikdə həyata etsək qulluğu,
Yapardıq elə bir maddi bolluğu,
Olmazdı ədavət, sədd aramızda,
Qəlbləri sarsıdan dərd, yaramız da.
Xeyirxah olardı hər zəhmətimiz,

Firavan yaşardıq köməyinlə biz.
Duyardıq dəyərin ittifaqın da
Və əldə olunan dinc rifahın da.
Əlində ömrümüz, gələcəyimiz,
Axirət günündə görəcəyimiz.
Kəramət, rəhminə gətirsək pənah,
Hər mümkün bəladan qoruyar Allah!
İnşaallah.
Ey bütün varlığın Banisi, Rəbbi
Həm verən təlimi, ruzi və həbbi,
Ümidlər həsrətlə bağlanıb Sənə,
Qüsursuz həyata yol göstərsənə!
Tam düçar olmamış fəlakətlərə,
İnsanlıq mövqeyin dərk etsin hərə!
Ver elə sağlamlıq, çalışaq rahat,
Sayəndə çoxalsın zəfərlər qat-qat.
Zəhmətlə ucaltsın hər kəs adını,
Cahanda doğrultsun etimadını!
Yerinə yetirsək vəzifəmizi,
İlahi, sevindir töhfənlə bizi.
Qayıdaq uğurlu səfərə görə,
Ümidlər həsrətlə bağlanan yerə.
Mələklər etsinlər pişvazımızı,
Hurilər çəksinlər hər nazımızı.
İnşaallah.

**Mömin**

***Rəhman və Rəhim Allahın adı ilə***
***Mömindir*** Allahın sevən heyrətlə,
Xilqətin qoruyan əsl qeyrətlə.
Şəkk-şübhə olmayan sədaqətinə,
Şəriət, dininə, şəhadətinə.
Allahın duyanlar himayəsini,

Ətrafa həkk etmiş hər ayəsini.
Müqəddəs çağırışın ali sayanlar,
İmanı olanlar, açıb yayanlar
İnsanlıq borcuyla bağlı təlimin,
Tövsiyə etdiyi şəriət-dinin
Və xələf çıxmayan din-imanına,
Onun bel bağlayan bir amanına!
Və ağır sınaqda o, əyilməyə,
Düşməyə kafirlər quran ilməyə.
Allahın sığınıb kəramətinə
Qulluğu eləyə bu Cənnətinə.
Həm saleh əməli, həm pak əxlaqı,
Səliqə-sahmanı cəlb etsin xalqı.
Allaha hidayət, itaətilə
İnsani qayğısı, məhəbbətilə
Həm edə əzmlə ürəkləri fəth,
Elminin önündə əriyə qəflət.
Həm ola mübariz, dözümlü, mətin,
Carçısı, dayağı haqq-ədalətin.
İlahi, çalışan səy-inadıyla,
Tanınan elmiylə, istedadıyla,
Nur saçan ədəb və mərifətilə,
Ağılı, kamalı, ləyaqətilə
Mötəbər ziyalı zatən sayılan,
İnsani borcuna həm sadiq olan,
Qoruyan şərəflə mənəviyyatın
Həm xalqın marağın, həm bu həyatın,
Hər mövcud bəlaya axtaran məlhəm,
Artıran nemətlər bolluğun dəm-dəm
Təcəssüm rəmzidir insaniyyətin,
Nümunə payıdır hər cəmiyyətin!
Həyata qulluğu özündən yüksək

Tutanlar mömindir, möminlərin tək!
Əskiltmə onlardan mərhəmətini,
Kəramət rəhmini və rəhmətini.
İlahi, ölçülməz mənəvi xərac,
Möminin olarsa kafirə möhtac!
Əstafurullah.

**Peyğəmbər**

***Rəhman və Rəhim Allahın adı ilə***

O sönməz Günəşi, bütün xilqətin,
Adillik, paklığın, haqq-ədalətin,
Rəzillik mənbəyin tərk eləyəni,
Haqların-haqqını dərk eləyəni,
Cismani varlığın saleh sayanı,
Uğrunun baisin həm qavrayanı
Və sadiq möminin din-imanına
Seçir baş rəsulu öz məkanına!
Kamillik verdiyi peyğəmbərilə
Yaxınlıq yaradır bəndələrilə!
Məsləhət bildiyi, həmin müddətin
O, olur Günəşi məhz həqiqətin!
Dövrünün ən yeni təlimatını,
Bəşərə zəruri məlumatını,
Hər adil hökmünü ilk eləsin car.
Ən məsul rütbədən yox məhrum aşkar.
Şükür məsləhətinə.
İstər hər kəsin bu olsun amalı,
Xəlqinə tam xidmət etsin kamalı!
Yetirsin tövsiyə, təlimlərini
Və yaysın haqq olan şəriət, dini
Ki, çatsın hər kəsə göndərdiyin həb!
Ey fitri İstedad, görünməyən Təb!
Əlhəmdü lillahi Rəbbil aləmin.

**İmam**
***Rəhman və Rəhim Allahın adı ilə***
Allaha həm sabit baş rəsuluna
Fədakar xidməti qəbul oluna.
Rəbbini uğrunun baisi saya,
Salehlik və paklıq təlimin yaya!
Ola din elmində ali şəxsiyyət
Və bütün möminə xas aidiyyət
Cəmlənə işində həm əməlində.
Edə baş rəsulu təmsil elində!
Adilik nur versin gül camalına,
Adillik tən olsun məhz kamalına!
**Kafir**
***Rəhman və Rəhim Allahın adı ilə***
Ey bizi yaşadan, kamilləşdirən.
Ən ali kürsüdə həm əyləşdirən.
Kafirdir, hər danan Yaradanını.
Əstafurullah.
Talayan xəlqini, həm məkanını.
Müqəddəs Varına şərik qoşanlar!
Hərc-mərclik salanlar, azğınlaşanlar!
Seçdiyin Elçinə hey kəc baxanlar,
Hər mövcud ayənə həcvi yaxanlar.
O kəs ki, itirib insaniyyətin,
Etməyir nə şükür, saymayır nə din.
Pozursa riayət təlimatın da,
Basırsa hüququn camaatın da!
"Varlanıb varıyla danır Allahın"...
Özgəyə, Şeytana yaxır günahın.
Öz şəxsi naminə haqqı üyüdən,
Uğranan bəladan mənfəət güdən.
Ən kəsgin düşməni haqq-ədalətin

Və xalqın qazanan hədsiz nifrətin!
Xaliqin zəhmətin eləyən inkar,
Ürəyi daş olan, düşüncəsi dar.
İbadət etməyə, Onu öyməyə
Layiqdir ən ciddi cəza görməyə!
Əgər bu Cahanın bütün canlısı.
Dillisi-dilsizi, qansız, qanlısı,
Sürünən, yeriyən, üzən, uçanı,
Görünən, gözlərdən lap yayınanı
Göylərə baxaraq necə həvəslə
Hey öyür, öyünür Allahı ilə!
Bəs niyə basılsın ləyaqətimiz?
İnsanlıq sanını ləkələyək biz?
Kafirlik həm ağır yaradır-yara,
Həm çəkən bəşəri uçurumlara!
Kafiridir, bəşəri daim çaşdıran,
Fəlakət gününü yaxınlaşdıran!
Əstafurullah.
Allaha xoş gedər belələrinin
Qarşısı alınsın əməllərinin!
Qorumaq naminə mövcud həyatı,
Edəndir qəbul hər əməliyyatı!
Salehlik və paklıq olsa dayağın,
Adillik, ədalət, haqq da yarağın,
Allahın dəstəklər hər tədbirini,
Qazı ol ya şəhid seç məhz birini!
Rəhmi var vaxtında tövbə edənə.
Adildir, mərhəmət göstərər yenə
Ki, tutsun yerini Cənnətində* O
Və duysun əfvinin qiymətin də O!
İnşaallah.

***Rəhman və Rəhim Allahın adı ilə***

***Unutmayaq ki,*** Yer üzünün ilk xəlifəsi və rəsulu, insaniyyət rəmzinin təmsilçisi olan Adəm və Həvvanın gələcək nəslinin qadirlik və kamilliyinə, ali mərifətinə ən yüksək əxlaqi mədəniyyətinə Allah-təalamız zamin durmaqdadır inşaallah.

***Unutmayaq ki,*** onların fitri istedadları, elmi nailiyyətləri, bütün canlıların həyatını rüşeyminə və toxumuna qədər öyrənməyə və qədərində idarə etməyə imkan verəcəkdir. Onlar bir olan Allahın iradəsini həyata keçirməklə zamanın ən dəyərli dövranının (Qızıl əsrin) qurucuları olacaqlar inşaallah.

***Unutmayaq ki,*** bəşəriyyət özünün həm ümumi tarixi, həm də hər kəsin fərdi ömrünə aid yeddi 1.Yaranış, 2.Qavranış, 3.Təkamül, 4.Axtarış, 5.Yaradış, 6.Kamillik, 7.Durğunluq (hesabata hazırlıq) dövrünü Allahın ayırdığı dəqiq zaman kəsiyində yaşamalıdır. Adəmlə birgə ondan şaxələnib gələn bütün nəsillər bu Cahanın məsuliyyətini daşıyanlara uyğun və təminatlarına görə Qiyamət günündə verəcəkləri hesabatdan asılı ayrılacaq əbədi həyatları da vardır inşaallah.

***Unutmayaq ki,*** bizi qoruyub, böyüdüb ucaldırlar ki, yetirdiklərini yetirdikləri kimi yetirək və tətbiq edək inşaallah.

Bir olan Allahdan hər birimizə, gələcək nəsillərimizə sağlamlıq, əmin-amanlıq və bol bərəkət diləyirik inşaallah.

Sağ ələ verilə kaş dəftərimiz,
Qurtulaq Cəhənnəm əzabından biz!
Əlhəmdü lillahi Rəbbil aləmin.

## III Fəsil

## NAMAZ

***Rəhman və Rəhim Allahın adı ilə***

***Niyyətimiz***: Namazın ali amallarını yetirməkdir inşaallah.

Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

Ey kamil Dünyanı quran, Banisi.
İstedad, idrakın mütləq Dahisi.
Misilsiz zəkanı edən təzahür
Cahanın olarmı xəlqsiz təsəvvür?
Müxtəlif xasiyyət, xüsusiyyətlər,
Münasib ənənə, milli adətlər
Oyadır ehtiram, minnətdarlığı
Ki, yapdın rəngarəng, belə varlığı!
Əlhəmdü lillahi Rəbbil aləmin
Ey saysız can növün Yerdə dirçəldən,
Çox həssas qayğıyla yerbəyer edən
Və duyğu-hisslərin, bilən mükəmməl
Həm ifa etməyə yaradan təməl.
Hər anın hökmünə gətirməyə tab,
Sənədir hər dildə, dinlərdə xitab!
Hər kəsə vermisən ana dilini,
Təmasda duyasan Sən hər birini!
Bu da hər millətin təsis yönüdür.
Onların bərabər hüququn güdür.
Bu vergin - qüdrətin, qadirliyindir!
Hər cana zaminlik - adilliyindir!
Ey ulu Tanrımız, ey Pərvərdigar
Sənə tən, müqəddəs, pak kimimiz var?!
İradə, hökmünlə "Quran-i-Kərim",
Olub ən müasir din-ayələrim.

Səmavi kitabın hər bir ayəsi,
Çağırış, məsləhət və tövsiyəsi
Özüldür insani təlimlərə də,
Örnəkdir, dərslikdir alimlərə də
Ki, edək insanlıq zirvəsini fəth,
Bəşəri qüdrətə diz çökə qəflət!
Salehlik hər işin ola təməli,
Günəşlə bəhs edə insan əməli.
İnşaallah.
Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
Həzrəti Məhəmməd əleyhissəlam
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Tərbiyə, təlimli tükənməz kəlam
Bəşərə yetirib iradənlə pay!
Hikmətlər qapısın açıb taybatay
Etdi din, insanlıq elmini hasil,
Nəsillər üçün son namazı nazil.
Yazmaqla riayət məramnaməsin
Müqəddəs amala döndü haqq səsin!
**Əbədi sahibi bu kainatın,**
**Ən ali hakimi mövcud həyatın**.
Hər namaz bildirir qəbul anını,
Çağırır görüşə hər insanını!
Namazlar fərqlənir öz niyyətilə
Təmasda möminin ünsiyyətilə.
Qadirsən hər dildə dinləməyə də,
Hamıya hamilik eləməyə də!
Həm bunu şərh edir dini kitablar,
Həm bizə müxtəlif dildə xitablar.
Şükürlər mərhəmət, təmkin, səbrinə,

Ey bizi gətirən imana, dinə.
Sən məlhəm nurusan, dəyanətlisən,
Xəlqinin gözündə ən hörmətlisən.
Bir Sənsən bəşərin ümid, pənahı,
Bilən dərd-sərini, yuyan günahı.
Olmusan nümunə, ibrətgahımız,
Ey bizim əvəzsiz bir Allahımız -
Sənədir hər bir an xilqətin möhtac!
Demək var namaza tələb, ehtiyac.
**1.** Olub hər möminin vərdiş, adəti
Sənə, **sübh namazı** - ilk ibadəti,
Bildirsin sığınıb kəramətinə,
Möhtacdır rəhminə və rəhmətinə!
Namazla başlayır hər günün belə
Həm haqqa yönəlt, həm idarə elə!
Sayəndə dəyərin duyub birliyin,
Qardaşlıq zəmnində bərabərliyin!
İnşaallah.
**2.** Vacibdir, günümüz ötməyə hədər,
**Uğurlar diləriк** Səndən hər səhər!
Himayən qoruya bizi azardan,
Xatadan, bəladan, mərdimazardan,
Bəd nəzər gözlərdən, cadu yazardan!
Amin.
Bir kimsə uğurun qazanmaz Sənsiz!
Ucalmaz nəvaziş və himayənsiz!
**3. Günorta dilərik** yardım, köməyi,
Edəsən ruzili cari əməyi.
Səninlə bağlıdır zəfərlərimiz,
Ömrümüz, işimiz, səfərlərimiz.
İnşaallah.
Bizdən də umanlar, diləyənlər var,
Ümidlə, həsrətlə gözləyənlər var!

İlahi, ölçülməz mənəvi xərac
Möminin olarsa kafirə möhtac.
Əstafurullah.
**4. Hər axşam ucalır şükürlərimiz!**
Varsan ki, kölgəndə bəxtəvərik biz.
Duyansan qəlblərin ağrılarını,
Çəkənsən hər bir an qayğılarını!
Şükür və təriflələr bu sayğınadır,
Bərəkət, ruzinə həm yanğınadır.
**5. Səmimi etiraf edib gecələr**
Rəhmətin qazanan can da dincələr!
Əvəzsiz məlhəmdir sağlığa yuxu.
Naminə qoyuruq girov var-yoxu,
Bilək var sərvətə, ömrə nəzarət,
İstəsə qaytarar ya edər qarət!
Şükür məsləhətinə.
Əlində ömrümüz, aqibətimiz.
Qiyamət günümüz, axirətimiz!
Əlhəmdü lillahi Rəbbil aləmin.

Ey bizi yaşadan, kamilləşdirən,
Ən ali kürsüdə həm əyləşdirən.
Duyanlar qayğını, zəhmət-səyini,
Görənlər əyani etdiklərini,
İftixar hissilə, pak ikən, haqla
Səni ya tək öyür, ya da ki, xalqla
Və şərəf sayanı səcdə qılmağı,
Səninlə təmasda hər gün olmağı;
Umduğu tək, edən sadiq xidməti
Sayəndə qazanan varı, rəhməti!
İnşaallah.
Üz tutub qibləhə daim ibadət

Edəni, qoymazsan üzə səfalət!
Hər cana verirsən, əlavə qüvvət
Bəşəri edirsə namaza dəvət!
İnşaallah.
İlahi, sanına ucalmır məgər
Hər dildə, dinlərdə «Allahu əkbər»?!
İnamla deyənin: «Allahu əkbər»!
Niyyətli qəlbində salırsan lövbər.
Müqəddəs ruhuna sitayişini
Edənin, yapansan xoş xahişini!
İnşaallah.
İlahi, yaradıb yetirdiyini,
Atalıq qayğınla pay verdiyini,
Haqları qoruyan ədalətini,
Niyətlər çin edən kəramətini
Fərəhlə təmasda dəyərləndirən,
Ehtiram, hörmətin Sənə bildirən
Hər cinsin olubdur namaz, səcdəsi -
Bağlılıq rəmzinin tam ifadəsi!
Bu, edir birliyə dəvət hamını,
Bərkidir etiqad həm inamını.
Həm vadar eləyir düşünməyə də,
İmanın olmaqla öyünməyə də!
Misilsiz gücün var, cəsarətin də,
Könülsüz yox bir can itaətində!
İnşaallah.
**Ey insan**, niyyətli ərz mərasimi,
Allaha etiraf qırıb tilsimi
Dönərsə gündəlik vərdişimizə,
Yardımdır həmrəylik və işimizə!
Hər bir kəs namaza etsəydi adət
Qalmazdı milli nə dini rəqabət.

Yapan bir amildir, xalqın birliyin,
Qardaşlıq zəmnində bərabərliyin!
Allahın sığına böyüklüyünə,
Bəxş etmiş hər şeyin öyə, öyünə
Ki, bütün varlığın Yaradanıdır,
Gözünün nurudur, gücü, canıdır!
Onadır, səcdəmiz-ibadətimiz,
Verdiyi həyatdır səadətimiz!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Xeyratın aldıqca gözəl vərdişdən
Sağlamlıq, təmizlik, gümrahlıq bədən,
Günbəgün bərkidir insaniyyətin -
Sarsılmaz dayağın ilahiyyatın,
İnşaallah.
Varlığın nümunə, ibrətgahının,
Müqəddəs, əvəzsiz bir Allahının
Namazdır bildirən qəbul anını,
Çağıran görüşə hər insanını!
Daima çalışır Yaradanımız
Nəvaziş, qayğısın duysun canımız.
Banisi və Rəbbi bu aləmlərin
Bəşərdən üzməyir yardım əllərin!
Yaradıb varlığı, öhdəsinə tək
Götürüb etməklə qulluğu gerçək.
Hər canın harayın O, anmağıyla,
Köməyə müntəzir dayanmağıyla
Layiqdir əbədi, hədsiz hörmətə,
Önündə səcdəyə və ibadətə!
Yox ona bərabər nəzərimizdə,
Ölçüsüz haqqı var üzərimizdə.
Xudavənd-aləmdir həm Pərvərdigar.
Ona tən, müqəddəs, pak kimimiz var?!

Yapdığı xilqətdən tən olmaz Ona!!
Körpə tək sığınıb Yer, Göy nuruna!
Əlhəmdü lillahi Rəbbil aləmin.

Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Cahanlar, aləmlər yapan da Sənsən,
Varlığa həyansan məhz xəlq edənsən!!
Behiştdən göndərdin Yerə Adəmi,
Tapşırdın: Hayana qoysa qədəmi
Təmasda diləyi çatar yanına,
Üz tutsa qiblənin asimanına!!
Göndərdin xüsusi təyinatıyla,
Mənəvi həm maddi təminatıyla!
Bununla, çəkməyə hər nazımızı
İlk nazil etmişdin namazımızı.
Biz artıb, yayıldıq Yer məkanında
Və çəkdik sınağa hər zəkanı da.
Yadlaşma bassa da hey başımızdan,
Silsə də çox şeyi yaddaşımızdan,
Şükür ki, sığındıq Allahımıza!
Oldu yol göstərən sabahımıza.
Hər zülmət guşəyə nuru saçılır,
Bəşərin bəsirət, gözü açılır
Ki, edək insanlıq zirvəsini fəth,
Zəkamız önündə diz çökə qəflət!
Nə qədər pak əli çiynimizdədir,
Güclüyük, gücü hər birimizdədir.
Təmasda Allahın hər bir carçısı,
İradə, hökmünün məhz icraçısı
Duyduqca kəramət və rəhmətini
Artırır öz rəhmin, mərhəmətini.

Duyduqca, təltifi behdir hər cana
Ki, edək səmimi qulluq Cahana.
Qaydalar qanunlar elə yaransın,
Əyani Behiştlik Yerdə canlansın!
Nuruyla nurlansın şüur-ağlımız
Yetirsin bəhrəsin bağlılığımız!
Günəşə bənzəyək əməlimizlə,
Dəyişək aləmi hünərimizlə.
Ümumi səylərin cəmiylə ancaq
Bərqərar olunar buyurduğu haqq!
Namaz qıl, niyyətin etməz xeyrin rədd!
Müstəqil həyatın görməz xəsarət.
Allaha yaxınlaş öz xatirinə!
O, əlac yetirər hər bir dərdinə.
Təki ol mübariz, dözümlü, mətin,
Carçısı, dayağı haqq-ədalətin!
Ölçülməz qüdrəti, gücü - Qalibdir,
Göylərə, Yerlərə sahib - Xaliqdir!
Hər qəlbin şəfqətli həbibi Odur,
Hər dərdin ecazkar təbibi Odur.
Dost tutub sığınsan kəramətinə
Qadirdir çatdıra xoş niyyətinə!
Yaradan varlığın yaradanıdır,
Gözünün nurudur, gücü, canıdır.
Əlində ömrümüz, aqibətimiz,
Qiyamət günümüz, axirətimiz!
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!!
Əlhəmdü lillahi Rəbbil aləmin.

**Unutmayaq ki**, gecə və sübh arasında niyyətlə əlavə qılacağımız fərdi namazın mənəvi dəyəri yüksək imanımızın təzahürüdür inşaallah.

## GÜNÜN NAMAZLARI

***Rəhman və Rəhim Allahın adı ilə***

***Niyyətimiz***: Alahın iradəsi ilə son peyğəmbərin bəşəriyyətə əmanət saxladığı dinin və şəriətin əsası olan vacib namazları öz niyyətlərinə uyğun **Ana dilimizdə** istiqamətləndirməkdir inşaallah.

***Unutmayaq ki***, Allahın bizə yetirdiklərinə, verdiklərinə, himayəsinə və qayğısına münasib Ona qayıdışımızla hesabatımız olacaqdır inşaallah.

**Gəlin, Allahımıza bir qədər də yaxınlaşağın və önündə könüllü, Niyyətli - Hidayət namazlarını qılaq inşaallah!**

**1. Sübh namazı:** (İbadətdən)

***Niyyətimiz***: Bir olan Allaha sübh ibadətimizlə günümüzü başlamaqdır inşaallah.

Namaza hazırlığın və namazın tam mövcud şərtləri ilə və ya istəsəniz fərdi bu qaydada: Ən azı təzim 3-5, səcdə 5-7 saniyə qılmaq məsləhətdir inşaallah.

***Niyyətimizin ərzi***: İlahi, bəxş etdiyin sağlıq və əmin-amanlıqla iradənə arxalanıb Sənə sığınaraq, özümüzə xatir bu vacib namazı qılırıq inşaallah.

Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

**Fatihə**

------------------------- oxunur.

**1.** Allahu əkbər!.. (ayaq üstə təzim edib),
Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)
Əşhədü ən la ilahə illəllah.
Əşhədü ən nə Muhammədən... (təzim edib)
Rəsulullah. (deyilir).
Allahu əkbər!.. (təzim edib, diz üstə durub)
Allahu əkbər!.. (səcdə qılıb, ayağa durub)
Əşhədü ən la ilahə illəllah

Əşhədü ən nə Muhammədən... (<u>təzim edib</u>)
Rəsulullah (<u>deyilir</u>).
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...
Ey ulu Tanrımız, ey Pərvərdigar
Sənə tən, müqəddəs, pak kimimiz var?
Ölçülməz qüdrətin, gücün - Qalibsən,
Göylərə, Yerlərə sahib - Xaliqsən!
Qərar və hökmünə sədd yox heç yanda -
Burda, həm neçə min sirli kahanda,
Bir Sənsən əbədi, xilqətin çoxdur,
Müqəddəs və təksən, şərikin yoxdur!!
Varınla varlanır varlıqlar qərəz,
Ən varlı Varlıqsan yox Sənə əvəz!
Əlində ömrümüz, aqibətimiz,
Qiyamət günümüz, axirətimiz.

**2.** Allahu əkbər!.. (<u>çöküb səcdə qılıb, diz üstə durub</u>)
Banisi və Rəbbi bu aləmlərin,
Ən ali Şahidi iş - əməllərin.
Sahibi hər elmin, ağıl-kamalın,
Bərəkət nemətin, izzət-calalın.
Haqların haqqısan, uğurlar uğru,
Əməli salehsən, xeyirxah doğru.
Hər qəlbin şəfqətli həbibi Sənsən.
Hər dərdin ecazkar təbibi Sənsən.
Daima möhtacıq kəramətinə,
Mərhəmət rəhminə və rəhmətinə.
Sənədir səcdəmiz, ibadətimiz,
Verdiyin həyatdır səadətimiz!

Allahu əkbər!.. (<u>çöküb, səcdə qılıb, ayağa durub</u>)
Əşhədü ən la ilahə illəllah.
Əşhədü ən nə Muhammədən... (<u>təzim edib)</u>

Rəsulullah (deyilir).

Bismillahirrəhmanirrəhim.
Əlhəmdü lillahi Rəbbil aləmin...
Hər anın hökmünə gətirməyə tab,
Hər dildə, dinlərdə Sənədir xitab.
Hər nədən, hər kimdən görsək yamanı
Bir Səndən dilərik möhlət, amanı.
Qəbul et, səyimi və niyyətimi,
Önündə səcdəmi, ibadətimi!

**3.** Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)

Rəhman və Rəhim Allah, adınla bu Sübh namazımızı bitiririk inşaallah.

İlahi, Sənə sığınıb, Sənə pənah gətirmişik. Bu verdiyin hər yeni möhlət və səlahiyyətə görə Sənə şükür edirik. Bizi tək qoyma, sevdiklərinə tərəf yönəlt ki, rəğbətini qazananlardan, öndə gedənlərdən və Sənə sədaqətlilərdən olaq inşaallah.

İlahi, ibadətimizi qəbul et. Sən hər cür tərifə və ibadətə layiq pak və müqəddəssən! Nəzərin üzərimizdən əskik olmasın inşaallah. Allahumməsəlli əla Muhammədin

Və ali Muhamməd.

Əssalamü əleyküm (nəzərlər başımıza...) və rəhmətullahi (nəzərlər sol çiynimizə...) və bərakətuhu (nəzərlər sağ çiynimizə...), Əlhəmdü lillahi Rəbbil aləmin (nəzərlər qiblləhə tərəf yönəlir). Amin (deyilir).

- Ya Allah!.. (deyib təzim edib, ayağa durmaq məsləhətdir).

## 2. Səhər namazı

***Rəhman və Rəhim Allahın adı ilə***

***Niyyətimiz***: Bir olan Allahdan uğurlar diləməkdir inşaallah.

Namaza hazırlığın və namazın tam mövcud şərtləri ilə və ya istəsəniz fərdi bu qaydada: Ən azı təzim 3-5, səcdə 5-7 saniyə qılmaq məsləhətdir.

***Niyyətimizin ərzi:*** İlahi, bəxş etdiyin sağlıq və əmin

amanlıqla iradənə arxalanıb Sənə sığınaraq, özümüzə xatir bu vacib namazı qılırıq inşaallah.

Allahumməsəlli əla Muhamməddin
Və ali Muhamməd.
Əlhəmdü lillahi Rəbbil aləmin...

**1.** Allahu əkbər!.. (ayaq üstə təzim edib)
Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)
Əşhədü ən la ilahə illəllah
Əşhədü ən nə Muhamməədən... (təzim edib)
Rəsulullah (deyilir).
Allahu əkbər!.. (təzim edib, diz üstə durub)
Allahu əkbər!.. (səcdə qılıb, ayağa durub)
Əşhədü ən la ilahə illəllah.
Əşhədü ən nə Muhamməədən... (təzim edib)
Rəsulullah (deyilir).
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...
Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran
Daima halisən bu səbrimizdən.
Himayən, qayğınla tut əlimizdən.
Dilərik təmin et, uğurumuzu.
Şövqünlə nurlandır Sən yolumuzu!

**2.** Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)
İltifat göstərən, lütf əskiltməyən.
Önündə heç kəsin haqqı itməyən.
Sənsiz, yox həyatda uğrumuz, vallah!
Nəzər et haqqımız qorunsun, Allah.
Qoy, əmin-amanlıq olsun aləmdə.
Uğurlu, sevincli gün ailəmdə!
Allahu əkbər!.. (səcdə qılıb, ayağa durub)
Əşhədü ən la ilahə illəllah.

Əşhədü ən nə Muhammədən... (təzim edib)
Rəsulullah (deyilir).

Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...
Himayən qorusun bizi azardan,
Xatadan, bəladan, mərdimazardan.
Bədnəzər gözlərdən, cadu yazardan.
Qəbul et, səyimi və niyyətimi,
Önündə səcdəmi, ibadətimi.

**3.** Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)

Rəhman və Rəhim Allah adınla bu Səhər namazımızı bitiririk inşaallah.

İlahi, Sənə sığınıb, Sənə pənah gətirmişik.İmanımızı kamil et ki, iradə və hökmünü niyyətimiz kimi həyata keçirənlərdən, Sayəndə adımız dərgahında iftixarla çəkilənlərdən olaq inşaallah.

İlahi, niyyətimizi qəbul et. Sən niyyətləri qəbul edənlərin ən əlası və alisisən! Günümüzü uğurlu et. Qayğın üzərimizdən əskik olmasın inşaallah.

Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

Əssalamü əleyküm (nəzərlər başımıza...) və rəhmətullahi (nəzərlər sol çiynimizə...) və bərakətuhu (nəzərlər sağ çiynimizə...), Əlhəmdü lillahi Rəbbil aləmin (nəzərlər qiblədə tərəf yönəlir). Amin (deyilir).

- Ya Allah!.. (deyib təzim edib, ayağa durmaq məsləhətdir).

## Haqqı-niyyət

***Rəhman və Rəhim Allahın adı ilə***

Cümə axşamının səhər namazına bu əlavə məsləhətdir.

Əlhəmdü lillahi Rəbbil aləmin...
Ey bizi yaşadan, kamilləşdirən.
Ən yüksək kürsüdə həm əyləşdirən.

Xoş niyyət, səyimiz çıxmaya boşa
Və ömrü mənalı çatdıraq başa,
Hər gecə silkinir can keçmişindən
Ki, saleh yapışsın qalmış işindən.
Yaşayıb mənsubluq ömür illərin,
Olmağa sahibi xariqələrin
Çağırır imdada, köməyə Səni.
Ey yapan xəlqinin zəfərlərini!

Var-dövlət, sağlamlıq, işimizin bərk
Vəhdətlik qurduğun elədikcə dərk
İlahi, dilərik hər üçün Səndən.
Razı sal tutanı pak ətəyindən.

**Hər səhər və günorta namazının sonunda**

Bu duaları ərz etmək istəsəniz məsləhətdir:

**1.** İlahi, bu aləmi tərk etmiş peyğəmbərlərin, nəbilərin, imamların, saleh əməlli, xeyirxah niyyətli kəslərin-alimlərin, ziyalıların, müctəhidlərin, şəhidlərin, seyidlərin, qəriblərin, kimsəsizlərin, doğma-əzizlərin, yaxın qonşu və dostların, məsləki-dini bir bacı-qardaşların ruhların şad et.

Bismillahirrəhmanirrəhim…
Tükənməz sahibi ey mərhəmətin
Hər vəfat edənə çatır rəhmətin.
İzin ver, ömrünü bitirənləri,
Pənah o aləmə gətirənləri
Ehtiram hörmətlə bir an yad edək,
Onların ruhuna səlavat deyək.
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

Allah, onlara rəhmət et. Yerləri Behiştlik olsun.

**2.** İlahi, iradənlə varidatımızı qoruyanlara və əhatəmizdəki məsləki-dini bir olan o gözə görünməz (<u>Mələklərə, Ruhlara, Cinlərə</u>) varlıqlara və hər əziz bəndənə

Sənin rəhmətin və salamın olsun.
Hamımıza həyan ol. İradə və hökmünü əlbir həyatda uğurla tətbiq edənlərdən və sayəndə adımız dərgahında iftixarla çəkilənlərdən olaq inşaallah.

**3.** İlahi, ailə üzvlərimizə, əzizlərimizə, yaxın qonşu və dostlarımıza, məsləki, dini bir bacı-qardaşlarımıza Səndən sağlamlıq, əmin-amanlıq və bərəkət diləyirik. Rəğbətini qazananlardan və Sənə sədaqətlilərdən olaq inşaallah.

İlahi, sayəndə yarımçıq işlərimizi önündə tamamlayanlardan olaq inşaallah.

Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

### 3. Günorta namazı

***Rəhman və Rəhim Allahın adı ilə***

***Niyyətimiz:*** Bir olan Allahdan yardım və kömək diləməkdir inşaallah.

Namaza hazırlığın və namazın tam mövcud şərtləri ilə və ya istəsəniz fərdi bu qaydada: Ən azı təzim 3-5, səcdə 5-7 saniyə qılmaq məsləhətdir.

***Niyyətimizin ərzi***: İlahi, bəxş etdiyin sağlıq və əmin amanlıqla iradənə arxalanıb Sənə sığınaraq, özümüzə xatir bu vacib namazımızı qılırıq inşaallah.

Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Əlhəmdü lillahi Rəbbil aləmin...

**1.** Allahu əkbər!.. (ayaq üstə təzim edib)
Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)
Əşhədü ən la ilahə illəllah
Əşhədü ən nə Muhammədən... (təzim edib)
Rəsulullah (deyilir).
Allahu əkbər!.. (təzim edib, diz üstə durub)
Allahu əkbər!.. (səcdə qılıb, ayağa durub)

Əşhədü ən la ilahə illəllah
Əşhədü ən nə Muhammədən... (təzim edib)
Rəsulullah (deyilir).
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin.
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Bəşərin əvəzsiz Sənsən dayağı,
Varına güvənir körpə sayağı.
Himayən hər nəslin olub həyanı.
Bir Səndən umuruq ömrün hər anı!

**2.** Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)
İlahi, qüdrətin təsvir edilməz.
Xəlqinin yolunda maneə bilməz.
Bizə çox gərəkdir yardım, köməyin
Ki, duyaq sevincin səy və əməyin.
Qoru məhz haqqımı ədalətinlə,
Niyyətim çin olsun kəramətinlə.

Allahu əkbər!.. (səcdə qılıb, ayağa durub)
Əşhədü ən la ilahə illəllah.
Əşhədü ən nə Muhammədən... (təzim edib)
Rəsulullah (deyilir).
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...
Səninlə bağlıdır zəfərlərimiz.
Ömrümüz, işimiz, səfərlərimiz.
Qəbul et, səyimi və niyyətimi.
Önündə səcdəmi, ibadətimi.

**3.** Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)

Rəhman və Rəhim Allah adınla bu Günorta namazımızı bitiririk inşaallah.

İlahi, Sənə sığınıb, Sənə pənah gətirmişik. Sayəndə

qazancımız həmişə, hər yanda sabitliyimizi təmin edəcək rəhmətin olsun inşaallah.

İlahi, niyyətimizi qəbul et. Sən niyyətləri qəbul edənlərin ən əlası və alisisən! Yardımın və köməyin üzərimizdən əskik olmasın inşaallah.

Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

Əssalamü əleyküm (nəzərlər başımıza...) və rəhmətullahi (nəzərlər sol çiynimizə...) və bərakətuhu (nəzərlər sağ çiynimizə...), Əlhəmdü lillahi Rəbbil aləmin (nəzərlər qibləhə tərəf yönəlir). Amin (deyilir).

- Ya Allah!.. (deyib təzim edib, ayağa durmaq məsləhətdir).

**Haqqı-niyyət**

***Rəhman və Rəhim Allahın adı ilə***

Cümə axşamının günorta namazına bu əlavə məsləhətdir.

Əlhəmdü lillahi Rəbbil aləmin.
Nə etsək, törətsək Sən ələyirsən,
Xeyirxah işləri dəstəkləyirsən.
İnamla tutmuşam pak ətəyindən.
Üzmə bu möhtacı məhz köməyindən.
Yardım et, məndən də diləyənim var,
Ümidlə, həsrətlə gözləyənim var.
Yardım et, bitirim başladığımı.
Halal et, sayəndə məhz aldığımı.
Kömək et, zəhmətim çıxmaya puça.
Qazancım hər yanda könlümü aça!
İnşaallah.
İlahi, ölçülməz mənəvi xərac
Mömінin olarsa kafirə möhtac.
Əstafurullah.

**4. Şam namazı**

***Rəhman və Rəhim Allahın adı ilə***

***Niyyətimiz:*** Bir olan Allaha günümüz üçün şükür etməkdir inşaallah.

Namaza hazırlığın və namazın tam mövcud şərtləri ilə və ya istəsəniz fərdi bu qaydada: Ən azı təzim 3-5, səcdə 5-7 saniyə qılmaq məsləhətdir.

***Niyyətimizin ərzi:*** İlahi, bəxş etdiyin sağlıq və əmin amanlıqla iradənə arxalanıb Sənə sığınaraq, özümüzə xatir bu vacib namazımızı qılırıq inşaallah.

Allahumməsəlli əla Muhamədin
Və ali Muhamməd.
Əlhəmdü lillahi Rəbbil aləmin...

**1.** Allahu əkbər!..(ayaq üstə təzim edib)
Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)
Əşhədü ən la ilahə illəllah.
Əşhədü ən nə Muhammədən... (təzim edib)
Rəsulullah (deyilir).
Allahu əkbər!.. (təzim edib, diz üstə durub)
Allahu əkbər!.. (səcdə qılıb, ayağa durub)
Əşhədü ən la ilahə illəllah
Əşhədü ən nə Muhammədən... (təzim edib)
Rəsulullah (deyilir).
Bismillahirrəhmairrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...
Ey bütün varlığın Banisi, Rəbbi
Həm verən təlimi, ruzi və həbbi.
And olsun, xəlqinə Varlığındır bəs.
Şükür ki, kölgəndə alırıq nəfəs.
Sənsən həm dinimiz, etiqadımız!
Varsan ki, əminik var imdadımız.

**2.** Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)
Şükürlər ruzinə, bərəkətinə.
Kəramət, rəhmindir bu lütfün yenə.

Himayən və qayğın yaşadır bizi,
Qoruyur rahatlıq, dincliyimizi.
Tutulur şanına dəstəmazımız.
Şükürdür Varına şam namazımız!

Allahu əkbər!.. (səcdə qılıb, ayağa durub)

Əşhədü ən la ilahə illəllah
Əşhədü ən nə Muhammədən... (təzim edib)
Rəsulullah (deyilir).
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...
Niyyətli hər namaz, səcdəmiz gündə
Məhz şükür etməkdir Sənin önündə!
Qəbul et səyimi və niyyətimi.
Önündə səcdəmi, ibadətimi.

**3.** Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)

Rəhman və Rəhim Allah adınla bu Şam namazımızı bitiririk inşaallah.İlahi, Sənə sığınıb, Sənə pənah gətirmişik.Verdiklərinə, yetirdiklərinə həyanlığına görə və iradənlə varidatımızı qoruyanların şərəfinə və əhatəmizdəki məsləki-dini bir olan o gözə görünməz varlıqların naminə və hər əziz bəndənə xatir Sənə minnətdarlığımızı, təşəkkürümüzü və şükürlərimizi yetiririk. Səndən savayı heç kəsə möhtac olmayaq inşaallah.

İlahi, şükürlərimizi qəbul et. Sən bütün şükürlərə layiq pak və müqəddəssən! Kəramətlisən! Himayən üzərimizdən əskik olmasın inşaallah.

Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

Əssalamü əleyküm (nəzərlər başımıza...) və rəhmətullahi (nəzərlər sol çiynimizə...) və bərakətuhu (nəzərlər sağ çiynimizə...), Əlhəmdü lillahi Rəbbil aləmin (nəzərlər qibləhə tərəf yönəlir). Amin (deyilir).

- Ya Allah!.. (deyib təzim edib, ayağa durmaq məsləhətdir).

## Haqqı-niyyət

***Rəhman və Rəhim Allahın adı ilə***

Cümə axşamının şam namazına bu əlavə məsləhətdir.

Əlhəmdü lillahi Rəbbil aləmin.
Həyatda olmayır ziyanımız az.
Mərhəmət və rəhmin yenə azalmaz.
Şükür o tükənməz təmkin, səbrinə,
Ey bizi gətirən imana, dinə.
Gərək səy-zəhmətin unudulmaya,
Önündə naşükür bəndən olmaya!
Ölçülməz yaradıb yetirdiklərin,
Atalıq qayğınla pay verdiklərin.
Sənə sidq ürəklə kim meylin salır
İmana gəldikcə səhvi azalır.
Zülmətdən çıxırsa kim işığına
Dönürsən ömrünün yaraşığına.
Şükür və təriflər bu sayğınadır,
Var-yoxa qayğınla həm yanğınadır.
Yox Sənə bərabər nəzərimizdə.
Ölçüsüz haqqın var üzərimizdə.
Sevilən müqəddəs bir Varlıqsan pak
Ki, duyur öyməyi iftixar idrak!!

## 5. Gecə namazı

***Rəhman və Rəhim Allahın adı ilə***

***Niyyətimiz***: Bir olan Allaha bu günümüzə görə sidq etirafımızı bildirməkdir inşaallah.

Namaza hazırlığın və namazın tam mövcud şərtləri ilə və ya istəsəniz fərdi bu qaydada: Ən azı təzim 3-5, səcdə 5-7 saniyə qılmaq məsləhətdir.

***Niyyətimizin ərzi***: İlahi, bəxş etdiyin sağlıq və əmin amanlıqla iradənə arxalanıb Sənə sığınaraq, özümüzə

xatir bu vacib namazımızı qılırıq, inşaallah.
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

**Fatihə.**

----------------------------------
------------------------- oxunur.

**1.** Allahu əkbər!.. (ayaq üstə təzim edib)
Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)
Əşhədü ən la ilahə illəllah.
Əşhədü ən nə Muhammədən... (təzim edib)
Rəsulullah (deyilir).
Allahu əkbər!.. (təzim edib, diz üstə durub)
Allahu əkbər!.. (səcdə qılıb, ayağa durub)
Əşhədü ən la ilahə illəllah.
Əşhədü ən nə Muhammədən... (təzim edib)
Rəsulullah (deyilir).
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin.
Ey ulu Tanrımız, ey Pərvərdigar
Sənə tən, müqəddəs, pak kimimiz var?!
Səninlə bağlıdır bu rifahımız.
Sənədir səmimi etirafımız.
Sığınıb o böyük kəramətinə
Məhz ümid bəslərəm mərhəmətinə.
Dilərəm bir anlıq Səndən amanı,
Rəhminə hər canın vardı gümanı!
**2.** Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)
Bir Sənsən bəşərin ümid, pənahı,
Bilən dərd-sərini, yuyan günahı.
Adilsən, bağışla bir bəndən kimi
Bilib ya bilməyib etdiklərimi.
Bağışla qəbahət, günahlarımı.

Rəhmətin eləsin rahat varımı.
Qəbul et, ruhumu pak məkanına.
Həyan ol, həyatda hər qalanına.
İlahi, amin.

Allahu əkbər!.. (səcdə qılıb, ayağa durub)
Əşhədü ən la ilahə illəllah
Əşhədü ən nə Muhammədən... (təzim edib)
Rəsulullah (deyilir).

Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...
Himayən qoruyub bizi azardan.
Xatadan, bəladan, mərdimazardan.
Bədnəzər gözlərdən, cadu yazardan.
Qəbul et, səyimi və niyyətimi.
Önündə səcdəmi, ibadətimi.

**3.** Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)

Rəhman və Rəhim Allah adınla Gecə namazımızı bitirməklə bu günümüzü tamamlayırıq inşaallah.

İlahi, Sənə sığınıb, Sənə pənah gətirmişik.Verdiyin nemətlərindən bizi məhrum etmə. Sayəndə yarımçıq işlərimizi önündə tamamlayanlardan olaq inşaallah.

İlahi, etirafımızı qəbul et. Sən tövbə və etirafları qəbul edənlərin ən mərhəmətlisi, səbirlisi və rəhimlisisən. Rəhmətin üzərimizdən əskik olmasın, sabahımızı bu günümüzdən də gözəl et inşaallah.

Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

Əssalamü əleyküm (nəzərlər başımıza...) və rəhmətullahi (nəzərlər sol çiynimizə...) və bərakətuhu (nəzərlər sağ çiynimizə...), Əlhəmdü lillahi Rəbbil aləmin (nəzərlər qibləhə tərəf yönəlir). Amin (deyilir).

- Ya Allah!.. (deyib təzim edib, ayağa durmaq məsləhətdir).

## Haqqı-niyyət

***Rəhman və Rəhim Allahın adı ilə***

**Cümə axşamının gecə namazına bu əlavə məsləhətdir**

İradən yetirib bizə buyruğu,
Can-başla həyata edən qulluğu
Yön tutur pak Sənin haqq dərgahına,
Qazanır əfvini hər günahına!
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində.
Belə bir tədbirin qayğıdır bizə,
Ən düzgün qiymətdir əməlimizə.
Kəramət rəhminə gətirrik pənah,
Hər mümkün bəladan hifz elə, Allah.
Amin, ya Rəbbim.

***Rəhman və Rəhim Allahın adı ilə***

**Oruc tutanlar üçün Sübh namazının sonunda bu əlavə məsləhətdir.**

İradə, hökmünə mən arxalanıb,
Orucun amalın, məramın anıb,
Sığınıb mərhəmət kəramətinə
İlahi, keçirəm riayətinə.
Edim bu niyyəti əməlimlə ərz,
Alasan əyani işlərimdən həzz!

**Şam namazının sonunda bu əlavə məsləhətdir:**

İradə, hökmünü Allah yetirdim.
Sayəndə orucu şükür bitirdim.
Adilsən bağışla bir bəndən kimi
İlahi, bilməyib etdiklərimi.
Məmnunuq lütfündən həm izzətindən.
Verdiyin ruzidən və nemətindən,
İzn ver nuş edək bərəkətindən.

**Haqqı-niyyət**

***Rəhman və Rəhim Allahın adı ilə***

**Pirlərdə, ocaqlarda qılınan namaza bu əlavə məsləhətdir**

Ey ulu Tanrımız, ey Pərvərdigar
Sənə tən, məqəddəs, pak kimimiz var?!
Hər qəlbin şəfqətli həbibi Sənsən.
Hər dərdin ecazkar təbibi Sənsən.
Ümidlə gəlmişəm pirə – ocağa
İlahi, həyan ol, qalxım ayağa.
Məhz qoyma sönməyə ocağımızı.
Şövqünlə nurlandır çırağımızı.
Möhtacam rəhminə ulu Yaradan,
Çıxart bu düşdüyüm dərddən-bəladan.
Məndən də umanım, diləyənim var.
Ümidlə, həsrətlə gözləyənim var.
(Şəfa ver) və qoru məni azardan.
Xatadan, bəladan, mərdiməzardan,
Bədnəzər gözlərdən, cadu yazardan!
Əlhəmdü lillahi Rəbbil aləmin.

**Haqqı-niyyət**

***Rəhman və Rəhim Allahın adı ilə***

**Süfrə arxasında deyilənlərə bu əlavə məsləhətdir**.

Ey bütün varlığın Banisi, Rəbbi
Həm verən təlimi, ruzi və həbbi.
Daima yaradıb yetirdiklərin
Atalıq qayğınla pay verdiklərin
Bəşərin əvəzsiz var-nemətidir,
Məhs Sənin varlığın səadətidir!
Məmnunuq lütfündən, kəramətindən,
Verdiyin ruzidən və nemətindən.
İzn ver nuş edək bərəkətindən.
Əlhəmdü lillahi Rəbbil aləmin.

## ETİRAF

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey ulu Tanrımız, ey Pərvərdigar
Sənə tən, müqəddəs, pak kimimiz var?!
Səninlə bağlıdır bu rifahımız.
Sənədir səmimi etirafımız.
Sığınıb o böyük kəramətinə
Məhz ümid bəslərəm mərhəmətinə.
Diləərəm bir anlıq Səndən amanı,
Rəhminə hər canın vardı gümanı.
Bir Sənsən bəşərin ümid, pənahı,
Bilən dərd-sərini, yuyan günahı.
Adilsən, bağışla bir bəndən kimi
Bilib ya bilməyib etdiklərimi.
Bağışla qəbahət, günahlarımı,
Rəhmətin eləsin rahat varımı.
Qəbul et, ruhumu pak məkanına,
Həyan ol, həyatda hər qalanına
Inşaallah.
Iradən yetirib bizə buyruğu,
Can-başla aləmə edən qulluğu
Yön tutur pak Sənin haqq dərgahına,
Qazanır əfvini hər günahına.
Ədalət və haqqın çərzivəsində,
Ən ali adillik səviyyəsində.
Belə bir tədbirin qayğıdır bizə
Ən düzgün qiymətdir əməlimizə.
Kəramət, rəhminə gətirik pənah
Hər mümkün bəladan hifz elə Allah!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Amin.

## ORUC

***Rəhman və Rəhim Allahın adı ilə***

***Niyyətimiz***: Orucun ali amallarını açıqlamaqdır inşaallah

Əlhəmdü lillahi Rəbbil aləmin
Əbədi sahibi bu kainatın,
Ən ali hakimi mövcud həyatın.
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Bizə bu kahanda Varlığındır bəs!
Şükür ki, kölgəndə alırıq nəfəs.
Şükürlər rəhminə, təmkin səbrinə,
Ey, bizi gətirən imana, dinə.
Yox qalan kənarda nəzarətindən,
İltifat, lütfündən o izzətindən.
Bilirik, yazırlar xeyiri-şəri,
Çıxartsın hökmünü öz əməlləri.
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində.
Xəlqinə sevgindən yaranan bu təb
Ehtiram, qibtəyə olubdur səbəb.
Yeganə, müqəddəs bir varlıqsan pak
Ki, duyur öyməyi iftixar idrak!
Olmusan dinimiz, etiqadımız,
Varsan ki, əminik var imdadımız!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Adəmdən başlayıb kəramətinlə,
Himayən, qayğınla, mərhəmətinlə
Qazanıb nəsillər hey nemətləri,
Toplayıb hesabsız qənimətləri!
Sayəndə olunub elmlər də fəth

Həm mövcud tərəqqi, qabillik, qüdrət.
Hər zülmət guşəyə nurun saçılır,
Bəşərin bəsirət gözü açılır.
Sayəndə artsa da nailiyyətlər
Hələ çin olmayan qalıb niyyətlər
Ki, etsin firavan həyatımızı,
Böhranlar didməsin bu zatımızı!
Hifz etsin bəşəri bəladan, dərddən,
Qorusun səfalət, fəlakətlərdən!
İnşaallah.,
Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran
Dinləyib xalqların hey harayını
Yetirdi rəhmanlı Oruc ayını
Peyğəmbər Məhəmməd həzrətlərilə,
Məqsədli, məramlı öz şərtlərilə!
Min neçə yüz ildir təşrif buyurub,
Müstəsna xeyrilə qulluqda durub.
Nəsildən-nəsilə, ellərdən-elə
Keçdikcə imanın toplayır hələ
Və ona hey artır tələbatımız,
Olub bir məlhəmlik həb-sovqatımız!
İnşaallah.
O bizim nümunə, ibrətgahımız,
Müqəddəs, əvəzsiz bir Allahımız.
**Zəruri təlimin** açıqlar, yenə
Ki, yetsin bütün var sahiblərinə:
- Nə qədər olsaz da möhtəbər, salim,
Vəzifə, rütbəli və məşhur alim,
Sizləri üzmürsə ehtiyac, kədər,
Sanmayın varınız imdada yetər!
Bəşərin puç olar nailiyyəti

Ucalda bilməsə insaniyyəti,
Mərhəmət, rəhmini və amanını,
Zəruri şəriət, din-imanını!
Şəriət və dinin təlimlərilə
Hər elmin-peşənin alimlərilə
Etməsəz insanlıq zirvəsini fəth,
Bəşəri  qüdrətə diz çökməz qəflət!
Dəyişməz daxili təbiətiniz,
Bərkiməz ləyaqət, qətiyyətniz,
Salehlik hər işin olmaz təməli,
Günəşlə bəhs etməz insan əməli.
Bununla bağlıdır aqibətiniz,
Qiyamət gününüz, axirətiniz!
**Banisi və Rəbbi bu aləmlərin,**
**Ən ali Şahidi iş-əməllərin.**
Yaradıb dayağın xoş duyğu-hissin,
Cəngindən olmağa azad bəd nəfsin!
Ayırdı məramlı Ramazan ayın,
Görsün hər bəndənin səxavət payın:
- Körpəyə-qocaya, əlil-xəstəyə,
Yetimə-yesirə, qərib-kimsəyə,
Qohuma-qonşuya, soydaşlarına
Dini bir bacı və qardaşlarına.
Həm həlim, mülayim, xoş ünsiyyətin,
Həm yüksək mərifət, mədəniyyətin.
Mənəvi və maddi həm qayğısını,
İnsani rəftarın həm sayğısını.
Gördükcə ləyaqət və imanını,
Artırsın kəramət və həyanını,
Eləsin mübariz, dözümlü, mətin,
Carçısı, dayağı haqq-ədalətin.
Zəhməti bəzəsin onun ömrünü,
Uğuru hər yanda açsın könlünü!

Sahibi olmağa pak dəyərlərin,
Keçməyə təlimin bu hünərlərin,
Dinləyib xalqların hey harayını
Allahdır yetirən Rəhman ayını!
Dəf edə qayğılı zəhmət birliyi
Səfalət, cəhalət və geriliyi!
Hər bilən orucun amallarını,
Bəd nəfsi boğmağın haqq-yollarını
Canın ram edər hər xüsusiyyətin,
Hər hissin, istəyin, hər bir cəhətin!
Özünü idarə etmək tədbiri
Bərkidər dözümü, iradə, səbri.
Getdikcə artırar kəramətin də,
Məxsusluq rəhmin də, mərhəmətin də.
Artırar qayğısın, adilliyin də
Həyanın, amanın, adiliyin də.
Odur bir sütunu dinin, imanın!
Artıran hünərin, vəfasın canın.
Bilsin, Yer üzündə bütün millətlər,
***O cəhddir!*** Qalmasın arada sədlər!!
Yapsın xoş insani ünsiyyətləri,
Söndürsün vüsətli ədavətləri!
Bərkitsin ellərin əlaqələrin,
Dəyişsin əxlaqın təbəqələrin!
Orucu yetirib, qəbul edək tam,
Bu xəstə mühitə qılaq bir əncam!
Əbədi həmrəylik, dostluq qurula,
Bulanıq duyğular, hisslər durula.
Ümumi səylərin cəmiylə ancaq
Bərqərar olunar buyrulan bu haqq!
Uymayaq bəd, nəfsə - şeytanımıza.
Qıymayaq ruhumuz və canımıza!

Bu məxsus bəşərə Rəhman ayında
Ki, rahat diləyək niyyət payın da
Xaliq də artırıb qəbul anını,
Üç gecə dinləyir hər imanını!
İnamlı qəlbində məşəl yandırsın,
Hər bir xoş niyyətin məhz canlandırsın!
İlahi, amin.

Ey bizi yaşadan, kamilləşdirən,
Ən ali kürsüdə həm əyləşdirən.
Hər şəxsə həyatda ali siyasət
Hökmünün etməkdir təbliğini qət
Ki, qayda-qanunlar elə yaransın.
Bu Yerdə Behiştlik daim canlansın!
İnşaallah.
İradə, hökmünə biz arxalansaq,
Orucun məram və amalın ansaq,
Arasaq hər kəsin itirdiyini,
"Quran-i-Kərim"in yetirdiyini,
Görərik bu gərgin müasir dövrü
Ramazan ayının gödəkdir ömrü.
Çünki yol veririk hədsiz israfa,
Çəkirik min cürə məşəqqət, cəfa!
Azalıb hər şeydə qənaətimiz,
İtir on bir ayda çox ziynətimiz.
Zəifdir mətanət, dəyanətimiz,
Basılıb ləyaqət, əzəmətimiz.
Qurşandıq hər cürə haram işlərə,
Bu, dönüb adət tək pis vərdişlərə!
Uyaraq bəd nəfsin tələblərinə
Baxmarıq nə rəhmə, insafa, dinə.
Və insan qayğısı, xoş ünsiyyəti

Günün ən tapılmaz olub neməti!
Nəfsimiz basdıqca hər haqqımızı,
Korlayır insani əxlaqımızı.
Yalan, zor, hiyləylə yapır qəfləti,
Artırır cəhalət və səfaləti!
Əstafurullah
Qururuq min çirkin oyun özümüz.
Nə qədər var yığsaq doymur gözümüz.
Özümüz, baisik fəryadımıza
Və yollar ararıq imdadımıza.
Nəfsimiz yaradan şeytana lənət!!
O, qoymaz qazanaq layiqli rəhmət.
Hər dövrə vəba tək dərd yükləyəndir.
Hər mənfur işlərə sürükləyəndir.
O, tabe olunsa iradəmizə,
İradlar tutulmaz idarəmizə.
Heç kəsin etməzdi təlx ovqatını,
Sarsıdıb, didməzdi yeddi qatını!
Elə sərt meydana dönübdür Cahan,
Məruzuq hər bir an verək imtahan!
İrtica gücünə həm tab gətirək,
İnsanlıq borcunu həm də yetirək.
İndi çox bəşərə rəhman gərəkdir,
Məhz oruc əyani təlim, örnəkdir!
Özünü idarə etmək-niyyəti
Kəsb edib ən böyük əhəmiyyəti!
Mənəvi həm maddi oluruq qarət,
Çətin ki, bunlara tapaq bəraət.
Hər yanda nadanlıq, rəzillik izi,
Nə kökə salmışıq aləmimizi?!
Əstafurullah.
Bəyəm hey ucalan şivən-fəryadlar

Göylərdə oyatmaz hədsiz iradlar?!
İnsanlıq görünmür nəfsin lığında.
Çıraqla baxsaq da Gün işığında!
Batdıqca günahın belə kirinə,
Əstafurullah.
Kim tapar o günü (!) dəlil xeyrinə?!
İnşaallah.
Əbədi sahibi bu kainatın,
Ən ali hakimi mövcüd həyatın.
Hökmünlə müqəddəs Ramazan ayı
Bölünüb hər aya düşərsə payı
Və Oruc tutulsa ayda bir həftə
Hamıya yetirər münasib nəf də!
Kaş iman gətirək bu tədbirinə,
Çevrilə o ilin üçdə birinə
Və dönə ən adi vərdişimizə
Ki, edə əvəzsiz xidməti bizə!
Nəfsilə döyüşdə bu pay hər kəsin
Məhz təmin eləyər tam təntənəsin!
Həmlədir qəflətin əsarətinə,
Dayaqdır ağılın bəsirətinə!
İnşaallah.
Ziyalın dəstəklər bunu birinci!
Hər mömin bəndənin artar sevinci.
Səninlə artdıqca yaxınlığımız
Çəkilər soyuqluq, paxıllığımız.
Mənəvi paklığı artırıb qat-qat
İnsani əxlaqdan versək hesabat
Və daim əl tutsaq bir-birimizə
Döyməri nə başa, nə dizimizə!
Bu mövcud düyünlər bir-bir açılar,
Hər zülmət guşəyə nurun saçılar!

Tədbirli təlimi ilahiyyatın
Əgər hər dövlətin, hər əyalətin
Tutsa öz yerini siyasətində
Aləm tam dəyişər qiyafətin də!
Qalmazdı nə kəskin münasibətlər,
Nə hərbdən törənən bu müsübətlər!
Söykənsək bərk dini dayağımıza
Yazılar min savab ayağımıza!
Salehlik ucaldar hər cəmiyyətin
Mənəvi intizam, mədəniyyətin.
Hər bir ay xeyrilə bəşər öyünsə,
Ayın son üç günü bayrama dönsə
Allah da artırar qəbul anını
Ki, etsin bəxtəvər hər imanını!
Ölçülməz qüdrəti, gücü - Qalibdir,
Göylərə, Yerlərə sahib - Xaliqdir!
Hər qəlbin şəfqətli həbibi Odur,
Hər dərdin ecazkar təbibi Odur.
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!!
Bismillahirrəhmanirrəhim
Təlim və təhlildə eləsək səhvi,
Ey ulu Tanrımız, dilərik əfvi.
Olmusan dinimiz, etiqadımız.
Varsan ki, əminik var imdadımız!

**Unutmayaq ki**, Oruc, nəinki bəşəriyyəti mənəvi ifratçılıqdan və maddi israfçılıqdan çəkindirən, nəinki qardaşlıq və yoldaşlıq hissilərin aşılayan hətda dövlətlər səviyyəsində təmənnasız kömək və yardımlar vasitəsilə mövcud təhlükələrdən, səfalət və cəhalətdən, rəzillik və zəlillikdən ümum qurtuluş üçün Allahın iradəsi ilə yetirilən əsaslandırılmış əvəzsiz bir təlimatdır inşaallah.

Əlhəmdü lillahi Rəbbil aləmin...

## CÜMƏ AXŞAMI

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey kamil Dünyanı quran, Banisi,
İstedad, idrakın mütləq Dahisi.
Yapdığın bu həyat, Xudavənd-aləm,
Ecazkar hüsnüylə bəşərə hər dəm
Nümayiş etdirir təb və cəhdini.
Yaşadır an və gün dəsti-xəttini!
Özünə münasib zənginliyilə,
Şüura sığmayan ənginliyilə.
Yaradıb varlığı, həm öhdənə tək
Götürüb edirsən qulluğu gerçək!
Hər canın harayın Sən anmağınla,
Köməyə müntəzir dayanmağınla
Layiqsən əbədi, hədsiz hörmətə,
Önündə səcdəyə və ibadətə!!
Əhsən bu hünərin, cəsarətinə,
Könüllü keçirik itayətinə.
Şükür və təriflər bu sayğınadır,
Var-yoxa yanğınla həm qayğınadır.
Əlhəmdü lillahi Rəbbil aləmin.
Dünyanın hikmətli sirləri saysız,
Aləmlər təmasda səssiz-haraysız;
Bir amal yapılır dörd mərhələdə,
Dörd səmtdə qızğın iş gedir hələ də.
Bu niyyət dörd gözəl cinsədir aid.
Dörd fərdi məqsəddir, idarə vahid!
Varından güc alıb, iradəndən nur
Şəkksiz bu, vüsətlə icra olunur.
Qiymətli anların günlərə dönür,
Əyani dəyəri aşkar görünür.
Hər günün hədsizdir xəlqə xidməti,

Zəruri nemətdir yoxdur qiyməti.
Mübarək adları Ərşindən enib,
Məramın, nizamın bəşər bəyənib.
Onlarla bağlıdır bu illərimiz,
Müxtəlif qayğımız, ümidlərimiz.
Hər biri yazır öz salnaməsini.
Görək və eşidək haqqın səsini!
Həm möhkəm bağlanaq bu məkanına.
Qoruyaq və duraq biz həyanına!
İnşaallah.
Adəmə qədər də çəkilib səylər,
Yeri bir Cənnətə döndərib Göylər!
Dərk edib çəkəyin məhz qulluğunu,
Fərəhlə yetirib hər buyruğunu.
Allahın doğruldub etimadını,
Adəmin qoruyub şərəf - adını.
Əyani Cənnətdə Behiştlik quraq,
Onlarda böyük bir həsəd doğuraq!
Dəyişək Cahanın abı-havasın,
Həyatın dəyərin, ömrün mənasın!
Qoruna əbədi asayişimiz,
Bəxş olan müstəqil yaşayışımız,
İnşaallah.
Ey sönməz Günəşi bütün xilqətin,
Adillik, paklığın, haqq - ədalətin.
Məhz cümə axşamı Həzrəti Adəm
İlkin bu torpağa basıbdır qədəm.
Cahanda O, məskən salandan bəri
Bu günün ölçülməz əsla dəyəri.
Yüz mindən daha çox peyğəmbərlərin
Məhz bu gün seçilmiş, tutmuş yerlərin.
Kəramət sahibi, bütün fərmanın,

Təlimin, tədbirin, rəhmin, amanın,
Bu gün hər aləmdə ani yayılır.
Həftənin güzgüsü bu gün sayılır!
Ərşin tam nurlanır yolları bu gün,
Hər mələk oraya yetirir yükün;
Xəlqinin əhvalın, ərz, ibadətin,
İmanın, paklığın, əməl, adətin,
Ehtiram, sevgisin Havadarına,
Mənsubluq mövqeyin, etibarına!
Kim necə yanaşır təyinatına,
Varislik yükünə təminatına.
İnşaallah.
Hər səhv bu axşamı oturur baha
Çünki, lap oluruq yaxın Allaha.
Hər mövcüd aləmin keçib qatını
Mələklər verdikcə hesabatını
O, salır həyanlıq nuruyla nəzər!
Tədbiri daim hər aləmi bəzər.
İnşaallah.
İlahi, həftənin ülvi gününü
Yapmaqla bəzədin xəlqin ömrünü.
Hər səyyar ruh oldu malik imkana
Ki, doğma, əzizin sorğusuz ana
Və cümə axşamı bu cənnət bağın
Pişvazı həm olur səyyar qonağın
Hər insan qəlbindən qopan duası,
Həm cənnət Cahanın abi-havası!
İnşaallah.
Bu günün niyyətli hər bir namazı
Sözsüz ki, salandır sahibin razı.
Bu gün yad olunur itgilərimiz,
Ruhu şad, öyünsün incilərimiz.

Səmavi hər kitab yetirir bunu -
Bu günün xüsusi yer tutduğunu!
Hər dəlil inadla salınır yada,
Həmrəylik günümüz getməyə bada.
O dini təlimlər gününə dönə,
Çəkilə ibadət, salehlik önə!
Körpədən-qocaya, fəhlədən-şaha
Bu gün tam xidmətdə olaq Allaha!
İnşaallah.
Ölçülməz qüdrəti, gücü - Qalibdir.
Göylərə, Yerlərə sahib - Xaliqdir.
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!!

***

Təlim və təhlildə eləsək səhvi,
Ey ulu Tanrımız, dilərik əfvi.
Olmusan dinimiz, etiqadımız.
Varsan ki, əminik var imdadımız!
Bismllahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...

**Unutmayaq ki,** Allahın iradəsi ilə varidatımızı qoruyan və tam dəqiqliklə qeyd edən o mələklərin şərəfinə də Allaha şükürlər etməliyik, çunki aqibətimiz o günü (!) sırf bu qeydiyatın nəticəsindən asılıdır inşaallah!

İlahi, amin.

## SEÇKİ

***Rəhman və Rəhim Allahın adı ilə***

Nəsillər ardıcıl əsrləri qət,
Bu günki naillik yüksəlişin fəth
Ediblər, yenə də nə qədər illər
Zəhmətlər gərəkdir açıla sirlər.
Bilək hər zərrənin tam qiymətini,
Artıraq dövranın naz-nemətini.
İnşaallah.
Olub sərt rəqabət meydanı Cahan,
Məruzuq hər bir an verək imtahan.
Bəlalar çəkilməz heç səmtimizdən
Yayınsa təlimi diqqətimizdən:
O, yazan hər canın məramnaməsin
Verən həm tətbiqlik gücün, nəfəsin,
Ayırır münasib icra yerlərin,
Versinlər həyata tam xeyirlərin.
Xidmətlər çələngin ilməksiz elə
Qapamış ən adil bir seçkisilə.
Seçkidir qabillik göstəricisi,
Hər ömrün ən vacib, labüd incisi.
Seçkini həyatın sahələrilə
Bağlayıb müxtəlif şaxələrilə.
Qavrayıb yanaşsaq məsul bu işə
Gərəksiz fəryadlar ucalmaz Ərşə.
Kəsilər bədbəxtlik törədən amil.
İzləməz məlunluq bizi ilbəil.
Nəfsimiz aldatmaz! Nə aldanardıq!
Nə günah işlədib odda yanardıq!
İradə etsəydi idarə onu
Bəşəri bir zəfər sayardıq bunu!
Tam haqqa xidmətdə görsək seçkini

Kökündən üzərdik qəzəbi-kini!
Seçkidə yalan, zor, hiylə yaramaz.
Pak olsa, doğmalıq, yadlıq aramaz.
Bir xalqı, dövləti çapmaz, talamaz.
Cahanda "cəhənnəm" odun qalamaz.
İnşaallah.
Tarixən arasaq xeyir və şəri
Hər eldə baş verən hadisələri,
Dəlillər çəkməyə qalmır ehtiyac,
Seçkilə başlayır bəla ya əlac.
Seçki hər tərəqqi, hər tənəzzülün,
Hər fikrin, niyyətin ilkin özülün
Yaradan başlıca bir amilidir.
Zəruri təlimlər-təlimidir bir!
Uğurlu-uğursuz, nurlu ya qara
Hər canı tuş edən belə anlara
Seçkidir. Bildirən qüdrətimizi.
Yüksəldən, sarsıdan qüvvətimizi.
Kamil bir seçkilə Xaliq xəlqinə
Münasib ruzini yetirməyinə
Pərəstiş olunan əyanilikdir.
Seçkisi ən ali bir adillikdir!
Münasib mühiti, vacib iqlimi,
Seçərək hər ömrə əsas şərt kimi
Minlərlə can növün yapmış, dirçəltmiş,
Qayğıyla onları yerbəyer etmiş.
Ahənglər, ətirlər, rənglər Kürəyə
Seçməyi əvəzsiz paydır hərəyə
Ki, möhkəm bağlanaq bu məkanına.
Qoruyaq və duraq biz həyanına!
Kürəni seçibdir varlığa Vətən.
Varsa da hüsnünə kainatda tən.

Məhz onu tərk etmək qorxu oyatsın,
Bu hissi varlığı həssas yaşatsın.
Vurulaq dağına, düzənliyinə,
Biganə qalmayaq gözəlliyinə!
Seçkiylə bağlıdır yaşayışımız.
Seçkisiz bilinməz pis ya yaxşımız.
Səhv seçki sərf edir boş günümüzü,
İtən vaxt azaldır xoş günümüzü.
O, istər seçməyi tam mənimsəyək,
Hər şərtin yerində tətbiq eləyək.
Təmkinlə ayıraq qaradan-ağı,
Bilək əfv etdiyin, bağışlamağı!
Seçərək yapmışdır ən kamil bizi
Ki, təmsil eləyək Xaliqimizi.
İnşaallah.
Seçərək qurağın elə dövranı,
Bir daha görməyək ağır böhranı!
Yer olsun Cənnəti - Behiştliyə tən,
Narazı qalmasın bizi xəlq edən!
İnşaallah.
Qiyamət deyilən günümüz də kaş
Hamının bayramı olaydı, qardaş!
Dönəydik uğurlu səfərə görə
Ümidlər həsrətlə bağlanan yerə!
Mələklər edələr pişvazımızı,
Hurilər çəkələr hər nazımızı!
Seçkidə cəmlənib, gör, böyük hikmət.
Seçkinlə zəhmətin payıdır Cənnət!
“Quran“la yetirən, gör hər ayəsin
Seçib, bil, hər dərdin əsas çarəsin!
Əlhəmdü lillahi Rəbbil aləmin.

## ZİYAFƏTLƏRİN AÇILIŞI

***Rəhman və Rəhim Allahın adı ilə***

***Niyyətimiz:*** Bütün məclisləri (ziyafətləri, toy-busatları) Allahın adı ilə açmaqdır. Allahdan hamımıza sağlıq və xoş əhval-ruhiyə diləməkdir inşaallah.

Allahu əkbər!..la ilahə illəllah...
Rəhmanlı rəhimli ey qadir Allah
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Sən, küllü ixtiyar sahibisən bir.
Dunyalar, varlıqlar yapmağa qadir
Allahsan əbədi, xilqətin çoxdur.
Müqəddəs və təksən, şərikin yoxdur!!
Həyatda hər bir can əmanətindir.
Varlığın-xəlqinə zəmanətindir.
Sənsən həm dinimiz, etiqadımız
Varsan ki, əminik var imdadımız.
Daima halisən dərd-sərimizdən,
Əskiltmə nəzəri üzərimizdən.
Adınla açırıq ziyafətləri
Çünki Sən edirsən çin niyyətləri.
İzn ver, başlayaq məclisimizi.
Həyan ol, qayğınla sevindir bizi!
Hər eldə, obada belə əylənək,
Mübarək işlərlə kaş fərəhlənək.
Rahatlıq-dinclikdə məhz yaşayaq şad,
Edək bu məclisi ehtiramla yad!
İnşaallah.

Ziyafət verənin, soydaşlarının,
Məsləki, dini bir qardaşlarının,
Ən əziz, sevimli doğma canların,
Ümumi təbrikə toplaşanların

Təzimlə (təzim edib), önündə surətlərinin,
Peyğəmbər Məhəmməd Həzrətlərinin
Adından dilərik, lütfən köməyin
Doğrultsun hamının ümidin, səyin!
Allahumməsəlli əla Muhamməedin
Və ali Muhamməd

**Fatihə**

--------------------------------------
---------------------------- oxunur.
...Allah mübarək etsin,
Allah köməyimizə yetsin...

***Əssalamü əleyküm*** yaxın sirdaşlar,
Atalar, analar, bacı, qardaşlar.
Babalar, nənələr, əmi, dayılar,
Seyidlər, hacılar, kərbəlayılar.
Qonaqlar, qonşular, dostlar, tanışlar,
Hamı bir-birini bu gün alqışlar;

***Əssalamü əleyküm*** doğma-əzizlər
Ey bəylər, xanımlar, ey gül bənizlər,
Yaxından, uzaqdan sayıb gələnlər,
Ey zəhmət çəkənlər, kömək edənlər,
Xoş əhval-ruhiyə dilərik sizə.
İnşaallah çatarıq məqsədimizə.
Məmnunuq sizlərin biz sayğısından
Həm (bəyə-qəlinə)* bu qayğısından.
Deyirik: Hamıya gözünüz aydın,
Bu günün sevincin, fərəhin dadın!
İlahi, amin.

## IV Fəsil
## HƏMRƏYLİK İDDİALARI

### XALİQ
***Rəhman və Rəhim Allahın adı ilə***

Allahu əkbər!.. la ilahə illəllah…
Rəhmanlı rəhimli ey qadir Allah,
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Varınla varlanır varlıqlar qərəz
Ən varlı varlıqsan yox Sənə əvəz.
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Bir Sənsən əbədi, xilqətin çoxdur,
Müqəddəs və təksən, şərikin yoxdur!!
Surətin müxtəlif adla hallanır,
Qüdrətin hər yanda eyni canlanır.
Həyatda hər bir can əmanətindir,
Varlığın xəlqinə zəmanətindir!
Hər biri gücünün bir carçısıdır,
İradə hökmünün icraçısıdır!
Xaliqsən, gözümüz fərağındadır,
Fikrimiz daima sorağındadır.
Səninlə bağlıdır dinc rifahımız,
Sənədir səmimi etirafımız!
İnşaallah.
Ey ulu Tanrımız, ey Pərvərdigar,
Sənə tən, müqəddəs, pak kimimiz var?!
Bir Sənsən bəşərin ümid, pənahı,
Bilən dərd-sərini, yuyan günahı.
Büsbütün varlığın yaradanısan,
Gözünün nurusan, gücü, canısan.

Cahanlar, aləmlər yapan da Sənsən,
Varlığa həyansan, məhz xəlq edənsən!
**Hər insan** mənəvi dəyərləri tək
Etsəydi yaddaşa ibadəti həkk,
Unutmaz sahibin bu kainatın,
Ən ali hakimin mövcud həyatın!
Fəzilət-izzətin, hədsiz şəfqətin,
Kəramət-mərhəmət, rəhim-rəhmətin,
Ən gözəl hisslərin, xasiyyətlərin,
Ən ali, ən təmiz ad-sifətlərin,
Salehlik, paklığın ən yüksək rəmzin,
Ən möhkəm dayağın, doğma-əzizin
Unutmaz nə özü, nə nəsilləri
Yaradıb edəni fəth ürəkləri!!
**Hər insan** mənəvi dəyərləri tək
Etsəydi yaddaşa ibadəti həkk
Unutmaz həyatda öz mahiyyətin,
Təyinat, təminat məsuliyyətin!
Ona bu Kürəni həm tapşıranı,
Rəsula mənsubluq ləyaqət, sanı.
Unutmaz insani vəzifəsini,
Nəfsinin boğardı vəsvəsəsini.
Unutmaz o müdrik tale yazanı,
Haqq yola çəkəni, çaşıb azanı.
Ciddi göz qoyanı hər uğuruna,
Ehtiyac duyduğun daim nuruna!
Unutmaz gündəlik ruzi verəni,
Zəfərlər sevincin həm yetirəni!
İnşaallah.
**Hər insan** mənəvi dəyərləri tək
Etsəydi yaddaşa ibadəti həkk
Unutmaz tövsiyə təlimlərini,

Artırar xeyirxah əməllərini.
Ayılar ağılın bəsirət gözü,
Nəhayət qavrayıb dərk edər düzü,
Zülmətdən çıxırsa kim işığına
Dönürsən ömrünün yaraşığına!
Çəkilər şüurun qəflət yuxusu,
Oyanar insani hissi-duyğusu.
Sənə sidq ürəklə meylini salar,
İmana gəldikcə səhvi azalar.
Sayəndə qazanar möhtəbərliyi,
Zəlillik görməz nə dərbədərliyi!
Həm olar sahibi elə dövranın
Sayılar ən gözəl dövrü zamanın!
İnşaallah.
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Həm bizi yaşadan, kamilləşdirən,
Ən ali kürsüdə həm əyləşdirən.
Xəlqinin yolunda hüdud bilməyən,
Hamilik köməyi heç əskilməyən.
Səninlə bağlıdır zəfərlərimiz,
Ömrümüz, işimiz, səfərlərimiz.
Hər bir can sığınıb mərhəmətinə,
Həm Vətən saydığı bu Cənnətinə.
Ümidlər bir Səndən görür vəfanı,
Xoş olur çəkmək də versən cəfanı.
Çünki hər tədbirin qayğıdır bizə,
Ən düzgün qiymətdir əməlimizə.
Şükür və təriflər bu sayğınadır,
Var-yoxa yanğınla həm qayğınadır!
Kəramət rəhminə gətirrik pənah,
Bizi bu aləmdən gec köçür Allah.

Kaş elə bir ömrə malik olaydıq,
Önündə hər işi tamamlayaydıq!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Ey kamil Dünyanı quran - Banisi,
İstedad idrakın mütləq Dahisi.
Hər anın nümunə ibrətgahısan,
Varlığın əbədi bir Allahısan!!
Təmkin və səbrinin əvəzi varmı?
Rəhman və Rəhim-ə tən tapılarmı?!
Günəşdən, havadan, torpaqdan, sudan
Xəlqinə Sənsən ən zəruri olan!
Haqların haqqısan, uğurlar uğru,
Əməli salehsən, xeyirxah, doğru.
Aləmlər əbədi himayəndədir.
Sirlər və hikmətlər hər ayəndədir.
Hər Adəm övladın tutan bərabər,
Diləkli qəlblərdə ey salan lövbər.
Qabillik qüdrətin həm adilliyin
Xəlqinlə səmimi saf adiliyin,
Körpədən-qocaya, fəhlədən-şaha,
Hamının sirdaşı edibdir daha!
Əlində həyatın tam ixtiyarı,
Hər dövrün ən adil bir iqtidarı
Aləmi edirsən ciddi idarə,
Canlılar dönməsin eybəcərlərə!!
Əlhəmdü lillahi Rəbbil aləmin.
İltifat göstərən lütf əskiltməyən,
Önündə bir kəsin haqqı itməyən ,
Ən sadiq dininə, möminlərinə.
Yetirən töhfəsin əməllərinə.
Səhvlərin izləyən, dərdlərin duyan,
Qananı əfv edən, günahın yuyan,

Xəlqini yüksəldən, həmi endirən,
Həm seçən cəzanı, həm sevindirən.
Qoymayan heç nəyi versiz ölməyə,
Layiqdən layiqdir hey öyülməyə.
Rəhmanlı rəhimli bir Allahımız!!
Məhz Onun rəhmətin dilər hamımız.
Əlhəmdü lillahi Rəbbil aləmin.
Banisi və Rəbbi bu aləmlərin,
Ən ali Şahidi iş-əməllərin.
Sahibi hər elmin, ağıl-kamalın.
Bərəkət nemətin, izzət-calalın.
Ən həlim davranış - mədəniyyətin,
Ən mütləq mərifət, səlahiyyətin.
Hər qəlbin şəfqətli həbibi Sənsən.
Hər dərdin ecazkar təbibi Sənsən.
Olmusan dinimiz etiqadımız,
Varsan ki, əminik var imdadımız!
Məhz dayaq Sən olsan ey Pərvərdigar,
Yeri də yerindən çevirmək olar!
İlahi, xəlqinə varlığındır bəs,
Şükür ki, kölgəndə alırıq nəfəs!
Sevilən müqəddəs bir Varlıqsan pak
Ki, duyur öyməyi iftixar idrak.
Yox Sənə bərabər nəzərimizdə,
Ölçüsüz haqqın var üzərimizdə!
Sənədir səcdəmiz, ibadətimiz,
Verdiyin həyatdır səadətimiz!
Nə qədər önündə qılsaq səcdəni,
Öyünsək Səninlə, öysək də Səni
Bənzər bir zərrəyə ibadətimiz,
Ölçüyə sığarmı səadətimiz?!
Əlhəmdü lillahi Rəbbil aləmin.

# DÜNYA

***Rəhman və Rəhim Allahın adı ilə***

***Dünya məfhumu yeddi*** - 1.Behiştlik, 2.Ruhlar, 3.Cinlər, 4. Cahan, 5. Axirət, 6. Cənnət və 7. Cəhənnəm məkanlı aləmlərdən ibarətdir.

Əlhəmdü lillahi Rəbbil aləmin
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Bu kamil Dünyanı quran-Banisi,
İstedad idrakın mütləq Dahisi.
Əzəldən vətəni seçib Cahanı
Behiştdə yapdırdın hər ilkin canı,
Gündə min növlərin dirçəldir zəkan,
Verir bu hünərin həyata təkan.
Bəşərin əzəldən Sənsən dayağı,
Sanına sığınıb körpə sayağı.
Hamının himayən olub həyanı
Və Səndən umublar ömrün hər anı.
Tükənməz qayğını hər nəsl dadıb,
Etiqad, inamın Sənə yaşadıb.
Hər yanda tutulur daim sorağın,
Həsrətdə gözləri qoyub fərağın.
Sahibin kəramət hədsiz şəfqətin
Kim görmək istəməz nurlu sifətin?
Təəssüf qalxmağa məhz hüzuruna
Yığılan günahlar yol vermir buna!
Neçə min illərə tənsə bir anın
Məhrumdur görməkdən xəlq-yaradanın!
Nəhayət Dünyalar yapan əllərin
Tapmarıq nə mislin, nə bərabərin!
Sən külli-ixtiyar sahibisən, bir
Misilsiz ayələr yapmağa qadir
Allahsan əbədi, xilqətin çoxdur,

Müqəddəs və təksən şərikin yoxdur!!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Qərar və hökmünə sədd yox heç yanda,
Burda həm neçə min sirli kahanda
Xəlqinə etməyə qulluq daimi
Qurmusan məkanlar-aləmlər kimi!

Üst-üstə, iç-içə yeddidir aləm.
Dörd varlıq cinsi var-surəti sənəm!
Mələklər, ruhlardır, cinlər, insanlar,
Mənsubluq işləri, tarixləri var!
Bir amal yapılır dörd mərhələdə!
Dörd səmtdə qızğın iş gedir hələ də.
Bir niyyət dörd gözəl cinsədir aid,
Dörd fərdi məqsəddir, idarə vahid!!
Yetirmək naminə ülvi amalı
İşlər hər sahədə tamamlanmalı!
Yer dönə cənnətə amanlıqda, ilk
Öz canlı surətin görə Behiştlik!
Bu gərək yapıla Qiyamətəcən!
Hökmüylə önündə məhz olunca cəm.
Əlhəmdü lillahi Rəbbil aləmin.
Amin.
İradən verəndən olmağa fərman
Məhz Səndən hər bir cins diləyir aman.
Aləmlər vəhdətsə iş birliyilə
Xilqəti cəlb edir sehirliyilə.
Ən yetkin və kamil bu aləmlərin
Cəminə məhz Dünya deyir bəşərin.
Müxtəlif olsa da həyat tərzləri
Bir amal güdülür ilkindən bəri.

«Quran»da hikmətlə yetirir bunu
Əlaqə, rabitə sıx olduğunu!
Əhatə eləyib möhkəm bir-birin
Qurublar həyatın əbədiliyin!
Biri də çevrilib nemətimizə
Min şükür eləyək qismətimizə!!

İnşaallah.

**1. Behiştlik** (Mələklər aləmi).

***Rəhman və Rəhim Allahın adı ilə.***

Əssalamü əleyküm və rəhmətullahi və bərakətuhu…
O aləmin sakinlərinə.

Əlhəmdü lillahi Rəbbil aləmin
Ey bütün varlığın Banisi, Rəbbi
Həm verən təlimi, ruzi və həbbi.
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Nurundan yapdığın odlu ürəklər,
Sədaqət rəmzinə dönən mələklər
Şəriət-dini dərk ediblər erkən.
Salehlik, paklıqda nümunə ikən
Göstərib hər biri dəyanətini,
Əzmlə itaət, hidayətini!
Olublar hüdudsuz kainatında
Carçısı dirçələn ilk həyatın da!
İstedad və elmi öyrənib Səndən,
Hər hökmün gəlirlər tam öhdəsindən!
Onlardı məşəl tək fəzada süzən,
Nəhəng od şarların səhmanla düzən.
Çəkənlər, kəsişməz dairələri.
İlk edən yerbəyer səyyarələri.
Sayəndə qurduqca bu kahanları,
İdarən altına saldın onları.

İcrasız qalmayıb heç bir fərmanın
İlbəil artsa da həcmi fəzanın!
Hər mələk yetirir dəqiq işini
Həssaslıq saxlayıb bu vərdişini.
Sayəndə yapıblar aləmlərin də
Hədsiz can qoyublar aləmlərində.
Sayəndə sıxırlar Yerin qatların,
Tuturlar təhlükə ehtiyatların!
Yox bir cins bu qədər sığına Sənə.
Yoxdur-yox Sənin tək həyan sevənə!!
Zəhmətdə nə böyük cəmlənib hikmət
Sənki, məhz etmisən Behiştlik qismət!
Əlhəmdü lillahi Rəbbil aləmin.
İlahi, etsək də qəbul, ya inkar
Behiştlik dərgahın həqiqətdir, var!
Ərşində ayırdın yer heyətinə,
Nəzarət etsinlər rəiyyətinə!
Həzrəti Cəbrayıl əleyhissəlam,
Həzrəti Mikayıl əleyhissəlam,
Həzrəti İsrafil əleyhissəlam,
Həzrəti Əzrayıl əleyhissəlam.
Və bütün müqəddəs mələklər asta,
Sorğusuz hər canla olsun təmasda
Ki, xəlqin istəyi həm şikayəti
Dinlənsin, görülsün tədbirlər qəti!
Səliqə-səhmanın, bərk intizamın,
İradə hökmünə tam bir inamın
Məkanı nurlanır Sən - günəşilə!!
Fərəhlə məşğuldur məsul işilə.
İnşaallah.
Əbədi sahibi bu kainatın,
Ən ali hakimi mövcud həyatın.

Ədalət və haqqı güdməkdir hökmün!
Hər canın qazancı ödənsin bütün.
Münasib cinsinə, uyğun yaşına,
Xətərsiz özgənin yaşayışına.
Çək-çevir edilə əməlləri də,
Gərəksə dəyişə aləmləri də.
Onun tam ölçülsün xeyiri-şəri,
Çıxartsın hökmünü öz əməlləri.
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində.
Məhz ruhu ən sadiq, saleh mömínin
Behiştdə münasib tutsun öz yerin!
Çox ciddi idarə olur bu axın,
Əvəzsiz **Hakimsən fələyi-çarxın**!!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
Bilirlər mələklər hər bir nemətin
Çox gözəl dəyərin, qədrin, qiymətin!
Bir onlar hökmünə müntəzirdirlər,
Fərəhlə, şərəflə qulluq edirlər!
Bilirlər, onlara varlığındır bəs,
Kölgəndə alırlar şükürlə nəfəs!
Hər bir an qoruyub ləyaqətlərin,
Tarixə salıblar sədaqətlərin!
Yox bir cins bu qədər sığına Sənə!
Yoxdur-yox Sənin tək həyan sevənə!!
Xeyirxah zəhmətdə var böyük hikmət,
Bizə də etmisən o Cənnəti vəd,
Doğrultsaq məhz Sənin etimadını,
Adəmin qorusaq şərəf, adını!
Əlhəmdü lillahi Rəbbil aləmin.

## 2. Ruhlar aləmi

***Rəhman və Rəhim Allahın adı ilə***

Əssalamü əleyküm və rəhmətullahi və bərakətuhu…
O aləmin sakinlərinə.

Əlhəmdü lillahi Rəbbil aləmin
Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
Behiştdən aşağı ruhlar toplanır.
Görünməz aləmdir, duyğular anır.
Varlıqla qurub sıx əlaqəsini
Əhatə eləyib Yer kürəsini.
Bu məkan vaxtın da duymaz təsirin.
Yaşadır həyatı! Bilir hər sirrin.
Təcrübə yığımı zaman-zamandır.
Həyatda varlığı canlandırandır!
Bölgünün ikinci təbəqəsi tək
Ən məsul işləri yetirir gerçək.
Ruhların var mühüm yeri hər qatda.
Ruhsuz bir dirçələn yoxdur həyatda!
Hökmünlə hər yanda qoyduğun vaxtda
Cəlb olub, qalırlar gah ehtiyatda.
Odur bu Cahanın əsl varisi!
Qoruyan, saxlayan əbədi irsi.
Tabesiz varıdır Cahanımızın,
Yenilməz gücüdür hər anımızın!
Odur tam məkanı bərabərliyin,
Həmkarlıq, qayğının, möhkəm birliyin.
Orda nə hərc-mərclik, nə də ölüm var.
Qanunlar büsbütün tarazlanıblar!
Hər adil tədbirli hökmün yetirmək,
Hesabsız növlərdə cismə can vermək,
Qorumaq, bəsləmək hər dirçəltdiyin,

Beyninə həkk etmək irsi biliyin.
Müxtəlif dövranda, müxtəlif sağ da
İstedad, elmini məhz yaşatmaq da,
Kimləri, kimlərlə əvəz etmək də,
Duyğu və hissləri saf ötürmək də
Ruhların gündəlik ali işidir.
Bu Sənin dəyişməz göstərişindir!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Görünməz qursan da ruhi aləmi,
Bu mövcud həyatın odur həmdəmi.
Araya yuxuyla çəkdiyin sərhəd
Yaratmış cismani keçilməz bir hədd.
Cismani get-gəliş olmadığından,
O aləm ülvi, pak qalıbdır hər an.
O aləm hər ruha böyük töhfəndir,
Rəhmətin qazanmaq məhz buna təndir!
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin.

### 3. Cinlər aləmi

***Rəhman və Rəhim Allahın adı ilə***

Əssalamü əleyküm və rəhmətullahi və bərakətuhu…
O aləmin sakinlərinə.
Əlhəmdü lillahi Rəbbil aləmin
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
İxtiyar sahibi minlərlə nadir
Canları yapmağa bir Sənsən qadir!
Müxtəlif cinsləri dirçəldir zəkan,
Verir bu hünərin həyata təkan!
Olurlar gücünün həm carçıları,
İradə hökmünün icraçıları.

Hər biri fərqlənir təyinatıyla,
Mənsubluq işiylə, təminatıyla.
Heç biri bilməyir ömrünün sonun
Və necə yazmısan taleyin onun?!
Müstəsna möhlətə malik imkanı,
Surəti, hissləri həm dərrakanı
Verirsən yetirsin vəzifəsini,
Qazansın layiqli pay-töhfəsini!
Daima edirsən havadarlığı.
Yanğınla izlərsən bütün varlığı!
İstərsən imanlı itaətlərin!
Hökmünə riayət, hidayətlərin!
Ayırdın münasib icra yerlərin,
Versinlər həyata tam xeyirlərin!
İlahi, yönəlir suallar Sənə,
Elmin nur saçasan bu mənbəyinə!
İradən yetirən ayələrinlə
Tanışıq bir qədər aləmlərinlə.
Olsaydı tutarlı dəlil, məlumat
Bəsirət gözün kor etməz mövhumat!
Bilərdik canların mövcud birliyin,
Himayən altında bərabərliyin.
Bilərdik önündə, həm məkanında
Əvəzsiz yeri var hər bir canın da!
Hər biri sığınıb Yaradanına,
Qulluğu eləyir öz məkanına.

İnşaallah.

Əbədi sahibi bu kainatın,
Ən ali hakimi mövcud həyatın.
Haqdırmı o məğrur, məşhur cinləri,
Bu Yerin etmisən ilk sakinləri?!
Yararsız torpaqda, cansız mühitdə,

Gecəni-gündüzü sərt şəraitdə
Qulluğa rəşadət-hünər gərəkdir?!
Bu cinsdə cəsur can, mətin ürəkdir?!
Nə qədər vaxt və güc eləyiblər sərf?
Ağıla sığmayan təhlükələr dəf?
Bu Yerin etməyə cənnət səthini,
Təmkinlə çəkiblər hər zillətini?!
Olublar bağbanı, tədqiq edənlər,
Qayğıyla əkənlər həm becərənlər?
Sayəndə böyüdüb bəsləyibdirlər
Bu canlı aləmi neçə min illər?!
Yəqin ilk ediblər təmsil canları?
Yapdıqca, olublar həm sarvanları?!
Sayəndə öyrənib Yerin tərkibin,
Ediblər fəth bütün suların dibin?
Sayəndə görüblər hər tədarükü?
Onlara həyatın düşüb ilk yükü?
Sayəndə yığmışlar maddi sərvəti
Və Onlar yaşatmış bu təbiəti?
Yerbəyer edincə bütün şeyləri
Olmayıb şikayət, nə gileyləri?
Bunlara rəşadət-hünər gərəkdir,
Cinlər də cəsur can, mətin ürəkdir!!
Sayəndə göstərib öz imkanların,
Səndən pay almışlar bu məkanların?!
İndi var ecazkar siması Yerin!
Tər-təmiz suları, havası Yerin!
İrad yox səliqə nə səhmanına,
Hesabsız varlığın cəm məkanına!
Təbiət, mühiti öz nizamıyla
Yerləşib canlılar intizamıyla!
Canlanan sərvətin çeşidi zəngin,

Hər rəngin, hər ətrin, dadın, ahəngin.
Müxtəlif hisslərin, xasiyyətlərin,
Dillərin, ənənə və adətlərin
Məkanı Cənnətdir! Təkzib edilməz!
Səyləri yaddaşdan silinə bilməz!
Tarix də həkk edib şan-şöhrətlərin,
Dastanlar yetirir şücaətlərin!
Həddindən itidir o zehinləri,
Sorğunu həll edir tez beyinləri!
Bilirlər hər şeyin adın, yerini,
İstəsən taparlar hansı birini!
Qadirlik gücləri oyatmayır şəkk!
Çarpmazlar izinsiz gözlərə gerçək.
İnşaallah.
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Yeddi gün ərzində yapdın Dünyanı.
Hər sirri eləyir valeh duyanı.
Neçə min illərə tənsə bir anın,
Nə qədər tədqiqat görüb məkanın?!
İlahi, bu haqqa aydınlıq gətir,
Cinlərin həyatın aç sətir-sətir.
Unuda bilməyək, hey salaq yada,
Örnəklik dərs olsun insanlara da!!
Əlhəmdü lillahi Rəbbil aləmin…
Bitirib işlərin tam dəqiqliklə
Təminmi olublar müstəqilliklə?
Verdiyin misilsiz asudəlik tam
İlk həyat tərzlərin dəyişmiş tamam?
Pozmuşmu icmanın əlbir işlərin?
İntizam-nizamlı ilk vərdişlərin?
Sərbəstlik etmişmi günlərin qara?

Böldürmüş qəbilə və tayfalara?
Ya nəfis dönübdür azarlarına
Və sədlər çəkdirmiş aralarına?!
Saldırıb barışmaz ədavətləri
İşğala etdirir sövq niyyətləri?
Onlar da unutmuş öz keçmişlərin?
Ən çətin bir dövrü cəm keçmişlərin?!
Əstafurullah.
İlahi, qalıbmı nailliklər?
Bacarıq helminə xas bilikləri?
Bəlkə bəd nəfsdən olmuşlar xilas?
Bəlkə yox narahat olmağa əsas?!
Adəmin yaranış, təyinatında
Bəlkə var təsiri bu həyatın da?!
Talelər oxşardı, təsadüf deyil?
Yapmısan həm dini, həm məsləki bir?
Çox cüzi fərqlənir təyinatımız,
Mənsubluq işimiz, təminatımız.
Bir niyyət hər iki cinsədir aid,
Qursan da icrası üçün şərait.
İfrata vardıqca təkəbbürümüz
Çaşmırmı ağlımız, təfəkkürümüz?!
Yetirmək gərəkdir cəm bu amalı!
Əfsus ki, salırıq hey qalmaqalı.
Düşünüb arasaq suallar çıxır…
Zehnimiz duruxur, ağıl karıxır.
Əstafurullah.
Banisi və Rəbbi bu aləmlərin,
Ən ali Şahidi iş-əməllərin.
Bir vaxtlar istedad, təbabətləri,
Qurduğu qəsrlər və məbədləri
Sayəndə durmuşdur qulluğumuzda,

Çox idi uğrumuz, bolluğumuz da!
Həyatda var idi iş birliyimiz.
Bəyəm yox onlardan əlamət nə iz?!
Hanı o ucalan büllur saraylar,
Hər işi bacaran məğrur alaylar?!
İlahi, müqəddəs «Quran» gələndən,
İradən bir qədər mənimsənəndən.
Dərk olub Axirət, Cənnət, Cəhənnəm!
Kimləri haraya edəcəksən cəm?!
Hər hökmün qorxudub bərk azanları!
Həm bütün cinləri, həm insanları!
Dərk olub sabahı məramımızın!
İşgəncə, əzabı, günahımızın.
Ey bütün varlığın Banisi, Rəbbi
Həm verən təlimi, ruzi və həbbi.
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir, şəksiz!
Yəqin ki, bəd nəfsin görüb bəşərin
Bu cinlər kəsməklə əlaqələrin
Həm Sənə artırıb ibadətlərin,
Səmimi itaət, hidayətlərin,
Qazana bilsinlər kəramətini,
Mərhəmət rəhmini və rəhmətini?!
Qoruyub ənənə həm adətlərin,
Həm təmin etsinlər axirətlərin?!
Bunlara rəşadət-hünər gərəkdir!
Cinlərdə cəsur can, mətin ürəkdir.
Qadirlik gücləri oyatmayır şəkk,
Çarpmazlar iznsiz gözlərə gerçək!
Bismillahirrəhmanirrəhim,
Əlhəmdü lillahi Rəbbil aləmin.
İlahi, amin.

## **4. Cahan** (Cismani aləm)

***Rəhman və Rəhim Allahın adı ilə***

Əssalamü əleyküm və rəhmətullahi və bərakətuhu…
Bu aləmin sakinlərinə.

Əlhəmdü lillahi Rəbbil aləmin,
Allahu əkbər!.. la ilahə illəllah…
Rəhmanlı rəhimli ey qadir Allah.
Ey bizi yaşadan, kamilləşdirən,
Ən ali kürsüdə həm əyləşdirən.
Cismani həyatın söyləsək haqla
Ölçülməz dəyəri sadalamaqla!
Hökmünlə Göylərin gözü ondadır,
Aləmlər daimi qulluğundadır!
Cahanı körpə tək bələdin qat-qat,
Sönməsin zəhmətlə yapdığın həyat.
Bəsləsin, yaşatsın bütün xilqəti
Həm olsun xilqəti, sərvət, neməti.
Olubdur hər canın ləl-cavahiri,
Ecazkar, füsunkar aləmin biri.
Olubdur varlığa yeganə Vətən!
Varsa da hüsnünə kainatda tən.
İrad yox səliqə, nə səhmanına,
Hesabsız varlığın cəm məkanına.
Təbiət və mühit öz nizamıyla,
Canlılar yerləşib intizamıyla.
Versən də hər cinsə azadlıq tamam,
Təkamül saxlanıb nəzarətdə tam!
Hər şey bir-birinə edir xidməti,
Bundadır həyatın əsl hikməti.
Gərəksə salırsan haldan hallara
Mövcud güc-qüvvəsi hey gəlsin kara!
Canlanan sərvətin çeşidi zəngin,

Hər rəngin, hər ətrin, dadın, ahəngin,
Müxtəlif hisslərin, xasiyyətlərin,
Dillərin, ənənə və adətlərin
Məkanı Cənnətdir! Yoxdur timsalı!
Əfsuslar… narahat edir iqbalı.
Pozulur varlığın həyat ahəngi
Çalınır ümumi fəlakət zəngi!
Qayğısız soyulur, çoxdur xəracı,
Vətəndir! Yardıma var ehtiyacı.
İlahi, olmasa xofun, həyanın,
Varlığın qoyardıq viran məkanın!
Əstafurullah.
Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
Adəmi yapanda vardı niyyətin
Ki, olsun dayağı insaniyyətin!
Yaşatsın üçlüyün ənənəsini,
Yaratsın dördlüyün təntənəsini!!
İnşaallah.
Tapşırdın ən fəxri iş Rəsuluna,
Qulluğun sahmanla qoysun yoluna.
Məhz Yerdə Behiştlik yarada-qura,
Xəlifə sayıla, qulluqda dura!
Və olsun hər cana gərəksə dayaq,
O, təmsil etdiyin ali sayaraq
Yetirsin onlara dərdi-sərində,
Bəlalı qalmasın Yer üzərində!
Qarışsın hər canın o iqbalına,
Sahmanla son qoya qalmaqalına!
Yerin hər qatının bilsin tərkibin,
İdarə eləsin suların dibin!
Varlığı qorusun, üstündə əssin,

Məhəbbət qayğıyla düzgün bəsləsin!
İlbəil artdıqca nəslinin sayı
Hamıya hər yanda çatsın harayı.
Cahandan həm alsın kamını hərə
Həm qalsın füsunkar o varislərə.
Hər nəslin payı var bu əmanətdə
Yaraşmaz haqlara məhz xəyanət də!
İlahi, qoymadın Adəmini tək,
Heyətə buyurdun etsinlər kömək.
Hökmünə müntəzir həm cinlər dursun
Ki, Yerdə qüsursuz dövranı qursun!
Ümumi səylərin cəmiylə ancaq
Bərqərar olunar buyurduğun haqq!
Heç nədən etmədin məhrum insanı
Ki, Onun tükənməz olsun imkanı.
Çünki bu məqsədə zəhmətlə yetər
Zəhmətsiz naillik qorunmaz, itər!
Hər canı bağlasın iradəsinə
Və olsun cavabdeh Yer kürəsinə!
Qanunlar, qaydalar elə yaransın
Əbədi Behiştlik Yerdə canlansın!
Min illər yaşaya, yarada insan
Burda tam kamillik ola hökmran.
Təkəbbür örtməyə bəsirət gözün,
Mənəvi və maddi dərk edə özün.
Soyuqluq və yadlıq hissi qalmasın,
Amalı, məramı unudulmasın!
Bu niyyət vaxtında uğurla bitə
Yerə də Göylərdə edələr qibtə!
Cahanın dəyişə abı-havası.
Həyatın dəyəri, ömrün mənası!
İnşaallah.

İlahi, iradə, hökmün edən car
Cismani aləmin hakimi tək var!
Bu açır ən ilkin qüdrətimizi
Həmçinin nəsiblik qismətimizi.
Əvəzsiz nemətdir təbiətimiz,
Cismani həyatdı səadətimiz!!
**Ey insan**, bilməsək qədrin, qiymətin
Sakini olmarıq ruhi Cənnətin!
Əstafurullah.
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Tükənməz səbrinə sığınıb Kürə
İlahi, qoyma bir fəlakət görə!
Kürələr saysızdır, Kürəm əvəzsiz
Nəsibdir bizlərə əzizdir-əziz!!
Qoyma bu fəlakət əlamətləri
Vüsətlə bürüsün bütün elləri!
Axı o seçməyir yaxşını, pisi
Amansız məhv edər hər cinsi-irsi!
Mənəvi həm maddi o çəkər dağı
Ölçülməz ziyanın ucu-bucağı.
Əstafurullah.
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Kəramət rəhminə gətirrik pənah
Hər mümkün bəladan hifz elə Allah.
Amin.
Məhz iki aləmi qapayır Cənnət!
Ruh vara, var ruha edərək heyrət
Daim bir-birinə xidmətdədirlər,
Əyani həm ruhi Cənnətdədirlər!
Şükür ki, əvəzsiz Hakimsən, varsan,

Hər nəslə varislik bunu saxlarsan!!
Bismillahirrəhmanirrəhim,
Əlhəmdü lillahi Rəbbil aləmin.

## Mülahizələr

***Rəhman və Rəhim Allahın adı ilə***

**5. Axirət**, **6. Cənnət**, **7. Cəhənnəm aləmləri.**

Axirətin və ordakı ruhi Cənnətin sakinlərinə, ruhi Cəhənnəmin idarə heyətinə.

Əssalamü əleyküm və rəhmətullahi və bərakətuhu…

**Və lənət olsun** ruhi Cəhənnəm məhkumlarına!!

Əlhəmdü lillahi Rəbbil aləmin,
Əbədi sahibi bu kainatın
Ən ali hakimi mövcud həyatın.
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Bu kamil Dünyanı quran - Banisi,
İstedad idrakın mütləq Dahisi.
Hikmətlər toplanan dəryadır Dünyan,
Heyrət və ehtiram oyadır Dünyan.
Qapalı yığımdır, deyil qarışıq,
Bu saflıq dəryaya verir yaraşıq.
Vurğunuq görünən ayələrinə,
Heyranıq sehirli aləmlərinə.
Hikmətin hər şeydə mövcuddur lay-lay,
Hər zərrən sərvətdir, tükənməz bir pay.
Hər biri həyatın açır bir üzün
Hər şeyin yapmısan gecə-gündüzün.
Özünə münasib zənginliylə
Şüura sığmayanənginliyilə.
Hər qurğun kamillik möcüzəsidir,
İdrakın ən yetkin nümunəsidir.

Yoxdur bir aləmin əvvəli-sonu,
Qapalı yapsan da hər qurumunu.
Vermisən vaxt-vədə bildirən fərman,
Aləmlər hazırdır qəbula o an!
Hər biri həyatın təməl daşıdır,
Vaxtında varlığın bir sirdaşıdır.
Hamıya eynilə ayrılan həddən
Ruh keçsə seçilməz cismi cəsəddən!
Kənarda qalmazlar nəzarətindən,
Münasib qayğından, kəramətindən,
Mərhəmət rəhmindən və rəhmətindən.
Əlhəmdü lillahi Rəbbil aləmin.
Axirət, Cəhənnəm, Cənnət sayılan
Aləmlər haqqında yetirir «Quran»;
Axirət aləmi Qiyamətəcən
Çək-çevir möhləti olsa da hər çən
Örnəkdir seçimi, işgüzarlığı,
Yerbəyir etməyi bütün varlığı!
O Cənnət, Cəhənnəm məntəqəsində
Yeri var hər nəslin, hər bir kəsin də!
Məhz orda ayrılır üç yerə kəslər;
Tən xeyri-şərlilər, yaxşılar, pislər!
Əməllər yoxlanır təfsilatıyla,
Yerbəyir elənir varidatıyla
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində!
Hər itən imkanın görən, alışır,
Tutduğu yeriylə çətin barışır.
Lənət də yağdıra nəfsə, tamaha,
İmkanı yox yuya günahın daha!
Əstafurullah.
Çunki O unutmuş haqqın səsini.

Eşidib tək nəfsin vəsvəsəsini!
Yetirən var idi hidayətini,
Dinini, imanın, itaətini!
Yetirib, Cənnətdə yer var hər kəsə
Mənəvi paklığı ləkələnməsə!
Allahın qazanan kəramətini,
Mərhəmət rəhmini və rəhmətini
Sevinər, öyünər axirətilə
Və fərəh yetirən bəsirətilə.
Əhsən və təriflər yağar zatına.
İnşaallah.
Çoxunun dərd hopar yeddi qatına!
Rəbbinin hər çıxan tabeliyindən
Əstafurullah.
Şikayət etməsin öz taleyindən!
Önündə görəndə məhz Cəhənnəmi!
Əhvalı və halı dəyişər həmi
Sürünər, yalvarar hey əfvin dilər.
Salehlik paklığın dəyərin bilər.
Unutma verilən sənə imkanı
Bəd nəfəsin haradır bil son məkanı!
Axirət aləmin və ya həyatın
«Quran»dır yetirən tam təfsilatın.
Təkidlə yetirir məlumatları
Həm olaq xəbərdar, həm bilək barı,
Görür nə ləzzəti mömin və şəhid?!
Edib nə zilləti kimlərə aid?!
Cəhənnəm yaradıb orda layların
Görək hər zalımın haray-vayların!
Görək və yağdıraq lənət düşənə!!
Ağ olub Allaha, Bizə, Vətənə!
Rişxənddən mənliyi göyə sovrulsun!

Vücudu qaralsın, yansın, qovrulsun!
Hər biri məhz çatsın öz muradına
Gördüyü işlərin getsin badına!
Görək ki, kafirlər dönürlər muma!
Ölüm yox, Allahdan qurtuluş uma!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Nəfsimiz yaradan şeytana lənət!!
Qoymaz ki, qazanaq layiqli rəhmət.
Hər cana vəba tək dərd yükləyəndir,
Hər mənfur işlərə sürükləyəndir.
Əstafurullah.
Nəfsimiz baissə həm böhranlara,
Həm açır dövrandan yol dövranlara!
Et saleh əməllə idarə onu
İradən qorusun hər uğurunu!
Bəd nəfsin qənimi bil cihadındır
Həm sənin dayağın, həm həyatındır!
Onunla bağlıdır aqibətimiz
Qiyamət günümüz, axirətimiz.
İnşaallah.
Səmavi kitablar fövqündə duran
Vəhyilə yetirir müqəddəs «Quran»,
Bizə vaxt ayırıb Qiyamətəcən
Hökmüylə önündə olacağıq cəm!
Kaş bütün səyimiz itməyə nahaq.
Bərqərar oluna buyurduğu haqq!
**Ey insan**, bu ağır hesabat günü
Açılır hər ömrün sirli düyünü.
Hər yetən ayənin hökmünə uyğun
Ölçülür iradən, nəfsin və duyğun.
O günü (!), bu qeyri-adi bir günü
Bir Allah verəcək ancaq hökmünü!!

Sağ ələ verilə kaş dəftərimiz,
Cənnəti qazanaq kaş hər birimiz!
Qiyamət deyilən günümüz də kaş
Hamının bayramı olaydı, qardaş!
Əlhəmdü lillahi Rəbbil aləmin.
İlahi, amin.
Banisi və Rəbbi bu aləmlərin.
Ən ali Şahidi iş-əməllərin!
İnsan həm özünü, həm Cahanı dərk
Edərək, tutsaydı ətəyindən bərk,
Qavraya bilsəydi təlimlərini,
Əmanət verdiyin şəriət, dini,
Hər elmin, peşənin alimlərilə,
Xeyirxah işləri, əməllərilə
Cənnətə çevirib bu məkanını,
Qurardı ən gözəl bir dövranını!
Yüksəldib mərifət-mədəniyyəti
Edərdi mənəvi pak cəmiyyəti.
Gözlər tox olardı həm ürəklər şad.
Səliqə-sahmanlı, hər bir yan abad!
Hər yanda can deyib, can eşidərdi
Həm qulluq görərdi, qulluq edərdi.
Bilməzdi kafirlik, müsibət nədir?!
Tənhalıq, zəllilik ya qürbət nədir!
Söz-söhbət salsa da hər aləmindən,
Çəkinər, qorxmazdı Cəhənnəmindən.
Bilsəydi dəyərin ötən anların
Açmazdın acısın bu məqamların,
Həkk olsun beyninə, hopsun qanına,
Bir kimsə görməyə iş ziyanına!
Bilsin ki, talelər ölümlə bitmir!
İz calan əməllər, zəhmətlər itmir,

Ölçülür zərərlə dəqiq xeyrimiz,
Ayrılır yaşayış, icra yeirmiz,
Axirət aləmi Qiyamətəcən
Çək-çevir möhləti olsa da hərçən
Cənnətin gözəldir orda da yeri
Necə də əylənir dinc sakinləri?!
Bilki, hər xeyirxah əməl, zəhmətin
Üzünə qapısın açar Cənnətin!
Lakin çox tədbiri sərtdir ruhlara
Damğalı kafir tək düşsələr ora!
Rahatlıq görmədən neçə min illər
Nəfsinin kirindən təmizlənirlər?!
Bellərin tam əyir əməl şələsi,
Onların basılır mənliyi, hissi!
Duymazlar nə vaxtı, nə fəsilləri
Bu, salır taqətdən lap əsirləri!
Rəisi halidir tam günahlardan,
Azaltmaz hesabat zülmün onlardan!
Cəhənnəm həm haqqın son alətidir.
İntiqam, qisasın dəlalətidir!
Həm olub xilqətin maddi mənbəi,
Tərbiyə ocağı , cəza ələyi.
Şərait, mühiti dəyişməz qalır,
Eyni iş ahəngi daim ucalır.
Onurğa sütunun ilk düyünündə
Saxlayıb hər canın rüşeyimin də,
Hər biri salınır haldan-hallara,
Mövcud güc-qüvvəsi hey gəlsin kara!
Həll olmuş maddələr ayrılıb an-an
Torpağın süzülüb damarlarından
Yığılır növüylə, kefiyyətilə
O məhbus ruhların əziyyətilə.

Saxlanır Cəhənnəm anbarlarında,
İtkisiz və yüksək dirilik onda
Ki, bu saf mayadan yoğurub yenə
Ruh versə dirçəlsin yapdığı hər nə!
**Ey insan,** Cəhənnəm odlu təndirdir.
Orda tam məhrumluq adil tədbirdir!
Daxildən yandıqca hər ruhi qamət
Saxlamaz günahdan əsər-əlamət!
Neçə min illərə, paklıq qazanar
Və ruhi aləmə «vəsiqə» alar!
Tanıyar **Hakimin fələyi-çarxın,**
Əfv-aman sahibin o qərargahın!
Həm ruhi aləmdə tutar öz yerin,
Cahana vaxtında verməyə xeyrin!
Möhürlü bu fərman Tanrımızındır,
Ümumi xeyiri hamımızındır!
Qorumaq naminə mövcud həyatı
Aparır bu vacib əməliyyatı!
Ucadan ucadır o müqəddəs ad.
Haqq-hesab çəkəndir, verməz hesabat!
Ədalət və haqqın xiridarıdır,
Hər dövrün ən adil iqtidarıdır!
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!

***

Təlim və təhlildə eləsək səhvi,
Ey ulu Tanrımız, dilərik əfvi.
Sənsən həm dinimiz, etiqadımız!
Varsan ki, əminik var imdadımız.
Bismillahirrəhmanirrəhim,
Əlhəmdü lillahi Rəbbil aləmin.

# HƏYAT

***Rəhman və Rəhim Allahın adı ilə***

***Həyat***: Bizə verilən maddi və mənəvi dəyərləri ölçülməyən elə bir əvəzsiz sərmayədir ki, sahibi bir olan Allah-təaladır.

***Həyatımız***: Bir olan Allaha etiqadımızı əks etdirən qulluğumuzun əsası olan səcdə və ibadətimizin tam təcəssümüdür inşaallah.

Cahanlar yaradan, aləmlər quran.
Varlığı xəlq edən və həyan duran.
Ən həssas qayğıyla, adilliklə Sən
Küreni əyani Cənnət etmisən!
Bu Səndən səy-zəhmət çox edib tələb
Hey fitri istedad, görünməyən təb!
Neçə min illərə tənsə bir anın
Nə qədər tədqiqat görüb məkanın?!
Cənnətə dönəndən bu Yerin səthi
Xəlq üçün dəyəri ölçülməz qəti!
Hər maddi nemətlə zəngin aləmin
Varlığın həyatın tam edir təmin!
Bu həyat misilsiz həmi ayəndir,
Bəşərə əvəzsiz həm sərmayəndir!
Kaş insan burda bir Behiştlik qura
Varlığın doğrulda, qulluqda dura!
Həyat bir nemətdir, hər müstəsna ad
Olmazmı verdiyin hədiyənə şad?!
İradən verməsə gəlməyə fərman
Bilməzdi xoşbəxtlik nə olduğun can!
Nurunla nurlanmış bu kainatda,
Qüsursuz yapdığın kamil həyatda
Təkamül çox ciddi olub idarə,
Qoymayıb çevrilək eybəcərlərə!

Bu ülvü aləmin məkandır bizə,
Sanındır nur verən düşüncəmizə.
Həyat bir ayəndir, bənzər xitaba.
Hikmətlər şərh edən kamil kitaba,
Dühandır, yaşadır minlərlə nəsli,
Varikən varlığın itərmi əsli?!
Sənsiz bir can belə almaz kam nə həzz!
Bu mövcud həqiqət təkzibedilməz.
Əvəzsiz paydırsa ömür illərin,
Cahandır meydanı xariqələrin!
Nə işdən yapışsaq bu məkanında
Hər işlək əlin də, hər zəkanın da
Dayağı hər şirin diləklərinin
Olursan, nurusan bəbəklərinin!
Adınla bağlıdır zəfərlərimiz
İmdada yetirsən büdrəyəndə biz!
Hamının səadət gətirənisən.
Gündəlik ruhisin yetirənisən.
Qüdrətin ölçülməz, təsvir edilməz,
Xəlqinin yolunda maneə bilməz.
Yoxsa da zərrəcən bir ehtiyacın
Bu həyat naminə çoxdur xəracın!
Cahanlar, aləmlər yapan da Sənsən.
Varlığa həyansan məhz xəlq edənsən!!
Varınla varlanır varlıqlar qərəz
Ən varlı varlıqsan yox Sənə əvəz.
Həyat da yaranıb kəramətinlə,
Mərhəmət rəhminlə və rəhmətinlə!
Şükür və təriflər bu sayğınadır
Var-yoxa yanğınla həm qayğınadır.
Bunların mənasın bəşər anarmı?
Əl tutub verdiyin sadalanarmı?

Çox sirli hikmətdir həyatın özü,
Heyrətə gəlir hər qavrayan düzü.
Hər şey bir-birinə edir xidməti,
Qapalı bu dövrə qırılmaz qəti!
Cismani aləmdə hey təkrarlıq var
Həm əvəz olurlar, həm qayıdırlar!
Hər bir can ömrüylə sala-sala iz
Mənsubluq taleyi yaşayır təmiz.
Gərəksə salınır haldan-hallara
Daim güc-qüvvəsi hey gəlsin kara!
Daşıyır yükünü ruh axirətdə,
Can alar qazancın tam Qiyamətdə!
Bilməsək həyatın dəyər qiymətin
Sakini olmarıq ruhi Cənnətin.
Allaha sığınsaq qəlbən, **insanlar,**
Olmazdı günahlar, səhvlər, nöqsanlar.
İnşaallah.
Qədimdən hər sima olunsaydı həkk,
«Gedənin gəlməsi» oyatmazdı şəkk!
Müxtəlif vaxtlarda, müxtəlif yerdə
Müxtəlif adlarda «gəlirik» bir də!
Allahın qabillik qüdrətidir bu!
Həyatın inkişaf surətidir bu.
Kimi kim yaşadır ixtiyarıyla
Taleyi yazılır Ruhi-varıyla?
Kimə kim olunur hökmüylə sirdaş?
Kimdə kim oyadır zəruri yaddaş?
Kimin kim artırır nadir helmini?
Kimdən kim varislik alır elmini?
Görməyə haqq olan bu həqiqəti
Təəssüf, qısadır ömür möhləti!!
İnsanın məskəni olandan Kürə,

Yaradır, dağıdır burda min kərə.
Həm fərəh duyubdur, həm böyük kədər.
Kim deyər zəhmətlər gedibdir hədər?!
Təkrarlıq varlığa münasib vallah
Kamillik yetirir hey inşaallah.
Elə sərt meydana dönübdür Cahan
Məruzuq hər bir an verək imtahan.
Həm olaq mübariz, dözümlü, mətin,
Carçısı, dayağı haqq-ədalətin!
**Ey insan** bildinmi niyə çətində
Qoruyan Odur hər əmanətin də?!
Vətəni olsa da Kürə nələrin?
Həyatdır bəhrəsi dəyişmələrin!
Hər canın həkk olub onda niyyəti,
Taleyi - qüdrəti, səlahiyyəti
Və edir **Hakimi fələyi-çarxın**
Çox ciddi idarə artsa da axın!
Tükənməz inadı, səliqə-səhman,
Səxavət, adillik rəhim və rəhman,
Ünsiyyət, əlaqə, qayğı, həmrəylik,
Bu həyat naminə intizam, birlik
Hisslərin hamıya aşılayandır!
Bərqərar edənə daim həyandır.
Allahın əvəzsiz məhz köməyilə
Öz irsi, biliyi, inad səyilə
Dövrünün ən ağır min illiklərin,
Artımla bağlanan çətinliklərin
Yapdığı tarixi cəhalətiylə
İnsan hey çırpışıb məharətilə.
Daim dörd aləmə ruhun səfərin
Yaradan çaldırmış cari zəfərin!
Məhz insan onların məqsəd, tədbirin
Edir bu həyatda tətbiq hər birin.
Və kamil Dünyanın quruluşuna

Oxşadır hər mövcud qurumun ona!
Çalışır qurmağa elə dövranın,
Ola ən dəyərli dövrü zamanın!

### 1. Ali heyət

***Rəhman və Rəhim Allahın adı ilə***

Əbədi sahibi bu kainatın,
Ən ali hakimi mövcud həyatın.
Hər xalqın istəyi, Sənin son sözün
Həmişə üst-üstə düşdüyü o gün
Münasib dövrünə xalq seçir Tacın.
Seçkisi həm təyin edir xəracın!
Göstərsə tədbirli iş, kamalını,
Bəyənsək məramlı xoş amalını,
Qadirdir seçməyə şah heyətini,
İdarə etməyə cəmiyyətini!
Ey kamil Dünyanı quran, Banisi.
İstedad, idrakın mütləq Dahisi.
Dövlətdə şah Ərşin ali niyyətin
Həm oxşar idarə səlahiyyətin
Saxlaraq yaratsa yüksək qatını,
İşinə münasib təminatını.
Durarlar xalqının həm qulluğunda,
Həm təmin edərlər tam bolluğun da.
Qurarlar dövrünün güclü dövlətin,
Çəkərlər keşiyin haqq-ədalətin.
Xalqına, dövlətə sadiq hər kəsin,
Xoş həyat uğrunda çalışan şəxsin
Heyətdə münasib olsa öz yeri
Cəmiyyət götürər məhz hədsiz xeyri.
Vəzifə, təminat məsuliyyətin
İtirən qazana məhrumiyyətin

Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində!
Ən ali nəzarət sahibidir şah,
Onu da gözündən qoymayır Allah.
O, sadiq olmasa haqla irsinə
Qalmaz nə özünə, nə varisinə!
Kimlər ki, güvənir mövcud zoruna,
Düşürlər qisasın mütləq toruna.
Ziyanı basarsa verdiyi xeyrin,
Duyacaq daima narahat yerin.
Lakin şah olarsa xalqın dayağı,
Camaat qaldırar dağ-üstə dağı!
Günbə gün çoxalan rəşadət, hünər
Ən adi əmələ bənzəyər, dönər.
Qanunlar dövlətin olsa hakimi,
Səslənsə hər şəxsin öz haqqı kimi,
Hökmdar sadiqsə iş və sözünə,
Qulluğun duyursa şərəf özünə
İlahi, kim necə verir qiymətin,
Əyani bildirir Sənə hörmətin!!

**2. Ziyalılar** (Varlılar) təbəqəsi
***Rəhman və Rəhim Allahın adı ilə***
Allahın yardımı və köməyilə
İstedad, biliyi, inad, səyilə
Dövlətin aramla tərəqqisini,
Kütləylə qırılmaz əlaqəsini
Yaradan, bərkidən ziyalılardır,
Bu yüksək, zəruri təbəqə vardır!
Ölkənin çox saylı təsərrüfatın,
Mədəni, siyasi labüd həyatın
Önündə gedəndir, güdən, sayandır,

Faydasın kütləyə aşılayandır!
Qoruyub mənsubluq insaniyyətin,
Mərifət, ləyaqət, mədəniyyətin,
Yaratmaq niyyətin O, ali tutur
Və kamil hər elmin imanı olur.
Sığınıb Allahın kəramətinə,
Hər şeyin göz qoyub əlamətinə,
Mahiyyət, hikmətin, sirlərin bir-bir
Açmağı dövlətə məhz xidmətidir
Ki, çəkək hər varın qulluğunu da,
Əsaslı yaradaq bolluğunu da.
İlahi, həyata qulluğu yüksək
Hər tutan mömindir möminlərin tək.
Çünki bu aləmdə yapan bolluğu,
Sənə həm bəşərə edir qulluğu!
Məhz helmi, kamalı, zehni-əməyi
Görməsə layiqli qiymət, köməyi
Şərəfli varlılar qatı yaranmaz,
Yüksəliş marağın bir kimsə anmaz.
Boğular fəallıq, fərəhli zəhmət.
Edərmi zəkalar yeniliklər fəth?!
Ziyalı tutmasa münasib yerin
Cəmiyyət itirər ölçüsüz xeyrin!
Ehtiyac sıxarsa hər yandan onu
Bəs necə yetirsin məxsus borcunu?
Nə qədər sığına ləyaqətinə
Daxildən acıyar aqibətinə.
Gərək var-dövlətin ola salimi,
Helimli zəhmətkeş, peşə alimi!
Çünki heç olmayıb bir dövlət hələ
Onlarsız inkişaf edə, yüksələ!
Xalqının gözüdür, közüdür onlar!

Dövlətin gücüdür, üzüdür onlar!
Artarsa şərəfsiz var yiyələri,
Kafir tək törədər faciələri.
Qanunlar pozular, tənəzzül başlar,
Hərc-mərclik yaranar, ağrıyar başlar.
İlahi, Sən qoru nur saçanları.
Cəhalət içindən yol açanları!

**3. Millət və xalq** (Məzlumlar təbəqəsi)
***Rəhman və Rəhim Allahın adı ilə***
Ey kamil Dünyanı quran, Banisi.
İstedad, idrakın mütləq Dahisi.
Misilsiz zəkanı edən təzahür
Cahanın olarmı xəlqsiz təsəvvür?!
Hər varın münasib rəngarəngliyi,
Özünə bir məxsus xoş ahəngliyi,
Aləmi bürüyən bu ətiriyyatı,
Duyğu və hisslərə zamin həyatı
Vurğunluq yaradıb qiyafətinə,
Döndərir sevginin ilk afətinə!
Bəşər də minlərlə gülə bənzəyir,
Daxili aləmi məftun eləyir.
Müxtəlif xasiyyət, xüsusiyyətlər,
Münasib ənənə, milli adətlər
Oyadır ehtiram, minnətdarlığı
Yaxşı ki, yaratdın belə varlığı!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Dövlətdir, dövlətə xalqı, milləti!
Çəkəndir yolunda zəhmət-zilləti.
Tükənməz sərvətdir, sərvətlərinin!
Əvəzsiz nemətdir, nemətlərinin!
Dilləri, irqləri, dinləri ayrı

Bir xalqın millətdir əsas meyarı.
Millətin bəşəri bir qəlbi varsa,
Gələnlər başına hey toplanarsa
Bu dostluq, həmrəylik dəlalətdir!
Ürəklər ram edən xoş adətdir.
Ən yetkin qanunlar bu azlıqların
Millətlə yaratsa tarazlıqların,
Şahidi olardıq qabil əllərin
Yapdığı misilsiz xariqələrin!
Ölkədə artımı bu millətlərin
Bərkidər birliyin məhz dövlətlərin!
Nə adət, ənənə, nə irqi, rəngi,
Nə mənsub dini, nə dili, ahəngi
Dağıtmaz qurulmuş xalqın birliyin,
Davranış, ünsiyyət səmimiliyin,
Əgər bir Allaha inam bəsləsək,
İnsanlıq borcuna düzgün səsləsək!
Dərindən dərk etsək vəzifəmizi.
O, nədən, nə üçün yaradıb bizi?
Dərk etsək, alınca ta son nəfəsi,
Canın da sağdırsa bircə zərrəsi,
Allahın əvəzsiz bir elçisiyik,
Cahanda yeganə təmsilçisiyik!
Hər mövcud dövlətdə, hakimiyyətdə,
Hər eldə, obada, hər cəmiyyətdə
Etnik bir təmizlik hər aparanın,
Haqq dində nifaqlar həmi salanın,
Çıxa ya çıxmaya ruhu canından,
Qurtarmaz Allahın intiqamından!
Bu ağır günahın batan kirinə
Sözsüz ki, tapmaz bir dəlil xeyrinə!
Əzabı qisasla bitməyir hələ

Çəkilər məhşərə, düşər məşələ!
Bax, verir imkanı haqq yola çəkən.
Tövbə et və düzəl hələ sağ ikən!
Dərk edən istəməz odda qovrula,
Var-yoxu bir anda göyə sovrula!
Sağ ələ verilə, çalış, dəftərin,
O günü (!) olmasın qorxun, dərd-sərin!
Hər xalqa ömürlük tutduğu qərar
Yerində cənnəti etmək bərqərar,
Qayğıyla yanaşmaq təbiətinə
Və nail olmağa bol nemətinə,
Qoruyub, bəsləmək tövsiyyəsidir!
Hər an bu istəyin O, yiyəsidir!
Ucalar kütlənin qorxunc üsyanı,
Tapdansa hər haqqı, yoxsa həyanı!
Xalq dönür bəndləri dağıdan selə,
Ümumi ziyanlar vurulur elə.
Kim istər bu ağır bəlanı dadsın,
Qurunun oduna yaş ikən yansın?!
Uğurlar gözləyir xalqı ananı,
Allaha səmimi bərk bağlananı!
Bir odur qoruyan şahı, heyəti
Məhz görsə firavan xalqı, milləti.

**4. Məhrumlar təbəqəsi** (Zindan)
***Rəhman və Rəhim Allahın adı ilə***
Əbədi sahibi bu kainatın,
Ən ali hakimi mövcud həyatın.
Cəhənnəm Dünyanın, zindan dövlətin
Olub son aləti haqq-ədalətin.
Düşənlər taleyin versiz* güdaza
Verməmək üçün məhz alırlar cəza!

Sərt tədbir sarsıdır məhkum-əsiri,
Duymursa nə vaxtı, nə də fəsili.
Yumaqla günahın keçirər günün,
O, açar zəhmətlə hər bir düyünün!
Bir daha kim istər düşsün oraya,
Yoxdursa əl tutan, gələn haraya?!
Ən ağır işini görər Dövlətin,
Zəhmətlə artırar varın-dövlətin.
Münasib qayğıdan can üzülməyir,
Ümidi sınmayır, versiz ölməyir.
Tövbəsin bildirər daimi səyi
Və adil nəzarət verər xoş rəyi
Ki, alsın heyətdən əfvinə fərman.
Məhrumlar məskənin tərk etsin o can.
Ucalsın, ucaltsın zəhmətlə adın,
Nə Allah eşitsin bir də fəryadın!
İnsani, vətəndaş borcunu yenə
Yetirsin, qarışsın cəmiyyətinə!
İnşaallah.
Ən adil hakimdir Rəhman və Rəhim!
Onun tək qorumaz haqqları heç kim!
Cəhənnəm qurubsa həyat naminə
Şübhəsiz gərəkdir, durub zaminə!
Ən düzgün tədbirdir, tərbiyədir bu,
Məhrumun əfvəcən itir hüququ!
Kaş ki, bir qurunun oduna yaş da
Yanmasın, ədalət dayansın başda!
Kaş insan qüsursuz dövran quraydı,
Hamı bir-birinə həyan olaydı!
Kaş kamil insanlıq bərqərar ola,
Zindan və Cəhənnəm daim boş qala!
Amin.

## VƏTƏN

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey ulu Tanrımız, ey Pərvərdigar
Sənə tən, müqəddəs, pak kimimiz var?!
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Büsbütün varlığın yaradanısan.
Gözünün nurusan, gücü, canısan.
Qərar və hökmünə sədd yox heç yanda!
Burda həm neçə min sirli kahanda
Bir Sənsən əbədi, xilqətin çoxdur.
Müqəddəs və təksən, şərikin yoxdur!!
Əlhəmdü lillahi Rəbbil aləmin...
Hər şeydən əfsəlsən həmi əvəzsiz.
Sənsiz bu Cahanın olmazdı şəksiz!
Günəşdən, havadan, torpaqdan, sudan
Xəlqinə Sənsən ən zəruri olan.
İlahi, ən həssas bir qayğıyla Sən
Kürəni əyani cənnət etmisən.
İrad yox səliqə nə sahmanına,
Hesabsız varlığın cəm məkanına.
Təbiət, mühiti öz nizamıyla,
Yerləşib canlılar intizamıyla.
Bu verir biruzə nəzarətini,
Tədbirli qayğını, bəsirətini!
Canlanan sərvətin çeşidi zəngin,
Hər rəngin, hər ətrin, dadın, ahəngin,
Müxtəlif hisslərin, xasiyyətlərin,
Dillərin, ənənə və adətlərin
Məkanı, məskəni olsun hər sağın,

Onda hər bir tale keçsin sınağın,
Cinsinə ayrılan bol nemətinlə
Ən sabit haqqıyla, ədalətinlə!
Hər canı yaşatsın navazişiylə
Hər biri yarasın Ona işiylə!
Bu məkan xilqətə verdiyin behdir
Və ona insanın tək cavabdehdir!
Tükənməz çeşidli sərvətlərini,
Misilsiz bu maddi nemətlərini
Ki, etsin ağıllı istifadəsin.
Adınla bağlasın hər ifadəsin!
Səndən nə alıbsa gücün, surətin
Vacibdir biz bilək qədrin-qiymətin!
Onlarla bağlıdır bərəkətimiz,
Varımız, ömrümüz və səhhətimiz.
Həvalə etdiyin məkanın gərək
Varlığın qoruyub, nazını çəkək!
Nurunla nurlanıb yayır nurunu,
Yedirib, geydirir kim sevməz onu?!
Ana və övladı mehriban, qoşa
Yaşarsa göz istər etsin tamaşa:
Ananın varıyla zəngin əlvanlıq,
Övladın əşrəfi olan insanlıq
Necə də yaraşar biri-birinə
Yetirə bilsəydik borcu yerinə!
Behiştlik layiqdir hüsnünə onun.
Geydirək həvalə olan bu donun!
İnşaallah.
Rifahım - rifahı, yağısı - yağım*,
Hər yüküm - yüküdür, ağrısı - ağrım.
Sevincim - sevinci, dərdi - dərdimdir,
Allah, bu bağlılıq necə qədimdir?!

O, bizə doğmadır, biz də ona tən.
Sarsılmaz vəhdətlik hissidir **Vətən.**
Onunla bağlıdır təyinatımız
Həm maddi-mənəvi təminatımız!
Çevirdin elə bir nemətimizə
Hey edək şükür bu qismətimizə!
İnşaallah.
Ən əziz olsa da unudulmaz haqq,
Qayıdış, hesabat Sənədir ancaq!!
Əlhəmdü lillahi Rəbbil aləmin.
İlahi,amin.

# AİLƏ

***Rəhman və Rəhim Allahın adı ilə***

***Ailə***: Allahın iradəsi ilə Adəmdən başlayan və sonralar insanların təkamülü ilə əlaqədar seçimində, şaxələnib artmaqda olan nəsllərin nizamlanmasında, təlim - tərbiyəsilə sıx bağlı qayğının mənəvi və maddi tənzimlən - məsində həmçinin ən ali və adil ictimai idarəçiliyin mənimsənməsində əvəz olunmaz bir amildir. O, bütün dövrləri və quruluşları pak, sağlam varislərlə təmin etməyə qadir yeganə bir qurum olduğundan müqəddəs və ülvi - dir. Ailə göstəriciləri ümumi mədəniyyətin göstəriciləridir inşaallah.

Allahu əkbər!...la ilahə illəllah...
Rəhmanlı rəhimli ey qadir Allah.
Rəngarəng geyimli sirli Cahanda
Dəhşətli ölümlər olduğu anda.
Pəncələr, caynaqlar edəndə tələf,
Yayanda vahimə, qorxu hər tərəf,
Adəmin qalsaydı yalqız, kimsəsiz,
Bu günki bəşərin olmazdı şəksiz!
Həvvanı həyata gətirməyinlə
Sən, ona həyanlıq yetirməyinlə,
Artırdın qüdrətin, qabilliyilə
Bünövrə yaratdın, qursun ailə.
Bir hakim sakini kimi həyatın
Törəsin, qorusun əbədiyyatın.
Çoxalıb artdıqca nəslinin sayı
Hər yanda hamıya çatsın harayı.
Qurduqça tənzimli, möhkəm birliyin
Açar tam qüdrətin və qadirliyin!
İnşaallah.
Nur saçıb və sönən canın hər birin,

Övladda yaşadar müdrik tədbirin.
İlahi, nə qədər Cahanda varıq
Bir Sənə ölçüsüz biz minnətdarıq!
Xeyirxah işlərin yardımçısısan.
Səninlə bağlayır hər uğrun insan.
Nə qədər önündə qılsaq səcdəni,
Öyünsək Səninlə, öysək də Səni,
Bənzər bir zərrəyə ibadətimiz.
Ölçüyə sığarmı səadətimiz?!

Bu günkü yüksəliş, nailliklərin,
Davranış, birliyə xas biliklərin;-
Ehtiram-hörmətin, namus-vicdanın,
Qanacaq- mərfətin, ismət-həyanın,
Sədaqət-qeyrətin, ədəb-ərkanın,
Tükənməz sevgisin yurdun-məkanın,
İnsani qayğının, saf məhəbbətin,
Məişət, ənənə, milli adətin
Ailə ən ilkin təmayülüdür.
Dəyişməz, müqəddəs, ulu, ülvidir!
Müstəqil idarə intizamı da,
Təbəqə bölgüsün ilk nizamı da
Və mövcud cəmiyyət, ictimaiyyət
İlk olub ailə tərkibində fəth.
Bəşəri təfəkkür, şüur, əxlaqın,
Allaha etiqad, inamın xalqın,
Yaradıb qurmağın ilk həvəsin də,
İnsani həssaslıq, duyğu, hissin də
Ailə ən ilkin təmayülüdür!
Bərəkət, nemətin bolluğun güdür.

Körpənin, cavanın, qadın, kişinin

Həm həyat tərzinin, həm də işinin,
Ailə fərqlərin verir biruzə.
Ədavət yaratmır, qoymur üz-üzə.
Çünki həm insani qayğı, məhəbbət,
Həm adil hökmünü sürən ədalət
Məhz düzgün yön açır səy, əməyə də
Əvəzlik qüvvəni böyütməyə də.
Hər ata görməyə kamil varisin
Həm verir öyüdün, həm tökür hirsin.
Çalışır artırsın elmin, kamalın,
Bəhrəsi yaşatsın məqsəd, amalın.
Nə qədər övladı olsa da ata
Çalışır hamısı murada çata.
Köməyin, qayğısın, məsləhətini,
O, malik olduğu hər nemətini
Özünə xas olan məhəbbətilə
Gərəksə, görünməz səxavətilə
Tərəddüd etmədən əsirgəməyir.
Ağırlıq bilməyir, giley etməyir!
Bir dilər Allahdan: - ol yardımçısı
Ki, görsün uğurlar hər ardımçısı.
Çünki hər uğursuz, çətin günündə
O, yetib hayına məhz özünün də.
İnşaallah.

Dayaqsa atası bir övladına
O, gərək iş tuta layiq adına!
Kim çıxar ziddinə ailəsində?
Bu böyük sayğıdır ona əslində.
Atanın gündəlik səy-zəhmətinə,
Çəkdiyi qayğıya ya töhmətinə
İlahi, kim necə verir qiymətin

Əyani bildirir Sənə hörmətin!
İnşaallah.
Hər mövcud qurumu təminliyilə-
Əbədi, dəyişməz özüldü ailə.
Ailə dövlətdən, dövlət Dünyadan
Fərqlənir yetdiyi kamilliklə an.
İlahi, hər evin çırağı yansın.
Hər şirin istəklər orda canlansın!
İnşaallah.
Dağılar möhtəşəm Dünya Allahsız!
Ailə atasız, dövlət də şahsız.
Çünki hər birliyin tam nizamına,
Şəxsi həm ümumi intizamına
Ən ali və adil nəzarət gərək,
Ədalət qoruna göz bəbəyi tək!
İnsanlıq hər yanda eynidir, birdir.
Allahın önündə o ən alidir.
İnsanlıq hamının olsa hakimi,
Bərqərar edilsə öz haqqı kimi
Kafirlik etməyə olmaz cəsarət!
Hər yerdə yaranar dörd qat nəzarət
Və mövcud qanunlar elə sazlanar
Hər insan hüququ tam tarazlanar!
Hər yanda ən sabit mühit yaranar.
Salehlik, ədalət haqla canlanar
Tam maddi - mənəvi tənzimli dövlət,
Ailə zəmnində bir hakimiyyət!
İnşaallah!

## DÖVLƏT

***Rəhman və Rəhim Allahın adı ilə***

***Dövlət***: Allahın iradəsi ilə əhatə etdiyi ərazidə kök salıb yaşayanların haqlarını hər tərəfli mənəvi və maddi tənzimləyən ümum bir ailə zəmnində qayğılarını hər bir an çəkməyə qadir içtimai idarəçilik qurumunun ən adil və ədalətli aləti olmalıdır. Yəni, o ali qanunlar çərçivəsində insaniyyətliyin keşiyində duran, nəfsimizi intizamlayan və ailələri nizamlayan ən zəruri bir amildir inşaallah.

Ey kamil Dünyanı quran, Banisi.
İstedad, idrakın mütləq Dahisi.
Tükənməz sərvəti, hesabsız canı,
Misilsiz bu gözəl cənnət Cahanı
Yaradıb qüdrətli dövlətin kimi
Etmisən insanı ali hakimi!
Dolğun və mənalı həyat burdadır!
Aləmlər daimi qulluğundadır.
Varlığa zəruri şəraiti var,
Füsunkar təbiət zövqləri oxşar.
Adınla bağlayıb hər ifadəsin
Eləsə qayğıyla istifadəsin,
Xəlqinə nеməti, sərvəti bəsdir.
Onların uğrunda qırğın əbəsdir!
İlahi, neçə min il ötməliydi,
Bu haqqı bizlərin dərk etməliydi?!

Bu böyük inamın müqabilində
Günahlar insanın kəsir dilin də.
Gərəkmi tükənməz səlahiyyətin,
Elçində qalmasa insaniyyətin?
Gərəkmi apara çirkin oyunu,

Bəzəyib geydirə «siyasət» donu?
Yalan, zor, hiyləni edib aləti
Səpə həm səfalət, həm cəhaləti?!
Gərəkmi bu yüksək şüur, ağlımız,
Vərdişə dönürsə dağıtmağımız?
Gərəkmi öldürsün güclü, gücsüzü?
Nahaq qan tökülsün gecə, gündüzü?
Tapdasaq hər bir an mənəviyyatı
Kim sevər, qoruyar mövcud həyatı?
Gərəkmi tərəqqi ya yüksəlişlər
Artırsa vəhşilik, şərəfsiz işlər?
Məhz insan qayğısı xoş ünsiyyəti
Günün ən tapılmaz olub neməti!
İnsanlıq görünmür nəfsin lığında,
Çıraqla baxsaq da Gün işığında.
Pozulur varlığın həyat ahəngi,
Çalınır ümumi fəlakət zəngi!

Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
Təkliyin çəkərək əziyyətini,
Birliyin qavradıq mahiyyətini.
Sədd çəkmək naminə hərc-mərcliklərə,
Yaşaya, işləyə asudə hərə,
Qorxmaya zəbt olsun dövləti, varı,
İllərcə zəhmətlə yaratdıqdarı.
Qorumaq naminə səadətini,
Öz dili, ənənə və adətini,
Çıxmağa fəlakət həm bəlalardan,
Cismani, mənəvi sarsıntılardan,
Qurtuluş yolunu dövlətdə gördük,
Cahanı yüzlərlə dövlətə böldük.

İstərdik, tədbirlər, qərar, qanunlar
Ədalət və haqqı tam qorusunlar!
Hamı bir-birinə olsun havadar,
Məskəni heç kəsə görünməsin dar!
Lakin ilk vəzifə borcumuz qat-qat
Artmışdır, artdıqca sayımız heyhat.
Səmimi rəqabət, əməkdaşlığın,
Əlaqə, həmrəylik və yoldaşlığın
Yerinə, fərqlənən maddi nisbətlər
Qurubdur çox kəskin münasibətlər.
Tayfalar, dövlətlər, mövcud qurumlar
Yapıbdır keçilməz sədd, uçurumlar.
Bu "dinlər"millətlər, irqlər bölgüsü
Bir ağır bəlaya döndükcə, düzü
Dil tapıb qurunca əlaqələri
Əriyib insanın ilk dəyərləri.
İlahi, nə qədər düşdük geriyə?
Səy gərək, hər şeyi bərpa eləyə.
Yox qurum bəyənək fəaliyyətin,
Duyaq tam fərəhlə nailiyyətin!
Mənəvi dəyərlər ola təməli,
Günəşlə bəhs edə insan əməli!
Ən düzgün qaydalar elə yarana,
Əyani Cənnətdə Behişt canlana!
İnşaallah.
Məhz Sənə sığınsaq qalmaz ehtiyac,
Ümumi dərdlərə tapılar əlac!
Vahid bir Vətənə dönən Cahan da
Yaradıb yaşardıq sərbəst hər yanda!

**Unutmayaq ki**, mövcud qurumundan asılı olmayaraq, Allahın təlimləri ilə dövlətin xalqına və xalqın dövlətinə olan qarşılıqlı və səmimi xidməti aləmi heyrətə gətirən gözəl nailiyyətlərə yetirər inşaallah.

## DÖVLƏTÇİLİK

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey sönməz Günəşi bütün xilqətin,
Adillik, paklığın, haqq-ədalətin.
Sənin bu Kürəndə həm elçilərin,
Həm mövcud həyatı təmsilçilərin,
İrili-xırdalı bütün canlısı,
Dillisi, dilsizi, qansız, qanlısı,
Sürünən, yeriyən, üzən, uçanı,
Görünən, gözlərdən lap yayınanı,
Qurmuşdur çox çevik yaşayışını,
Artımın, əlaqə, davranışını!
Hər cinsin olsa da irsi, adəti,
Öz həyat tərzinə bərk sədaqəti;
İstəyi, sevinci, dərdi, qayğısı,
Məskəni, ruzisi, həmkar, yağısı.
Mövqeyi, əməli və məxsus işi.
Görkəmi, mənliyi, yaddaş, vərdişi.
Olsa da hər şeydə müstəqilliyi,
Münasib qulluğa məxsus biliyi,
Cahanda yenə də istər-istəməz
Qırılmaz tellərlə bağlıdırlar məhz
Edib bu həyata hədsiz xidməti,
Hökmün bir-birinə yeritməz qəti!
Hər növün dirçəliş intizamdır,
Nəslini qoruyan sərt nizamıdır!
Ünsiyyət seçimi bütün canların
Artırır, bərkidir güc - imkanların!
Müxtəlif olsa da inkişafları,
Himayən eləyir vəhdət onları.
İlahi, bu həyat - qadirliyindir.
Hər cana zaminlik - adilliyindir.
Varmı bir varlığın kamın almasın?

Yapdığın dövlətdən razı qalmasın?
İnsana pay verdin qüdrətindən Sən,
Canlılar çıxmasın iradəsindən.
Yetirsin onlara dərdi-sərində,
Bəlalı qalmasın Yer üzərində!
Cahanda salmasa bu qalma-qalı,
İlahi qüvvəyə dönər timsalı!
Qüsursuz saxlasa dövlətçiliyi
Daha da bərkidər mövcud birliyi.
İnşaallah.
Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
İdarən örnəkdir alimlərinə!
Sığınsaq tövsiyə, təlimlərinə
Adillik hər qatın güdər xeyrini,
Dövlətin qoruyar mənafeini!
Hər xalqın cənnətə dönsə məkanı
Xoş əhval-ruhiyyə açar imkanı,
Hər bir kəs yetirər vəzifəsini,
İlahi, istəyin tapar əksini!
Hər insan səyinin qüdrətiylə ilk
Bu Yerdə surətin görər Behiştlik!
İnşaallah.

**Unutmayaq ki**, hər cür təsir qüvvəsi həm mütənasib həm də əks təsirlər yarada bilər.

**Unutmayaq ki**, hər əməli fəaliyyətimizin nəticələrinə uyğun ya da daha güclü təsirləri **Əhatəmiz** də layiqincə göstərməyə qadirdi! Bu, bütün canlıların haqqını qoruyan, Allahın ədalətli hökmünü əks etdirən **pozulmaz əzəli yazıdır** inşaallah!!

Əlhəmdü lillahi Rəbbil aləmin.

## V Fəsil
## İDARƏ MÜDDƏALARI

### İNAM

***Rəhman və Rəhim Allahın adı ilə***

Allahu əkbər!.. la ilahə illəllah…
Rəhmanlı rəhimli ey qadir Allah.
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Büsbütün varlığın yaradanısan,
Gözünün nurusan, gücü, canısan.
Ey ulu Tanrımız, ey Pərvərdigar,
Sənə tən, müqəddəs, pak kimimiz var?!
Səninlə bağlıdır dinc rifahımız.
Sənədir səmimi etirafımız;
Daima müxtəlif dövranlar qurduq,
Dirçəltdik, zəhməti yerə də vurduq.
Çalışdıq yapmağa qüsursuz həyat.
Neçə min illərdir uğursuz heyhat!
Lakin bu həyatın sirlərini Sən
Təmkinlə, təkidlə hey yetirirsən!
Məsləhət, tövsiyə və təlimlərin
Diliylə peyğəmbər və alimlərin
Yetir ki, qayıdaq haqqın yoluna,
Hər eldə, obada riayət oluna!
Mənəvi paklığa layiq əxlaqı,
Səxavət, adillik, ədalət, haqqı
Və vacib şərtlərin insaniyyətin
Əsası eləyək hər cəmiyyətin!
Birlikdə yaradaq, yaşadaq hər an,
Əl çəkək bu kəskin qarşıdurmadan!
Bərqərar oluna əmin-amanlıq

Həm maddi bir bolluq, həm firavanlıq!
Keçilməz sərhədlər, nə sədlər qala,
Dövlətlər, millətlər dost, qardaş ola!
Hər insan səyinin qüdrətilə ilk
Yerdə öz surətin görə Behiştlik!
İnşaallah!
Ey bütün varlığın Banisi - Rəbbi
Həm verən təlimi, ruzi və həbbi.
Oyada haqq səsin kaş ölkələri,
Kaş bəşər dəf edə təhlükələri!
Pozulur varlığın həyat ahəngi,
Çalınır ümumi fəlakət zəngi!
Fəlakət seçməyir yaxşını-pisi,
Amansız məhv edir hər cinsi-irsi!
Mənəvi, həm maddi o çəkər dağı,
Ölçülməz ziyanın ucu-bucağı.
Əstafurullah.
Kaş insan dərk edə öz mahiyyətin,
Vəzifə borcunu, səlahiyyətin.
Yığa hər sahədə atılan daşı,
Tanıya simanda sadiq sirdaşı.
Tanıya müqəddəs bir Allahını!
Hər anın nümunə ibrətgahını.
Həm bilə dəyərin kəramətinin,
Mərhəmət rəhminin və rəhmətinin.
Sığına tövsiyə təlimlərinə,
Həmrəylik, əlbirlik elmlərinə
Ki, qura ən gözəl bir dövranını.
Unuda tənəzzül və böhranını.
İnsanlıq məhz dönə Gün işığına!
Təmizlik, sadəlik yaraşığına.
Nə ki var çirkabı yuya ya silə,

Verdiyin hər şeyin qədrini bilə
Ki, edə qayğıyla istifadəsin,
Adınla bağlaya hər ifadəsin!
Həm fərəh yetirə fəaliyyəti,
Oyada iftixar nailiyyəti.
Qalmaya ucaldan ahu-zarını,
Olmaya gizlədən iftixarını!
Yer ola beşiyi insaniyyətin,
Ən yüksək mərifət mədəniyyətin!
Bəşərin elminin güc-qüdrətilə
Cahan da fəxr edə öz surətilə.
İnşaallah.
Ey bütün bəşərin ümid, pənahı,
Bilən dərd-sərini, yuyan günahı.
Etməsək insani dəyərləri dərk,
İnamla tutmasaq ətəyindən bərk,
Qavrayıb ətrafı özümüzü də
Açmasaq mənsubluq əyri-düzü də,
Sübh tezdən, günorta qaş qaralanda
Sadiqlik bildirib insani anda,
Önündə olmasa ibadətimiz,
Əbədi qalmasa bu adətimiz,
Olmasa hər eldə öygüyə yığın
Məhz rəmzi ehtiram həm bağlılığın,
Olmasa tam inam şəriət dinə
Həm zamin durduğun gələcəyinə,
Haqların haqqına sadiq olmasaq,
İnamla, inadla addımlamasaq
Qüsursuz dövranı qurmaqmı olar
Tutmasa yerini bu müddəalar?!

## TƏMİZLİK

***Rəhman və Rəhim Allahın adı ilə***

İnsan həm özünü, həm Cahanı dərk
Etsəydi tutardı ətəyindən bərk.
Eşidib qavrayar haqqın səsini,
Təmizlər çirkabdan hər sahəsini.
**Təmizlik** - Xaliqin şəfa nurudur.
Hər yetən ayənin o qürurudur!
Bu ali təlimi ilahiyyatın
Qoruyur mənbəyin mənəviyyatın
Özünə münasib zənginliyilə,
Şüura sığmayanənginliyilə!
Şahənşah kökündür o təbabətin,
Mənəvi saflığın, maddi nemətin.
Onunla bağlıdır bu var-yoxumuz,
Həm sağlam canımız, mətin ruhumuz.
**Təmizlik** - həyati zəruriyyətdir,
Tələbi - ən düzgün bir riayətdir.
Şərtidir alilik və adilliyin,
Kamillik, qadirlik həm adiliyin.
Gərək o saxlana hər cəmiyyətdə,
Qoruna dövlətdə, hakimiyyətdə!
Ənənə, adətdə, mədəniyyətdə,
Elmdə, təhsildə, incəsənətdə
O, bizə arxadır, olaq qüdrəti,
Onsuz bu xilqətin yox aqibəti!
Ziynəti odur hər tədbirimizin,
Hər yanda dayağı hər birimizin!
Tənzimlər qanunun məsuliyyətin,
Hamının intizam, səlahiyyətin,
Həmrəylik, birliyin, bərabərliyin,
Ləyaqət, şərəfin, mötəbərliyin!

Qanunu dövlətin edər rəhbəri,
Zərgər tək yerinə düzər hər zəri.
Artar haqq-ədalət, əmin-amanlıq,
İşləməz yalan, zor, hiylə, yamanlıq.
**Qəlblərdə təmizlik** - səmimiyyətdir,
Mərifət, qanacaq, pak ünsiyyətdir.
O, namus - qeyrətin, vəfan, arındır!
Hər yanda dayağın, havadarındır.
Qardaşlıq - dostluğun təməl daşıdır,
Firavan rifahın o, sirdaşıdır.
**Hisslərdə təmizlik** - ədəb-ərkandır,
Hörmətdir, inamdır və ehtiramdır.
Bil, ona söykənsə nəvaziş-səbrin,
Hər qəlbi fəth edər qərar-tədbirin!
**İşlərdə təmizlik** - saleh əməldir,
Sevginlə yaranan misilsiz ləldir.
Qoruyan odur pis vərdiş-adətdən,
Qəsbkar nəfsindən, talan-qarətdən!
Zəmindir qayğına, təminatına,
Hər nəslin firavan, dinc həyatına.
**Ey insan**, hər işdə biz olsaq təmiz,
Pozulmaz rahatlıq və səhhətimiz!
Dəyərli məlhəmdir həm sovqatımız,
Yaratsaq təlx olmaz heç ovqatımız.
Odur həm qoruyan məkanımızı,
Artıran mənsubluq imkanımızı!
**Təmizlik** - zəruri bir qənimətdir.
Hesabat günü o dəlil, nemətdir!
Saleh ol pak dinə etiqadında,
Peşəndə nümunə olsa adın da
Nur yayar insani hissiyatımız,
Uzanar ömrümüz, xoş həyatımız!

Hər kəsin göstərir o imanını,
İtaət, riayət, intizamını.
Çünki o, Allahın iradəsidir!
Cənnətin ən ali bir ayəsidir.
Hamının nəfsilə mübarizəsidir,
Xoş duyğu-hisslərin təntənəsidir!

İnşaallah.

**Unutmayaq ki**, bu sahədə ümumi göstəricilərimiz Göyün və Yerin əşrəfi sayılan bir varlığın sanına yaraşmayan səviyədədir əstafurullah.

## SEÇKİ

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey sönməz Günəşi, bütün xilqətin,
Adillik, paklığın, haqq-ədalətin.
Rifahı naminə ailələrin,
Hər zəka sahibin, işlək əllərin:
Çox saylı işinin nizamlanması,
Qurduğu qurumdan fərəh anması
Və tənzim etməyə bölgülər qatın,
Artırmaq məhsuldar təsərrüfatın
Daima örnəklik məhz seçkin gərək,
Hər mövcud sahəyə şamil edərək
Yaratmaq lazımdır öz nizamını
Həm fərdi inkişaf intizamını!

Sahənin heyəti kamil seçilsə,
İşinə nəzarət ciddi edilsə
Və ali heyətdə təmsil olunsa,
Sahənin hər yanda xeyri qorunsa
Qurar öz ticarət, maliyyəsini,
Dövlətə verər pay, hədiyyəsini.
Dəyişər zəhmətə münasibətlər,
İstehsal yüksələr, artar nemətlər!
Bir daha görməzdik ağır böhranı,
Qüsursuz seçkilə yapsaq dövranı.
İnşaallah.
Uğurlu-uğursuz, nurlu ya qara,
Hər dövrü yetirən belə anlara
Seçkidir. Yüksəldən nailliyini,
Sarsıdan qüdrət və qabilliyini.
Ən kamil seçkilə Allah nur saçır,
Xəlqinə məxsusluq hüququ açır,

Qanunlar önündə bərabərik biz.
Maraqsız bilinməz qadirliyimiz.
Qanunlar tənzimlər bərabərliyi.
Naillik bildirər mötəbərliyi.
Yəni hər insanı fərqləndirən bir
Həyata qulluqda keyfiyyətdir!
Bunda xoş rifahın tapdıqca zatlar
Seçkisi, marağı yaradıb qatlar.
Məhz insan zəhməti onları bəzər.
Lakin çox sürüşkən səthlərə bənzər.
Məhrumlar, məzlumlar, varlı işçilər
Və ali heyətdir - tam təminçilər.
Bu adil bir haqdır dəyişdirilməz!
Zəruri maraqdır dirçəlişə məhz.
Bu mövcud inkişaf vasitəsidir,
Kamillik dövründə fərq itəsidir.
İnşaallah.
Seçkidir təməli hər islahatın.
Səy isə həll edir müqəddəratın.
Həm onlar yaradır ifrata zəmin,
Həm edir yüksəliş, rifahı təmin.
Hər biri oyadır məsuliyyəti
Sərf olan zəhmətlər itməsin qəti!
Ucalaq, ucaldaq öz peşəmizi,
Yetirək insani vəzifəmizi
Ki, qanun-qaydalar elə yarana,
Əyani Behiştlik Yerdə canlana
İnşaallah.

## MÜLAHİZƏLƏR

**İdarə**
***Rəhman və Rəhim Allahın adı ilə***
**1.**Bərabər hüququn, düz təyinatın
Dövlət tam ödəsə məhz təminatın,
Xoş peşə sahibin o dəstəkləsə,
Gərəkli işində kömək eləsə
Və tutsa qadirlik münasib yerin,
Cəmiyyət götürər ölçüsüz xeyrin!
Qurtular «bürokrat» xəsarətindən,
Yalan, zor, hiylənin əsarətindən!
Dövlətin adillik olar yarağı,
Qorunar hamının haqqı, marağı.
Cəmiyyət dövlətin, o cəmiyyətin
Yaradar tarazlı hakimiyyətin!
**2.** Həm ola hər şəxsin dövlət hakimi,
Həm onu qoruya vəkili kimi!
Vəhdətsə işilə insaniyyəti,
Qoruna hüququ, səlahiyyəti!
İnşaallah.

**Cəmiyyət**
***Rəhman və Rəhim Allahın adı ilə***
**1.** Ədalət və haqqı güdən qanunlar
Məhz qəbul olubsa alidir onlar!
Allahın hökmüdür! Şübhə yox buna,
Hamıya, gərəksə şamil oluna!!
**2.** Qanunlar dövlətin olsa hakimi,
Səslənsə hər şəxsin öz haqqı kimi
Artırar nəzarət, məsuliyyəti,
Çəkər sıx birliyə cumhuriyyəti!
Mənəvi paklığa layiq əxlaqı,

Səxavət, adillik, ədalət, haqqı
Və vacib şərtlərin insaniyyətin
Əsası eləyər o, cəmiyyətin!

**Münasibət**
***Rəhman və Rəhim Allahın adı ilə***
1.***Keyfiyyət*** zəhmət və qabilliyətin,
Zəruri, xeyirxah fəaliyyətin
Məhz məxsus qazancın eləsin təyin,
Tam alsın bəhrəsin, sahibi səyin!
**2.** Göstərə intizam, qabillik, səyi
Yaşayış, qazanc və möhtəbərliyi.
**3.** ***Uğrunda xalqının, Ana vətənin***,
Gərəksə, canını qurban edənin
Biganə qalmayaq ailəsinə,
Keçirək dövlətin himayəsinə!
Şəhidlik ən yüksək şərəfimizdir!
Nümayiş olunan qeyrətimizdir!
**4.** ***Doğulub ötməyən on altı qışı,***
***Haqlayan qırx illik işlə altmışı***
Dövlətin olsa tam təminatında
Basılmaz hüququ heç bir qatın da!
Məhz belə Dövlətin qoruyar hamı.
Xalq ondan, O, xalqdan alar ilhamı.
Günbəgün yüksələn rəşadət, hünər
Ən adi əmələ, adətə dönər.
Və insan qayğısı, xoş ünsiyyəti
Hər anın əvəzsiz olar neməti.
Çünki bu, Allahın iradəsidir!
Ömrün ilk payı, son hədiyyəsidir!!
İnşaallah.

**Şəxsiyyət**

***Rəhman və Rəhim Allahın adı ilə***

**1.** Həm ola hakimi öz diyarının,
Həm sərbəst yaratmaq ixtiyarının!
**2.** Vətənin naminə hər vətəndaşı,
Qürbətdə yaşayan qohum, qardaşı,
Bəyənən xalqının tədbir, qərarın,
Artıran dövlətin nüfuzun, varın
Həm fəal qoruyan bütün nemətin,
Həm çəkən keşiyin haqq-ədalətin;
Səmimi rəqabət, əməkdaşlığın,
İnsani həmrəylik və yoldaşlığın,
Bəşəri birliyin güdən ellərin,
Sahibi xeyirxah əlaqələrin,
Bu yöndə illərlə səyy-zəhmət çəkən,
Can fəda eləyən ya qanın tökən
Sayılsın ölkənin fəxri sakini!
Qanunlar rifahın olsun zamini.
Qorunsun mənsubluq mülkü, dövləti,
Vardırsa insani haqq-səxavəti!

**Niyyət**

***Rəhman və Rəhim Allahın adı ilə***

Allahın ölçülməz hey köməyilə,
Hamının ümumi səy-əməyilə
Seçərək qurağın elə dövranı
Bir daha görməyək ağır böhranı!
Məhəbbət və qayğı, inam, ehtiram
İsitsin və etsin ürəkləri ram.
Həm fərəh yetirsin fəaliyyəti,
Oyatsın iftixar nailiyyəti!
Mənəvi dəyərlər olsun təməli,
Günəşlə bəhs etsin insan əməli!

İnşaallah.

Çünki bu Cahana gələn, yaşayan,
Elçilik yükünün şanın daşıyan
Allahın gözündən yayınmaz qəti,
Çəkəndir önündə məsuliyyəti!
Olmasa həmrəylik və birliyimiz,
Qurmarıq firavan bir dövranı biz!
Bolluq və rahatlıq olar, hamının
Bəhrəsi-ən ciddi intizamının.
Nə zillət görərdik nə də zindanı
Doğma və məsləkdaş sayıb hər canı
Vaxtında əl tutsaq bir-birimizə
Döymərik nə başa, nə dizimizə!
Təqsirkar Şeytanı günahımızla
Etmərik, yaşasaq Allahımızla!
İnşaallah.
Nə qədər pak əli çiynimizdədir
Güclüyük! Gücü hər birimizdədir!
Ümidi bizədir, ümidimizdir,
İlahi qüdrətdir, doğma, əzizdir.
Bil, dayaq nöqtənsə o Pərvərdigar
Yeri də yerindən çevirmək olar!
Hər insan yetirsə vəzifəsini,
Ən ülvi istəyi tapar əksini.
Sahibi olardıq elə dövranın,
Sayılar ən gözəl dövrü zamanın!
İnşaallah.
İlahi, kömək et! Yardımçımız ol,
Uğurla salmağa o dövrana yol!
Edib min illərin çin bu niyyətin,
Qərq olaq nuruna İnsaniyyətin!
Əlhəmdü lillahi Rəbbil aləmin.

## MÜSTƏQİLLİK

***Rəhman və Rəhim Allahın adı ilə***

***Müstəqillik:*** Bir olan Allahın bütün canlılara yaşadıqları ərazidə ilk təyin etdiyi asudəlikdir. Bu, onların çox ciddi nizam-intizamları ilə bağlı, əhəmiyyəti ölçülməz, fərdi və ümumi maddi həm mənəvi dəyəridir inşaallah.

Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edə sonuz fəzanı.
Və Rəbbi hər elmin, ağıl-kamalın,
Sahibi tükənməz izzət-calalın.
Bilərək qədrini nemətlərinin
Kaş olaq sahibi hikmətlərinin.
Onlardır açarı xoşbəxt həyatın.
Əvəzsiz örnəkdir hər təlimatın!
Hədsizdir gücünlə, səlahiyyətin
Lakin hər təlimi ilahiyyatın
Tədbirli, təmkinli qayğınla Sənin
Çevrilir malına hər bir bəndənin!
Həm edir qulluğu uyğun yaşına
Həm də ki, müstəqil qavrayışına.
İlbəil artırır kamilliyin də,
Asudə yaşayış qabilliyin də.
İradən tapsa da könüllü həlli
Bu adil idarən ciddidir, bəli
Yox qalan kənarda nəzarətindən,
İltifat, lütfündən həm izzətindən!
İnamın,  döndükcə ömrünə varın,
İnadın,  artırır saf duyğuların!.
Sənin hər vasitən çox mənalıdır,
Hər sirli hikməti təmənnalıdır.
Dərk edib yetirən xoş iqballıdır,
Anmayan ürkülü, qalmaqallıdır.

Çünki hər seçkimiz, hər səyimizdə
Tam azad olsaq da hər rəyimizdə
Daima möhtacıq kəramətinə,
Mərhəmət, rəhminə və rəhmətinə!
İlahi, həyatın hökmdarı tək,
Hər dövrün ən adil iqtidarı tək
Üzülmüş, ümidsiz, ağır anları
Edənsən hifz Sənə üz tutanları
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində.
Əhsən bu hünərin şücaətinə!
Könüllü keçirik itaətinə.
Şükür və tariflər bu sayğınadır,
Var-yoxa yanğınla həm qayğınadır!
Söykənsək ədalət-haqq qanununa,
Adillik nuruyla qoysaq yoluna,
Dövlətdə qanunlar elə sazlanar,
Hər şəxsin hüququ tam tarazlanar.
Həm nizam-intizam güclənər qat-qat,
Həm əmin-amanlıq tapan camaat
Artırar ölkədə əməkdaşlığı,
Əlaqə, həmrəylik və yoldaşlığı.
Xalq edər dövlətə yardım işində,
Öz həyat tərzində çevrilişin də.
Hər şəxsin, ailə və təşkilatın,
Ümumi və fərdi təsərrüfatın
Qorunsa hüququ cəmiyyətində
Qanunlar itirməz mahiyyətin də!
Bölgülü cəmiyyət tapar birliyi,
Bərkidər daxili müstəqilliyi.
Artırar inkişaf sürətini də,
Yüksəldər dövlətin qüdrətini də!
Zəhmətlə yaranan naillik itməz,

Dəyərli bir paydır nəsillərə məhz!
İlahi, ədalət-haqqınla bir-bir
Etsək hər təlimi bərqərar əlbir,
Canlanar hökümət yeni sifətdə.
Olmazdı bitərəf, müxalifət də!
Dövlətin adillik olar yarağı,
Qorunar hamının haqqı-marağı!
İlahi, həyatda ali siyasət
Hökmünün etməkdir təbliğini qət!
Ən düzgün qaydalar möhkəm yarana,
Əyani Behiştlik Yerdə canlana!
Mənəvi dəyərlər ola təməli,
Günəşlə bəhs edə insan əməli!
Daima əl tutaq bir-birimizə,
Döyməyək nə başa, nə dizimizə!
Törədə bilməyək fəlakət-bəla,
Qanunlar əbədi qarşısın ala.
Qurtulaq «bürokrat» xəsarətindən,
Yalan, zor, hiylənin əsarətindən.
Ölkədə ən sabit mühit yaranar,
Salehlik, adillik və haqq canlanar.
Hər yanda can deyib, can eşidərdik,
Həm qulluq görərdik, qulluq edərdik!
İçərdik zəfərlər «şərabını» da,
Görməzdik cəhənnəm əzabını da.
İlahi, olub hər təlimin bir dürr,
Hamının eynilə rifahın güdür.
Tətbiqi ən gözəl dövrə yol açar,
Qabillik hər yerdə daim nur saçar!
Yetsə bu səyimiz qərargahına,
Olardıq namizəd pak dərgahına?!
Əlhəmdü lillahi Rəbbil aləmin.

## HAQQ VƏ ƏDALƏT

*Rəhman və Rəhim Allahın adı ilə*

**Haqların haqqı**

Ey ulu Tanrımız, ey Pərvərdigar,
Sənə tən, müqəddəs, pak kimimiz var?!
Hər səyin yönəlib rifahımıza,
Bərkidir inamı sabahımıza.
Bəs necə varlığın inkar oluna,
Körpə tək sığınıb Yer, Göy nuruna?!
Bu milyon illəri keçib gəlincə
Nəsillər çıxardıb mühüm nəticə.
Nəhayət əyani duymuşuq bunu -
Həyatdan ayrılmaz mövcudluğunu!
Məhz Sənsən sahibi bu kainatın.
Ən ali hakimi mövcud həyatın.
Günəşdən, havadan, torpaqdan, sudan
Xəlqinə Sənsən ən zəruri olan.
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Qərar və hökmünə sədd yox heç yanda!
Burda həm neçə min sirli Kahanda
Sən, küllü ixtiyar sahibisən bir.
Dünyalar, varlıqlar yapmağa qadir.
Allahsan əbədi, xilqətin çoxdur.
Müqəddəs və təksən, şərikin yoxdur!!
Sönməyən Günəşi Sənsən xilqətin,
Adillik paklığın, haqq-ədalətin.
Pozulmaz yazıdır ilk xeyir-duan,
Bu sirli məntiqlə püxtələşir can
Yoxsa tam itirər həyat mənasın,
Dirilik təməlin, abi-havasın!
Büsbütün varlığın yaradanısan,

Gözünün nurusan, gücü, canısan.
Əlhəmdü lillahi Rəbbil aləmin.
Sənsiz kim Dünyaya nəzarət edər?
İdarə eləyər, haraya yetər?
Kim olar varlığın hakimi, Rəbbi?
Kim verər təlimi, ruzi və həbbi?
Kim hökmün, qərarın çox ehtiyatla
Varlığa yetirər bu kainatla?
Həm cari günündə, gələcəyində
Bildirər nələr baş verəcəyin də?
Dühası bəsləsin minlərlə nəsli,
Var ikən varlığın itməsin əsli?
Sənsiz kim eşidər fəryadımızı
Və kimdən dilərik imdadımızı?!
Kim yazar hər canın məramnaməsin
Həm verər tətbiqlik gücün, nəfəsin?
Dəqiq hər birinin ayırar yerin
Ki, həyat götürsün büsbütün xeyrin?!
Sənsiz bu ümidlər kimə bağlanar?
Kimi öz həyanı, dayağı sanar?
Və kimin görərdik kəramətini,
Mərhəmət, rəhmini və rəhmətini?
Sənsiz bir can belə almaz kam nə həzz!
Bu mövcud həqiqət təkzibedilməz.
Bir Sənsən bəşərin ümid, pənahı,
Bilən dərd-sərini, yüyan günahı.
Şükürlər səbrinə, kəramətinə,
Ey bizi gətirən imana, dinə.
Sən məlhəm nurusan, mətanətlisən,
Xəlqinin gözündə ən hörmətlisən!
İltifat göstərən, lütf əskiltməyən,
Önündə bir kəsin haqqı itməyən.
Yox Sənə bərabər nəzərimizdə.

Ölçüsüz haqqın var üzərimizdə!
Çünki o əqidən, kamil idrakın
Daima yaradır hər şeyin pakın!
İnamın dönürsə ömrünə varın,
İnadın artırır saf duyğuların!
Şükür və təriflər bu sayğınadır,
Var-yoxa yanğınla həm qayğınadır!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Ən həssas qayğıyla, adilliklə Sən
Kürəni əyani cənnət etmisən!
Hər qurğun kamillik möcüzəsidir.
İdrakın ən yetkin nümunəsidir.
Hikmətin hər şeydə mövcuddur lay-lay,
Hər zərrən sərvətdir, tükənməz bir pay.
Hər biri həyatın açır bir üzün,
Hər şeyin yapmısan gecə, gündüzün
Özünə münasib zənginliyilə,
Şüura sığmayanənginliyilə.
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Cahanlar, aləmlər yapan da Sənsən,
Varlığa həyansan məhz xəlq edənsən!
Hər anın nümunə, ibrətgahısan,
Varlığın əvəzsiz bir Allahısan!
Haqların haqqısan, uğurlar uğru.
Əməli salehsən, xeyirxah, doğru!
Sənədir səcdəmiz ibadətimiz.
Verdiyin həyatdır səadətimiz!
Həyatda hər bir can əmanətindir,
Varlığın xəlqinə zəmanətindir!

**Haqq**

***Rəhman və Rəhim Allahın adı ilə***

***Haqq:*** Bütün canlıların ömrünə münasib Allahın nəsib etdiyi öz nizam-intizamı ilə sıx bağlı ən zəruri mənəvi dəyərlərlə, maddi nemətlərə həyatda tam mənsubluqlarıdır.

Ey kamil Dünyanı quran, Banisi,
İstedad,idrakın mütləq Dahisi.
Cahanı qavramaq yaratdığın tək
Hesabsız zəkanın əməyi gərək.
Odur bu varlığa yeganə Vətən.
Varsa da hüsnünə kainatda tən.
Yapdığın bu həyat - qadirliyindir.
Hər cana zaminlik - adilliyindir.
Cahan tək minlərlə əyalətində
Yaşayır təbin də, məhəbbətin də!
Müxtəlif varlıqlar yaradanısan.
Sayəndə dirçəlmiş, dirçəlir hər can!
Hər hansı mühitə gətirdiyin pak,
Münasib şüuru, qabillik, idrak
Götürüb varınla varlanır qərəz
Ən varlı Varlıqsan, yox Sənə əvəz!

***Hər cana etmisən öz haqqın nəsib:***
- Müstəqil yaşayış. - Ruzi münasib.
- Önündə xidmətə görə qazancın.
- Seçilib - seçməyə asudə Tacın.
- Və istək, niyyətin ərz etməyi də.
- Nəslini artırıb, böyütməyi də.
- Vardır ən başlıca haqqı onların
Yetirmək cinsinə mənsub borcların!

Ən adil himayən, ciddi nəzarət,
Daim öz hökmünə sadiq riayət
Etməyin, qoruyur - haqq aliliyin.
Yapdığın ədalət - bərabərliyin!

**Ədalət**

***Rəhman və Rəhim Allahın adı ilə***

***Ədalət:*** Bütün canlı cinslərin nizam - intizamını yaradan, haqlarını təmin edən və qoruyan Allahın təlimlərinin həyatda tam bərqərarlığıdır.

Ey bütün varlığın Banisi, Rəbbi,
Həm verən təlimi, ruzi və həbbi.
Yapdığın bu Cahan tərifə gəlməz!
Əyani Cənnətdir! Xəlq qədrin bilməz.
O Səndən səy, zəhmət çox edir tələb,
Hey fitri istedad, görünməyən təb.
Çünki o, məkanı olur hər sağın,
Onda hər bir tale keçir sınağın
Və gedir kamillik tədqiqatları,
Sınanır yeni can ehtiyatları.
Cinsinə ayrılmış bol nemətinlə
Ən sabit haqqıyla, ədalətinlə.
İlahi, büsbütün bu varlığı Sən
Dövrün bir qismiylə təmin edirsən.
Hər cana ayrılan müddət ərzində,
Münasib vərdişli həyat tərzində,
Himayən qoruyur daim hər birin.

***Yetirir hökmünü müdrik tədbirin:***
- Yox bilən aləmdə ömrünün sonun
- Və necə yazmısan taleyin onun.

Adil hökmü olan Sən.
Canı verən, alan Sən.
Harayına xəlqinin
Həm yetən Sən, qalan Sən!

- Tükənməz etməklə istək, niyyətin
- Saxlarsan hüququn, səlahiyyətin.
- Hər işin, əməlin, hər hərəkətin

Verənsən layiqli öz bərəkətin!
- Və yetir kiminlə, kimə qəzəbin.
Kimlərlə-kimlərə ruzi və həbbin
Məhz özün bilirsən, sirdir varlığa.
Bu hikmət özülüdür havadarlığa!
- Nəhayət, aləmlər çərçivəsində
Qoruyub irslərin mənlik bəhsin* də,
Ədalət yaradır məxsus imkanı,
Ruhları dəyişə bilsin məkanı.
İnşaallah.
Ey bizi yaşadan, kamilləşdirən,
Hər şeydən xəbərdar, hər sirri bilən.
Ədalət və haqqın sabit qalması,
Eynilə hamıya şamil olması
Göstərir sarsılmaz iradəni də,
Ən adil və ciddi idarəni də!
Budur məhz əsası sabit birliyin!
Ən möhkəm təməli bərbərliyin.
İntizam-nizamlı bu sərbəslikdir.
Bəşərə əyani təlim, dərslikdir
Ki, edir həyata hər cins xidməti,
Hökmün bir-birinə yeritmir qəti!
Müxtəlif olsa da inkişafları
Himayən eləyir vəhdət onları!
Həm Cahan yaşadır bütün xilqəti,
Həm onun xilqətdir sərvət, neməti!
Yeddi haqq, ədalət, yeddi Göy qatı -
Dühandır! Qoruyan mövcud həyatı.
Varmı bir varlığın kamın almasın?!
İlahi, Cahandan razı qalmasın?!
Şükür ki, Səninlə ali heyətin
Çəkənsiz keşiyin haqq-ədalətin!
Əlhəmdü lillahi Rəbbil aləmin.

## BİRLİK

***Rəhman və Rəhim Allahın adı ilə***

***Birlik və bərabərlik:*** Hər hansı bir dövlətdə qəbul olunmuş mövcud qanunların hamıya eynilə şamil edilməsindən yaranan ciddi nizam-intizamın bəhrəsidir inşaallah.

Ey ulu Tanrımız, ey Pərvərdigar,
Sənə tən, müqəddəs, pak kimimiz var?!
Xalıqsən hər bir can əmanətindir.
Varlığın xəlqinə zəmanətindir.
Bir Sənsən bəşərin ümid, pənahı,
Bilən dərd-sərini, yayan günahı.
Yüksələ insanın Ərşə ah-vayı
Yetən yox imdada Səndən savayı.
Yoxdur, yox iqtidar tən bir zərrənə!
Gəlmərik rast belə xəlqi sevənə!!
Olmusan dinimiz, etiqadımız,
Varsan ki, əminik var imdadımız!
Cənubda, Şimalda, Şərqdə və Qərbdə
Salırsan lövbər hər niyyətli qəlbdə.
Cahanlar, aləmlər yapan da Sənsən.
Varlığa həyansan məhz xəlq edənsən!

Ey bütün varlığın tale yazını,
Yaradıb ram edən sonsuz fəzanı.
Ağırdan ağırdır, güzaranımız,
Hər yanda tökülür nahaq qanımız.
Etsən də ölçülməz imkana məxsus,
Cəhalət köləsi olmuşuq əfsus.
Qəlbimiz soyuqdur, çox biganədir.
Bəşərə insanlıq yaddırmı nədir?!
Cahanı sarsıdır bu əllərimiz,

Ağılsız işlərlə əməllərimiz!
Əstafurullah.
Çevirib cənnətə bu diyarını,
İnsana tapşırdın ixtiyarını
Ki, etsin qayğıyla istifadəsin,
Adınla bağlasın hər ifadəsin!
Lakin gör talayır insan-insanı,
Ağıllar müqəssir sayır Şeytanı.
Nəfsimiz yaradan şeytana lənət!!
Qoymaz ki, qazanaq layiqli rəhmət.
Hər cana vəba tək dərd yükləyəndir,
Hər mənfur işlərə sürükləyəndir.
Salınmır bərk bəndə yalan, hiyləsi!
Zorundan çəksə də dad əhatəsi.
Yolxucu azar tək hey çəkir dağı,
Yox dəyən ziyanın ucu-bucağı.
Hey pozur varlığın həyat ahəngin
Çaldırır ümumi fəlakət zəngin!
Məhz insan qayğısı, xoş ünsiyyəti
Günün ən tapılmız olub neməti.
İnsanlıq görünmür nəfsin lığında,
Çıraqla baxsaq da Gün işiğında!
Əstafurullah.
Ey bizi yaşadan kamilləşdirən,
Ən ali kürsüdə həm əyləşdirən,
Yetibdir məqamı zəruriyyətin
Önündə cəmlənsin bu rəiyyətin!
Bərkitsin birliyin-bərabərliyin,
Qardaşlıq zəmnində məhz həmrəyliyin.
Sayəndə toplayıb ağıl-kamalın,
Yetirsin məramın ülvi amalın!
Ucaltsın sanına məxsus nizamı,

Zəfərlər çaldıran sərt intizamı!
İntizam-nizamdır - əmin-amanlıq.
İnsanlıq nurunda itər yamanlıq.
Bu vergin hamının məhz nemətidir,
Saçdığı nurudur, qiyafətidir.
Həm ona ayrılıb tarixi möhlət,
Qiyamət günü də qoyulub son hədd
Ki, Yerdə Behiştlik yarada, qura,
Xəlifə sayıla, qulluqda dura!
Həm aça mənsubluq hər imkanını,
Çevirə cənnətə bu məkanını!
Ümumi səylərin cəmiylə ancaq
Bərqərar olunar buyurduğun haqq!
İnşaallah.
İlahi, verdiyin ülvi duyğular
Bu işdə əvəzsiz gücümüz olar.
Məhəbbət və qayğı, inam, ehtiram
İsidər həm edər ürəkləri ram!
Qəlblərdə iz salan ləkəni, qəmi
Səmimi birliyin silər qədəmi.
Birlikdə yaratsa, yaşatsa insan
Əl çəkər kök salmış qarşıdurmadan.
Vallah var birlikdə gücü sellərin,
Toplanır zəkası, elmi ellərin.
Yaradır vaxta tam qənaətini,
Qanuna sayğıyla riayətini.
Var şeylər vacibdir kəmiyyətilə.
Var şeylər vacibdir keyfiyyətilə.
İllərcə zəkalar axtarır an-an
Məhz necə qursunlar qüsursuz dövran,
Həm fərəh yetirə fəaliyyəti,
Oyada iftixar nailiyyəti

Mənəvi dəyərlər ola təməli,
Günəşlə bəhs edə insan əməli?!
İnşaallah.
Haqq səsin oyada kaş ölkələri,
Kaş bəşər dəf edə təhlükələri!
Olmasa həmrəylik və birliyimiz
Qurtuluş tapmarıq bəlalardan biz!
Hamıya yeganə Vətəndir Kürə.
Kövrəkdir, əzizdir verək əl-ələ!
Qoruyaq misilsiz bu cənnət səthin,
Hər gələn hüsnündən ayrılsın çətin.
Həyati qanunlar olunmaz əvəz.
Bu Cahan xəyanət, rəqabət sevməz!
Həyata xidmətdir insaniyyət, din
Güdməli hər canın tam mənafeyin!
Çatmağa ümidli sabahımıza
Səmimi sığınaq Allahımıza!!
Yaradaq beşiyin insaniyyətin,
Mərifət, əxlaqın, mədəniyyətin!
Sərf olan zəhmətlər uğurla bitə,
İnsana Göylərdə edələr qibtə!
İnşaallah.
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin…
İlahi, amin.

# VI Fəsil

## ETİQAD

### ZƏRURİYYƏT

***Rəhman və Rəhim Allahın adı ilə***

***Etiqad:*** Müəyyən bir zəruriyyətdən yaranan niyyətə ümid və inamla bağlılıqdır. Onun ölçü vahidləri bir silsilə kimi yaxşı və ya pis cəhətlərin hasilini göstərir. Xoş rifahımız naminə Allahın yetirdiyi təlimlərə və özünə bağlılığımızın kaş yaxşı cəhətləri yeganə göstəricimiz olaydı inşaallah!

***Yaxşı cəhət:*** Adillik (mm), Səxavət (sm), Haqq (m) və Aman (km).

***Pis cəhət:*** Qəbahət (mm), Səhv (sm), Yamanlıq (m) və Günah (km).

Əlhəmdü lillahi Rəbbil aləmin
Ey ulu Tanrımız, ey Pərvərdigar,
Sənə tən müqəddəs, pak kimimiz var?!
Yığsaq hər sahədə atılan daşı,
Duyardıq simanda sadiq sirdaşı.
Hər səyin yönəlib rifahımıza,
Bərkidir inamı sabahımıza.
Varlığın, mümkünmü, inkar oluna?
Körpə tək sığınıb Yer, Göy nuruna!
Səninlə bağlıdır bu rifahımız,
Sənədir səmimi etirafımız,
İradən idarə etsə hər nəfsi,
Hər yanda alardıq rahat nəfəsi!!
İnşaallah.
Ey bütün varlığın tale yazanı,
Yaradıb, ram edən sonsuz fəzanı.
Məhz Sənə bu zəif etiqadımız
Olarmı əyani heç imdadımız?
Vurduğu ziyanın yox hesabatı.

Köməyin gərəkdir edək isbatı.
Qoy, bilsin hər işdə səy göstərənlər,
Kimisə müqəssir daim görənlər:
Təlimin, qavrayış, inadkarlığın,
Ümidin, inamın, fədakarlığın,
Niyyət və səyinə tən məhəbbətin
Qazansa Allahın, xalqın rəğbətin,
Yenilməz gücündür hər islahatın.
Hər dövrün həll edən müqəddaratın!!
Seçkin bir təməldir, etiqad gücün.
Səy, zəhmət fəth edən hər niyyət bürcün!

***

Təlim və təhlildə eləsək səhvi
Ey ulu Tanrımız, diləri̇k əfvi.
Sığınıb o böyük kəramətinə
Məhz ümid bəslərik mərhəmətinə.
İnşaallah.

Ey bizi yaşadan, kamilləşdirən,
Ən yüksək kürsüdə həm əyləşdirən.
Ehtiyac duysaq da bir-birimizə,
Möhtacıq tək Sənə, can verən bizə!!
Xəlqinin yolunda hüdud bilməyən.
Hamilik köməyin əsirgəməyən.
İnamın biruzə verən sevginə,
Hamıya yardımçı yapdığın dinə
Və gözəl cismani bu cana görə,
Həvalə etdiyin məkana görə,
O odlu, qayğılı təbinə görə,
İnadlı, amanlı qəlbinə görə,
İlahi, nə qədər Cahanda varıq
Bir Sənə əbədi biz minnətdarıq!
Dayaqsan hər yurda, obaya, elə
Zəruri tədbirin, təlimlərinlə.

Zülmətdən çıxırsa kim işığına
Dönürsən ömrünün yaraşığına!
Nə qədər önündə qılsaq səcdəni,
Öyünsək Səninlə, öysək də Səni
Bənzər bir zərrəyə ibadətimiz,
Ölçüyə sığarmı səadətimiz?!
İnşaallah.
Ey ulu Tanrımız - bir Allahımız,
Etiraf edirik, var günahımız.
Duymuruq dəyərin hələ sayğının
Və bütün varlığa olan qayğının!
Əstafurullah.
Çevirib cənnətə bu diyarını
Xəlqinə tapşırdın ixtiyarını
Ki, etsin qayğıyla istifadəsin.
Adınla bağlasın hər ifadəsin!
Vermisən hər cana müstəqilliyi,
Düşüncə, qavrayış, helmi, biliyi,
Qurmağa zəruri, sərt nizamını,
Uğurlar yetirən intizamını.
Hər nəslə, hər kəsə olursan həyan,
Varına şəkk-şübhə etməyək bir an!
Baxmasaq tövsiyə, çağrışına xor
Firavan yaşarıq, olmarıq dilxor!
Olsaq bu niyyətə bağlı hamımız,
Yaransa ümidlə bərk inamımız.
Bərqərar eləsək təlimatları
Dəyişər xalqların tam həyatları!
Keçilməz sərhədlər, nə sədlər qalar,
Dövlətlər, millətlər dost-qardaş olar!
Zaminsən verdiyin fərmanlarına,
Dayaqsan dininin imanlarına!

İnşaallah.
Ey kamil Dünyanı quran, Banisi.
İstedad, idrakın mütləq Dahisi.
Neçə min illərin əhatəsində,
Elmin və həyatın hər sahəsində
Peyğəmbər, ziyalı həm alimlərin
Diliylə yetəndir hey təlimlərin!
Hamıya aiddir qoymayır fərq də
Cənubda, Şimalda, Qərbdə və Şərqdə
İnsanlıq hər yanda eynidir, birdir.
İlahi, önündə o, ən alidir!
Nəbzini tutmağa dövrün, zamanın,
Dayağı olmağa sülhün, amanın,
İnsani hissiyat və mərhəmətin,
Qədrini bilməyə sərvət, nemətin,
Durmağa varlığın məhz keşiyində,
Boğmağa pisliyi öz beşiyində
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində
Vacibdir bərk tutaq pak ətəyindən,
Ola hər təlimin tədbiq dərindən!
Vacibdir hər kəsin insaniyyəti,
Dərrakə, ağılı, səyi, niyyəti
Səmimi bağlana çağrışlarına,
Xeyirxah iş görə layiq adına
Ki, qura ən gözəl bir rifahını
Və zamin durduğun dinc sabahını!
İnşaallah.
Banisi və Rəbbi bu aləmlərin.
Ən ali Şahidi iş-əməllərin.
Hələ də ucalır fəryad-ahımız,
Var saysız səhvimiz, çox günahımız.

Daxili dünyamız tənzimlənməyir,
Nəfsimiz idarə düz elənməyir.
Nə qədər dövranlar yaradıb-qurduq,
Dirçəltdik, zəhməti yerə də vurduq?!
Varsa çox qüsuru hakimiyyətin
Naillik itirər dəyər-qiymətin.
İlahi, xəlqinin dinlə ərzini,
Kömək et, dəyişək həyat tərzini
Ki, artsın mətanət, dəyanətimiz,
Ucalsın ləyaqət, əzəmətimiz.
İtməsin ağlımız, sayıqlığımız,
Düşüncə, qavrayış, ayıqlığımız.
Günahlar qalmasın məhz yığın-yığın
Gərəkdir daha çox havadarlığın!
Desək də güclüdür etiqadımız,
Elmimiz, zəkamız, istedadımız.
Etsən də ölçülməz imkana məxsus,
Cəhalət köləsi olmuşuq əfsus!
Kim bizi bizdən çox olub çaşdıran,
Fəlakət gününü yaxınlaşdıran?!
Qəlbimiz soyuqdur, çox biganədir.
Bəşərə insanlıq yaddırmı nədir?
Hər yanda tökülür günahsız qanlar.
Minlərlə qırılır ümidli canlar.
Harda güc veririk hərb ilə zora
Olur bir əyani cəhənnəm ora!
Əstafurullah.
Talayır, dalayır insan-insanı.
Ağıllar müqəssir sayır Şeytanı.*
Pozulub varlığın həyat ahəngi
Və çoxdan çalınır fəlakət zəngi.
Nəfsimiz dönəndə şeytanımıza

Hakimdir həm ruha, həm canımıza.
Hər dövrə vəba tək dərd yükləyəndir.
Hər mənfur işlərə sürükləyəndir.
Salınmır bərk bəndə yalan, hiyləsi!
Zorundan çəksə də dad əhatəsi.
Keçir çox qanundan, iradədən yan.
Pozulur həm nizam, həm ədəb-ərkan.
Yolxucu azar tək hey çəkir dağı.
Yox dəyən ziyanın ucu-bucağı!
Törədir kimyəvi həssas qalıqlar.
Qırğınlar, yanğınlar, xarabalıqlar.
Tutsaq hər nemətdən üst bu zəhəri
Varislər yığacaq hansı bəhəri?!
Əstafurullah.
Hərçəndi nəfsimiz, hissiyatımız
Süstləşsə, canlanmaz bu həyatımız!
Baissə çəkişmə həm böhranlara,
Həm açır dövrandan yol dövranlara.
Qanunlar bərkidsə iradəmizi
Qorunar hər şeyin ülvi, təmizi!
İnşaallah.
Ey bütün varlığın Banisi, Rəbbi,
Həm verən təlimi, ruzi və həbbi,
Xəlqinin elminin güc-qüdrətilə
Cahan fəxr edərmi öz surətiylə?!
İnkişaf yaradır qəribə təzad.
Çevriliş gedirsə bəs qoyaq nə ad?

**1.** Məhz Sənə artsa da iman gətirən,
Varmı tam iradə, hökmün yetirən?!
**2.** Tarix bir güzgüdür, gör özümüzü,
Silahlar açmırmı iç-üzümüzü?!

**3.** Ticarət naminə yapsaq da pulu,
Dönübdür ağaya, olmuşuq qulu.
Əstafurullah.
**4.** Az dərdlər verməyib həkim yoxluğu,
İndi də bəlaya dönüb çoxluğu.
**5.**Yoxsulkən ədalət, haqdan tutarıq,
Varlansaq dəyişib qını yırtarıq!
**6.** Qanun çox vacibdir, hədsizsə sayı
Vaxtında imdada yetməz harayı.
**7.** Qurduqca tam sərbəst, azad cəmiyyət,
İfrata varırıq yox məsuliyyət!
Var şeylər, artırıb kəmiyyətini
İtirdik zəruri keyfiyyətini.
Dəyişə bilməsək bu vəziyyəti
İlahi, çəkərik biz əziyyəti!

Ürəklər daş olsa, qulaqlar da kar,
Hər yanda edilsə insanlıq inkar,
Cahanda törənər bəla o qədər,
Paylansa hər ömrə gen-bol bəs edər.
Göz yumsaq olana-olacaqlara
Bəşərin sığınar pir-ocaqlara.
Əstafurullah.

## QAVRAYIŞ

***Rəhman və Rəhim Allahın adı ilə***

Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən!
İxtiyar sahibi minlərlə nadir
Canları yapmağa bir Sənsən qadir!
Niyə tək Adəmdən dirçəltdin nəsli,
Bir kökdən böyütdün nəcabət, əsli?
Bu, bəhrə veribmi bir Kahanında,
Yoxsa ilk tədbirdir Yer məkanında
Ki, yadlıq hissinə biz qapınmayaq,
Aləmdə hamını məhz doğma sayaq?
Adəmin artdıqca nəsli burada
Ərazi bölməklə dönməsin yada?
Birlikdə yaradaq, yaşadaq hər an,
Əziyyət çəkməyək qarşıdurmadan?
Birlikdə oluna maneələr dəf,
Kimisə yad sayıb etməyək hədəf?
Görməyək bir kəsin dərdin-sərin də,
Bəlalı olmasın Yer üzərində?
Cahanın qayğılı qurub qulluğun
Artıraq nemətin, varın bolluğun?
Doğmalıq əvəzsiz qüdrətimizmi
Və misli olmayan sərvətimizmi?
Odurmu sabitlik, dinclik aləti,
Bərkidən etibar və sədaqəti
Ki, əvəz etməklə bir-birimizi
Yetirək ümumi vəzifəmizi?!
Törədə bilməyək fəlakət, bəla.
Doğmalıq, qohumluq qarşısın ala?!
İnşaallah.
Bu saysız illərdən keçən niyyətin

Bax, indi bildirir dəyər-qiymətin!
Məkanı, əcdadı bir olanların
Acizdir ayıra vaxt da qanların!
Qəlblər ilk doğmalıq hissin yaşadar,
Bu, edər bərk dostluq qurmağa vadar!
Lakin min müxtəlif kökdən artanlar
Yad olar, yad-yadı çətin ki, anlar.
Şükürlər Sənədir - uzaq görənə,
Buna yol vermədin ola, törənə!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
Qoy bilsin hər bəndən, ateist, dindar,
Müəyyən marağı güdür hər inkar.
Bəlalar basdıqca hey başımızdan
Çox şeylər silinib yaddaşımızdan.
Lakin biz deyilik qərəzli, naşı!
İtirək büsbütün haqqı, yaddaşı.
Kimlərsə "meymun"la bağlayır nəslin.
Deyən var: -"gəlmə"lər gətirib əslin.
Az deyil müxtəlif fərziyələr də
İlkini axtaran daha nələrdə?
Bunlar səhv qavrayış, cəfəngiyatdır.
İnkarın eləyən mövcud həyatdır
Ki, milyon illərin təkamülündə
Əcdadın yaşadır hər can bu gün də!
Səmavi kitablar fövqündə duran
Vəhyilə yetirir müqəddəs «**Quran**»,
Behiştdə yaşamış ilkin insanı,
Hökmüylə olunca bu Yer məkanı
O, qırx min ilə tən məsafəni qət
Edərək enibdir, budur həqiqət!

O, bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Müxtəlif canlısın yapır hər dövrün,
Şərait, mühitə həm uyğun ömrün.
Ünsiyyət seçimi bərkidir canın,
Artırır hər cinsin məxsus imkanın!
Al onun qanından hər məlumatın,
Beynindən taleyin sırf təlimatın!
Dönə də bilərik yaxşıdan pisə...
Əstafurullah.
Yoxdur-yox çevrilən cinsdən bir cinsə!!
Ləkələr yaxmayaq yaddaşımıza,
Xəlq edən müqəddəs Sirdaşımıza!
Var haqsız həmlələr həqiqətə də,
İnsani şərəfə, ləyaqətə də.
Olur ilk təlimlər, peyğəmbərlər rədd.
Çəkilir ən ülvi qaynaqlara sədd
Ki, bəşər unutsun əcdad-ulusun.
Kökündən ayrılan gövdə qurusun!
Bilməyək ən vacib vəzifəmizi.
İlahi nə üçün yaradıb bizi?
Doğmalıq, qohumluq düşməsin yada.
Bundan kim mənfəət umur Dünyada?!
Məhz vurub zərbəni birliyimizə
Ki, düşmən kəsilək bir-birimizə!
Bəladır seçməsək ağı-qaradan
Və inkar eləsək, yoxdur Yaradan.
Əstafurullah.
Bu Cahan, aləmlər, bütün varlıqlar,
İlahi, hökmünlə xəlq olub və var!!
Hər kamil cana xas yapdın beyini,
Bədəndə hər üzvü tutub yerini!

Təkamül çox ciddi olub idarə,
Qoymayıb çevrilək eybəcərlərə!
İnşaallah.
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Yapdığın bu həyat Xudavənd-aləm
Ecazkar hüsnüylə bəşərə hər dəm
Nümayış etdirir təb və cəhdini.
Yaşadır an və gün dəsti-xətdini!
Varsa üz çevirən öz Xaliqindən,
Şüurlu candırmı sayıla bəndən?!
Ya olaq ziyalı, alim, ateist
Əstafurullah.
O qüdrət sahibin etməliyik hiss.
Çünki Yer üzündə bütün canlılar
Təsdiqlər, onların xəlq edəni var!
Hər biri gücünün bir carçısıdır,
İradə, hökmünün icraçısıdır!
Gör, göyə baxaraq necə həvəslə
Hər biri öyünür Varlığın ilə?
Bəs niyə basılsın ləyaqətimiz?
İnsanlıq sanını ləkələyək biz?
Əgər tək inansaq gördüyümüzə
Saysız zidd dəlillə durruq üz-üzə.
**Ey insan,** görünməz canlılar çoxdur.
Görmürük, inkarmı eləyək yoxdur?
Hər canın, ya cismin üst qiyafəti
Kifayət ya qane etməyir qəti!
Vacibdir, görünməz tam xasiyyəti,
Mənsubluq hissiyat xüsusiyyəti.
Səth qəbul edilə, o tərkibi yox,
Olmaz bu bölgünün mənfəəti çox.

Hər şeyin çölüylə görünməz içi -
Əsasdır yapmağa hər çevrilişi!
İnşaallah.
Görənlər qalıbmı o alimləri,
Qədimdən yaşayır məhz təlimləri?
Allahdan savayı şahid yox qəti.
İnkarla basaqmı bu həqiqəti?!
Hər məşhur zəkanı yaradan Odur.
Niyyətin, zəhmətin yaşadan Odur.
O edib yazını elmin yaddaşı,
Labüddür hər bir an itirək başı.
Əstafurullah.
Varsa bu mühitlə, bu sərt şərait
Kim deyər, bu, mənə deyildir aid?!
Dəlillər söykənsə möhkəm təmələ
Aydınlıq gətirər fikrə, əmələ.
Sətirlər girdikcə bəhsə təmkinlə
Hər fikrin sədasın diqqətlə dinlə!
Öyrənək zəruri tariximizdən
Ki, tutsun həmişə bərk əlimizdən!
Cəmiyyət alimi, O, peyğəmbəri
Seçməyi adətə dönəndən bəri
Artıbdır əməli əlaqələr də
Və o bir Allaha inam ellərdə!
Nurlanır nuruyla zəka-ağlımız,
Yetirir bəhrəsin bağlılığımız!
Çünki haqq dəlillə çıxır ortaya
Necə ki bağlıdır övlad ataya,
Cəmiyyət və dövlət seçdiyi şaha,
Dünya da sığınıb o bir Allaha!
Hər ömrün dönüblər ehtiyacına.
Münasib dəyərlə hakim tacına.

Ailə atanın, dövlət də şahın,
Sehirli bu nəhəng Dünya Allahın
Məhz mövcud varlığın təsdiqləyəndir.
Zəhmətin, təb, səyin car eləyəndir.
Tam bitkin elmdən qurduğu həyat
Hələ çox sehrli, sirlidir heyhat.
İtirsək çəkilən zəhmət-səyləri,
Bilmərik örnəklik olan şeyləri.
Kaş edə hər bəndə, dindar, ateist
Yaranış-gəlişin, qayıdışın hiss;
Hər keçid anı ya ərəfəsində
İnciklik, şikayət olur səsində.
Ayrılmaq istəmir vərdişlərindən
O, mövcud aləmdə öz işlərindən.
Yerini tutduqca yazılan tale
Aləmi hər ruhu eləyir valeh.
Özünə münasib zənginliyilə,
Şüura sığmayan ənginliyilə.
**Ey insan**, eşidək bu haqqın səsin
Təmkinlə arayaq müqayisəsin.
İnşaallah.
Ananın aləmi-bətninə uyan
Bu mövcud Cahanı olarmı duyan?
Ulduzlu, Günəşli, Aylı səmanı,
Ahəngdar, ecazkar abı-havanı?
Anarmı, var onun ana-atası,
Varlığı xəlq edən Allah-təalası (!),
Yoğurub-yapanı, verən həyatın,
Burayla bağlayan hər təminatın,
Gəlişin gözləyən məhz qohumları,
Qismətlik ayrılan neməti-varı?
Nələrdən yaranır maddi qidası,

Nələrlə bağlıdır qada-balası?
Ananın aləmi-bətninə uyan
Anarmı, kimlərdi onu qoruyan?
Hədsiz bir sevgilə qayğısın çəkən,
Rifahı naminə qan-təri tökən.
Gözləyən mübarək qədəmlərini
Ki, ola doğruldan ümidlərini?!
Ananın aləmi-bətninə uyan
Körpəyə ey böyük ümid bağlayan,
Eynilə bizi də gözləyənlər var,
Bu ömür illərin izləyənlər var.
Rəhməti qazan, o nəsillərinə,
Dikiblər göz saleh əməllərinə!
Sən çalış sındırma qol-qanadların,
Ol barı doğruldan etimadların!
İnşaallah.
Bənzərik yarışan biz dəstələrə,
Ümumi daxılı doldurur hərə,
Canına ayrılan müddət ərzində
Dövrünə münasib həyat tərzində:
Xeyirxah işilə, ehtiramıyla,
Yaşatmaq əzmilə, intizamıyla.
Sanki, bu yarışda bir təkrarlıq var,
Həm əvəz olurlar, həm qayıdırlar.
Bir nəfər hamıya, hamı birinə
Dayaqdır - ümumi işin xeyrinə!
Şükür məsləhətinə.
Dünyada, dövlətdə, ailədə bil,
Təltifin tək sənin qazancın deyil.
Hərənin payına düşən, yazılar,
Bilinər kimlərdi imtiyazlılar!
Toplanır hər nəslin xeyiri-şəri,

Çıxartsın hökmünü iş-əməlləri!
Ədalət və haqqın çərçivəsində
Ən ali adillik səviyyəsində.
Salehlik yaşadar nəcabət-əsli.
Günahlar amansız yandırar nəsli!
Əstafurullah.
Ananın aləmi-bətninə uyan
Duyarmı, Allahdır xəlqinə həyan,
Nuruyla nurlanır zəka-ağlımız,
Yetirir bəhrəsin bağlılığımız?!
İnşaallah.
Bizə vaxt ayırıb Qiyamətəcən,
Önündə hökmüylə olacağıq cəm?!
Hissimiz ədaya dönər ya dərdə
Əməllər edəndə qazancın əldə?
Çoxumuz diz çöküb əfvin diləri̇k,
Hər gələn ayənin gücün bilərik?
Görərik **Hakimin fələyi-çarxın**,
Əfv, aman sahibin o qərargahın?
Görərik, Onunla ali heyəti
Məhz necə qoruyur haqq-ədaləti?!
İnşaallah.
İstər ol ateist, istərsə dindar,
Allahı etsən də qəbul ya inkar,
Əstafurullah.
Şahidi olursan bir möcüzənin,
Hər gedən, sürünən, uçan, üzənin
Həyata - Onadır daim xidməti.
İşlərin təsdiqlər bil bu hikməti.
Dərk edən dəyişir təbiyyətini,
Artırır xidmətin keyfiyyətini.
Zülmətdən çıxırsa kim işığına

O, dönür ömrünün yaraşığına!
İnşaallah.
Əgər haqq həyatda tutmasa yerin
İçindən çıxmarıq ağır günlərin.
Ailə atasız, nə dövlət şahsız,
Nə də bu Dünyamız olmaz Allahsız.
Əlhəmdü lillahi Rəbbil aləmin.
Ata, şah rütbəsi, Allahın adı
Hər dildə hikmətin saxlamaqdadı!
Mülkündən atanı, dövlətdən şahı,
Dünyanın sahibi ulu Allahı
Bil, inkar eləmək haqqı basmaqdır,
Boynundan kafirlik yükün asmaqdır!
Bu ağır yolxucu yaradır - yara
Həm çəkən bəşəri uçurumlara!
Əstafurullah.
Bil, inkar edilməz bu haqqın səsi:
Nizamlı ordunun var sərkərdəsi!

**Vaxt haqqında**
***Rəhman və Rəhim Allahın adı ilə***
Qoy bilsin hər bəndən, ateist, dindar,
Hər canın münasib vaxt ölçüsü var.
Yazdıqca onların məramnaməsin,
Verirsən tətbiqlik gücün, nəfəsin.
Ayırdın mənsubluq icra yerlərin,
Versinlər həyata tam xeyirlərin!
Yaşayıb mənalı yeddi dövrünü
Xeyrilə bəzəsin ötən ömrünü!
Hər cinsin fərqlənir ömrünün anı.
Hər yaş öz vaxtıyla ram edir canı.
Münasib bağlarıq belə qayışı,

Var belə hər yaşın öz qavrayışı.
Hər gələn böyüyür, artımın edir,
Qocalır, vaxtında həyatdan gedir.
Hətta bu zamana məxsus hər fəsli,
Saatı, hər günü, hər ayı, ili
Hər cinsə münasib etsə də qismət,
Canlar var hər birin tam etməyir qət.
Ömürlər bəllidir çox alimlərə,
Canlar var anı tən günə, illərə.
Can var ki, saniyə ölçür həyatın,
Saniyə bildirir əbədiyyatın!
Sıfrla həm doqquz məhdud rəqəmin
Hər canın zamanın həkk edir dəmin,
Yox bilən dəyərin, həddin, son cəmin.
Hər cinsin həm fərdi vaxt ölçüsü var,
Həm vaxta nisbidir həmin baxımlar!
Eyni vaxt ölçüsü haqların basar.
Təbiət çətin ki, sirlərin açar.
Olmarıq təbabət elmində kamil,
İnsani qadirlik gücünə nail.

**Elm haqqında**

***Rəhman və Rəhim Allahın adı ilə***

O, qurub həyatı bitkin elmdən,
Həm ona elmidir tam xidmət edən,
Həm elmi əsası edib işlərin,
Həyatı banisi yüksəlişlərin!
Tərəqqi və helmin qoyub təməlin,
Hər səyyin məntiqlə o edə həllin;
Bu günün ən yaxşı əməli, hissi
Yüksəlib sayıla sabahın pisi!!
İnşaallah.
Ey uman elmdən münasib barı,

Qoru kök, gövdəni həm budaqları.
Hörmət et, hər cinsin vaxt ölçüsünə.
Öyrənsən çox fayda verər özünə.
Allaha bərk sığın tez ucalarsan!
Rəbbindir, öyrədər kamil olarsan.
Açar öz sirlərin yapdığı hey-hat
Təbabət, təbiət və ilahiyyat.
Zəhmətin, inadın müqabilində
Cəmlənər qüdrətli elmin əlində.
O zəkan qavrayar ətrafını tam,
İdrakın eləyər aləmini ram!
Və kamil elminin güc-qüdrətilə
Cahan da fəxr edər öz surətiylə!
**3. Bilsən ki,** Təbabət, elmi irslərin
Yaşadır özlərin həm varislərin.
Qorumaq naminə mövcud həyatı,
Qurmağa uğurlu əməliyyatı,
Hər mövcud zəhərin, azarın, hovun
O, yapıb mənəvi, maddi cilovun!
Həvalə etməklə təbabətini
Adəmin artırmış güc-qüdrətini.
Yanğınlı və həssas hisssiyatıyla
Bağlansın varlığın tam həyatıyla!
Dəydiyi qeyb olsun ya da hallansın,
Tutduğu niyyətə uyğun canlansın!
İnşaallah.
Bu elmin hədsizdir məhz əhatəsi,
Yaddaşa həkk olub bəsid, sadəsi.
Qurub hiss, maddələr mübadiləsin
Hasili həyata qulluq eləsin.
Bu abi-havaya bənzər təbabət.
Hər anı, hər yanı bəzər təbabət!!

Əfsus ki, bəşərin zəif yeridir,
Həyatdır, həyatdan hədsiz geridir!
**2. Bilsən ki,** Təbiət elmi Varların
Öyrədir yaranış və iqbalların.
Onlarda toplanıb güc, qüvvə lay-lay.
Hər biri sərvətdir, tükənməz bir pay.
Hər birin tərkibi həcminə uyğun
Hədsiz güc, güvvəni saxlayır durğun.
Vaxtında çevrilir haldan hallara,
Mövcud güc-qüvvəsi hey gələ kara!
Hər biri kamillik möcüzəsidir.
İdrakın ən yetkin nümunəsidir.
Özünə münasib zənginliyilə,
Şüura sığmayan ənginliyilə!
Hər nəslin payı var bu əmanətdə.
Yaraşmaz haqlara məhz xəyanət də!
Öyrənib bu elmin hər buyruğunu,
Varlığın çox rahat çək qulluğunu!
Xaliqin gücünün hər carçısının,
İradə, hökmünün icraçısının
Qorusan keyfiyyət həm kəmiyyətin,
Görərsən misilsiz əhəmiyyətin.
Götür həm mənfəət, həm et qənaət,
Təbiət amansız olmasın qarət!
Sayıl bu həyatın əsl dayağı,
**Ey insan**, sev-sevil Xaliq sayağı!
**1. Bilsən ki,** ən ülvi, ən ali elmin
Özülü idrakın, şüurun, helmin,
İnsanlıq şəfəqin saçan bu bürcün,
Bəşərin aramla toplayan gücün
Etiqad və dinin olub əsası,
İlahi qüdrətdən gəlir sədası!

Məhz odur təlimi - təlimlərin də,
Xəlqinə sevdirən alimlərin də!
Xurafat deyildir - İlahiliyyat,
Allahdan yetən bu ülvi külliyat
Dərslikdir Dünyanın camaatına,
Vacibdir insanlıq təlimatına!
Daim var zəruri tələbat ona,
Çəkəndir adillik, haqqın yoluna.
Budur haqq-hikməti o həqiqətin,
Alimlik asandır, insanlıq çətin!
**1.** Bilsən ki, həyatın qulluğuna din
Çağırış səsidir insaniyyətin!
**2.** Mahiyyət, qüdrəti hədd-hüdud bilməz,
Elmlər-elmidir, inkar edilməz!
Allaha məxsusdur, şübhə yox buna!
Var hava, su kimi ehtiyac ona.
O, bizə gərəkdir, zəruri haqdır,
Hər cana mənəvi, maddi dayaqdır!
İnşaallah.
**3.** Hər nisbi elmində açarı Onda,
Zəkaya nur verən o ilhamında.
Ey uman elmdən münasib barı,
Qoru kök, gövdəni həm budaqları!
Günbəgün güclənsin etiqadımız
Və olsun əyani o imdadımız.
Dəryada, quruda, havada əsl
Xaliqi eləsin insanlıq təmsil!
Həm saleh olaq, həm hər sirdən agah,
Bəşərdən gözləyir Elçi qərargah*.

Qoy bilsin hər bəndə ateist, dindar,
Ağıla sığmayan vaxt ölçüsü var.

Onun min illərə təndir bir anı.
Ömrünün bir anın yox yaşayanı!
Bir anı neçə min nəslin ilidir?!
Görmürük, O, bunun müqəssiridir?
Ən uzun bir ömrü O, vermişdi pay!
Bəs hanı Adəmə aramızda tay?!
Getdikcə günaha qurşansaq belə
Ömrümüz tən olar on-onbeş ilə.
Ağıllar məhsulu, əsəblər qıza
Qadirdi son qoya həyatımıza.
Kim bizi bizdən çox olur çaşdıran,
Fəlakət gününü yaxınlaşdıran?!
Saxlasaq Ona bu münasibəti
Görərik, çəkərik çox müsibəti.
Fəlakət seçərmi yaxşını, pisi?
Amansız məhv edər hər cinsi-irsi,
Mənəvi, həm maddi o, çəkər dağı,
Ölçülməz ziyanın ucu-bucağı.
Düşün bir, ey deyən, yoxdur Yaradan.
Əstafurullah.
Yaranıb hər kamil canlı haradan?!
Yeddi gün ərzində yapıb Dünyanı,
Hər sirri eləyir valeh duyanı!
O, saysız can növün Yerdə dirçəldir.
Çox həssas qayğıyla yerbə-yer edir.
Vaxt və güc hədsiz sərf eləyir o Rəbb
Həm fitri istedad, görünməyən təb!

Yaradıb misilsiz cənnət məkanı.
Hər mövcud varlığa xas kamil canı
Və olub dayağı, Rəbbi, loğmanı,
Sərf edir səy-zəhmət, ölçülməyən təb.

Bu qədər qayğıya nədir bəs səbəb?
Düşünək bəşərdən nə edir tələb?!

Kəramət, adillik ümmanı odur.
Əsl haqq-ədalət divanı odur!
Yazdıran təlimi, fərmanı odur
Ki, yetsin hər kəsə göndərdiyi həb!
Bu qədər qayğıya nədir bəs səbəb?
Düşünək bəşərdən nə edir tələb?!

Hər dərdi, diləyi duyandır Xaliq.
Hər ömrə zamindir, həyandır Xaliq.
Qavrayıb sayanı, sayandır Xaliq.
O haqdır! İnkarın bil eləyən dəb,
Bu qədər qayğıya nədir bəs səbəb?
Düşünək bəşərdən nə edir tələb?!

Dağılar möhtəşəm Dünya Allahsız!!
Ailə atasız, dövlət də şahsız.
Çünki hər birliyin tam nizamına,
Daimi, ümumi intizamına
Ən ali və adil nəzarət gərək,
Ədalət qoruna göz bəbəyi tək!
Onlara var böyük ehtiyacımız.
Olublar misilsiz zinət-tacımız!
Atanın və şahın nəfəsiylə O,
Ünsiyyət qurur hər bəndəsiylə O.
Dönüblər güvənlik dayağımıza.
Əzəmət rəmzinə, bayrağımıza.
Kim inkar eləyər sayğılarını,
Görürsə, duyursa qayğılarını?!
İnşaallah.

## DAXİLİ DÜNYAMIZ

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey ulu Tanrımız,ulu Yaradan.
Kəramət, səbrinə sığınıb hər can.
İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
Bilərmi, əyani Dünyana bənzər
Dünyalar var saysız görməyir nəzər?
Əhatə qürubi mütənasibdir.
Hər mövcud diriyə biri nəsibdir.
Torpaq, su, hava, od zərrələrindən
Seçib ən gərəyin cəmləyib dən-dən,
Ruh verib yapmaqla hər həssas canı
Köksündə dirçəltdin yeni Dünyanı?!
Sanki, dörd aləmlə vəhdət, əkizdir -
Xəyaldır, duyğudur, hissdir, nəfsdir.
Xəyal o aləmdir Behiştliyə tən.
Yox qalan kənarda cazibəsindən!
O tutur əlindən yaşayanların,
Mənəvi gücünə dönüb onların!
Duyğu, hiss aləmi yaxındır bizə,
Əbədi bağlanıb kip nəfsimizə.
Yapar xoş xəyalı, hiss, duyğuları
Götürsək nəfsdən münasib barı.
Et saleh əməllə idarə onu,
İradən qorusun hər uğurunu!
İnşaallah.

**Mülahizələr**

***Rəhman və Rəhim Allahın adı ilə***

Sahib ol dinləmək istedadına,
Təhlildə hövsələn yetə dadına.
Dərk etmək təlimin olub qaydası,

Nəticə həllidir, tətbiq faydası.
Haqq, tələb eləyir məhz rəşadəti,
Sevməyir mənəvi-maddi qarəti!
**1.** Varsa var dövlətin, asayişin də,
Hər bir naz-nemətlə yaşayışın da,
Əskilmir gərginlik, narahatlığın,
Gizlin bir qorxudan yox rahatlığın!
**2**. Yaxud var ölçülməz insaniyyətin,
Xoş hissin, xeyirxah səyin, niyyətin
Üzülür can maddi ehtiyacından,
Çəkdiyi dərd-fikrin sırf xəracından!
Ziddiyyət nədədir? Gəl açaq bir-bir,
Daimi gerçəklik örnək yeridir.
O, yapır dayağın xoş duyğu, hissin,
İdarə etməyə hamının nəfsin.
Cilala girinti-çıxıntıları
Hisslərin verməsin sıxıntıları!
Ki, ola dövlətin qanun hakimi,
Səslənə hər şəxsin öz haqqı kimi!
Hamının eyniylə olsa dayağı,
Ümidin, inamın əsl çırağı
Kökündən kəsilər çox qiybət-mızda,
Tarazlıq yaranar rifahımızda!
Həm olar varın da, insanlığın da,
Həm sabit dincliyin, rahatlığın da.
Gəlməsək bu ortaq məxrəcə əgər
Başımız daima müsibət çəkər.
Əstafurullah.
Zəkalar çalışır dövlətində də
Hər nəfsi qanunla idarə edə.
Nə nəfsin aldatsın, nə aldanasan.
Haqsızlıq içində nə talanasan.

Yarana, qoruna sabit birliyin
Həm maddi-mənəvi bərabərliyin.
Tam sərbəst və azad olsa cəmiyyət
İtər o məkanda hər məsuliyyət!
İntizam-nizamdır əmin-amanlıq,
Yaradan həm bolluq, həm firavanlıq!
İstərdik məhz elə qərar, qanunlar,
Ədalət və haqqı tam qorusunlar!
İnşaallah.
Allahın qavrasaq hər tövsiyəsin,
Tapsa hər qanunda təlimi əksin
Həm olar xalqının dövlət hakimi,
Qoruyar haqqını vəkili kimi.
Qədrini bilər hər vətəndaşının,
Uğrunda can qoyan hər sirdaşının!
İnşaallah.
Ey ulu Tanrımız, bizi xəlq edən.
Varmı tam önündə müsəlləh bəndən?
Öz aqil dövrünü ötüb yaşımız.
Xurafat torundan çıxmır başımız.
Nədir bəs qapayan bəsirət gözün,
Təkəbbür qul edə ağılın özün?!
Əstafurullah.
Dönsək də ölçülməz qüvvəyə nəhəng
Əfsus hər təlimin qavranır çox ləng.
Gücümüz lərzəyə gətirib Yeri.
Nəfsimiz hər nəfsi qoyubdur geri.
Cahanı qayğısız soyub-talarıq.
Sanki bu varlığa düşmən-yadlarıq.
Kökündən qırsaq da varlığın zatın,
Ödəməz bu nəfsin tam tələbatın.
Qururuq min çirkin oyun özümüz,

Nə qədər var yığsaq doymur gözümüz.
Qondarıb minlərlə çirkin oyunu,
Bəzəyib geydirdik “siyasət“ donu.
Yalan, zor, hiyləni edib aləti
Səpirik cəhalət və səfaləti.
Əstafurullah.
Bəlkə yox Şeytanın* günahı qəti,
Özümüz basırıq haqq-ədaləti?!
Müqəssir odur ya təqsirlər bizdə,
Nəfsdən törənən əməlimizdə?!
**Ey insan**, axırsa damarında qan,
Hikmətlər-hikmətin çıxartma yaddan!
Allahın təlimin beyninə cəmlə,
Cəhalət yağıdır et ona həmlə!
Bil, dayaq nöqtənsə o Pərvərdigar
Yeri də yerindən çevirmək olar!
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!!
Əlhəmdü lillahi Rəbbil aləmin.

Necə bəs dindarıq, necə bir bəndən
İlahi, tutmuruq bərk ətəyindən?
Nurunu yayana daş-kəsək atan.
Edən çox imamı qanına-qəltan.
Bəşəri çəkişən dinlərə bölən.
Hey nəfsə, əmələ hakim kəsilən,
Öyünən mənəvi sırf qarətilə,
Ağılı kor edən məharətilə
Cəhalət olub, var, caynaq-cəngindən
Tam azad olmayıb hələ bir bəndən!
Gör, heç fərq qoymayıb kimliyimizə
Soyuqluq yeriyib iliyimizə.

Olmuşuq aldadan həmi aldanan.
Qırğınlar törədən, haqları danan.
Bölünüb barışmaz düşərgələrə,
Yaxırıq min fitnə-fəsad ellərə.
Müxtəlif məshəbə qulluq edirik.
Görəsən bu yolla hara gedirik?
Ehsanat verənin könül bağını
Talarıq, dişlərik lap barmağını!
Əkməyi, biçməyi sevmirik haşa
Yeyəndə dönürük ortaq qardaşa.
Yox kamil seçkimiz, yox dürüst məqsəd,
Xeyirxah xidmətə o çəkməsin sədd.
Birlikdə yaradaq, yaşadaq hər an,
Əl çəkək bu kəskin qarşıdurmadan!
Qoruna mənəvi dəyərlərimiz,
İtməyə haqqımız, maraq, səyimiz.
Bilsək nə yığır can, vaxt ondan alır,
Yeganə varından pay kəfən qalır.
"İnsafla ye-yedirt, əl tut adındır.
Yaratsan yaşadar, qalsa yadındır"*
Yenə xalq tam gəlsə imana-dinə,
Yığdığın qalandır varislərinə.
Və itməz çəkdiyin ağır zəhmətin
Saxlansa örnəklik qədir-qiymətin.
Axı çox nəsillər Allah-təalanın,
Xəlqinin qeydinə daim qalanın
Etimad, rəğbətin, kəramətin də,
Bərəkət-nemətin, mərhəmətin də
Doğrultmaq naminə çəkiblər əzab.
Kafirlər zoruna gətiriblər tab,
Yerdə haqq-ədalət bərqərar olsun,
Bütün xoş niyyətlər xəlqə yar olsun!

Deməyək zəifdir etiqadımız,
Olmayır əyani o imdadımız.
Qaytarmır insana məxsus tacını.
Ödəmir hey artan ehtiyacını!

Qoy bilsin xeyirxah, vardı arxası.
Allahdan qurtarmaz pisin yaxası.
Ürəyi daş olan, qulaqları kar,
Zorlu və amansız hər bir zülümkar
Bilsin ki, zalımlıq şəksiz dəlildir!
Son həddə ayılan görər-zəlildir!
Düşər öz oduna yanar, qovrular,
Var-yoxu bir anda göyə sovrular.
Bilsin ki, ölümlə bitməyir həyat,
Haqq-hesab dövründən etsin ehtiyat!
Əməli cavabsız qalıbsa burda,
Ruhu tam cəzasın çəkəcək orda!!
Zərrəcə köməyi görməz "varından*,
Allahın qorxmurmu intiqamından?!
Əstafurullah.
Günahın olubsa ya meylin varsa
Niyyətin yuxunu qarışdırarsa
Səksənək qalxırsan yerindən yaman,
Həyəcan içində dilərsən aman.
Ruhunda qorxuya yox bir anlıq tab,
Qadirmi əbədi çəkməyə əzab?!
Neçə min illərsə Onun bir anı,
Məhkuma neçə gün verir cəzanı?!
Bu zəhim yaddaşa yeridilir bil,
Cəhənnəm aləmi uydurma deyil!
Bir anlıq keyfinin dəyəri onun
Min illər dərdinə dönər ruhunun.

Məşəldə yandıqca ruhun qaməti
Saxlamaz günahdan bir əlaməti.
Tədbiri ciddidir düşən ruhlara.
Verilir ən çətin işlər onlara.
Rəisi halidir tam günahlardan.
Münasib hesabat alır ruhlardan.
Görərlər, çalışır hey təmənnasız
Kimlər ki, oranı sayıb mənasız!
Duyarlar dəhşətli, zillətli yeri!
Çətin ki, hər biri qayıdar geri.
Sərt olur cəzası o azğınlara,
Damğalı kafir tək düşübsə ora!
Bir anda dönürlər ərimiş muma
Ölüm yox Allahdan diləyə, uma!
Çünki O, verəndir hər hərəkətin
Adına tam layiq öz bərəkətin!
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində.
Qarətçi zənginlər bilmir hələ də,
Qazancı **əzabdır** son mərhələdə?!
Yaranış bağlısa aqibətilə,
Yaşayış ödənir axirətilə?!
Möhürlü bu fərman Tanrımızındır!
Ümumi xeyiri hamımızındır.
Qorumaq naminə mövcud həyatı
Aparır bu vacib əməliyyatı!
Şükür məsləhətinə.
Amin.

## NİYYƏT

***Rəhman və Rəhim Allahın adı ilə***

Əlhəmdü lillahi Rəbbil aləmin...
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
Bilərmi, hər işin tam təfsilatı
Və məxfi saydığı sirlərin qatı
Nə qədər artsa da ilkin bilənsən,
Gərəksə münasib tədbir görənsən?!
Bilərmi, sahibi təmiz niyyətin
Həm Sənin önündə, həm cəmiyyətin,
Çalışsa xeyirxah əməl-işiylə
Açar hər qapını bu vərdişiylə?
Kim ki, xoş niyyətin çəkir zillətin
Kaş bilək vaxtında qədir-qiymətin!
**Ey insan**, axırsa damarında qan
Hikmətlər-hikmətin çıxartma yaddan!
Düşünüb hər şeyi var yaradan da.
Məsləhət bildiyi hər fəal canda
Niyyətlər yaranır zəruriyyətdən.
Cahan da təcəssüm olub niyyətdən!
Bir odur qəlbləri isidən ocaq.
Xaliqə xəlqini bağlayan ancaq.
Onsuz yox qayğımız, həm susar dillər.
Bir-birin eləməz əvəz fəsillər.
Niyyəti bəllidir Ona, xilqətin.
Əməli cəlb edir ilkin diqqətin.
Niyyətlə əməlin birliyin yarat,
Həsrətin çəkdiyin mənzilinə çat!
Daxili dünyanın məşəli odur.

Minlərlə qollara ayrılan yoldur.
İradə kəsilib məhz hakim ona.
İdarə et, zülmət çökməz yoluna.
Hər mövcud məqsədi niyyətdir quran.
Var şərtlər məqsədlə məhz qovuşduran.
Yeriyən, sürünən, üzən, uçanın,
Düşünən şüurlu hər bir insanın
Seçimi dönürsə bir təməlinə,
Verir bu amillər güc əməlinə -
Təlimi, qavrayış, inadkarlığı,
Ümidi, inamı, fədakarlığı,
Zəhmət və səyinə tən bir məhəbbət,
Ətrafın qəbulu həm münasibət
Və Allah bəyənsin bu hərəkətin,
Yetirsin münasib öz bərəkətin!
İnşaallah.

**Mülahizələr**

***Rəhman və Rəhim Allahın adı ilə***

Min bir don geydirsək günahımıza
Sir deyil, bəllidir Allahımıza.
Qurd olub geysək də quzu dərisin
Görəndir, biləndir, alarıq dərsin!
Necə bəs dindarıq, necə bəs bəndən,
Tutsaq bir marağı məhz üstün Səndən?
Əstafurullah.
Pis gündə düşürsən tez yadımıza.
Dilərik çatasan imdadımıza!
O adın gəlmirsə xoş gündə dilə,
Qəlb açır marağın sədaqətilə.
Vəhyindir yetirən, hər hərəkətin
Verənsən layiqli öz bərəkətin.
Çevirdik tərsinə yetirilmişi.

Rüşvətlə bağlarıq, başlarıq işi.
Əvvəla dilərik, ver bərəkəti
Ki, edək hörməti ya hərəkəti.
Hər şeydən üstündür maraq, cəhdimiz.
Qurban da kəsirik gülsə bəxtimiz.
İstərik dövlətlə-var ətək-ətək,
Yetimə, yesirə əl tuta bilək.
Heç kəsin artırma Sən ehtiyacın,
Deyirlər, olmayır imanı acın?!
Deyirlər, qalmırsa kim pisliyindən
Ona da əskiltmə yaxşılığı sən.
İstərik sağaldaq əhdlə azarı.
Hər yanı bürüyüb falçı bazarı.
Falçıya söyləyir xalq gileyini.
Gör, edən kimlərdi həll taleyini?!
Əstafurullah.
Ey bütün varlığın Banisi, Rəbbi,
Həm verən təlimi, ruzi və həbbi.
Xəlqinin yolunda hüdud bilməyən.
Hamilik köməyin əsirgəməyən.
Hər Adəm övladın tutan bərabər.
Ey salan diləkli qəlblərdə lövbər.
Budurmu etiqad-qadirliyinə?
Rəhman və Rəhim-in adilliyinə?
Ehtiram gündəlik ruzi verənə,
Zəfərlər, uğurlar həm yetirənə?
Tanışsan hamının məhz niyyətilə
Gördüyü işlərin keyfiyyətilə.
Bilirik, yazılır xeyir-şərimiz,
Çıxartsın hökmünü əməllərimiz.
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində.

Bilirik, övladın səy və zəhməti,
Xeyirxah niyyətlə bağlı xidməti
Atanın yayınmaz heç nəzərindən.
Ümidin doğruldar tutub əlindən
Ki, ona bəslənən inam sınmasın!
Gündəlik çəkdiyin nahaq sanmasın.
İltifat göstərər, lütfün əskiltməz.
Önündə övladın bir haqqı itməz!
İlahi, halisən dərd-sərimizdən.
Əskiltmə nəzəri üzərimizdən.
Sənə sidq ürəklə kim meylin salır
İmana gəldikcə səhvi azalır.
İnşaallah.
Bismillahirrəhmanirrəhim
Aləmi bürüsə "Siyasətçilər"*
Öz şəxsi marağın güdən vədçilər.
Sözsüz ki, yaşayış ağırlaşar da.
Haqsızlıq, hərc-mərclik aşıb-daşar da.
Yalan çox sürətlə tam açar əl-qol.
Oğrular göstərər doğrulara yol.
Suiqəst əlindən dərd-bəla artar.
Güclülər gücsüzü basar və yırtar!
Bəşəri qisaslar çəkər cənginə.
Dövlətlər çevrilər qan çələnginə!
Allah, bu bəladan qoru aləmi,
Yer üzü görməsin belə vərəmi!
Əlhəmdü lillahi Rəbbil aləmin...

Ey bizi yaşadan, kamilləşdirən,
Ən yüksək kürsüdə həm əyləşdirən.
Zorlular sahibsə qorxunc silaha
Kim verər zəmanət dinc bir sabaha?

Cahanda bilsəydik var vahid ordu,
Hamının qeydinə tən qalan odu.
Sabitlik yaranar, olmaz qalmaqal.
Dövlətlər və xalqlar nə zəbt, nə işğal.
Hərb bizi salmazdı hədsiz israfa,
Çəkməzdik min cürə məşəqət, cəfa.
Ona sərf olunan sərmayələrin
Gücü, min dərdin həll edər ellərin!
Bir mərkəz idarə etsə hər dini,
Göstərsə layiqli öz xidmətini,
Xeyirxah əməllər, işlər çoxalar,
Yaranan dostluqlar səmimi olar.
Dəf edər qayğılı zəhmət birliyi,
Səfalət, cahalət və geriliyi!

Yaddaşdan silinər yadlıq, yamanlıq.
Yaranar sabitlik, əmin-amanlıq.
Münasib şərait, mühit inamlıq.
Artardı yerimiz ümid-gümanlıq.
El-oba, yurd-yuva qorxusuz yatar.
Hər Allah bəndəsi murada çatar.

Yaşatsaq saf dini, milli adəti,
Bərqərar eləsək haqq-ədaləti,
Bulanlıq duyğular, hisslər durular.
Əbədi həmrəylik, dostluq qurular.
Hər yanda, hər bir an sərbəst gəzərdik,
Bu mövcud Cənnətdən bəhərlənərdik!
**Ey insan** ömrümüz qısadır-qısa,
Bu haqqı çin etsək batmarıq yasa.
Hər ağır bəlaya tapılar nicat.
Allah da olardı bu birliyə şad!

Qoy bilsin hər bəndə, ateist, dindar,
Hər natiq, hər məmur, alim və cindar,
Siyasət mənsubdur Xiridarına -
Rəbbinə - hər dövrün iqtidarına!
O, küllü ixtiyar sahibidir bir.
Dünyalar, varlıqlar yapmağa qadir
Allahdır əbədi, xilqəti çoxdur.
Müqəddəs və təkdir, şəriki yoxdur!!
Həyatda hər bir can əmanətidir,
Varlığı xəlqinə zəmanətidir!
Ölçülməz qüdrəti, qücü - Qalibdir.
Göylərə,Yerlərə sahib - Xaliqdir.
Əlhəmdü lillahi Rəbbil aləmin.

**O, təsdiq eləyir Ali Həzrəti**
Məhz təmin olunsun tam nəzarəti.
Yerlərdə işləsin düzgün fərmanı,
Hər kəsin dərdinə yetsin dərmanı!
Ən adil nəzarət sahibi ola,
Xəlifə sayıla, qulluqda dura.
Qayğımız güdülsün hər tədbirində.
Bəlalı görməsin xəlqin birin də!
İstəməz verdiyin O, geri alsın,
Qəlblərə toxunsun, narazı salsın.
Güdsə də hər xalqın haqqın, marağın,
Görmək də istəsə daim xoş çağın,
And olsun, gözündən düşənlər ki, var
Əziyyət, əzabda daim çırpınar!
Gündəlik köməyi xəlqinə azmı
Və olsaq naşükür O, qınamazmı?!
Kəramət rəhminə gətirsək pənah
Hər mümkün bəladan qoruyar Allah!

Surəti-müxtəlif adla hallanır.
Qüdrəti-hər yanda eyni canlanır.
Hər canlı gücünün bir carçısıdır,
İradə, hökmünün icraçısıdır.
O, durub hamının həm qulluğunda.
O, dilər hamının həm qulluğun da,
Cəmləyib ağıl və kamallarını,
Yetirib məramlı amallarını,
Yapalar beşiyin insaniyyətin,
Mərifət, əxlaqın, mədəniyyətin.
İnşaallah.
Cahan tək minlərlə əyalətində
Könülsüz yox bir can itaətində.
Hər canın harayın qəlbən anandır.
Köməyə müntəzir həm dayanandır.
Ondan, kim diləmir dərdi-sərində?
Kim edir bəs əməl tələblərin də?!
Çalışır ki, olsun insaniyyət din
Və güdsün hər canın tam mənafein!
Körpədən-qocaya, fəhlədən-şaha
Pak olaq, batmayaq heç bir günaha.
İlahi, düşünən şüurlu bəndən
Dönərmi, hamının nazın çəkəndən?!
Axı bu xəlqinin Sənsən dayağı!
Sanına güvənir körpə sayağı.
Köməyin və qayğın həyanı olur.
Ömrünün hər anı bir Səndən umur.
Ucaldıb siyasət xiridarını,
Rəbbini, seçdiyi iqtidarını.
O, olub nümunə, ibrətgahımız,
Müqəddəs, əvəzsiz bir Allahımız!!
Əlhəmdü lillahi Rəbbil aləmin.

## TARİXİ YADDAŞIMIZDAN

***Rəhman və Rəhim Allahın adı ilə***

Allahu əkbər!..la ilahə illəllah…
Rəhmanlı rəhimli ey qadir Allah.
Ey ulu Tanrımız, ey Pərvərdigar
Sənə tən, müqəddəs, pak kimimiz var?!
Bu milyon illəri keçib gəlincə
Nəsillər çıxarıb mühüm nəticə,
Nəhayət əyani duyublar bunu
Həyatdan ayrılmaz mövcudluğunu!
İnşaallah.
Hələ az yığıblar atılan daşı,
Duyublar simanda sadiq sirdaşı.
Duyublar sahibin bu kainatın,
Ən ali hakimin mövcud həyatın!
Duyublar, hökmünə sədd yox heç yanda,
Burda həm neçə min sirli kahanda
Sən, küllü ixtiyar sahibisən, bir
Dünyalar, varlıqlar yapmağa qadir
Allahsan əbədi, xilqətin çoxdur,
Müqəddəs və təksən, şərikin yoxdur!!
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Əlində ömrümüz, aqibətimiz.
Qiyamət günümüz , axirətimiz.
Əlhəmdü lillahi Rəbbil aləmin.

Səmavi kitablar fövqündə duran
Vəhyinlə yetirir müqəddəs «Quran»
Xəbərlər yenilməz güc-qüdrətindən,
Xilqətə sevgindən, sədaqətindən.
Təmkin və səbrindən, kəramətindən,

Mərhəmət rəhmindən və rəhmətindən;
Günəşdən, havadan, torpaqdan, sudan
Xəlqinə Sənsən ən zəruri olan.
Varınla varlanır varlıqlar qərəz
Ən varlı varlıqsan yox Sənə əvəz!
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
İnşaallah.
Yetirir, hökmündən bir qüvvə çıxmaz,
Bir yarpaq tərpənməz, bir çiçək açmaz!
İznsiz Göylərdə olmaz hərəkət,
Yerdə də dirçəliş, ruzi, bərəkət!
Çünki, Yer canlıdır, canlılar kimi
Yetirir hər hökmü, duyur hər himi.
Çox nəhəng olsa da var həssas hissi.
Duyur ki, ayırır yaxşını, pisi!
Bəşərin vurduğu ona zərərlər
Bu zəngin aləmin daim zəhərlər!
Pozur, cəm varlığın həyat ahəngin,
Çaldırır ümumi fəlakət zəngin!
Korlarıq havanı, suyu, torpağı.
Bəs, qisas naminə çəkməzmi dağı?!
Bağlıdır həyatla hər imtiyazı,
Hər haqqın qoruyur əzəli yazı!
İnşaallah.
Şimalda, Cənubda yerin qatları
Hələ sirr saxlayır çox sovqatları.
İlk nəslin məskəni olan bağların
Yerində yüksəldib kim buz dağların?!
Tarixi bu dərsi bəşər anmayır,
Nəticə çıxarıb yararlanmayır!
Bilmirmi məhv edir kim, hər təməlin

Amansız əxlaqın, pozğun əməlin?!
Və «Quran» təkidlə çox xilqətlərin
Açır tən, örnəklik aqibətlərin!
Adınla, hər ayən olunur təkrar,
Hər dövrün təfəkkür, bəsirəti var!
Verdin hər təlimin təhlilin özün,
Dərd hopan hər qəlbi isitsin közün!
Bağlaya köküylə şüur, zəkanı,
Tərəqqi və elmə verə təkanı,
Bərkidə inamı, aça imkanı,
Çəkə haqq yoluna hər bir insanı
Ki, şəksiz varlığın qəbul oluna,
Yer, Göy tək sığına bəşər nuruna!!
Əlhəmdü lillahi Rəbbil aləmin.

Bunların mənasın ansaq insanlar,
Olmazdı günahlar, hədsiz nöqsanlar!
Cahana dəyişər baxışımız da.
Köksündə iz salan naxışımızda!
Birlikdə olunar maneələr dəf,
Kimisə yad sayıb etmərik hədəf!
İnşaallah.
Ey bizi yaşadan, kamilləşdirən,
Ən ali kürsüdə həm əyləşdirən,
Yetirdin, hədsizdir bilmədiyimiz,
Onları üst-üstə toplasaydıq biz
Yaradar elə bir hüdutsuz qatı,
Həcmiylə bürüyər bu kainatı!
Yəni, fəth olmayan bilmədiyimiz
Hədsiz güc-qüvvəni çökdürərək diz
Sədd çəkib ayırır Yer ilə Ərşi,
Qoymayır qurmağa gediş-gəlişi!

Bərqərar etməyə insaniyyəti,
Ən yüksək mərifət, mədəniyyəti!
Ən ali icmanın son qurumunu,
Ümumi idarə haqq durumunu!
Tənzimli mənəvi-maddi dövləti,
Ailə zəmnində hakimiyyəti!
Birlikdə etməsək bu qalanı fəth,
Bəşəri qüdrətə diz çökməz qəflət!

Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
Hər səyin yönəlib rifahımıza,
Bərkidir inamı sabahımıza!
Bəlalar basdıqca hey başımızdan,
Çox şeylər silinib yaddaşımızdan.
Nurundan ayırsan bircə zərrəni
Tam açar hər dövrə xas mənzərəni.
Öyrənsək zəruri tariximizdən
Sayəndə tutardı o əlimizdən.
Nurlanar təfəkkür, zəka, ağlımız,
Yetirər bəhrəsin bağlılığımız!
Hərçənd çox suala verir cavabı
Xeyirxah əməlin, işin savabı!
Lakin hər aqilin düşüb meylinə,
Elmin nur saçasan bu mənbəyinə
Ki, ola tutarlı dəlil, məlumat.
Itirə qərəzin dində mövhumat!
İnşaallah.
Banisi Rəbbisən bu aləmlərin,
Sahibi xeyirxah iş-əməllərin!
Altı gün bu Yerə, Mavi tavana,
Bir gün də sərf etdin Adəm, Həvvana?!

Neçə min illərə təndir bir anın?
Nə qədər tədqiqat görüb kahanın?
Bu Yeri körpə tək bələdin qat-qat,
Sönməsin bu nadir, misilsiz həyat!
Etmisən hər şeyin təyin yerini
Hər biri vaxtında verə xeyrini?
Gözündən yayınan canlı vardımı,
Görməyə mənəvi, maddi yardımı?!
Səninlə möminin alırsa nəfəs,
«Yad etmək» - oxşamır unutmağa bəs?!
Sayəndə keçmişik o dövrləri,
Cəhalət səpdiyi çək-çevirləri!
Bu kövrək naillik getməyə hədər
Möminlər tökürlər hələ də qan-tər!
Həm Səndən səy-zəhmət bu edir tələb,
Həm fitri istedad, görünməyən təb!
Inşaallah.
Şikayət, hər kəsə sayılar günah,
Gəlirsə pak, təmiz, qeyri-adi şah!
Şükür məsləhətinə.
Sən, hansı bir ömrü gör vermişdin pay?
Hanı bəs Adəmə aramızda tay?!
Canımız canıdır, qanımız qanı,
Bizdə o qadirlik qüdrəti hanı?
Hökmünlə Behiştdən enibdir Yerə
Bu yolu keçibdir neçə min ilə
O Elçin rifahın quranlarına -
Xəlifən dinindən olanlarına?!
O, neçə min illər səltənətində
Carçısı olub haqq-ədalətində ?!
İnşaallah.
Taledən etmirik əsla gileyi!

Bəs necə qaytaraq üç vacib şeyi?
Ola bu ömrüylə əşrəfin insan
Tam kamil, tam qadir və tam hökmran?!
Düşünüb arasaq suallar çıxır,
Zehnimiz duruxur, ağıl karıxır!
Bəlkə, bu zinətdir ömrün ləzzəti
Köçən tam itirmir hörmət-izzəti?!
Ola tən xeyrimiz xəracımızla,
Ya rəva bildiyin əlacımızla?!
Yaddaşa həkk olub silinməsin haqq,
Qayıdış, hesabat Sənədir ancaq!!!
Hər gələn həyata nümayəndədir,
Aləmlər əbədi himayəndədir!
Ölçülməz gücün də, cəsarətin də
Könülsüz yox bir can itaətində!
Kim sığınmır qalana?
Ömrü verib alana?
Əbədi bir örnəksən
Hər köçənə, qalana!!
Olmusan nümunə, ibrətgahımız,
Müqəddəs, əvəzsiz bir Allahımız!
Şükür və təriflər bu sayğınadır.
Var-yoxa yanğınla həm qayğınadır!
Olmusan dinimiz etiqadımız.
Varsan ki, əminik, var imdadımız!
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin.
Amin.

## TÖVSİYYƏLƏR

***Rəhman və Rəhim Allahın adı ilə***

Əlhəmdü lillahi Rəbbil aləmin...
**1.**Yetirdin, tək Sənə itaət edək!
İradə, hökmünə riayət edək,
Aləmdə hərcmərclik düşməyə daha
Qulluğu eləyək məhz bir Allaha!
Əbədi həmrəylik, dostluq qurula,
Bulanlıq duyğular, hisslər durula!

İlahi, Cahanda varmı bir bəndən,
Məmnunsan işindən, itaətindən?
Nədən hey baxırıq çağrışına xor,
Nə edir bizi kar, ağlımızı kor
Və buna münasib veririk xərac,
Olunur el-oba, bu aləm tarac?!
Yaxşı ki, qoruyur xofun, həyanın,
Misilsiz, ecazkar varın məkanın.
İnşaallah.
Dünyanı böləndən iki sahilə
Etmədin bir ömrə tam müdaxilə
Ki, coşqun nəfsimiz, hissiyatımız
Süstləşər, canlanmaz bu həyatımız.
Olub sərt rəqabət meydanı Cahan.
Məruzuq hər bir an verək imtahan,
İrtica zoruna həm tab gətirək
Həmçinin insanlıq borcun yetirək.
Həm olaq mübariz, dözümlü, mətin,
Carçısı, dayağı haqq-ədalətin!
İnşaallah.
Zəhmətlə toplanan naillik itməz,
Qoruyub artırsaq almalıyıq həzz.

İradən qoymayır heç kimə fərq də,
Cənubda, Şimalda, Qərbdə və Şərqdə
Sənsən həm dinimiz, etiqadımız,
Varsan ki, əminik var imdadımız!
Əlhəmdü lillahi Rəbbil aləmin.

**2.** Yetirdin, ehtiram edək Elçinə.*
Xidməti həyata-onun Rəbbinə!
Elçini sayanlar sayırlar Səni,
Düz qəbul edirlər bu iradəni!
Rəzillik mənbəin tərk eləyəni,
Haqların-haqqını dərk eləyəni,
Uğrunun baisin tam qavrayanı,
Ruhu tək cismini saleh sayanı
Peyğəmbər seçdikcə bizlərdən-bizə,
Gen körpü salmısan bu qəlbimizə!
Bilirik, seçdiyin olur baş Rəsul*.
Gərəkdir idarə üçün bu üsul.
Hər adil hökmünü ilk eləsin car!
Bu məsul rütbədən yox məhrum aşkar.
Şükür, məsləhətinə.
Peyğəmbər nəslində var ardıcıllıq,
Pilləli yüksəliş, yaradıcılıq.
Nizamlı təlimə məxsus amalı
Dövrünün zülmətin nurlandırmalı,
Yolunu hər azan qayıtsın dinə.
Aramla sığınsın bərk Xaliqinə.
Ədalət və haqqı alsın ovcuna
Həm dursun o sahib məsul borcuna!
İnşaallah.
Xeyirxah niyyəti əməliylə bir
Hər bəndən həqiqət cəngavəridir!

Belə haqq carçısı küllü müctəhid,
Cəhalət əliylə olublar Şəhid.
Hər ağır sınağı, imtahanları
Keçdilər, etmirdik qəbul onları.
Olub var, rütbənin həris gədası,
Qoymuşuq basılsın haqqın əsası.
Bu fani qazanclar müqabilində
Qaldı haqq-ədalət zorlu əlində.
Həm maddi kasıbıq, mənəvi yoxsul,
Cəhalət edəndən varımızı qul
Dərd hopub hər canın yeddi qatına.
Kim qalır üzü ağ hesabatına?!
Sənin hər Elçini bəyənmirdik biz.
Bizə yol verməyib seçək nəfsimiz!
Onları qoyduqca qarşı-qarşıya,
Ayırıb böldükçə pisə-yaxşıya
Ən adi hikmətdən düşmüşük uzaq,
Hər dövrə münasib yetirilib haqq!
Həyatın hər mövcud pillələrindən
Keçərək toplayan kamillik dən-dən,
Dönə bir alimə ya bir hakimə
Edərmi yığdığın heç mühakimə -
Zəruri naillik qavrayışını,
Ömrün hər pilləyə məxsus yaşını?

**3.** İlahi, qorxulu, sirli Cahanda,
Dəhşətli ölümlər olduğu anda
Adəmi yapanda vardı niyyətin,
Göstərsin qüdrətin İnsaniyyətin!
Hər qaynar nöqtədən gəlsin sorağı.
O, olsun hər yanda haqqın dayağı.
Yetirsin hər cana dərdi-sərində,

Bəlalı qalmasın Yer üzərində!
Hər canı bağlasın iradəsinə
Və olsun cavabdeh Yer kürəsinə.
Cahanda tanınsın Rəsulun kimi
Həm təmsil etdirsin ali Hakimi.
Günəşə bənzəsin əməllərilə.
Dəyişsin aləmi hünərlərilə
Və insan gücünün qüdrətilə ilk
Yerdə öz surətin görsün Behiştlik
Və olsun sahibi elə bir ömrün,
Min illər idarə etsin hər dövrün!
İnşaallah.
**4.** Ey ulu Tanrımız, ulu Yaradan.
Təlim və qayğına möhtacıq hər an.
Çünki o əqidən, kamil idrakın
Daima yaradır hər şeyin pakın.
İnamın-dönürsə ömrünə varın,
İnadın-artırır saf duyğuların.
İnşaallah.
**5.** Hər dildən, dinlərdən gəlir sədası,
Qonşuyla dosluq et, olmaz xətası.
Özün tək sevəsən yaxın olanı.
Səninlə yanaşı məskən salanı.
Pisliyi qonşuya məhz bilsən rəva
Düşəcək araya inciklik, dava.
**6.** Haqsız yol kəsərsən, Allah açandır!
O, kəssə yolunu açmaq yalandır.
**7.** Vacibdir sevgivi düşmənin ana,
Səmimi sevgisi sənə oyana.
**8.** Yardım et, yardımla dayaq yapılar.
Büdrəsən əlindən tutan tapılar.
**9.** Çalış güd ümumi maraqları sən

Ki, haqqın qorunsun xalq tərəfindən.
İnşaallah.
**10.** Ağıl ki dönməsə maddi sərvətə
Nə xalqa gərəkdir, nə də dövlətə.
Bənzəyər o itmiş bir dəfinəyə.
Zəhməti, vaxtı puç eləyək niyə?!
**11.** Mal-qaran çox ola, istərsə də bir,
Nəzarət, qulluğun daim gərəkdir;
Tumarla, yemin ver, rahatla yerin,
Zəhmətin yetirsin münasib xeyrin!
**12.** Vaxtında əl tutun bir-birinizə.
Döyməyin nə başa, nə dizinizə.
Qurun xoş insani ünsiyyətləri
Söndürsün vüsətli ədavətləri.
İsidər və edər ürəkləri ram,
Məhəbbət, qayğınla, inam, ehtiram
Bərkidər ellərin əlaqələrin,
Dəyişər əxlaqın təbəqələrin.
**13.** Bəşərin puç olar nailiyyəti
Bərqərar etməsə insaniyyəti!
Çəkilən zəhmətlər getməyə hədər,
Bu Yerə qəzəbin tökməmiş Göylər
Sığının bir olan Allahınıza,
Zamindir firavan rifahınıza!
İnşaallah.

**Mülahizələr**

***Rəhman və Rəhim Allahın adı ilə***

Əlhəmdü lillahi Rəbbil aləmin.
**1.** Hər cari dövranın ağır günündə
Kimlərsə qazanmır ruzisini də.
Həyanlıq ümidsiz dərdliyə, dula,
Pulsuza, işsizə, aca, yoxsula.

Körpəyə, qocaya, əlil, xəstəyə.
Yetimə-yesirə, qərib-kimsəyə
Gündəlik köməyin, yardım hörmətin,
Varlığa qayğınla tən məhəbbətin,
Ehtiram anaya, ataya, şaha
Əyani qulluqdur o bir Allaha!
İnşaallah.
Bu ədəb-ərkandır, adil yoldaşlıq.
İnsani həmrəylik, sıx əməkdaşlıq
Ki, birgə oluna maniələr dəf.
Kimisə yad sayıb etməyək hədəf.
Cahanı çevirək əsl cənnətə,
Heç yanda gəlməyək rast xəyanətə.
Məhz kamil insanlıq bərqərar ola,
Zindan və Cəhənnəm daim boş qala!
İnşaallah.

**2.** Ey sönməz Günəşi bütün xilqətin,
Adillik, paklığın, haqq-ədalətin.
Ən adil həyanlıq hissini yayan,
Biri o birini tam tamamlayan
Dörd səthdə olursa qanunların cəm
Kaş düzgün mənfəət götürə aləm!
Nə Dünya, nə Cahan, dövlət, ailə
Onlarsız keçinə bilməyib hələ.
Məramı, məqsədi bu qanunların
Rahatlıq, dincliyin yapsın canların.
Keyfiyyət-yaşatsa naxış, ziynətin,
Kəmiyyət-dəyərin, müvazinətin
Və onlar tam sabit üfqi dolansa,
Hər dəyən, çarxların kəsərin ansa,
Hamının yaradar bərabərliyin!

Ən möhkəm təməli olar birliyin.
Hər kəsin artırar həm ehtiyatın,
Dönər ilk şərtinə bu cəm həyatın.
Hər kəsdə oyadar məsuliyyəti
Ki, nail olduğu itməsin qəti!
Bu, haqqa dəvətdir, sığınaq Sənə -
Əyani ümid və güman yerinə!
Qanunlar hamının tənzimlər nəfsin,
Ünsiyyət, davranış, yaşayış hissin.
Dərk etmək təlimin olub qaydası,
Nəticə həllidir, tətbiq faydası!
İnşaallah.

**3.** Bir kimsə doğulmur cani, müqəssir.
Şərait, mühiti eləyir təsir.
Müttəhim bəllidir et mühakimə!
Adil ol, tədbir gör layiq hakimə.
Hər şeyin yerbə-yer et dəyərlərin.
Haqq olsa bərqərar itməz səylərin.
İnsanlıq hamının olsa hakimi,
Qorunsa hüququ, bir haqqı kimi
Yaranar hər yanda güclü nəzarət.
Cinayət törənməz yoxsa əsarət!

**4.** Özgəyə suiqəst, qəsdir özünə,
Salandır qisasın qanlı közünə!
Allaha sən sığın, nicatın Onda,
Nurlanar qaranlıq olan yolun da.
**Ey insan**, günahdır qəsd öz canına.
Demək, yox etiqad din-İmanına.
Əyani nümunə, ibrət yerisən.
Qırma o bağlanan ümidləri sən.

Körpəni, doğmanı, dostları atma.
Qəsdinlə dağ çəkib günaha batma.
Puç etmə ömrünü, aqibətini
Və göstər əzmini, şücaətini.
Heç kəsin sındırma qol-qanadını
Və doğrult nəslinin etimadını.
Bil, çoxdan hər haqqın, şəxsi marağın
Allahın yetirib zireh-yarağın.
Tapsa hər qanunda təlimi əksin,
Dərd-səri qalmazdı indi heç kəsin!
Daima yetərdik muradımıza.
Bir kimsə getməzdi nə badımıza.
Qoymazdıq bərəkət çayın çəpərsiz,
Talasın nemətin quldur, təpərsiz!
Əstafurullah
Hamının artırsaq məsuliyyətin
Şahidi olmazdıq bu müsübətin!
İnşaallah.

**5.** Ey bütün varlığın Banisi, Rəbbi
Həm verən təlimi, ruzi və həbbi.
Təbabət bəşərin zəif yeridir.
Həyatdır, həyatdan hədsiz geridir.
Onunla vəhdətdir bu var-yoxumuz,
Həm sağlam canımız, mətin ruhumuz.
Hər dövrə münasib xalqın, millətin,
Müxtəlif qurumlu hər cəmiyyətin
Olubdur səhiyyə, maarif, təhsili.
Etiqad yerləri, ocağı, piri!
Bağladın elmiylə dini təlimin,
Çəkməyə qulluğun canlı aləmin.
Varından güc alıb, iradəndən nur

Hər biri müstəsna xidmətdə durur!
Həmişə mühitlə yararlanacaq
Həm elmi təbabət, dini pir, ocaq.
Onları qoyaraq qarşı-qarşıya,
Nahaqdan bölürük pisə, yaxşıya.
Məhz Sənə sığınan şəfa ocağı
Olub hər möhtacın ümid çırağı.
Qorusaq keyfiyyət və kəmiyyətin
Görərik misilsiz əhəmiyyətin!
Ürəklər daş olsa, qulaqlar da kar,
Hər yanda edilsə insanlıq inkar.
Cahanda törənər bəla o qədər
Paylansa hər ömrə gen-bol bəs edər!
Göz yumsaq olana, olacaqlara
Bəşərin sığınar pir-ocaqlara.

**6.** Hər xalqa ömürlük tutduğu qərar
Yerində cənnəti etmək bərqərar,
Qayğıyla yanaşmaq təbiətinə
Həm nail olmağa bol nemətinə,
Qoruyub bəsləmək tövsiyə edib.
İnamın doğrultmaq məqamı yetib!
Hamının gərəkdir fəaliyyəti,
Artıra xeyirxah nailiyyəti.
Göstərib şücaət, hünərimizi
Cənnətə çevirək Vətənimizi!

**7.** İlahi, yardımın və köməyinlə
İstedad, elmiylə, inad-səyinlə
Edən yük, uzunluq vahidin icad,
Nisbi say-hesabla yetirən nicat.
Sıfrla bu doqquz məhdud rəqəmi

Yararlı edənlər ömrün hər dəmi,
Göstərən hər işin düzün və tərsin.
Xasiyyət, rəfdarın bildirən əksin.
Mühitdən fərqlənən bir mühitini.
Dəyişməz-dəyişkən şəraitini.
Təlimin, təlimdən üstünlüyünü.
Bağlayaq ya açaq hansı düyünü?
Etiqad elminin duyub nisbətin
Çox dəqiq veriblər mənfi-müsbətin!
Adillik, səxavət, haqqı, < amanı,
Günahı > qəbahət, səhvi, yamanı,
Ölçəndir insanın nəfsin və hissin.
Açandır əməlin yaxşısın-pisin.
Özündə cəmləyib möcüzə min-min
Bəşəri cilalar bu ali elmin!
Salehlik əyani tutur qolundan,
Bir kimsə sapmasın haqqın yolundan!
Sayəndə göstərir saçıb nurunu
Hər kəsin ziyanın ya uğurunu!
İnşaallah.
Allaha etiqad vacib insana.
Zamindir firavan ömrə, ad-sana.
Yenilməz gücüdür hər islahatın.
Qoruyur marağın, haqqın hər qatın
Yönəldir hər kəsi öz peşəsində,
Mövqeyi, xidməti, səviyyəsində
Gərəkli, xeyirxah bir əməyə də,
İnsani borcunu yetirməyə də,
Hər insan gücünün güdrətiylə ilk
Yerdə öz surətin görə Behiştlik!
Yarana beşiyi insaniyyətin,
Ən yüksək mərifət - mədəniyyətin.
İnşaallah.

## TARİXİ MÖVCUDLUQ

***Rəhman və Rəhim Allahın adı ilə***

Əlhəmdü lillahi Rəbbil aləmin...
Sənsiz kim Dünyaya nəzarət edər,
İdarə eləyər, haraya yetər?
Kimə bu məzlumlar edər şikayət?
Basılır marağı, haqqı, nəhayət
Pozulur rifahı, asayişi də
Verdiyin müstəqil yaşayışı da.
Ümidlər ən çətin anlarda yenə
Qırılmaz tellərlə bağlıdır Sənə.
Məhz insan qayğısı, xoş ünsiyyəti
Günün ən tapılmaz olub neməti!
İnsanlıq görunmur nəfsin lığında,
Çıraqla baxsaq da Gün işığında.
Bu gündən sağ çıxsaq sabahımıza
Şükürlər bir Sənə - Allahımıza!
İlahi, amin.

**1**.Şükür sağ-salamat əsri ötürdük.
Bəs hansı zəruri fayda götürdük?
Dönüb hər dövrana baxan diqqətlə
Rastlaşar çox acı bir həqiqətlə.
Düzə hər dəlili tam zərrə-zərrə
Canlanar qəribə, ağır mənzərə;

***Əvvəla:*** Amanın, haqqın, niyyətin,
Ədalət, əlaqə, xoş ünsiyyətin.
Ən kamil təhsilin, yüksək maarifin.
Qüdrəti hakimin, aqil, arifin
Həm ədəb-ərkanın, mədəniyyətin,
Ənənə-adətin, incəsənətin.
Həmrəylik, birliyin, sülhün dayağı.

Tərəqqi və elmin, dinin çırağı.
Kəramət, adillik, insanlıq özü.
Dövlətin hər xalqın əsl güzgüsü.
İnsanı hər candan fərqləndirən tam
Və edən aləmi ovsunlayıb ram.
Xəyallar, duyğular, hisslər yoğuran.
Qəlblərə yol açan, davranış quran
***Siyasət aləti*** yox halındadır.
Yalan, zor, hiylənin çuvalındadır!
Ağzı bərk bağlanıb nuru yayılmır.
Qüdrətli təlimin Sənin sayılmır
Və kənar tutulur xiridarından.
Rəbbindən, hər dövrün iqtidarından!
Əstafurullah.
Əbədi sahibi bu kainatın.
Ən ali Hakimi mövcud həyatın.
Dünyanın marağın kim tutur bu gün
Özündən, elindən, xalqından üstün?
Hər yanda deyilir «fani» Dünyaya.
Gedənlər qayıtmır güya buraya?!
Odur ki, yumulur haqqa gözümüz.
Daha çox olunaq təmin özümüz!
Qondardıq minlərlə çirkin oyunu,
Bəzəyib geydirdik «siyasət donu».
Olduq həm aldadan, həmi aldanan,
Qırğınlar törədən, haqları danan.
Uyaraq bəd nəfsin tələblərinə
Baxmarıq nə rəhmə, insafa, dinə.
Yalan, zor, hiyləylə güddük marağı,
Gücləndi nifrətin, qəzəbin dağı.
Qurşandıq hər cürə haram işlərə,
Bu dönüb adət tək pis vərdişlərə.

Gör, bir fərq qoymayıb kimliyimizə,
Soyuqluq yeriyib iliyimizə.
Hər yanda dilənən o əllərə bax,
Hey artan məqbərə, qəbirlərə bax!
Mənəvi həm maddi olunduq qarət.
Çətin ki, bunlara tapaq bəraət!
Əstafurullah.
**2.** Dinləyən tarixin əks-sədasın
Biləndir hər dövrün abi-havasın.
Haqlını, haqsızı seçər nəzəri.
Xeyir, şər qüvvənin yoxdur bənzəri.
Bu hisslər mənsubsa hər birimizə,
Paklıqla çəkəyin sədd kirimizə!

**Biz dəvət edirik**, **ey insan səni,**
Duyasan canlanan bu mənzərəni.
Millət, xalq bölünür tərəf-tərəfə,
Çevrilir hər biri əsl hədəfə.
Eynidir Vətəni, qayğıları da,
Yaxındır dərdləri, ağrıları da.
Birin o birindən seçməz baxışın,
Görməsən onların fərdi naxışın.
Dövlətin olsaq da bir cəmiyyəti
Var, kimdən götürək hansı ibrəti.

**Bir yanda** marağın möhkəm güdənlər,
Niyyətin gizləyib vədlər edənlər.
Hər biri dəstəsin yığıb başına
Güya ki, girirlər haqq savaşına.
Və mövcud dövləti alanlar ələ
Qoruyur marağın ədalətiylə;

Soyulur cəmiyyət, talanır dövlət.
Oyanır ziddiyyət, milli ədavət.
Edilir hey xidmət, artır səfalət.
Artdıqca xəyanət, dərddən şikayət,
Ayılır xalq, millət, etmir itaət.
Allah bizə göstərməsin.
Gör, bir nə əzabı çəkir dindarlar,
Nə qədər mənəvi xəracları var?
Bölüblər seçimin bu yöndə daha
Ya qulluq onlara ya da Allaha.
Deyirlər, möminlər dinlə əylənin.
İbadət etməklə kifayətlənin.
Qəlblərdən çıxarın hiyləni, zoru.
Dindara yaraşmaz siyasət* yolu.
Dövlətdən kənarda durun mülayim.
Görməyin, dinməyin, kar olun daim.
Siz gəlsəz ədalət-haqq alətinə,*
Tərəqqi gətirməz din millətinə.
Vicdandan azadsız, vətəndaş borcu
Gündəlik namazdır, tutsaz orucu.
Əstafurullah.
Kəramət, rəhminə gətirrik pənah,
Yetir bu bəladan qurtuluş, Allah!
Yalanla göstərsək həqiqətə yol
Olmazmı xatalar, əyriliklər bol?
Daima qaldırıb hər xalq üsyanı,
Tapdansa haqları, yoxsa həyanı!
Dönür məhz bəndləri dağıdan selə.
Ziyanlar vurulur obaya, elə.
Qurunun oduna yaşlar da yanır.
Qurulan dağılır, işlər dayanır.
Qisaslar kütləni çəkir cənginə,

Hər bir yan çevrilir qan çələnginə.
Vahimə, tənəzzül dartır geriyə.
Vaxt gərək taqətdən düşən yeriyə!
Dəyişir çox tez-tez ali hakimlər.
Bilinmir idarə edəcək kimlər?
Hər gələn başçının məqsədi, işi
Aramla talasın, əzsin keçmişi.
Onların hərcmərclik olur yarağı,
Qorunmur dövlətin, xalqın marağı.
Allah bizə göstərməsin.
Yanılır vədlərə bel bağlayan da,
Əməli yandırır el ağlayanda.
Yanılır belə daş çırpanlar daşa,
Qayıdıb dəyəndir yenə də başa*!
Qavraya bilsəydik dərindən bunu
Hey təkrar etməzdik çirkin oyunu!
Daxildə olsa da hakimlik bəhsi,
Yaranmaz vətəndaş müharibəsi.
Sabitlik hökmündə düşməz qalma-qal,
Olmazdı bir dövlət nə zəbt, nə işğal.

**3. Biz dəvət edirik, ey insan, səni**
Gör həmin səhnədə bu mənzərəni.
Milləti mənəvi bölürlər qəsdən.
Hər qazanc götürən bu suiqəsdən,
Duymayır onların qayğılarını
Həm mövcud dərdlərin, ağrılarını.
Ayrılır hər bir kəs doğmaya-yada,
Ziddiyyət saxlansın daim arada.
İxtilaf qorunur gör, cəmiyyətdə,
Gərginlik millətdə, hakimiyyətdə!
Gəl, qəlbən eşidək haqqın harayın,

Münasib götürsün hərə öz payın.
İnşaallah.
**Bir yanda** Allahın məhz təlimləri,
Peyğəmbər, ziyalı və alimləri,
Müqəddəs Yazıyla tövsiyyələri
Və öndə "Quran"ın pak ayələri!
Gör, hansı dühanın odlu nəfəsi
Çağırır birliyə daim hər kəsi?!

İtməsin həqiqət, haqq və ədalət.
Yapmasın fəlakət mövcud cahalət.
Yaşasın hər millət, ənənə adət.
Etməsin bir alət xalqını qarət.
Bərkisin şəriət, istiqlaliyyət,
Qurmağa səadət, cəmi rəiyyət,
Əbədi sabitlik, tərəqqi deyə
İnsanlıq naminə mübarizəyə!
İnşaallah.
Ey saysız-hesabsız din-imanlılar,
Çağrışın hakimi qərargahı var!
Onun hər təlimin inamla bir-bir
Həyatda bərqərar eləsək əlbir
Elə bir şərait, mühit yaranar,
Sabitlik, ədalət haqla canlanar
Seçilmiş hökümət yeni sifətdə,
Qalmazdı bitərəf, müxalifət də!
Qanunlar dövlətin olar rəhbəri,
Zərgər tək yerinə düzər hər zəri.
Olmasa qüsuru hakimiyyətin,
Naillik itirməz dəyər-qiymətin!
Ən düzgün qaydalar möhkəm yaranar.
Vallah xoş niyyətlər daim canlanar.

Artırar nəzarət, məsuliyyəti,
Çəkər sıx birliyə cümhuriyyəti!
**Ey saysız-hesabsız din-imanlılar,**
Dünyanın, bilirik, bir Allahı var!
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Adildir, ədalət-haqq sahibidir.
Hər mövcud Kahanın pak Rahibidir!
Rəbbimiz siyasət xiridarıdır.
İcraçı xəlqidir - bu, qərarıdır!
**Qəbul et** tövsiyə və təlimlərin,
Odur xoş rifahın güdən ellərin!
**Əməl et**, qorunsun haqqın, marağın,
Yığsın hər böhranın əlin-ayağın!
**Əməl et**,qanunlar elə sazlansın,
Hər insan hüququ tam tarazlansın!
**Əməl et,** tapılar hər dərdə nicat
Və imkan yaradar yaşayaq rahat!
Birlikdə olunar maneələr dəf.
Kimisə yad sayıb etmərik hədəf!
**Əməl et**, yüksəlsin etiqadımız
Və olsun əyani o imdadımız.
Daima əl tutaq bir-birimizə,
Döyməyək nə başa, nə dizimizə.
Bulanlıq duyğular hisslər durula,
Əbədi həmrəylik, dostluq qurula!
Qardaşlıq zəmnində birlik yarana,
Əyani Behiştlik Yerdə canlana!
**Əməl et,** insanlıq bərqərar ola,
Zindan və Cəhənnəm daim boş qala!!
**4. Biz dəvət etdik ki, ey insan, səni**
Gör, çıxart bunlardan düz nəticəni.

Təmkin və səbrinə sığın bir anlıq,
Arayaq qalmasın bu səy qaranlıq!
**Bir yanda** aparan dava-dalaşlar,
**Bir yanda** saldırır bərk ixtişaşlar
Ki, düşmən kəsilək bir-birimizə.
Həmləsi zərbədir birliyimizə!
Bu dönüb ən qorxunc güc alətinə.
Çevrilib zalımlar siyasətinə.*
Bəşəri onlardı daim çaşdıran,
Fəlakət gününü yaxınlaşdıran!
And olsun insanlıq hər yanda birdir,
Allahın önündə ülvi, alidir.
İnsanlıq heç kəsə qoymayır fərq də.
Cənubda, Şimalda, Qərbdə və Şərqdə
Birləşib qüvvəyə dönsək basılmaz,
Bizə zidd maraqlar daha çin olmaz!
Görməsək ellərin məhz yoxsulunu
Ən böyük bir zəfər sayardıq bunu!!
**Bir mərkəz** idarə etsə hər dini,
Bəşər tam dəyişər əməllərini.
O, axı pay verir ömür illərin,
Sahibi olmağa xariqələrin.
Hər insan gücünün qüdrətilə ilk
Yerdə öz surətin görsün Behiştlik.
İnşaallah.
O, məhrum etməmiş hər köməyindən
Gərək biz bərk tutaq pak ətəyindən!
Cahanı çevirək əsl cənnətə,
Gələnlər dönsünlər xoşbəxt xilqətə!
Görsünlər qüdrətin İnsaniyyətin,
Ümumi həmrəylik, sidq itaətin!
Əfsanə görünməz xəyallarımız.
Qadirdir hər şeyə kamil canımız.

Nə qədər dayaqdır o Pərvərdigar,
Yeri də yerindən çevirmək olar.
Bu haqqı ərz edir ibadətimiz,
Xaliqlə bağlıdır səadətimiz!

***Rəhman və Rəhim Allahın adı ilə***

**5. *Dinimiz*:** Cahanda baş verən bütün haqsızlıqlara qarşı barışmaz olmaqla insaniyyətliyin bərqərarlığı naminə hamını mübarizəyə bir olan Allahın adıyla dəvət edir inşaallah.

Allahın təlimin anıb yayanlar,
Bəşərə qulluğun ali sayanlar.
Haqsızlıq görənlər, barışmayanlar
Xeyirxah səyimiz getməyə bada
Dinimiz çağırır daim cihada!!*

***İzahat***

Sülhdə ol səninlə bölüşənlərlə!
Əzmlə qalx, döyüş döyüşənlərlə!
Şərəfdir döyüşmək Allah eşqinə.
Təltifin töhfəndir şəriət, dinə.
Döyüş öz nəfsinlə, daima döyüş!
Sevdiyi kəslərin sırasına düş!
Salehlik və paklıq olsa dayağın,
Adillik, ədalət, haqq da yarağın
Allahın dəstəklər hər tədbirini,
Qazı ol ya şəhid, seç məhz birini!!
Bil, edər hünərin Cənnət yerini,
Qiyamət günü də verər xeyrini.
Təki ol mübariz, dözümlü, mətin,
Carçısı, dayağı haqq-ədalətin!
İnşaallah.

Əlhəmdü lillahi Rəbbil aləmin

**Allahu əkbər!..la ilahə illəllah.**

**Unutmayaq ki, Allah təkdir!!** Biz, həyatımızın bütün sahələrini əhatə edən tam əməlisaleh fəaliyyəti ilə bağlı yeddi müqəddəs sifətinə aid ən gözəl yeddi adda Ona müraciət edib Ondan diləyirik! Bu adlarla məhz misilsiz səlahiyyət, hikmət və qüdrət sahibinə - bir olan Allah-təalaya üz tutub sığınırıq inşaallah. Bu adlar (qısa izahatlarla) aşağıdakılardır:

**1. İlahi** - Ən uca, əl çatmaz, ən ülvi, ən pak və müqəddəs, ən parlaq, ən gözəl simaya, ən həlim - mülayim hisslərə, xasiyyətlərə və xüsusiyyətlərə məxsusluq sifətinin rəmzi.

**2. Xaliq** - Bütün kainatın, görünən və görünməyən varlıqların yaradanı. Talein yazıb ömür verəni. Maddi və mənəvi sərvətlərimizin təminatçısına məxsusluq sifətinin rəmzi.

**3. Ulu Tanrı** - Ən ilkin tanıyıb bağlandığımız, həmçinin hamımızı ümumilikdə və fərdi tanıyanımız. Ən fitri yaddaşa məxsusluq sifətinin rəmzi.

**4. Rəbbil aləmin** - Aləmlərin müəllimi, tövsiyə və təlimlərin yetirəni, öyrədəni. Bütün olub və olacaq, aşkar və gizlin sirlərin bilicisi. Ən mütləq kamilliyin, hafizənin və şüurun, ağlın və zəkanın, təfəkkürün və bəsirətin, tükənməz elm-təb və istedadın, təmkin, səbir və inadkarlığın, qüdrət və hikmətlərin banisinə məxsusluq sifətinin rəmzi.

**5. Pərvərdigar** - Fəzilət, şəfqət və mərhəmət sahibi.

Niyyətli, diləkli, bütün qəlblərin ömrün hər bir anında ümid bağladığı, pənah apardığı, qayğısına, köməyinə, həyanlığına, himayəsinə daima möhtac olduqları ən doğma, ən sadiq sirdaşlığa məxsusluq sifətinin rəmzi.

**6. <u>Xudavəndi-aləm</u>** - Aləmlərin ağası. Bütün kainatın, görünən və görünməyən varlıqların sahibi. Tükənməz kəramət və rəhmin, lütfün, iltifatın, izzət-calalın, ən ali mərifət, ədəb-ərkanın, bərəkət və nemətlərin, misilsiz qüdrət və səlahiyyətin sahibinə məxsusluq sifətinin rəmzi.

**7. <u>Rəhman və Rəhim</u>** - Bir olan Allah! Rəhmanlı və rəhimli, ən ali haqqın və ədalətin əbədi hakimi, bu aləmdə hər bir an tövbələrimizi qəbul edən, günahlarımızı bağışlayan, əməli salehliyə yönəldən, axirətimizi rəhməti ilə təmin edən və Qiyamət gününün hökmdarı olan **aman sahibinə** məxsusluq sifətinin rəmzi. Həmçinin ən təmiz hisslərin və ən gözəl xüsusiyyətlərin, xasiyyətlərin daşıdığı adların ən yüksək rəmzinin hikmətləri bir olan Allaha məxsusdur!

**Unutmayaq ki,** İnsan bir olan Allahın kölgəsində yaşamağı ilə xoşbəxtdir! Bunun önündə həyata fədakar qulluğu ilə birgə Ona ibadəti, səcdəsi - ehtiram və hörmətinin, əbədi minnətdarlığının ən zəruri və vacib göstəricisidir! Kaş, hər bir simasına uyğun bizə bəxş etdiyi əvəzsiz nurunun ehtimadını tam doğruldaydıq inşaallah.

**Unutmayaq ki,** Bütün aləmlərin sakinləri bir olan Allahın iradəsini təyinatlarına və təminatlarına uyğun yerinə yetirməklə daima Ona xidmətdədirlər inşaallah.

Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...

## VII Fəsil
## EHTİRAM

### ƏBƏDİ BAĞLILIQ

***Rəhman və Rəhim Allahın adı ilə***

Allahu əkbər!..la ilahə illəllah...
Rəhmanlı rəhimli ey qadir Allah.
Ey ulu Tanrımız, ey Pərvərdigar
Sənə tən, müqəddəs, pak kimimiz var?!
Hər səyin yönəlib rifahımıza,
Bərkidir inamı sabahımıza!
Allah, ilk tərtibli ən dürüst zənnin,
Ən geniş, ən zəngin, bərk hafizənin
Köməyi gücünə dönür canların,
Hər vaxtda yaranan, yaşayanların!
Pozulmaz yazıdır ilk xeyir-duan!
Bu sirli məntiqlə puxtələşir can.
Yoxsa tam itirər həyat mənasın,
Dirilik təməlin, abi-havasın!

Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
Edərmi səmimi təzim Varına,
Layiqli ehtiram etibarına?
Cahanı talayıb edərsə bərbad,
Olarmı canlılar varlığına şad?
Güdməsə hər canın mənafeyini
Etməzmi bəlalı öz taleyini?
İlahi, yox mislin nə bərabərin!
Bir Sənsən qayğısın çəkən bəşərin!

Təmkin və səbrinin yoxdur hüdudu.
Hər Adəm övladın yaşadan budu.
Daima keçirsən günahlarından,
Həyata qulluqdur, təmənnan ondan.
Məhz Sənə xidmətdir həyata qulluq,
Səmimi xidmətdir yaradan bolluq.
Şanına etiqad, ibadət, səcdə
O, gərək varlığı naminə edə!
İnsanlıq borcunu yetirsə yəqin,
Bərqərar olunar ülvi istəyin -
O, Yerdə Behiştlik yaradar, qurar.
Xəlifə sayılar, qulluqda durar!
İnşaallah.
Ey bütün Varlığın Banisi, Rəbbi,
Həm verən təlimi, ruzi və həbbi.
Adil hökmü olan Sən.
Canı verən, alan Sən.
Harayına xəlqinin
Həm yetən Sən, qalan Sən.
İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
Rəbbinin bilərmi, ilk niyyətini?
İşinin şərəfli mahiyyətini?
Bilərmi Cahanda O, neçə min il
İlahi varlığı eləyir təmsil?!
Bilərmi, hər bir kəs yoğrulur həmin
Mayadan, rəsulun olan Adəmin?
Bilərmi, hər canı tapşıran ona
Və təhkim eləyən Cənnət məkana
Həm verən qadirlik qüdrətindən pay,
Yapmayan cisminə aləmində tay
Məhz Sənsən?! Sahibi bu mərhəmətin,

İnsana edilən böyük hörmətin!
Verən hər qüvvəni hüzuruna da,
Sevinən ən xırda uğuruna da.
Büdrəsə, olursan gərəksə həyan.
Sənədir insanın hər işi əyan!
Kürənin canlanan hər bir qarışı,
Laqeyid qalarmı olsa çağırışı?
Vermisən ən həssas hissi, duyğunu,
Yanğınlı ünsiyyət sevdirsin onu.
Etmisən xəlqinə münasib səsin,
Hər biri hökmünü qavraya bilsin.
Tanınsın xəlifən, rəsulun kimi
Həm təmsil etdirsin Ali hakimi!
Olmasa şanına layiq ehtiram,
İdrakı edərmi aləmini ram?
Ləyaqət, rəftarı, işi nümunə
Olmasa, özünü doğrultmaz yenə!
Qayıtmaz uğurlu səfərə görə,
Ümidlər həsrətlə bağlanan yerə.
Mələklər etməzlər nə pişvazını,
Hurilər çəkməzlər nə bir nazını!
Qazanmaz rəhməti nə bərəkəti,
Yapar ən dəhşətli bir fəlakəti.
Ən böyük bəlaya dönməzmi, vallah,
Qiyamət günü də?!.. Əstafurullah.

## DİN

***Rəhman və Rəhim Allahın adı ilə***

***Din:*** Bir olan Allahın təlimləri ilə tam kamilləşməyimizin mənəvi dəyərlərinin cəminin təzahürüdür.

Əlhəmdü lillahi Rəbbil aləmin.
Əbədi sahibi bu kainatın,
Ən ali hakimi mövcud həyatın.
Din Sənə məxsusdur, şübhə yox buna!
Var hava, su kimi ehtiyac ona.
O bizə gərəkdir, zəruri haqdır,
Hər cana mənəvi, maddi dayaqdır!!
Çünki hər təlimin qayğıdır bizə,
Salehlik gətirir əməlimizə!
Əlhəmdü lillahi Rəbbil aləmin.
İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
Bilərmi fəlakət, bəlası ilə,
Çarpışan şüuru, zəkası ilə
Dövrünün ən ağır ərəfəsində
Yaşatmış yadlaşan vəzifəsin də?
Eşitmiş insani hisslərin səsin
Və onlar verdikcə öz səmərəsin
Çək çevir etmişdir pis-yaxşını da,
Cahana dəyişmiş baxışını da.
Daxildən püskürən insaniyyəti
Qoymamış məhv etsin tam təbiəti.
Yaşatmış bir Sənə böyük inamı.
İmanın döndərmiş dininə hamı!
İnşaallah.
İndi də həyatın qulluğuna din-
Çağırış səsidir İnsaniyyətin!!
Mahiyyət, qüdrəti həd-hüdud bilməz.

Elmlər-elmidir, inkar edilməz.
Allahın hökmüdür, şübhə yox buna,
Var hava, su kimi ehtiyac ona!
İnşaallah.
Bilərmi, hər olmuş hadisələrdən
Faydalı nəticə çıxarıb dən-dən,
Yetirən tövsiyyə, məsləhətini?
Dəyişən davranış, məişətini.
Yaşadan yapdığı adəti, irsi.
Ucaldan qürurun, boğduran hirsi.
Böyüyə ehtiram, hörmət-izzəti,
Oyadan qəlblərdə saf məhəbbəti.
Ayıldan hər kəsdə namus, vicdanı,
Sədaqət, qeyrəti, ismət-həyanı,
Qanacaq-mərfəti, ədəb-ərkanı,
Şəriət, dinidir aşılayanı?!
Hər elə-obaya əmin-amanlıq
Diləyən, həm bolluq, həm firavanlıq
Şəriət, dinidir? Həmişə hər an
Allaha İnsanı yaxınlaşdıran!
İnşaallah.
Ey bizim nümunə, ibrətgahımız,
Müqəddəs, əvəzsiz bir Allahımız.
Vəhyinlə, xəlqindir məhz yaradanı
"Tövrat"ın, "Zəbur"un, "İncil", "Quran"ın.
Zəkalar alırsa nur qüdrətindən,
Götürür gücünü haqq-din, dinindən!
İnşaallah.
İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
Bilərmi, fədakar o peyğəmbərlər,
O müdrik alimlər, o igid ərlər

Allahın duymuşlar himayəsini.
Cahanda həkk etmiş hər ayəsini?
Müqəddəs çağrışın ali saymışlar,
İmanı olmuşlar, açıb yaymışlar
İnsanın işinə xas təlimini,
Vəhyilə məhz yetən şəriət-dini?
Bilərmi, hər xalqın yüksəlişində,
Keçmişin, bu günün bütün işində
Tam məxsus yerini tutmasa da din,
O, ali elmidir bəşəriyyətin;
Bərkidən etiqad həm inamını
Və edən birliyə dəvət hamını.
Qaytaran ləyaqət, şərəfi ona,
Hey çəkən adillik, dostluq yoluna!
Çalışan yaratsın xoş ünsiyyəti,
Eləsin mənəvi pak cəmiyyəti
Şəriət-dinidir min-min illəri
Çağıran, yapdıran xariqələri
Ki, olaq mübariz, dözümlü, mətin,
Carçısı, dayağı haqq-ədalətin!
Hey deyən dövlətli soydaşlarına
Ki, tutsun əl yoxsul qardaşlarına?
Məsləhət edəndir, qonşunu sevin,
Onunla bağlıdır rifahı evin!
İnşaallah.
Çağıran hər kəsi öz peşəsində,
Mövqeyi, xidməti səviyyəsində
Gərəkli, xeyirxah bir əməyə də,
İnsani borcunu yetirməyə də.
Şəriət-dinidir, şanına təndir.
Qəbahət, günahdan çəkindirəndir!
Bilərmi, o qədər mənfəət, xərac

Aldığı aləmə tapılmır əlac?
Həyati qanunlar olunmaz əvəz,
Bu Cahan xəyanət, rəqabət sevməz!
Nə zərər görübsə təbiətimiz,
O qədər pisləşib vəziyyətimiz.
Lakin O, dözəndir hey göz dağına,
Əmindir insanın insanlığına!
İnşaallah.
Bilərmi, Xaliqin bu məkanında
Əvəzsiz yeri var hər bir canın da?
Daima onlara olmağı həyan,
Şəriət-dinidir eləyən əyan!
Hər bir an söz salan vəzifəsindən,
Diləyən ibadət hər bir kəsindən
Şəriət-dinidir, ülvi imanı,
Fəlakət, bəlada ümid, gümanı?!
İnşaallah.
Dinimiz nurudur sabahımızın.
İradə, hökmüdür Allahımızın!
İnsanı yapanın vardı niyyəti,
O yaysın, yaşatsın insaniyyəti!!
Yaşayıb mənsubluq yeddi dövrünü,
Xeyrilə bəzəsin bütün ömrünü
Həm Onun istəyin etsin bərqərar!
İstəyin şəriət-din eləyir car
Ki, qayda-qanunlar elə yarana,
Bu yerdə Behiştlik daim canlana!
Yaşadaq, qoruyaq haqq-ədaləti
Və çəkək önündə məsuliyyəti!
İnşaallah.
Neçə min ildir din çağırır bizi,
Önündə yetirək vəzifəmizi.

Allahın hələ ki bu mərhəməti
Rəsulu insandan əskilmir qəti
Ki, tutsun yerini Cənnətində* O,
Yetirsin məramlı niyyətin də O!
İnşaallah.
Axarın başlayan tərtəmiz sular
Çuxurun açdıqca az-çox bulanar,
Dəyişər keyfiyyət və kəmiyyətin
Tərkibi itirməz əhəmiyyətin.
Süzülüb yuduqca Yerin qatların
Təbiət götürür həb, sovqatların.
Hər gücə, təsirə dözən layların
Hər qatda artırır daim sayların,
Sədd çəkib qoruya püskürmələrdən,
Hər qatda baş verən daha nələrdən?!
Ey yapan suların hərəkətini,
Yetirən xeyrini, bərəkətini,
Şövqündür qaldıran sərilənləri,
Taqətsiz, çarəsiz görünənləri.
İnşaallah.
Bu hikmət aiddir həm dinimizə,
Sovqatın toplamaq gərəkdir bizə!
Yığaq hər sahədə atılan daşı,
Əbədi tanıyaq sadiq Sirdaşı!
İnsanlıq hamının ola neməti,
Saçdığı həm nuru, həm qiyafəti!
İnşaallah.
Öyrənək zəruri tariximizdən
Ki, tutsun daima o, əlimizdən.
Görməsin salnamə bir ləkə izi,
Qəsd-qərəz əsiri etməsin bizi!!
İnşaallah.

Bilsin Yer üzündə olan millətlər,
Qalarsa keçilməz sədlər, sərhədlər,
Saxlasaq doğmalıq, yadılq bölümün
Ya kimin sağlığın, kimin ölümün
Diləsək, səmimi dostluq qurulmaz,
Bulanıq duyğular, hisslər durulmaz!
Yaddaşdan silinməz yadlıq, yamanlıq,
Yaranmaz ümumi əmin-amanlıq.
Kimisə yad sayıb eləsək hədəf,
Olunmaz bu ağır maneələr dəf.
Gəlməsək ortaq bir məxrəcə əgər,
Başımız daima müsibət çəkər!
Əstafurullah.
Elm, din, şəriət dəyərimizdir,
Mənəvi həm maddi dirəyimizdir!
Onlarsız qurulmaz xoş rifahımız
Nə əmin-amanlı, dinc sabahımız.
Allahın yetirək iradəsini,
Pak, ali saxlayaq şəriət-dini!
İnşaallah.
Möhləti, imkanı verir hər nəslə,
Təminat yaradır O, Qızıl əsrə,
Salehlik bəzəsin hər kəsin ömrün,
Qurmağa tarixin ən gözəl dövrün!!
Dəryada, quruda, havada əsl
Xaliqin eləsin insanlıq təmsil.
Əlhəmdü lillahi Rəbbil aləmin.

**Unutmayaq ki**, **Din** - mənəvi qadirliyimizin, ümum mərifət və mədəniyyətimizin, **Elm** - maddi güc-qüdrətimizin, mənsubluq qabilliyimizin, **İstedad** - mövcud nailliklərimizin ən vacib göstəriciləridir. Bu amillər insaniyyətliyin fəth olunmuş və olunacaq misilsiz dəyərlərinin ölçülməz əmsalıdır inşaallah.

## VARİS

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey bizi yaşadan, kamilləşdirən,
Ən ali kürsüdə həm əyləşdirən.
İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
O, malik olduğu ən kamil bir can,
Ləyaqət, qüruru, vüqarı, ad-san
Bilərmi, irs qalmış yaradanından?
Qadirlik qüdrətin pay almış Ondan?!
Bilərmi məsləki, dini bir canlar
Mələklər ruhlardı, cinlər, insanlar?!
Yaşadıb üçlüyün ənənəsini,
Yarada dördlüyün təntənəsini
Ki, insan gücünün qüdrətilə ilk
Yerdə öz surətin görsün Behiştlik?!
İnşaallah.
Bilərmi, alınca ta son nəfəsi,
Canında sağdırsa bircə zərrəsi
Allahın əvəzsiz bir elçisidir,
Kürədə yeganə təmsilçisidir?
Çirkinlik yaraşmır insan irsinə,
Nə Adəm nəslinin bir varisinə!
Yalan, zor, hiyləni edib aləti,
Tapdaya ya boğa haqq-ədaləti.
Əstafurullah.
Bilərmi dirçəldə, ilahiyyatın,
Doğrulda rəsulluq səlahiyyətin?
Qoruyub insani ləyaqətini,
İşiylə bildirə sədaqətini?
Düşünə şanına layiq dərindən,
Əl çəkə gərəksiz əməllərindən?

Ləkələr yaxırsa nə şərəfinə
O, vermiş hökmünü tam tələfinə!
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində.
Belə sərt tədbiri güdənin qəti
Allahın önündə yox qəbahəti.
Ədalət və haqqı güdən qanunlar
Məhz qəbul olubsa alidir onlar!
Görülən hər işin tam təfsilatı
Və məxfi sayılan sirlərin qatı
Artsa da Tanrımız ilkin bilәndir,
Vaxtında münasib tədbir görəndir!
Qorusa birlikdə bəşər bir canı,
Aparmaq istəsə qoymaz gümanı.
Ya da ki, Xaliqin yaşatdığına
Tapılmaz bir qüvvə qəsd edə ona.
Qorumaq naminə mövcud həyatı
Edəndir qəbul hər əməliyyatı.
Salehlik və paklıq olsa dayağın,
Adillik, ədalət, haqq da yarağın,
Allahın dəstəklər hər tədbirini,
Qazı ol ya şəhid, seç məhz birini!
Çünki Yer üzünü üzmüş talanlar...
Xeyirxah işlərə ehtiyacı var.
O, yazan hər canın məramnaməsin,
Verən həm tətbiqlik gücün, nəfəsin,
Ayırır münasib icra yerlərin,
Həyata versinlər tam xeyirlərin!
Daha çox şamildir bu haqq insana,
Əbədi bağlıdır hər bir kəs ona.
Yaradıb yaşatsaq çiyin-çiyinə,
Yırtıcı rəqabət hopmaz beyinə.

Əl tutsaq həmişə bir-birimizə,
Döymərik nə başa, nə dizimizə!
Bilsin Yer üzündə olan millətlər,
İnsanlıq bilməyir bölgü ya sədlər!
Hər kəsin əvəzsiz o, nemətidir,
Saçdığı nurudur, qiyafətidir.
İnsanlıq hər canın hədsiz nəfidir,
Göyün də Yerində o, əşrəfidir.
Məhz ona ayrılıb tarixi möhlət,
Qiyamət günü də qoyulub son hədd
Ki, Yerdə Behiştlik yarada-qura,
Xəlifə sayıla, qulluqda dura!!
**Ey varis,** unutma son imkanını,
Sahib dur irsinə, qoru sanını!
Çirkabın ödənci bahadır-baha,
Yuyağın, yuyulsun kirimiz daha!
Ən yüksək amallar uğrunda bu gün
Səfərbər olarsa insanlar bütün,
Hər ağır bəlaya tapılar nicat.,
Allah da olardı bu birliyə şad.
Ümumi səylərin cəmiylə ancaq
Bərqərər olunar buyurduğu haqq!
Əlhəmdü lillahi Rəbbil aləmin.

**Məbədlər**

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey sönməz Günəşi, bütün xilqətin,
Adillik, paklığın, haqq-ədalətin.
İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
Bilərmi, canların mövcud birliyin,
Himayən altında bərabərliyin?
Bu ali hikmətin sirrin açmasa,

Əməli Günəş tək şölə saçmasa
Taparmı çarəsin-yadlıq azarın,
Baisi olduğu giley-güzarın?!
Qədəm haqq yoluna qoyub, yananlar,
Allaha-həyata bərk bağlananlar
Və fərəh duyanlar bu sevgisindən,
Tutanlar əməli saleh dinindən
Qurarmı, yeni bir cəmiyyətini,
Firavan görəsən rəiyyətini?!
Olarmı, Sənin hər ibadətgahın
Ən möhkəm dayağı ədalət, haqqın?!
Bu yöndə tutaydı çağrışını din,
Keçəydi təlimin insaniyyətin.
Çünki o bərqərar olarsa harda,
Rahatdır yaşamaq hər cana orda!
İnşaallah.
Ey bütün varlığın Banisi, Rəbbi
Həm verən təlimi, ruzi və həbbi.
İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?!
Şanına yaparmı elə saraylar,
Ehtiyac duyanı: «gəl-gəl», haraylar?
Körpə də, qoca da, əlil-xəstə də,
Yetim də, yesir də, qərib-kimsə də,
Dövranın hər ağır cari günündə
Qazana bilməyən ruzisini də;
***Sığına*** - rahatlıq, qayğıya möhtac.
***Sığına*** - üzülmüş, ümidsiz və ac.
***Sığına*** - tapmayan dərdinə nicat.
***Sığına*** - sayılan unudulmuş, yad.
***Sığına*** - dözməyən öz fəryadına.
***Sığına*** - yaxılan böhtan adına.

***Sığına*** çətində O, Allahına,
İnamı sınmaya məhz sabahına!
Həm görsün əl tutan birliyin gücün,
Həm təmin eləyən rifahın bu gün
Minlərin qayğı və məhəbbətini.
İnsanın insana xoş rəğbətini!
İnşaallah.
Etsəydik yardımı, dövlət köməyi,
Nəzarət altında olsa əməyi,
Cahanda ucalan belə saraylar
Allahın adına layiq olarlar!
Olar bu məbədlər məlhəm bizlərə,
İnamı üzülmüş ümidsizlərə!
Bərkidər ünsiyyət, əlaqələri,
Qayğıkeş, mehriban edər qəlbləri.
Heç kəsi qovurmaz ağır tənhalıq,
Nə maddi bir qıtlıq, nə də bahalıq.
Nə qədər təbii fəlakət, bəla
Baş verə, düşməzdik çıxılmaz hala.
Xeyirxah işlərdə birgə xidməti
Etsəydik, köməyin əskiltməz qəti.
Vaxtında əl tutsaq bir-birimizə
Döymərik nə başa, nə dizimizə.
Çünki hər zəhmətin verən bəhrəsin
Odur! Məhz dadına yetən hər kəsin!
Odur! Hər varlığın tale yazanı,
Yaradıb, ram edən sonsuz fəzanı.
Minlərlə Cahan tək əyalətində
Yaşayır təbi də, məhəbbəti də!
Bilsin Yer üzündə bütün millətlər,
Sökər hər sədləri belə məbədlər!
İnşaallah.

## MÖCÜZƏLƏR

***Rəhman və Rəhim Allahın adı ilə***

**Xoşbəxtlik**

Ey kamil Dünyanı quran, Banisi,
İstedad, idrakın mütləq Dahisi.
Məhsulun - məhəbbət və rəğbətinin,
Ziynətin - ecazkar bu Cənnətinin.
**Xoşbəxtlik - ölçülməz bir sərmayəndir,**
Sahibi həyata hər bir gələndir!
İnşaallah.
İlahi, himayən, təlim, tədbirin,
Kəramət-rəhminlə, təmkin və səbrin
Həm məxsus insani  xüsusiyyətlər:
Yoldaşlıq, həmrəylik xoş ünsiyyətlər,
Sağlamlıq, var-dövlət, səy və zəhmətlər,
Bərəkət-ruzilər, maddi nemətlər,
Ədalət və haqqı güdən qanunlar
Həmçinin hesabsız vasitələr var
Ki, düzgün qaydalar möhkəm yaransın
İnsan göz açmağın-xoşbəxtlik ansın!!
İradən verməsə gəlməyə fərman,
Ehtiyac duymaz bu amillərə can!
Nə gərək olardı istək, niyyətlər
Nə də ki, xoş rifah naminə cəhdlər!
Bunların hikmətin ansaq-İnsanlar
Olmazdı günahlar, hədsiz nöqsanlar.
Həyatdan kamını alardı hərə,
Bəhrəsi qalardı pay nəsillərə!

**Qurban**

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsun fəzanı.

İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
Bilərmi, həyatda hər tökdüyü qan,
Hər fəda verdiyi sayılmır qurban?!
Sən, ömür verdiyin bu varlıqların
Görməkdir niyyətin hər birin barın!
Bağban da həzz alar, bağında haman
Qüsursuz saxlansa səliqə-səhman!!
Cahanlar, aləmlər yapan da Sənsən
Varlığa həyansan, məhz xəlq edənsən!
İnşaallah.
Nə qədər övladı olsa da ata
Çalışır hamısı murada çata.
Köməyin, qayğısın, məsləhətini
O, malik olduğu hər nemətini,
Özünə xas olan məhəbbətilə,
Gərəksə görünməz səxavətilə
Tərəddüd etmədən əsirgəməyir.
Birin o birinə qurban verməyir!
Talelər müxtəlif məramnamədir,
İcrası canları tam qane edir.
Hər biri gücünün bir carçısıdır,
İradə hökmünün icraçısıdır.
Qurbana çox ciddi səbəblər gərək
Ki, Allah insanın xeyrin güdərək
Nicatsa qurbanlıq, verəndir, həsin
Görsə hər imkanın puç nəticəsin!

Et onu Allahın buyruğuyla ram,
Seçdiyin qurbanlıq olmasın haram!
Seç yerin, qibləhə çevir pak üzün,
Qoy canı tərk edən Ruh alsın izn,

Həm tanış o olsun mövcud ağrınla,
Həm köçsün həyatdan razı sayğınla!
Kimlər bu məlhəmdən tapsa şəfasın,
Allahın önündə çəkməz cəfasın.
İnşaallah.
Banisi və Rəbbi bu aləmlərin,
Ən ali Şahidi iş-əməllərin
Qurbanı, şükür et, qəbul edirsə
Gərəksə, nicat ya şəfa yetirsə,
Əl tutub, doğruldur imanımızı,
Yaradır ən əziz bayramımızı!
Qurbanla bildirir O, mərhəmətin
Ki, mövcud həyatın çəkək zəhmətin!
Qurbanın naminə, öz şərəfinə
Çalışan qazanar hökmün əfvinə.
Çünki bu təltifi behdir insana
Ki, etsin səmimi qulluq Cahana.
Doğrultsun inamın, etimadını!
Verilən qurbanı və öz adını!
Unutma, dəyərli bu diqqətini!
Göstər öz əhdinə sədaqətini!

**Vaxt itkisi**

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey ulu Tanrımız, ulu Yaradan
Təlim və qayğına möhtacıq hər an.
İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
Olarmı, ömrün bir sirrindən agah,
Versiz vaxt itgisin sayırsan günah?
Çünki hər olunan əldə naillik,
Zəhmətlə toplanan ağıl və bilik
Bəşərin ölçülməz vaxtını alıb.

İnkişaf sürətin çox geri salıb.
Boş itən anlardan yığılan qatlar
Bildirir çox olub puç ehtiyatlar!
Yüksəliş, tərəqqi, tələbatların,
Qırğınlar etdiyi məhv həyatların
Bu anlar dönmüşdür ehtiyacına,
Əvəzsiz, ölçüsüz bir xəracına!
Vaxtında elmini öyrətsə bilən
Olar vaxt itgisin nəslindən silən.
Bir şeyi hesabsız icad etməzdik,
Tapdanmış yolları təkrar keçməzdik!
Çarəsi-birlikdir, adil yoldaşlıq.
Bəşəri həmrəylik, sıx əməkdaşlıq!

**Tarazlıq**

***Rəhman və Rəhim Allahın adı ilə***

İlahi, ən dəqiq, bitkin elminlə,
Ən yüksək qüdrətin rəmzi helminlə
Bu həyat naminə hər şeyi qoşa
Yapmısan, amalın çıxmasın boşa.
Mənəvi həm maddi təndir sərvətin.
İqlimi tarazdır bu təbiətin.
Məhz həcmi, tərkibi belə dəryalar
Üfunət, çirkabın qarşısın alar.
Mühit, rəng, ahəngin tarazlığı var
Ki, Yeri eləyib hədsiz ecazkar!
Gecəni-gündüzü, şirin-acını,
Nemətlər qazancın və xəracını.
Hər canın yapmısan ruzisini də,
Erkəyə bərabər dişisini də.
Canlanır müxtəlif surətdə onlar,
Daim bir-birindən yararlanırlar!
Olmasa himayən və nəzarətin

Bu həyat itirər dəyər-qiymətin!
İlahi, pozulmaz tarazlıqların
Qoruyur əslini bu varlıqların.
Və gedən kamillik tədqiqatları
Açdıqca daxili ehtiyatları
Həm imkan yaradır inkişafa da,
Həm əslin təsadüf verməsin bada!
İnşaallah.
İlahi, bu təlim gərəyimizdir,
Hər işdə əvəzsiz dirəyimizdir!
Məhz belə Kahanı həm Yeri, Ayı
Şübhə yox gizlədir Günün o tayı.
O Kahan ən yaxın qonşudur bizə,
İradən əsasdır bu rəyimizə.
Demək var tarazlıq zaman, məkanda
Və tətbiq etmisən daim hər yanda.
Lakin yox qabillik gücümüz hələ
Bu uzaq səfərə, sərgüzəştlərə.
Günəşdən almasaq əsas qidanı
Biz vəhdət etmərik ruhla bu canı,
Cismani qovuşaq əbədiyyata,
Dönsün bu səfərlər adi həyata!
İnşaallah.
Kürə də canlıdır, etmirik inkar.
Onun da göbəyi yəqin var aşkar
Ki, mövcud təsirlər ordadır cüzi
Məhz ordan gözləyir kainat bizi?!
Cahanın yeganə darvazasıdır,
Keçidin şaxəli o, fəzasıdır.
Kürənin pozmayaq qiyafətini,
Qoruyaq əhatə edən səthini!
İnşaallah.

**Ay**

***Rəhman və Rəhim Allahın adı ilə***

İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
Bilərmi ən dəqiq, bitkin elminlə,
Ən yüksək qüdrətin rəmzi helminlə,
Gün dönüb varlığın güc mənbəinə
Ay isə Kürənin məhz ürəyinə?!
Nə qədər çəkilmə, qabarmalar var,
Yerdə baş verəcək bu canlanmalar!
Yox qalan kənarda cəzb təsirindən.
Tam hali deyilik əksər sirrindən.
Bu sabit nəbzidir sədd fəlakətə,
Dayaqdır dirçəliş və hərəkətə!
Ey kamil dünyanı quran, Banisi,
İstedad, idrakın mütləq Dahisi.
Ən kamil elminin timsalıdır O.
Həyatın canlanma əmsalıdır O.
İlahi, bir xəta yetirsək Aya,
Cahanın olmazmı düçar bəlaya?!
Əstafurullah.
Sağlam bir ürəyə dəymək olarmı?
Səni, bu cəhdimiz razı salarmı?!

**Mülahizələr**

***Rəhman və Rəhim Allahın adı ilə***

Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
Bilərmi ən dəqiq, bitkin elminlə,
Ən yüksək qüdrətin rəmzi-helminlə
Hüdudsuz kainat səltənətində

Sükunət, sürətin, ətalətin də
Kamil bir hikmətlə istifadəsin
Etmisən! İtirmir öz ifadəsin?!

Bilərmi, neçə min Kürə yaratdın?
Onlarda əvəzsiz həyat oyatdın?
Cahan tək minlərlə əyalətində
Yaşayır təbin də, məhəbbətin də!
Cənnətə dönüncə onların səthi,
Çəkdiyin zəhmətin ölçülməz qəti?
Bunlardan biri də nəsibdir bizə.
Məftunuq, heyranıq qismətimizə!
Əlhəmdü lillahi Rəbbil aləmin.

Hərəkət və səmtin dəyişməz Yer də!
Əbədi qurğunun işinə qibtə
Daima edirik! Əyanidir bu.
Təsirlər vardır ki, dayanmır qurğu!
Yerinə yetirir məramnaməsin,
Yaşadır həyatın o salnaməsin.

Hikmətdir! Yeddi qat şəffaf zireh də
Kürəyə əbədi məhz xidmət edə.
Bənzədir nizamlı, səf alayları.
Sabit və çevikdir mövcud layları.
Hər qatın müxtəlif təyinatı var.
Kürəylə, həyatla vəhdətdir onlar.
Yəni bu yeddi qat büllur bələyin
Altında hər cana yer edib təyin,
Cahanı körpə tək bələdin qat-qat,
Sönməsin zəhmətlə yapdığın həyat.
Qoymasın bərk təsir olsun kənardan.

Verməsin torpağa mənsub olandan!

Bilərmi ən dəqiq, bitkin elminlə,
Ən yüksək qüdrətin rəmzi-helminlə
Ən çevik bir hissin, möhkəm yaddaşın,
Hər cana can verən həssas soydaşın,
Həyatın zəruri bir amilini,
Ən fəal tərkibli, ən kamilini,
Çəkisi, miqdarı həm gələn kara
İşlək su kütləsin o buludlara
Çevirib Günəşin vasitəsilə
Lazımsa ya leysan, ya gilə-gilə
Yağdırıb torpağı suvarırsan hey,
Zəkalar çıxartsın nəticə bir şey
Ki, ziyan vurmamış təbiətinə
Məhz qulluq edilsin bu Cənnətinə!!
Üz səthi qorunsun çör-çöküntüdən,
Üfunət, çirkabdan, tör-töküntüdən!
İnşaallah.

Bilərmi ən dəqiq, bitkin elminlə,
Ən yüksək qüdrətin rəmzi-helminlə
Cahanı bəlkə də qurandan bəri
Onda baş verəcək hadisələrin
Kamil bir hikmətlə dolğun məzmunun,
Olacaq vaxtını, müddətin, sonun
Çatdırdın, edərək ulduzlarla həkk,
Xəlqinin qavraya biləcəyi tək
Ki, zərbin vurmasın amillər qəfil,
Fəlakət etməsin onları səfil?!
Ən fitri idrakı verdiyin bir can,
Tükənməz imkanlı, qüdrətli İnsan

İlkin hər olacaq xəbəri alsın,
Təlaşlar düşməmiş qeydlərə qalsın!
İnşaallah.

Bilərmi ən dəqiq, bitkin elminlə,
Ən yüksək qüdrətin rəmzi-helminlə
Xəlqinə etməyə qulluq daimi
Qurmusan məkanlar-aləmlər kimi?
Görərək həyatın tələbatını.
Yaratdın yeddinci təminatını?
Olduqca zəruri bilərək bunu
Hər cana məcburi verdin yuxunu!
Yuxunun gücüylə aləmlərə Sən
Sehirli bəndlərdən keçid çəkmisən.
Dönübdür xəlqinin tam vərdişinə,
Zamindir həyatın o gedişinə!
Xəlq olan xilqətin, qərinələrin
Qurmusan zərərsiz əlaqələrin.
Yuxunun kim böyük hikmətin danar,
Gərəksə hər bir an onda canlanar?!
Bir məlhəm olsa da sağlığa yuxu,
Naminə qoyduqca girov var-yoxu
Duyaq, var sərvətə, ömrə nəzarət,
İstəsə qaytarar ya edər qarət!
Şükür məsləhətinə.
Aləmlər vəhdətsə iş birliyilə
Xəlqini cəlb edir sehirliyilə.
Hər cana mənsubdur tam sərhədləri,
Dəyişməz əbədi təsir hədləri.
Qurdun bir-birinin əhatəsində.
Qorudun cinslərin mənlik bəhsin də.
Hər canın ruhuna verdin imkanı,

Gərəksə dəyişə bilsin məkanı!
Bilərmi ən dəqiq, bitkin elminlə,
Ən yüksək qüdrətin rəmzi-helminlə
Yığdırıb torpağın sirli qatında,
Cana xas maddələr ehtiyatın da
Saxlarsan Cəhənnəm ambarlarında,
İtkisiz və yüksək dirilik onda?!
Məhz bu saf mayadan yoğurub yenə
Ruh versən dirçəlsin yapdığın hər nə?
Sənin hər aləmə nəzarətin var,
Himayən onların birliyin saxlar!
Bilərmi ən dəqiq, bitkin elminlə,
Ən yüksək qüdrətin rəmzi-helminlə
Yapmısan qüsursuz, kamil canları,
Ağlımız möcüzə sanır onları?
Hər kamil cana xas yapdın beyini.
Bədəndə hər üzvü tutub yerini.
Varlığı etmisən ciddi idarə.
Qoymadın çevrilək eybəcərlərə!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Qavrayan danarmı bu həqiqəti,
Hər şey bir-birinə edir xidməti?!
Hər şeyin tərkibi həcminə uyğun
Hədsiz güc-qüvvəni saxlayır durğun!
Qapalı dövrəndə hər mübadilən
Kürədə saxlayır tarazlığı tən.
Çevrilir vaxtında nə isə nəyə,
Hasili yetirməz ziyan Kürəyə!
Həm odur yaşadan bütün xilqəti,
Həm onun xilqətdir sərvət - neməti.
Hər canın həkk olub onda niyyəti,
Taleyi - qüdrəti, səlahiyyəti.
İnşaallah.

## XƏBƏRDARLIQ

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey bütün bəşərin ümid, pənahı,
Bilən dərd-sərini, yuyan günahı.
İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
Bilərmi, gözündən düşənlər ki, var
Məhdudluq içində daim çırpınar?
Bilərmi, itirən məhəbbətini
Əzabla qazanar hər nemətini?
Verdiyin ruzinin duymaz duzunu?
Bəxt ona yar olmaz ömür uzunu?
Həm itər dincliyi, varı, ad-sanı,
Hər yanda dözülməz olar məskəni.
Bilərmi, çəkəcək tərbiyəsi sərt,
Özü və özgələr alınca ibrət?
**Ey insan,** həyatın Banisi, Rəbbi
Həm verən təlimi, ruzi və həbbi,
Yaxşının qapılar açır üzünə,
Pisləri salandır çölün düzünə?
Lakin pis nə qədər dəyişsə məkan,
Günahın yumağa yaradır imkan.
Məhruma möhləti bir töhfəsidir,
İlk qəbul etdiyi ərz-tövbəsidir!
İnşaallah.
Hər kim ki, məhkumun hayına yetər,
Cəfa və cəzasın çəkəndir betər!
Qarışmaq müşgülmü tədbirlərinə?
Hər hökmü qanundur bəndələrinə!
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!!
Bir odur hamının tale yazanı,

Haqq yola yönəldən çaşıb azanı!
İnşaallah.
Daima möhtacıq kəramətinə,
Mərhəmət rəhminə və rəhmətinə.
Yetirən kiminlə-kimə qəzəbin,
Kimlərlə-kimlərə ruzi və həbbin
Məhz özü biləndir. Sirdir hər kəsə!
Vaxtında xəlqini görüşdürməsə
Aləm dərd əlindən zülmətə batar,
Bilməzdik çox ciddi nəzarəti var!
Bilir hər niyyətin O, yiyəsini,
Boynuna götürüb tərbiyəsini.
Yetirir mənəvi, maddi nemətin,
Çevirir xeyirxah səmtə zəhmətin.
Məhrumun bəlasın, yükü sayandır,
Sınayıb tövbəsin bağışlayandır!
Qaytarar büsbütün itirdiyini,
Gərəksə artırar yetirdiyini.
İnşaallah.
Bu hikmət hamıya əyani dərsdir,
Allahın hökmündən çıxmaq əbəsdir!
Büsbütün varlığın yaradanıdır,
Gözünün nurudur, gücü, canıdır!
Hər biri gücünün bir carçısıdır,
İradə hökmünün icraçısıdır.
Həyatda hər bir can əmanətidir,
Varlığı xəlqinə zəmanətidir!
Dərindən qavraya bilsəydik bunu
Hey təkrar etməzdik qorxunc oyunu.
Daimi köməyi insana azmı?
Naşükür bəndəsin O, qınamazmı?!
Doğrulda bilməsək əgər inamı,

Önündə olmazmı yararsız hamı
Və məhrum etməzmi hər köməyindən?
Qoyarmı tutmağa pak ətəyindən?
Nəhayət, qoyarmı yaşayaq burda?
Salmazmı bəşəri dəhşətli oda
Ki, bizdən qurtarsın canın aləmin?
Əstafurullah.
Daha da kamilin yapsın Adəmin?!
Bismillahirrəhmanirrəhim...
Kaş, Yerə qəzəbin tökməmiş Göylər,
Çəkilən zəhmətlər getməmiş hədər,
Vaxtında qayıdaq doğru yoluna,
Hər mövcud təlimi qəbul oluna.
İnşaallah.
Boğmağa bəd nəfsin vəsvəsəsini
Eşidib dərk edək haqqın səsini.
Əbədi sığınaq kəramətinə,
Mərhəmət rəhminə və rəhmətinə!!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Amin.

## YARANIŞ

***Rəhman və Rəhim Allahın adı ilə***

Əlhəmdü lillahi Rəbbil aləmin...
Ey kamil Dünyanı quran, Banisi,
İstedad, idrakın mütləq Dahisi!
İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
Bilərmi ən dəqiq, bitkin elminlə,
Ən yüksək qüdrətin rəmzi-helminlə
Həyatın ən vacib amillərindən,
Ən təmiz zərrələr toplayaraq Sən
Əbədi bir ruha ən kamil bədən
Yapmaqla olmuşdur məhz peyda Adəm?
Ən ilkin edibdir o, dörd aləmin
Qadirlik gücünün birliyin təmin!
Tükənməz imkana malik qaməti
Yaratdın, şüurlu etsin xidməti!
Ruha xas uçmağı, helmi, qidanı,
O həyat tərzinə tən iddianı,
Ünsiyyət, əlaqə qurmağını da,
Münasib ömrünün olmağını da.
Cismani bir canda bu qabilliyi,
Yaddaşa həkk olan irsi, biliyi
**Etiqad, amalla Sən** birləşdirdin
Naillik qüdrətin zənginləşdirdin:
**Gözlərlə** - çağıran barışıqlara,
Gərəksə son qoyan qarışıqlara.
**Kamalla** - götürsün təbiətindən,
İşlətsin sehirli təbabətindən.
**Zəhmətlə** - çalışsın həyat naminə.
**İnamla** - sığınsın o, aləminə.
Həm bu dörd aləmin nemətilə o,

Qadirlik qüdrətin hikmətilə o,
Yaradan idraka, hədsiz imkana,
Düşünən zəkaya, Cənnət məkana
Malikmiş, nur saçsın qədəmlərilə!
Elçi tək mübarək əməllərilə!
İlahi, ən dəqiq, bitkin elminlə,
Ən yüksək qüdrətin rəmzi-helminlə
Tapsan da məhsulun zəruriyyətin,
Verib bu görkəmi məhz mərhəmətin!
Yapmaqla elminin varisini də,
Həvalə etmisən öz irsini də
Ki, olsun sahibi elə bir ömrün,
Min illər idarə etsin hər dövrün!
Tükənməz imkanı, qadirliyilə
Səxavət, ədalət, adilliyilə.
Hər mövcud mühiti o, doğma duya.
Dəryada, quruda olan canlıya
Tanınsın yeganə rəsulun kimi
Və təmsil etdirsin ali Hakimi!
Qarışsın hər canın o, iqbalına.
Aramla son qoysun qalmaqalına.
Hər qaynar nöqtədən gəlsin sorağı,
Hər yanda o, haqqın olsun dayağı
Ki, əmin-amanlıq xəlqə yetirsin.
Bir Sənə dönüşsüz iman gətirsin!
Günəşə bənzəsin əməllərilə
Dəyişsin aləmi öz əllərilə!
Dəyişsin həm mövcud abi-havasın,
Həyatın dəyərin, ömrün mənasın!
Yaşatsın üçlüyün ənənəsini,
Yaratsın dördlüyün təntənəsini!
İnşaallah.

## YAŞAYIŞ

***Rəhman və Rəhim Allahın adı ilə***

Ey bizi yaşadan, kamilləşdirən,
Ən ali kürsüdə həm əyləşdirən.
İnsan həm özünü, həm Cahanı dərk
Etməsə, tutarmı ətəyindən bərk?
Bilərmi, artdıqca nəsli insanın
Məskəni, qidası dəyişmiş canın?
Getdikcə kəsilən əlaqələri
Yaratmış böhranlı, ağır illəri?
Xaliqin zəruri hər vergisi də,
Varislik verilən ruhi irsi də
İtdikcə, unutmuş öz kimliyini
Və ilkin canının hakimliyini?
İtirdi insani o qüdrətini,
Dəyişdi işini, ilk surətini.
Olaraq təbii sığınacaqlı,
Keçirmiş böhranı acınacaqlı.
Əyani dərs almış O, mühitindən
Həm ağır məişət, şəraitindən.
Daxildən püskürən duyğular ona
Axtartmış yolları Sən - Allahına.
Görəsən, nə üçün anlayışı da,
Çox gərgin, zəhmətli yaşayışı da,
İşlədib düşüncə, ağıl və əlin
O, elmin yenidən yapmış təməlin!
Birliyə addımlar ilk atılandan,
Ünsiyyət, əlaqə yaradılandan
Artmışdır məhsuldar fəaliyyəti
Və birgə səylərlə əksər niyyəti
Həyatda tapdıqca dolğun əksini
Göstərir inkişaf, tərəqqisini.

Şüurun, idrakın qadirliyilə,
Təcrübə, helminin sıx birliyilə
Sınaqlar içindən keçərək mətin
Qazanmış bu günki nailiyyətin!
Elənmiş, elənir zərrə-zərrə fəth,
Təbiət, təbabət və ilahiyyat.
Lakin bu tərəqqi, bu yüksəlişlər
Və nisbi elmilə gördüyü işlər
Çox geri qalmışdır qabilliyindən,
Cinsinə xas olan tam biliyindən.
**1.** Yetdiyi naillik nədir ki, hələ
Dərk edib hər canın dilini bilə?
Və açа onların məxsus sirlərin,
Həm duyğu hisslərin, həm fikirlərin?!
Yerin hər qatının bilsin tərkibin,
İdarə eləsin suların dibin?!
**2.** Ya da ki, ram etsin ölməz ruhunu
Və Ərşə yenidən açsın yolunu?
**3.** Hər zərrə sərvət tək cəlb etsin onu,
Yaratsın tam maddi o, bolluğunu
Həm ola sahibi elə dövranın,
Sayıla ən gözəl dövrü zamanın?!
**4.** Və sirli maddələr mübadiləsin
Bilməklə həyata qulluq eləsin?
Qaytara ən ilkin güc-qüdrətini,
Həvalə olunan təbabətini,
Dəydiyi qeyb ola ya da hallana,
Tutduğu niyyətə uyğun canlana?
**5.** Yetdiyi naillik nədir ki, hələ
Yaşasın Günəşin tam nuru ilə?
**6.** Həm malik O, olsun ilkin nəzərə?
**7.** Ruhu tək həm uçsun sərbəst hər yerə?

**8.** Adəmin ömrünə, ömrün etsin tən,
**9.** Cahanı cənnətə olsun çevirən?!
Şəriət və dinin təlimlərilə,
Hər elmin, peşənin alimlərilə
Eləyə insanlıq zirvəsini fəth,
Bəşəri qüdrətə diz çökə qəflət?!
Allahın doğrulda etimadını,
Adəmin qoruya şərəf, adını!
**10.**Yetdiyi naillik nədir ki, hələ
Yüksəliş saydığı bu ilkin pillə,
Müşkülmü insanı tam etsin qane?
Bəlkə bu naillik olur bərk mane,
Dəyişsin hər nisbi elmi kökündən?
Zəruri tarixin yazsın bu gündən?!
**11.** Yetdiyi naillik nədir ki, hələ
Qüsursuz həyatın həsrətin silə?
Hər mövcud qanunu elə sazlaya,
Hər insan hüququn tam tarazlaya?
**12.** Bulanıq duyğular-hisslər durula,
Əbədi həmrəylik, dostluq qurula?
Hər yanda qaydalar elə yarana,
Əyani Behiştlik Yerdə canlana?!
**13.** Daima verdiyin əyani dərsdən
Öyrənib sirlərin elminə dən-dən
Bacarsın hikmətin aşılamağı,
Doğrultsun həm ömrü, həm yaşamağı?!
**14.** Olmasa elminin kamil təməli
Günəşlə bəhs etməz insan əməli.
Kaş hörmət, ehtiram ola alimə
Və qiymət qoyula hər kamil elmə!
O, görsə qayğını məhz sağlığında,
Elmdə çevriliş yaradar onda!

**15.** Yetdiyi naillik nədir ki, hələ
Bərkidə qəlblərdə inamı elə,
Bilsin ki, möhtacdır kəramətinə,
Mərhəmət, rəhminə və rəhmətinə!
Yığsın hər sahədə atılmış daşı,
Tanısın simanda sadiq sirdaşı
Hər anın nümunə ibrətgahını,
Varlığın müqəddəs bir Allahını.
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Şükürlər eləsin daim sayğına,
Nəslinə, özünə olan qayğına.
Yaysın bir hikməti ibadətimiz
Səninlə xəlq olub səadətimiz!!
Həyatı qurmusan bitkin elmdən
Həm ona elmindir tam xidmət edən.
Məhz elmi əsası etdin işlərin,
Həyatı banisi yüksəlişlərin!
Ahəngdar, rəngarəng bu Cənnət bağın
Əvəzsiz Vətəni olub hər sağın.
Ayrılmaq istəyər kim ağuşundan,
Vardırmı məkanın gözəli bundan?!
Hər cana paydırsa-ömür illərin,
Cahandır-meydanı xariqələrin.
Elmimiz olarsa ölüm püskürən
Varlığı yaşadar necə bu Kürən?!
Gücümüz lərzəyə gətirib Yeri.
Nəfsimiz hər nəfsi qoyubdur geri.
Cahanı qayğısız soyub talarıq
Sanki bu varlığa düşmən-yadlarıq.
Harda güc veririk hərb ilə zora
Lap olur əyani "cəhənnəm" ora!

Gör, bir fərq qoymayıb kimliyimizə
Soyuqluq yeriyib iliyimizə.
Salmışıq kütləvi qırğına meyl,
Bu yöndə naillik Şeytanlıq deyil!
Nəfsimiz dönəndə şeytanımıza,
Hakimdir həm ruha, həm canımıza.
Hər dövrə vəba tək dərd yükləyəndir,
Hər mənfur işlərə sürükləyəndir!
İradə etsəydi idarə onu
Bəşəri bir zəyər sayardıq bunu.
Həm maddi kasıbıq, mənəvi yoxsul,
Cəhalət edəndən varımızı qul,
Dərd hopub hər canın yeddi qatına,
Kim qalır üzü ağ hesabatına?!
Bəşərin bu həyat tərziylə hələ
Bənzər o məqsədlər əfsanələrə.
Labüddür inkişaf məhz qanunlarda
Həyatı müqəddəs tutsaq onlarda!
Olmasa bir səy və hərəkət bizdən,
Görmərik bərəkət Xaliqimizdən!
**Ey insan,** səbrinə sığın bir anlıq,
Arayaq, qalmasın bu səy qaranlıq.
Cəmləyək ümumi imkanımızı,
Cənnətə çevirək məkanımızı!
Məmnunluq yaransın səfərimizdən,
Hər nəslə pay düşsün zəfərimizdən!
Rəhməti artırsın hörmətimizi,
Silsin hey yığılan töhmətimizi!
Ardıcıl hər gələn dövrümüz də kaş,
Çevrilə ən əziz bayrama, qardaş!
Xeyirxah zəhmətdə cəmlənib hikmət
Ki, Allah edibdir o Cənnətin vəd!!
Əlhəmdü lillahi Rəbbil aləmin.

## VIII Fəsil

## TANIŞLIQ

***"Mən yer üzündə*** (… siz mələklərin bilmədiklərini də bilən) ***bir Xəlifə yaradacağam!...*** mələklər:"...Sənin Bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Hər şeyi bilən Sən, hikmət sahibi Sənsən" - dedilər ***"Quran" 30.31.32. Əl-Bəqərə surəsi.***

## TƏQDİMAT

***Rəhman və Rəhim Allahın adı ilə***

Cahanlar yaradan, aləmlər quran.
Varlığı xəlq edən və həyan duran,
Zəruri şərt bilib istər dəmadəm
Tam məxsus simasın göstərə Adəm.
Qavrasın hər bir kəs məhz kimliyini
Və ilkin canının hakimliyini.
Həyatda dərk etsin öz mahiyyətin,
Vəzifə borcunu, səlahiyyətin!
**Ey insan**, qədimə səyahətimiz
Birlikdə baş tutsa, sevinərik biz.
Həm nəzər salarıq tariximizə,
Görək, nə qismətdən nəsibdir bizə?!
Lakin bu hikmətdən düşməyək uzaq,
Hər dövrə münasib yetirilir haqq!
Təmkin və səbrinə sığın bir anlıq,
Arayaq qalmasın bu səy qaranlıq.
Tövsiyə, təlimi Allahımızın,
Təməli olarsa sabahımızın
Bir eldə-obada qalmaz nadanlıq.
Tutardı yerini kamil insanlıq.
**Hazır ol**, qayıtdıq qədimi seyrə!
Ümidlər həsrətlə bağlanan yerə.
Gör, cümə axşamı Behişt canlanıb,
Hurilər, mələklər həyəcanlanıb.
Rəngarəng nur ilə bəzənib hər yan.

Ahənglər yüksəlir məhz sorğulardan.
Gör, necə səbrini itirib hamı,
O, vədin bərqərar etmiş məqamı?!
Xəbərdən tezliklə oldular hali,
Ahəstə cəmlənib susdu əhali.
Nəzərlər yönəlib həm Yaradana,
Həm təqdim olunan o nadir cana.
İlahi, əşrəfin Yerin, Göyün də
Görənlər baş əydi ayən önündə!
Adəmin təqdimi xəlqin, heyətin
Büruzə verirdi hədsiz heyrətin.
Misilsiz, ən kamil canlıydı bu dürr!
Ruh yeni bir qəlbdə etmiş təzahür!
Rəmziydi idrakın, incəsənətin.
İstedad, elmində bir səltənətin.
Edib gül camalı, boyu-buxunu,
Piyalə gözləri məftun çoxunu.
Buğdayı saçları axıb boynuna,
İlahi yaraşıq verirdi ona!
Davranış-duruşu, şirin söhbəti
Oyadır xüsusi eşq-məhəbbəti.
Hamıyla tam sərbəst münasibəti
Göstərir bildiyin vərdiş-adəti.
Həm həlim, mülayim, xoş ünsiyyəti,
Həm yüksək mərifət, mədəniyyəti
Və ağıl-kamalı, həm şəxsi rəyi,
Hər sorğu-suala cavab verməyi,
Açmağı həmkara məxsus sirləri,
Həm duyğu hissləri, həm fikirləri,
Ani hər sorğunu həll edən beyni
Həm həssas hissləri, həm iti zehni,
Gör, heyran eləyib nur mələklərin,
Təmasın səfası ram ürəklərin!

Zirehsiz, kamil can, ağ tüldə bədən,
Ən nəcib duyğular büruzə verən,
Mehriban baxışla, xoş görkəmilə
Əlaqə yaradıb hər həmdəmilə,
Gah uçur, gah saçır nur yerişilə,
Sevilən mübarək bu gəlişilə,
Hər səma cismindən verir məlumat,
Sanki O, yaradıb, düzüb yeddi qat.
Gör, deyir, göstərib səyyarələri
- Dolanıb məramlı dairələri
Münasib həcmilə hərəkətləri
Nizamlı sədd çəkib, qoruyur Yeri!
Amansız mühitlə, sərt təbiətlə
Görürlər işlərin tam qətiyyətlə.
Qoymazlar bərk təsir ola kənardan,
Verməzlər kahana mənsub olandan!
Yapıb bu hikmətlə o kainatı,
Kahansız etməyək təsvir həyatı.
Hər şeyi yaradıb təyinatıyla,
Bələyib nizamlı yeddi qatıyla!
Gör, Yerdən yetirir dəyərli xəbər:
- Qəflətən düşməsin varlıq dərbədər
Aramla sıxılır mövcud qatları,
Bağlansın təhlükə ehtiyatları!
Olmaya püskürmə, nə zəlzələlər.
Yer də sərf etməsin gücünü hədər!
Hər hökmü həyatın güdür marağın.
Xəlq edib, qoruyaq xəlqin ocağın!
Açdıqca onların mahiyyətini,
Göstərir o zəngin irsiyyətini.
Gör, ona İlahi verdiyi helmin,
Ən ilkin loğmanın təbabət elmin.

Dəydiyi qeyb olur ya da hallanır,
Tutduğu niyyətə uyğun canlanır!
Gərəksə, gözündən şimşək çaxdırır,
Hədəfə aldığın alovlandırır.
Gah qalxır sürətlə səmaya hərdən,
Gözünü qırpınca itir nəzərdən.
Ahudə eləyir həzin səsilə,
Möcüzə öyünür möcüzəsilə.
Bu çevik varlığa kim olmaz heyran?
Hünər və gücünə ayrılır dövran
Ki, ilkin eləsin o, dörd aləmin
Qadirlik gücünün birliyin təmin!
Bu hədsiz imkana malik qaməti
Yaranıb şüurlu etsin xidməti,
Elçi tək rifahın quranlarına,
Xəlifə dinindən olanlarına
Göstərə mətanət, dəyanətini,
Sarsılmaz inamın, itaətini.
Cənubda, Şimalda, Qərbdə və Şərqdə
Hünəri Günəş tək saçsın şəfəq də!
**Ey insan,** bax budur siması onun,
Cahanın əvəzsiz ilk Rəsulunun!
Bəşərin cəmləsək hər möcüzəsin
Etməz bu verginin əvəz zərrəsin!
O, xəlqlə təzimin edib Allaha,
Sakitcə çəkildi yerinə daha.
Təbəssüm əskilmir o gül üzündən.
Sanki, çox razıydı bu gün özündən.
O, əla versə də ilk imtahanı
Bu qane etmədi nədən Şeytanı?!
Cinlərlə təmasda olan bu mələk
Hansı bir əsasa söykənib, görək?!

## İLKİN RƏY

***Rəhman və Rəhim Allahın adı ilə***

Hamının ehtiyat etdiyi daim
Cəhənnəm rəisi hədsiz mülayim
Mələklər içindən irəli keçib,
Elə bil deyəcək fikrini seçib,
Xaliqə səcdəni qılaraq heyhat
Bildirdi nədəndir qəlbi narahat:
- Allahu əkbər!.. la ilahə illəllah...
Rəhmanlı rəhimli ey qadir Allah.
Rəbbimiz, tükənməz izzət-cəlalın,
İstedad, təb, elmin, ağıl-kamalın.
Ölçülməz qüdrətin, gücün - Qalibsən!
Göylərə, Yerlərə sahib - Xaliqsən!
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Qərar və hökmünə sədd yox heç yanda!
Burda həm neçə min mövcud Kahanda
Büsbütün varlığın yaradanısan,
Gözünün nurusan, gücü, canısan!
Söz yoxdur! Görmədik heç bir qüsurun.
Dirçəldir cismini Ruh ilə nurun.
Ol! - dedin və oldu gerçək niyyətin!
Odur ilk təməli insaniyyətin.
Yaradan idraka, hədsiz imkana,
Düşünən zəkaya, həm qalib cana
Malikdir, nur yaysın qədəmlərilə,
Elçi tək mübarək əməllərilə!
Yerin hər qatının bilir tərkibin,
Qadirdi görməyə dəryanın dibin.
Bilir hər varlığın dilin mükəmməl
Ki, hökmün anlayıb etsinlər əməl.

Qurtarsın onları bəladan-dərddən,
Qorusun fəlakət, səfalətlərdən.
Sığınıb mərhəmət, kəramətinə,
Cahanın tükənməz bol sərvətinə,
Götürüb boynuna ən ağır işi
Aramla apara o, yüksəlişi!
Məhəbbət, qayğısın əsirgəməsin,
Adınla bağlayıb hər ifadəsin
Həm olsun hər cana gərəksə dayaq,
Həm təmsil etdiyin ali sayaraq
Yırtıcı canlarla dursun üz-üzə,
Uzatsın əlini hər ümidsizə!
Daima qorusun haqq-ədaləti
Və çəksin önündə məsuliyyəti!
O, Yerdə Behiştlik yarada, qura,
Xəlifə sayıla, qulluqda dura!
Dəryada, quruda, havada əsl
Xaliqin eləsin varlığı təmsil!
Bir hakim sakini kimi həyatın
Törəsin, qorusun əbədiyyatın.
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı!
Sənin hər işarən, hökmün qanundur!
Şamillik qüvvəsi bizə məlumdur.
Tapşırdın biz duraq həm qulluğunda,
Yerinə yetirək hər buyruğun da!
Verdiyin bu qüdrət və səlahiyyət
İnsanı pozmazmı mənən? Nəhayət,
İlahi, cismani bu ilk Rəsulun,
Qamətdə, görkəmdə ən gözəl qulun
Gəlibsə mayası-zatı torpaqdan
Əminəm, ayırmaz haqqı nahaqdan!

Əyani göstərsin hələ xidmətin
Qazansın ehtiram, həmi hörmətin
Ki, görək sarsılmaz itaətini,
İradə-hökmünə riayətini.
Hələ tam görmədik imanını da,
Gələcək işinə inamını da.
Nəfsilə tam sərbəst məhz hərəkəti,
Məxluqa yaraşmaz mənəvi qəti!
Zamanla bağlıdır bizim yaşımız,
Çox görüb gözümüz, çəkib başımız.
Hökmünlə varlıqlar arasındayıq,
Müqəddəs mələklər sırasındayıq.
Ləkəsiz, hədsizdir sədaqətimiz.
Ucadır adımız, ləyaqətimiz.
Şükür, yox bir şübhə imanımıza.
Mütiyik, sahibsən hər anımıza!
Tam nurdan bizik, o, nəm, soyuq gildən.
Mələklə bərabər olmaz ət bədən!
Gərək hey izləyək maddi həyatın,
Dərindən öyrənək mənəviyyatın.
Örnəklik toplana dürüst məlumat,
Qalmayaq gündəlik işimizdə mat.
Vacibdir yazıla xeyiri-şəri,
Çıxarsın hökmünü iş-əməlləri.
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində!
İlahi, rəhimli, mərhəmətlisən.
Təmkinli, səbirli, kəramətlisən.
Adəmə çox qibtə etsək də bu gün ,
Əminəm gələcək nəsillər üçün
Axirət artıra gərək qatların,
Apara məxsusluq hesabatların.

# QİBLƏHDƏN GƏLƏN SƏDA

***Rəhman və Rəhim Allahın adı ilə***

Gör, necə heyrət və təşviş içində
Dinləndi ilkin rəy belə biçimdə?
Sükutla gərginlik çökmüş araya,
Nəzərlər yönəlmiş Allah-təalaya.

Qibləhdən yayıldı həzin bir nida!
- İradəm belədir! Eşit, bil onda!
Öyündün özünlə gövhəri-büllur.
Adəmdən fərqlisən, ey mələyi-nur,
Ucalan bu həddsiz təkəbbür-qürur
Ən məsul bir işi sənə buyurur!!
Çünki, hər yapdığım zəruri ləldir
Və mənə əməli, işi əfsəldir.
Timsalı - göstərir mərhəmətimi,
Buyruğum - inamı və rəğbətimi!

Biz bunu bilirdik, ey nuri-mələk,
O, gəlməz bunların öhdəsindən tək
Və əsas tutaraq hər buyruğunu
İcra et! Və izlə səmirsiz onu!
Tükənməz nəfsinin etdim yoldaşı.
Mənəvi həm maddi günahın daşı!
Hər gecə silkinsin O, keçmişindən
Ki, saleh yapışsın qalmış işindən.
Yaşasın mənsubluq ömür illərin
Və olsun sahibi xariqələrin!
İzlərsən həm onu, həm xilqətlərin,
Biz görək təyinli axirətlərin!!

Bilirsiz, hər canın daim ilkini

Yaratdıq nələrə tam malikini?!
Verib hər nemətin, çəkib nazların
Qoruduq zəruri imtiyazların.
Var maddi, mənəvi təminatları
Həm azad, müstəqil xoş həyatları.
Edib tam sərbəstlik günlərin qara.
Bu, dərsdir səcdəsin unudanlara!!
Yenə bir qayğıdır tələb onlardan,
Məhz ibrət alsınlar qarışqalardan!

Görürsüz, ehtiyac var belə cana
Ki, ciddi nəzarət etsin Cahana.
Bilərək varlığın mahiyyətini
Yaşatsın, qorusun təbiətini!
Hər qəlbin şəfqətli həbibi olub,
Hər dərdin ecazkar təbibi olub
Götürsün onları şəxsi zaminə,
Daima çalışsın həyat naminə!
Ən fitri idrakı verdiyimiz can,
Tükənməz imkanlı, qüdrətli insan
İlk, hər baş verəcək xəbəri alsın,
Təlaşlar düşməmiş qeydlərə qalsın!
Hər qaynar nöqtədən gəlsin sorağı,
Hər yanda o, haqqın olsun dayağı
Və əmin-amanlıq xəlqə yetirsin
Həm Bizə şüurlu iman gətirsin!
Zəhmətlə yaranan naillik itməz.
Toplanıb artıqca, almalıyıq həzz!

O, məsum, imkanlı, təbərrüklüdür,
Lakin bu Elçimiz ağır yüklüdür!
Haqsızlıq qənimi kəsdim cihadın,

Olsun öz dayağı həm o həyatın!
Sizlərin vacibdir ona köməyi,
Qoruna uğurlu zəhməti-səyi!
Düzgün baş çıxarsın əhatəsindən
Ki, gəlsin işinin tam öhdəsindən!
Dəyişsin Cahanın abi-havasın,
Həyatın dəyərin, ömrün mənasın!
Bilin, çox sirlidir ömrü qonağın.
Bir Mənə bəllidir sonu sınağın.
Sahibi edərik elə dövranın
Olar ən dəyərli dövrü zamanın!
Vaxtınız bitəcək Qiyamət günü.
Bax, onda qoyarsan yerə yükünü!
Arayaq həm sənin məlumatını,
Həm onun, nəslinin hesabatını!
Olar bu möhlətə nəticə hasil,
İnsanlıq açar öz simasın əsl.
Hissiniz ədaya dönər ya dərdə
Əməllər edəndə qazancın əldə!
Bilin, Siz mələklər, həm ali heyət,
Səy tələb edəndir bu məsuliyyət!!

## NƏTİCƏ

***Rəhman və Rəhim Allahın adı ilə***

**Ey insan**, gördünmü baş verənləri?
Bu, qeybi xəbərdir, yox bilənləri.
Zəruri olub ki, salınır yada,
Çəkilən zəhmətlər getməyə bada!
Bəlkə də hey qopan şivən-fəryadı
Eşidib görənlər tutur iradı?!
- Adəm və Həvvadan ey yarananlar,
Doğmalıq, qohumluq beləmi olar?
Nədən əl tutmursuz bir-birinizə,
Döyürsüz gah başa, gah dizinizə?!
Heç bir fərq qoymayıb kimliyinizə
Soyuqluq yeriyib iliyinizə!
Olmusuz aldadan həmi aldanan,
Qırğınlar törədən, haqları danan.
Bu ağır günahın batan kirinə
O günü (!) tapmaz bir dəlil xeyrinə!
Xaliqin doğrultmaz etimadını,
Adəmin qorumaz şərəf, adını.
İtməsin sanınız, ləyaqətiniz,
Vəzifə borcuna sədaqətiniz!
İnşaallah.

**Biz dəvət etdik ki, ey insan, səni,**
Gör, çıxart bunlardan düz nəticəni.
Dəlillər yetir ilk tariximizdən,
Şikayət etməyək taleimizdən.
Şikayət sayılar hər kəsə günah,
Gəlirsə pak, təmiz qeyri-ali şah!
Adəmin vergisi yoxdursa bizdə,
Var hədsiz gücümüz birliyimizdə!
O bənzər idarə olunan selə,

Xeyiri hədsizdir obaya, elə.
O qanı-canıdır hər islahatın,
Hər dövrün həll edən müqəddəratın!
Keyfiyyət çevrilib gör, kəmiyyətə,
Bu hikmət malikdir əhəmiyyətə
Ki, görək hər işi cəm, səmərəli,
Tam vaxta qənaət  yoldur irəli.
İlahi öyrədir həm elmləri,
Həm etsin hər sirrdən agah elləri.
Əsası olsunlar bütün işlərin,
Həyat da - banisi yüksəlişlərin!
Edək min illərin çin bu niyyətin,
Qərq olaq nuruna insaniyyətin!
Şeytanı təqsirkar günahımızla
Etmərik, yaşasaq Allahımızla!
Və onu görmərik qərəzli-qəsdli,
Bir daha olmarıq sərt bəhsəbəhsli!
Bil, Yerə Adəmlə gəlməyib əbəs.
Əbədi bu həyat naminədir bəhs!
O, Xaliq hökmünü, həm öz buyruğun
Yetirir, əzmlə hər kəsə uyğun!
Qələbən naminə qarşı tərəfin
Öyrən hər cəhətdən məxsus şərəfin.
Unutma qüdrətin, gücün, ad-sanın
Sınaqda qalib ya məğlub olanın!
Bəlkə, yox Şeytanın günahı qəti,
Özümüz basırıq haqq-ədaləti?!
Əstafurullah.
Müqəssir odurmu ya təqsir bizdə,
Nəfsdən törənən əməlimizdə?!
Nəfsimiz yaradan şeytana lənət!!
O, qoymaz qazanaq layiqli rəhmət.

Hər dövrə vəba tək dərd yükləyəndir,
Hər mənfur işlərə sürükləyəndir!!
Həmçinin nəfsimiz, hissiyatımız
Süsləşsə canlanmaz bu həyatımız!
Baissə çəkişmə həm böhranlara,
Həm açır dövrandan yol dövranlara!
Bəd nəfsin qənimi bil, cihadındır,
Həm sənin dayağın, həm həyatındır!
Et saleh əməllə idarə onu,
İradən qorusun hər uğurunu!
İnsanlıq hamının olsa hakimi,
Qorunsa hüququ bir haqqı kimi
Birlikdə olunar maneələr dəf,
Kimisə yad sayıb etmərik hədəf!
Ümumi həmrəylik bərqərar olar,
Zindan və Cəhənnəm daim boş qalar!
Göylərə, Yerlərə, varlığa Sahib
İstər ki, çıxaq bu sınaqdan qalib!
Bilirik, hər nəslin Odur həyanı
Və Ondan umuruq ömrün hər anı!
Yetirək önündə vəzifəmizi,
O günü (!) qazanaq öz töhfəmizi.
Qiyamət deyilən o günümüz kaş
Hamının bayramı olaydı, qardaş!
Qayıdaq, uğurlu səfərə görə,
Ümidlər həsrətlə bağlanan yerə!
Mələklər etsinlər pişvazımızı,
Hurilər çəksinlər hər nazımızı.
İnşaallah.
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin…

## QIZIL ƏSR

***Rəhman və Rəhim Allahın adı ilə***

***...Allah öz bəndələrindən dilədiyinə nemət bəxş edə bilər. Allahın izni olmadan biz heç bir dəlil gətirə bilmərik. Quran-i-Kərim 14.11. İbrahim surəsi.***

***Niyyətimiz:*** -Allahın iradəsi ilə təyinatımızdan, təminatımızdan mənəvi tariximizdən və gələcək o Qızıl əsrin örnəklik dəyərlərindən xəbər yetirməkdir inşaallah.

**Təyinat**

***Əlhəmdü lillahi Rəbbil aləmin***

Bu, Qızıl o əsrə çağrış səsidir,
Xaliqin niyyəti, iradəsidir!
**Biz dəvət edirik, ey insan, səni,**
Duyasan, görəsən öz vəzifəni!
Təmkin və səbrinə sığın bir anlıq,
Arayaq, qalmasın bu səy qaranlıq.
Düşünək, İlahi nə edir tələb?!
Bu qədər qayğıya nədir bəs səbəb?!
İnşaallah.
Bəşərin elmilə inad-cəhdlərin
Bağlayıb qurmağa gələcəklərin.
Və əvəz etməklə nəsillərini
Yapalar məramlı öz irslərini!
İnşaallah.
Hər canın harayın həm anmağıyla,
Qulluqda müntəzir dayanmağıyla
Daima artırır kəmiyyətini,
Yazdırır hidayət-riayətini!
Həkk olsun beyninə, hopsun qanına,
Hər biri sığınıb Yaradanına,
Ədalət və haqqı alsın ovcuna

Və sahib dursun öz məsul borcuna!
Heç nədən etməyib məhrum onları
Ki, olsun tükənməz güc-imkanları.
Ümumi səylərin cəmiylə ancaq
Cahanda qurular buyurduğu haqq!
İnşaallah.
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Ən kamil idraka, şüura uyğun
Adəmə həvalə olan buyruğun
Bərqərar edilə təfsilatıyla,
Qabillik, mənsubluq tələbatıyla!
Dəqiq vaxt ayırdın Qiyamətəcən,
Gəlsinlər bu işin öhtəsindən cəm!
Hər insan gücünün qüdrətiylə ilk
Yerdə öz surətin görsün Behiştlik!
Öz həyat tərzin ki, Yerdə canlanır,
Ümidlər həsrətlə ona bağlanır.
Bu niyyət həm də üç cinsədir aid.
Dörd fərdi məqsəddir, idarə vahid!
Yetirmək naminə ülvi amalı
İşlər hər sahədə tamamlanmalı!
Behiştlik cüt və tən ola kahanda
Və ömrün mənası artdığı anda
Mələklər, ruhlar həm cinlər, insanlar
Çəkilən zəhmətin dəyərin anlar!
Sayəndə qurarlar elə rabitə
Bu Yerə göylərdə edərlər qibtə!
Burda min illərlə yaşayar insan.
Burda tam kamillik olar hökmran.
Hər bir kəs töhfən tək duyar gəlməsin,
Unutmaz «**Allaha şükür**» kəlməsin!

Fikirlər olacaq həm sorağında,
Gözləri həsrətlə həm fərağında.
Haqların haqqına sadiq qalarlar,
İbadət edərlər, səcdə qılarlar!
Hər cana canı tək qulluq edərlər,
Verdiyin hər şeyin qədrin bilərlər!
Bu ali icmanın son qurumu tək,
Ümumi idarə, haqq durumu tək
Olar bir beşiyi insaniyyətin,
Ən yüksək mərifət, mədəniyyətin!!
İnsanlıq dönər məhz Gün işığına,
Təmizlik, sadəlik yaraşığına.
Bəşərin elminin güc-qüdrətilə
Cahan da fəxr edər öz surətilə!
İlahi, buranın xəlifəsi tək
İnsana ehtiram etsə hər mələk
Demək, o doğruldub etimadını,
Adəmin qoruyub şərəf-adını!
Bununla bitirib təyinatını
Hər nəsl verəcək hesabatını -
Hər dövrün ən adil iqtidarına -
Qiyamət gününün Hökmdarına!
O günü(!), o qeyri-adi bir günü
Bəxtəvər duyardı hamı özünü!
Əlhəmdü lillahi Rəbbil aləmin.

**Təminat**

***Rəhman və Rəhim Allahın adı ilə***

Hər hikmət və qüdrət sahibi Allah
Qalibsən, qadirsən hər şeyə vallah!
Cahanlar, aləmlər yapan da Sənsən,
Varlığa həyansan məhz xəlq edənsən!

Təminat naminə hər islahatın
Dəyişir görkəmin, ritmin həyatın.
Yerin hər tərəfdən sıxıb qatların,
Bağlarsan təhlükə ehtiyatların.
Olmasın püskürmə nə zəlzələlər,
Yer də sərf etməsin gücünü hədər.
İznsiz Göylərdə olmaz hərəkət,
Nə Yerdə dirçəliş, ruzi, bərəkət!
Bilirik, hökmündən bir qüvvə çıxmaz!
Tufanlar ya sellər dağıtmaz, yıxmaz.
Şimşəkdən nə yanmaz meşələr, evlər,
Fəlakət-bəlalar görməzlər ellər!
Olar bu təbiət əmin-amanlı,
Vahimə təlaşı unudar canlı.
Bu bizə gərəkdir, zəruri haqdır.
Hər cana mənəvi, maddi dayaqdır.
Bunların hikmətin bəşər anarsa.
Nəticə çıxarıb yararlanarsa,
Vurmazdı ziyanı təbiətinə,
Salmazdı həyatın belə çətinə.
Hər bir can yaşayar yeddi dövrünü.
Xeyriylə bəzəyər ötən ömrünü.
İnamla sığınar o, Allahına!
Ümidi üzülməz nə sabahına.
İnşaallah.

Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Təminat yaradıb məhz Qızıl əsrə
Möhləti, imkanı verdin hər nəslə,
Küründi Vətəni etdin hər sağın
Onda hər bir tale keçsin sınağın.
İrsinə ayrılmış bol nemətinlə

Mənsubluq haqqıyla, ədalətinlə!
Getdikcə kamillik tədqiqatları,
Sınansın daxili ehtiyyatları.
Ünsiyyət seçimin düz eləyən çin
Artırar imkanın, bərkidər nəslin!
İnşaallah.
Bilib hər niyyətin Sən yiyəsini
Götürdün boynuna tərbiyyəsini.
Yetirdin ruzisin, maddi nemətin,
Çevirdin xeyirxah səmtə zəhmətin.
Artımla bağladın elmin, kamalın
Məhz bilsin məramın, ülvi-amalın.
Nurunla qayıtsın imana-dinə,
Əməli pay olsun nəsllərinə!
Fəth etsin zirvəsin insaniyyətin,
Qoruyub artırıb nailiyyətin,
Sahibi olsunlar elə dövranın
Sayıla ən gözəl dövrü zamanın!

**Mülahizələr**

***Rəhman və Rəhim Allahın adı ilə***

***…mələklər: Biz Sənə şükür etdiyimiz, şaninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən Yer üzündə fəsad törədəcək və qan tökəcək bir (də) kimsəmi yaratmaq istəyirsən?.. söylədilər. Quran-i-Kərim. 2-30.***

**I**

Banisi və Rəbbi bu aləmlərin.
Ən ali Şahidi iş - əməllərin.
Olmazmı ibrət ən qədim itki də
Suallar anlansa məhz bu səpgidə?!
Adəmin hanı ilk nailiyyəti?
Hanı min illərlə fəaliyyəti?
Olub Yer üzünün ilk xəlifəsi,
Səltənət qurmağa yoxmuş həvəsi?

Qəsd-qərəz görməyib sakinlərindən?
Ümum bir hümbətin kahinlərindən?
İdarə etməyə cəmiyyətini
Seçməyib min illər o, heyətini?
O nəslin olmayıb heç tələbatı?
Mənəvi həm maddi bir təminatı?
O, rəmzi idisə insaniyyətin
Hanı ilk beşiyi mədəniyyətin?
Bəs harda qalardı ya dincələrdi?
Hanı o qəsr ki, elçin gələrdi?
O, nəyə edərdi sərf imkanların?
Bəs necə qulluğun çəkib canların?
İnşaallah.
Ən ali Rəsulun, ilk xilqətinin
Məkanı, min-min il cəm qüdrətinin
Sirr edib inkişaf, tərəqqisini,
Dinini, təbabət, elmi irsini!
Hanı o qızılı-gümüş qəsrlər?
Kimləri yaşatmış, neçə əsrlər?!
Kimlərlə qurublar əlaqələri?
Nələrlə qorxudub Yeri, Göyləri?
Nələrdə göstərib azğınlıqların?
Kimlərin oyadıb çılğınlıqların?
Məskəni olduğu cənnət bağların
Yerində ucaldıb kim buz dağların?!
Hələ sirr saxlayır çox sovqatları
Şimalda, Cənubda yerin qatları?!
Düşünüb arasaq suallar çıxır...
Zehnimiz duruxur, ağıl karıxır.
Hər şeyi bir anda məhv edən, yəni
Kimlərin naminə etmiş həmləni?!
Yəqin ki, gəliblər tuş qəzəbinə?

Özləri, izləri təmiz silinə?!
Ya pozğun əxlaqı, çirkin əməli
Olub ilk xilqətə xitam verməli?!
Əstafurullah.
**«Quran-i-Kərim»** də çox xilqətlərin
Açıb tən örnəklik aqibətlərin!!
Hökmünü mələklər edibmi icra?
Ən dərin dəryada batıbdır ora?
Qalmaya nişanə həmin dövürdən,
Nə yüksək zəkadan, uzun ömürdən?!
İlahi, bu cüzi dəlil, yəqinlik
Örnəklik dərs verir, həm bir təskinlik.

Əbədi sahibi bu kainatın,
Ən ali Hakimi mövcud həyatın.
Saleh, pak qalıb ki, Adəm və Həvva,
Artımın bir daha bilmisən rəva?!
Haqların haqqına sadiq qalıblar,
Hey edib ibadət, səcdə qılıblar?!
Bəlkə son imkanı verdin onlara
Həm bizə, xilqəti sayılanlara?
Etdiyin güzəştin, düşünsək haqla,
Ölçülməz dəyəri sadalamaqla!!
Şükür və təriflər bu sayğınadır,
Var-yoxa yanğınla həm qayğınadır!
Bəlkə bu tarixi sınaqlar bizi,
Öyrədir dərk edək vəzifəmizi?
Bu işdə səy, zəhmət çəkməliyik məhz
Zəhmətsiz qazancın qədri bilinməz?!
Yığaq hər sahədə atılmış daşı,
Tanıyaq simanda sadiq sirdaşı?
Hər anın nümunə, ibrətgahını,

Varlığın müqəddəs bir Allahını?!
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Bilək, hey möhtacıq kəramətinə,
Mərhəmət rəhminə və rəhmətinə!
Əlində ömrümüz, aqibətimiz,
Qiyamət günümüz, axirətimiz.
Əlhəmdü lillahi Rəbbil aləmin.

**II**

Öyrənək mənəvi tariximizdən
Ki, tutsun həmişə o əlimizdən.
Sətirlər çəkdikcə bəhsə təmkinlə
**Hər fikrin sədasın, ey insan, dinlə**.
Bir daha artdıqca nəsl burada,
Ətrafa yayılıb, dönüblər yada.
Yaşayıb müxtəlif ərazilərdə
Mal, geyim, azuqə ediblər əldə.
Var yığmaq dönmüşdür vacib adətə,
Yox imiş cüzi vaxt məhz ibadətə.
İdilər təbii sığınacaqlı,
Günləri keçirmiş acınacaqlı.
Aralı düşdükcə təklənibdilər.
Qorxudan, fikirdən dərdlənibdilər.
Pəncələr caynaqlar edirdi tələf,
Yayırdı vahimə, qorxu hər tərəf!
Səhranın, dağların, cəngəlliklərin
Onlar çox görüblər əngəlliklərin!
Həm çətin məişət-şəraitləri,
Gərginlik yaradan sərt mühitləri
Dəyişmiş işlərin, ilk surətlərin,
Əritmiş mənsubluq güc-qüdrətlərin.
Hər biri unutmuş öz kimliyini,

Həvalə olunan hakimliyini!
Unutmuş insani hər vergisini,
Varislik ruhlara məxsus irsini,
Həm həlim, mülayim, xoş ünsiyyəti,
Həm yüksək mərifət, mədəniyyəti.
Dəyişmiş ibrətlik hər xasiyyətin,
Götürmüş zorluluq xüsusiyyətin.
Yapmışlar müxtəlif adlı qurumlar,
Çəkmişlər araya sədd, uçurumlar.
Qondarıb minlərlə çirkin oyunu,
Bəzəyib geydirmiş «siyasət» donu.
«Gör-götür, zəbt elə» - iddiasıdır,
Güddüyü marağın bu əsasıdır!
Yalan, zor, hiylə də bir alətidir.
Səpdiyi səfalət, cəhalətidir!
Yaddaşa həkk etmiş hədsiz qalıqlar.
Qırğınlar, yanğınlar, xarabalıqlar.
Yox kimsə quldurdan, qəsddən qoruna!
Düşməyə cadunun, falın toruna.
Nələrə etməmiş sitayişi də?
Ellər var saxlamış bu vərdişi də.
Bəlalar basdıqca hey başımızdan
Çox şeylər silinib yaddaşımızdan.
Hər yerdə nadanlıq, rəzillik izi,
Belə yad edirik keçmişimizi.
Əstafurullah.
İnsani duyğular, hisslər xəlqinə
İnamla açandan yol Xaliqinə
Hər zülmət guşəyə nuru saçılır.
Bağlanmış düyünlər, sirlər açılır!
Aramla olunur maneələr dəf.
Açılır narahat edən hər kələf.
Zülmətdən çıxırsa kim işığına

O, dönür ömrünün yaraşığına!
Ona sidq ürəklə kim meylin salır
İmana gəldikcə səhvi azalır
İnşaallah.
İlahi, rəhminlə, kəramətinlə,
Himayən, qayğınla və rəhmətinlə
Nəsillər qazanır hey nemətləri,
Toplayır hesabsız qənimətləri.
İnsan həm özünü, həm Cahanı dərk
Etdikcə tutubdur ətəyindən bərk.
Aramla qayıdır şəriət, dinə.
İnamla bağlanır təlimlərinə.
Sayəndə yüksəlir yapmaq həvəsi,
Təfəkkür, şüuru və tərbiyyəsi.
Sayəndə öyrənir sirrin birliyin,
Həmrəylik, yoldaşlıq, bərabərliyin,
Var edə mənəvi pak cəmiyyəti!
Mərifət - əxlaqı, mədəniyyəti.
O ədəb-ərkanı, elmi - təhsili,
Dərk edib, tən tuta hər irqi, dili
Ki, birgə aparıb hər axtarışı,
Daim hər sahədə qurub yarışı
Şərəflə yetirə aidiyyətin,
Çəkə iş-əməlin məsuliyyətin!
Müflüslik, tənəzzül tam unudula
Və sabit, məhsuldar dövran qurula!
Şəriət və dinin təlimlərilə,
Hər elmin, peşənin alimlərilə
Edələr insanlıq zirvəsini fəth,
Bəşəri qüdrətə diz çökə qəflət!
Dəyişə daxili təbiətləri,
Bərkiyə ləyaqət - qətiyyətləri.

Olalar mübariz, dözümlü, mətin,
Carçısı, dayağı haqq-ədalətin!
Salehlik hər işin ola təməli,
Günəşlə bəhs edə insan əməli!
İnşaallah.

**III**

Ey kamil Dünyanı quran, Banisi,
İstedad, idrakın mütləq Dahisi.
Kamillik dövrünə keçid illəri
**Yer üzü görəcək pak nəsilləri!**
**Görəcək,** məhəbbət, qayğı, ehtiram
İsidib eləyir ürəkləri ram.
Bulanlıq duyğular, hisslər durulub,
Əbədi həmrəylik, dostluq qurulub!
**Görəcək,** bəşərin intizamını,
Bürümüş həyanlıq necə hamını?!
Hər canı canı tək can bilənləri
Və Sənə ibadət hey edənləri.
Tutub öz yerini hər məsləhətin,
Heç bir kəs aşmayır səlahiyyətin!
**Görəcək,** hər xalqa mənsub dövləti
Götürüb səhmanla səddi-sərhədi.
Qoruyub ən gözəl ənənələri,
Edirlər çin mövcud əfsanələri!
**Görəcək,** naillik şücaətlərin,
Əsrlər eləyən fəth surətlərin!!
Tox olan gözləri, ürəkləri şad.
Səliqə-səhmanlı, hər bir yan abad.
Yox maddi-mənəvi olunan qarət.
Cinayət törənmir, yoxdur əsarət!
Yox Ərşə ucaldan ahu-zarını,
Bir kimsə gizlətmir iftixarını!

Vahid bir Vətənə dönən Cahanda
Qur-yarat, ya dincəl sərbəst hər yanda!
Yer üzün əyani Cənnət anırlar,
Hər nemət, sərvətdən yararlanırlar!
İnşaallah.
Cənubda, Şimalda, Şərqdə və Qərbdə
Ümumi idarə olubdur dəbdə!
Cəmiyyət - dövlətin, o, cəmiyyətin
Tam açır qüdrətin, qabiliyyətin.
Bacarıq helmiylə edilir təyin.
Tələbat olunur tənzimli təmin.
Tədbirlər tutulur daim planlı.
Mənfəət ümumi, həm xoş məramlı.
Yuxardan-aşağı, ordan yuxarı
Qərar və icranın olur axarı!
Hər bir iş, tələbat şəffaf, işıqlı.
Etibar, inamlar tam qarşılıqlı!
Durub hər nemətə, sərvətə sahib
Hər fərdi bəd nəfsə gəlirlər qalib!
Qanunlar hamının olub hakimi
Qoruyur hüququn bir haqqı kimi!
Salehlik və paklıq o cəmiyyətin
Tam açır imkanın, qabiliyyətin!
Bir heyrət oyadan rəşadət, hünər
Hər yanda ən adi əməl bilinər.
Həm fərəh yetirir fəaliyyətlər,
Oyadır iftixar nailiyyətlər.
Olub bir beşiyi insaniyyətin,
Ən yüksək mərifət - mədəniyyətin.
Cəmiyyət-dövlətin, o, cəmiyyətin
Yaradıb tarazlı hakimiyyətin!!
Elə bir şərait, mühit yaranıb,

Sabitlik, ədalət haqla canlanıb
Tam maddi, mənəvi tənzimli dövlət,
Ailə zəmnində bir hakimiyyət!
Hökümət canlanır yeni sifətdə
Qalmayıb bitərəf, müxalifət də!
Bu, ali icmanını son qurumudur,
Ümumi idarə, haqq durumudur!
Burda can deyirlər, can eşidirlər,
Həm qulluq görürlər, qulluq edirlər.
Hamının ümumi güc-səyləriylə,
Etiqad - inadlı istəkləriylə
Dönür hər xoş xəyal zəruriyyətə,
Çevrilir həyatda bir həqiqətə!
Onların görəsən ibadətlərin,
Nə əziz tuturlar səadətlərin?!
Əhsən! O dövranı yaradanlara!
Bu işdə səy-zəhmət həm qoyanlara!
Əlhəmdü lillahi Rəbbil aləmin**.**
Amin.

**Son söz**

***Rəhman və Rəhim Allahın adı ilə***

Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
İnsanlıq hamının məhz nemətidir.
Saçdığı nurudur, qiyafətidir!
Bu vergi hər canın hədsiz nəfidir,
Yerin də, Göyün də o, əşrəfidir!!
Məhz ona ayrılıb tarixi möhlət,
Qiyamət günü də qoyulub son hədd
Ki, Yerdə Behiştlik yarada, qura,
Xəlifə sayıla, qulluqda dura!

Həm aça mənsubluq hər imkanını,
Həm yapa özünə pay məkanını!!
Cəhalət döndərmiş onu hədəfə.
Kamillik yol verməz bu ağır səhvə
İnşaallah!
Hər hikmət və qüdrət sahibi - Allah
İnadın, qayğınla məhz inşaallah
Haqların haqqına sadiq qalanda,
Hidayət, riayət tam qavrananda,
Ümumi yüksələn təfəkkürümüz,
Hər işdə toplanan təşəbbüsümüz
Həm dinin, həm elmin nailiyyətin
Cəmiylə yapanda fəaliyyətin;
Yığıb hər sahədə atılmış daşı,
Tanısaq simanda sadiq sirdaşı
Ki, Sənsən nümunə, ibrətgahımız,
Əbədi, müqəddəs bir Allahımız,
Hər xalqa yol açar səyi dəmadəm
Saf, təmiz o əsrə qoymağa qədəm!
İnşaallah.
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı!
Ən fitri idraka, zəkaya, elmə,
Ən yüksək şüura, təfəkkür, helmə,
Ruhlara xas olan həyata, ömrə
Və mənsub olsaq da ən gözəl dövrə
Gərəkdir idarən həm nəzarətin,
Keçmişin etməsin təkrar xilqətin!
Qoruna səcdəmiz, ibadətimiz,
Bunlarla bağlanan səadətimiz!!
Nə Cahan görməyə fəlakətləri,
İnsana nalayiq hərəkətləri!

Nə pozğun əxlaqı, çirkin əməli
Ola son imkana xitam verməli!!!
Əstafurullah.
Ey ulu Tanrımız, ey Pərvərdigar,
Sənə tən, müqəddəs, pak kimimiz var?!
Hər səyin yönəlib rifahımıza,
Məhz inam artsa da sabahımıza,
Bəşərin bu həyat tərzilə hələ
Bənzər bu xəbərlər əfsanələrə!
Bilsin Yer üzündə olan millətlər,
Qalarsa keçilməz sədlər, sərhədlər,
Qurmasaq ən möhkəm birliyimizi,
“Cəhənnəm“ haqlayar burda da bizi!
O seçməz, ayırmaz yaxşını, pisi.
Amansız məhv edər hər cinsi, irsi.
Mənəvi həm maddi o çəkər dağı,
Ölçülməz ziyanın ucu-bucağı.
Əstafurullah
Kaş, Yerə qəzəbin tökməmiş Göylər,
Çəkilən zəhmətlər getməmiş hədər,
Şəksiz o Varlığın qəbul oluna,
Yer, Göy tək sığına bəşər nuruna!!
İnşaallah.
***
Təlim və təhlildə eləsək səhvi,
Ey ulu Rəbbimiz, dilərik əfvi.
Sənsən həm dinimiz, etiqadımız,
Varsan ki, əminik var imdadımız!!
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin.
İlahi, amin.

**XİTAB**

***Rəhman və Rəhim Allahın adı ilə***

***...Şübhəsiz ki, Quranı Biz nazil etdik...Biz də onu qoruyub saxlayacağıq!.." "...O (**bəşəriyyətə Qiyamətəcən göndərilən**) doğru yolu göstərən bir rəhbərdir!.." 15-9; 45-15; Quran-i Kərim.***

Ey ulu Tanrımız, ey Pərvərdigar
Sənə tən, müqəddəs, pak kimimiz var?!
Xaliqsən, hər bir can əmanətindir.
Varlığın xəlqinə zəmanətindir.
Sənsən bu varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı!
Hər şeyin yerini eləyən təyin.
Dayağı xeyirxah zəhmətin, səyin.
Sahibi hər elmin, ağıl-kamalın,
Bərəkət-nemətin, izzət-calalın.
Ən həlim, mülayim, mədəniyyətin,
Ən mütləq mərifət, səlahiyyətin.
Haqların-haqqısan, uğurlar-uğru,
Əməli salehsən, xeyirxah, doğru.
Hər qəlbin şəfqətli həbibi Sənsən.
Hər dərdin ecazkar təbibi Sənsən.
Daima möhtacıq kəramətinə,
Mərhəmət rəhminə və rəhmətinə!
Yox Sənə bərabər nəzərimizdə,
Ölçüsüz haqqın var üzərimizdə!
Gündə min can növü dirçəldir zəkan,
Verir bu hünərin həyata təkan.
Nə yaxşı qoruyur xofun, həyanın
Varlığın əyani cənnət məkanın!
Əlhəmdü lillahi Rəbbil aləmin.
**Ey insan** axırsa damarında qan,
Hikmətlər hikmətin çıxartma yaddan!

Allaha bərk sığın tez ucalarsan.
Rəbbindir, öyrədər kamil olarsan.
Açar öz sirlərin yapdığı heyhat
Təbabət, təbiət, və ilahiyyat.
Tövsiyə, təlimin beyninə cəmlə,
Cəhalət yağıdır et ona həmlə!
Bil, dayaq nöqtənsə o Pərvərdigar
Yeri də yerindən çevirmək olar!
**Din Ona məxsusdur**, şübhə yox buna!
Var hava, su kimi ehtiyac ona.
O bizə gərəkdir, zəruri haqdır,
Hər cana mənəvi, maddi dayaqdır!
Göyün də, Yerin də yeddi qatında
Nə varsa verəndir hesabatın da
Bir Rəhman Rəhim-ə Yaradanına -
Qiyamət gününün Hökmdarına!!
Ucadan ucadır o müqəddəs ad.
Haqq-hesab çəkəndir! Verməz hesabat!
Çünki, tam ixtiyar sahibidir bir.
Dünyalar, varlıqlar yapmağa qadir
Allahdır əbədi, xilqəti çoxdur.
Müqəddəs və təkdir şəriki yoxdur!!
Ölçülməz qüdrəti, gücü - Qalibdir.
Göylərə, Yerlərə sahib - Xaliqdir.
Yapdığı xilqətdən tən tutma Ona,
Körpə tək sığınıb Yer, Göy nuruna!!
Onunla bağlıdır aqibətimiz,
Qiyamət günümüz, axirətimiz!
Hər hökmü, tədbiri qayğıdır bizə,
Ən düzgün qiymətdir əməlimizə.
Kəramət rəhminə gətirsək pənah,
Hər mümkün bəladan qoruyar vallah!
İnşaallah.

Əbədi sahibi bu kainatın,
Ən ali hakimi mövcud həyatın.
Hədsizdir qüdrətin, səlahiyyətin
Lakin hər təlimi ilahiyyatın
Tədbirli, təmkinli qayğınla Sənin
Çevrilir malına hər bir bəndənin!
Həm edir qulluğu uyğun yaşına,
Müstəqil davranış, qavrayışına.
Misilsiz gücün var, cəsarətində,
Könülsüz yox bir can itaətində!
Şükür və təriflər bu sayğınadır,
Var-yoxa yanğınla həm qayğınadır!
Məsləhət, tövsiyə və təlimlərin
Diliylə peyğəmbər və alimlərin
Yetir ki, qayıdaq doğru yoluna,
Hər yanda riayət daim oluna!
Hamıya aiddir, qoymayır fərq də
Cənubda, Şimalda, Qərbdə və Şərqdə.
Mənəvi paklığa layiq əxlaqı,
Səxavət, adillik, ədalət, haqqı
Və vacib şərtlərin insaniyyətin
Əsası eləyək hər cəmiyyətin!
Bərqərar oluna əmin-amanlıq
Həm maddi bir bolluq, həm firavanlıq.
Birlikdə yaradaq, yaşadaq hər an,
Əl çəkək bu kəskin qarşıdurmadan!
Keçilməz sərhədlər, nə sədlər qala,
Dövlətlər, millətlər dost-qardaş ola!
Bir daha səhvləri etməyək təkrar,
Deməyək: - Şeytanın günahı tək var.
Min bir don geydirsək günahımıza,
Sirr deyil, bəllidir Allahımıza!

Qurd olub geysək də quzu dərisin,
Görəndir, biləndir alarıq dərsin!
Bunu həkk eləyək yaddaşımıza,
Kafirlik açmasın dərd başımıza!

Ey bizi yaşadan, kamilləşdirən,
Ən ali kürsüdə həm əyləşdirən.
Kim bizi bizdən çox olur çaşdıran?
Fəlakət gününü yaxınlaşdıran?!
Gör, heç fərq qoymayıb kimliyimizə,
Soyuqluq yeriyib iliyimizə.
Cahanı qayğısız soyub talarıq
Sanki bu varlığa düşmən-yadlarıq!
Əstafurullah.
Qurşandıq hər cürə haram işlərə,
Bu dönüb adət tək pis vərdişlərə!
Bəd nəfsin, yalan, zor, hiylə aləti
Hər yanda yaydıqca hey səfaləti
Pozulur varlığın həyat ahəngi
Çalınır ümumi fəlakət zəngi.
İradən oyada kaş ölkələri,
Kaş bəşər dəf edə təhlükələri!
Ayılda hər xalqın hökumətini
Dərindən duyalar bu hikmətini:-
Hər nəslin payına, əmanətinə,
Tapılmaz bəraət, xəyanətinə!
**1.** Ağıllar məhsulu, əsəblər qıza
Qadirdi son qaya həyatımıza.
Amansız odunda hamı qovrular.
Var-yoxlar bir anda göyə sovrular!
Fəlakət seçməyir yaxşını-pisi,
Kökündən məhv edər hər cinsi-irsi!

Mənəvi həm maddi o çəkər dağı,
Ölçülməz ziyanın ucu-bucağı.
Dəhşətli səfalət yayar vərəmi.
Zəlillik, rəzillik basar aləmi!
İnsanlıq itirər nailliklərin,
Büsbütün zəhmətin min illiklərin!
**2.** Dəhşətli fəlakət əlamətləri
Vüsətlə bürüyür bütün elləri!
Unudur aləmi bulandıranlar,
Fəlakət məşəlin odlandıranlar.
Çirkabın ödənci bahadır-baha.
Hamını o həsərt qoyar sabaha!
Ya pozğun əxlaqı, çirkin əməli
Olar bu xilqətə xitam verməli!
Fərdi ya ümumi verilər cəza
Vaxtında, yerində baş verər qəza!
«**Quran**»da hikmətlə çox xilqətlərin
Açır tən, örnəklik aqibətlərin!
Bu hökmü mələklər edərlər icra,
Örnəklik dərs olsun həm qalanlara!
İnsanın nalayiq hərəkətləri
Yaradar hər cürə fəlakətləri!
Əstafurullah.
**3.** Bilsinlər! Hökmündən bir qüvvə çıxmaz.
Tufanlar ya sellər dağıtmaz, yıxmaz.
Şimşəkdən nə yanmaz meşələr, evlər.
Və qeyri bəlalar görməzlər ellər!!
Bunların mənasın bəşər anarsa,
İmana gələrsə yararlanarsa
İnamla sığınar bir Allahına!
Ümidlər üzülməz nə sabahına.
Hər bir can yaşayar yeddi dövrünü,

Xeyriylə bəzəyər ötən ömrünü!
İnşaallah.
Bunu həkk beyninə etsin hər qamət,
Fəlakət deyildir, Haqqı-qiyamət!
Azğınlar fəlakət sayırlar onu,
Qorxutsun hamını həyatın sonu!
Qırsınlar inamı, ümidimizi.
Fanilik həmdəmi eləsin bizi.
Əstafurullah.
İlahi, bəs kimin zəkası, helmi
Ya kamil süuru, bəsirət elmi
Tam açar Qiyamət dövrün sirlərin?
Oyadan həyacan, qorxu hisslərin?!
Səmavi kitablar fövqündə duran,
Vəhyinlə yetirir müqəddəs «Quran»,
Bizə vaxt ayrılıb Qiyamətəcən!
Hökmünlə önündə olacağıq cəm.
Həzrəti İsrafil suru çalanda,
Bu dağlar düzlərə döndüyü anda
Onurğa sütunun ilk düyünündən
Qalxacaq hər bir can rüşeyimindən!
Sadiqsən hökmünə həm iradənə!
Məntiqlə yanaşsaq hər bir ayənə;
İşimiz zəfərlə tamamlanarsa,
Həvalə olunan haqq canlanarsa
Hər nəslin, hər kəsin son hesabatı
Bəxş edər mənsubluq ona həyatı!
Əlhəmdü lillahi Rəbbil aləmin.

O günün (!) hər mömün duyur xofunu,
Keçirir sevinclə birgə qorxunu!
Sevinir ki, qalmaz yerdə qanımız!

Həm verir üşütmə həyacanımız.
Ki, təyin olunan yaxşı-pisimiz,
Əxlaq və nəfsimiz, duyğu-hissimiz
Ölçülən dəyərlə uzlaşacaqmı,
Xeyiri-ziyanın məhz basacaqmı?!
Bəs bayram deyilmi-Qiyamət günü?!
Hər bir kəs təmasda dinlər hökmünü;
Fəzilət-izzətin, hədsiz şəfqətin,
Kəramət  mərhəmət rəhim-rəhmətin,
Ən gözəl hisslərin, xasiyyətlərin,
Ən ali, ən təmiz ad-sifətlərin
Sahibin, müqəddəs, pak xeyirxahı
Hamı hey görməyə can atıb axı!!
Əfsus ki, qalxmağa məhz hüzuruna
Yığılan günahlar yol vermir buna.
Bismillahirrəhmanirrəhim…
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Əbədi illərə təndir bir anı,
Odur hər möhləti məhz ayıranı!
Hamını çəkəndir öz haqq yoluna.
Körpə tək sığınıb Yer, Göy nuruna!
Əlhəmdü lillahi Rəbbil aləmin.
«**Quran**»da hikmətlə yetirir bunu
O, qeyri-adi bir gün (!) olduğunu.
O günü (!) dərk edər cəmi bəşərin
Həyatın mənasın, ömrün dəyərin!
İlahi, o günü (!) qeyri-adi gün
Görəcik zamanın ən sabit dövrün!
Bayramdır diriyə, ölənlərə də,
Cəhənnəm əzabın görənlərə də
Verilər dincik o Qeyri-adi gün!

Hər işi mələklər görcək bütün.
Yapılar təmizlik, səliqə-sahman
Sanki, Ərş enibdir bu Yerə haman!
Sonsuz bir möhtəşəm meydan qurular,
Hesabat verənlər ora buyrular!!
Ağ sadə geyimdə can-camalıyla,
Nəsliylə, irsiylə tam kamalıyla.
Tül pərdə çəkilər üzü önündə,
Göstərsin anbaan bütün ömrün də!
Tam açsın məntiqli ziyanın-xeyrin
Həm uyğun dövrünə tutduğu yerin.
Göstərsin imanın bu getha-getdə
Və olub nəfsiylə hansı xidmətdə?!
Nə qədər yüksəldib insani irsin?
Nələrlə yükləyib nəslin, varisin?!
Kimlərlə kökünü o birləşdirib?
Nələrlə daxılı zənginləşdirib?!
İnşaallah.

O günü (!), bu qeyri-adi bir günü
Bir Allah verəcək ancaq hökmünü!
Dinləyib Şeytanın məlumatını,
Hər nəslin, hər kəsin hesabatını
Həm uyğun dövrünə, təyinatına,
Həm maddi-mənəvi təminatına!
Hissimiz ədaya dönər ya dərdə,
Əməllər edəndə qazancın əldə.
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində.
İnşaallah.
O günü (!), bu qeyri-adi bir günü
Bir Allah verəcək ancaq hökmünü!

Hər mömün həsrətlə gözləyir bunu;
Haqqın tam zəfərin, öz uğurunu!
Əhsən və təriflər yağar adına.
Bu, fəxri təltifdir bütün zatına!
Olarlar sakini əsl Cənnətin.
Duyarlar dəyərin o səltənətin,
Hər tədbiq etdiyi möcüzəsiylə
Allahın vədinin iradəsiylə!
İnşaallah.
O günü (!), bu qeyri-adi bir günü
Bir Allah verəcək ancaq hökmünü!
Hər kafir dönəcək ərimiş muma!
Ölüm yox qurtuluş diləyə-uma.
Sol ələ dəftəri verilənlərə
Hər yandan min lənət yağdırar hərə!!
Rişxənddən mənliklər göyə sovrular.
Vücudlar qaralar, yanar, qovrular.
Əl-ayaq zəncirlər əməl şələsi.
Yayılar hər yana şüvən-naləsi!
Allah bizə göstərməsin.
**Ey insan** itirmə bu imkanını!
Unutma bəd nəfsin son məkanını.
Vaxtında əl tutsaq bir-birimizə,
Döymərik nə başa, nə dizimizə!
Hər dövrün keçərdik sərt sınağından,
Düşməzdik didərgin Cənnət bağından.
Qiyamət deyilən günümüz bir baş
Hamının bayramı olardı. Qardaş,
Allahın doğrultsaq etimadını,
Adəmin qorusaq şərəf-adını!
Qanunlar, qaydalar ümum yaransa,
Bu Yerdə Behiştlik əgər canlansa,

O günü (!), bu qeyri-adi bir günü
Məhz hamı bəxtəvər duyar özünü!
Dönərdik uğurlu səfərə görə
Ümidlər həsrətlə bağlanan yerə!
Mələklər edərdi pişvazımızı,
Hurilər çəkərdi hər nazımızı!
İnşaallah.
Təkamül dövrün ən kamil kitabı
Hər nəslə, hər xalqa edib xitabı!
Adıyla bağlayıb hər ifadəsin,
Vəhyilə yetirib bir-bir ayəsin,
Hər bir kəs önündə görsün Rəhbərin
Və ona sığınıb çalsın zəfərin
Ki, yetsin hər kəsə göndərdiyi həb!
Bilsinlər ilahi nə edir tələb?!
Möhləti, imkanı verib hər nəslə,
Şərait yaradır O, hansı əsrə?!
Bağlayıb köküylə şüur, zəkanı,
Tərəqqi və elmə verir təkanı.
Bərkidib ümidi, açır imkanı
Və çəkir ən doğru yola insanı!
Qadirdi dəyişə vaxtı, məkanı
Şəriət nurunun ədəb-ərkanı -
Hər canlı varlığa aid «**Quran**»ı!
Təkamül dövrün ən kamil kitabı
Hər nəslə, hər xalqa edir xitabı:-
Əbədi Cənnətə düş imanınla,
Xeyirxah əməllər və kamalınla
Hər tədbiq etdiyin möcüzəsiylə,
Allahın vədinin iradəsiylə!
Qiyamət deyilən o günümüz kaş
Hamının bayramı olaydı, qardaş!

Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
Hər səyin yönəlib rifahımıza,
Bərkidir inamı sabahımıza.
Çağrışa geydirib müasir donun,
Səsinə səs verdin «Xaliq»lə onun!
Açıla hər xalqın bəsirət gözü,
Ayılıb silkinə günahdan özü!
Oyada iradən bu ölkələri
Ki, bəşər dəf edə təhlükələri!!
İlahi, amin.
Fəlakət seçməyir yaxşını-pisi.
Amansız məhv edir hər cinsi-irsi!
Fəlakət deyildir Haqqı-qiyamət!
Bunu həkk beyninə etsin hər qamət!
Nə qədər pak əli çiynimizdədir
Güclüyük, gücü hər birimizdədir!
Ümumi səylərin cəmiylə ancaq
Bərqərar olunar buyurduğu haqq!
O qeyri-adi bir günümüz də kaş
Hamının bayramı olaydı qardaş!!
Nə çəkək işgəncə, əzab-zülümü,
Nə bilək intizar, həsrət, ölümü!
İnşaallah.
Nəhayət dilərik yaşayaq burda.
İlahi salmasın dəhşətli oda
Ki, bizdən qurtarsın canın aləmin.
Əstafurullah.
Daha da kamilin yapsın Adəmin!
Çalışaq batmasın ləyaqətimiz,
Vəzifə borcuna sədaqətimiz!
Əlhəmdü lillahi Rəbbil aləmin.

## ÇAĞIRIŞ
***Rəhman və Rəhim Allahın adı ilə***

**1.** Sən Allahın əvəzsiz bir rəsulusan, **ey insan**!
Yaradandan varislikdir ləyaqətin, bu ad - san.
Əgər viran olsa Cahan, bərpa olmaz çox asan.
Oyan! Varlıq səndən dilər amanı bu günündə.
Qalx! Andımız, borcumuz var məhz Allahın önündə!

***

**2.** Bu Kürənin sahibisən, səadətin ondadır.
Sərvətləri tükənməzdir, ruzisi hər yandadır.
Nə qədər ki, qüdrətinlə qadirliyin candadır
Oyan! Doğrult etimadı, inamı bu günündə.
Qalx! Andımız, borcumuz var məhz Allahın önündə!

***

**3.** Bu Kahanda odur bircə doğma Vətən bizlərə!
Ondan idrak-duyğuları, aldıq həm güc dizlərə.
Məhz çəkməyə qayğısını verilib nur gözlərə,
Oyan! Qızdır himayənlə Cahanı bu günündə.
Qalx! Andımız, borcumuz var bir Allahın önündə!

***

**4.** Ey Cahanda min illərlə təmsilçisi Allahın.
Hakimisən varlıqların, carçısısan sabahın.
Tükənməzdir imkanların, iradəndir silahın.
Oyan! Görsün tam ayılıb, imanı bu günündə!
Qalx! Andımız, borcumuz var məhz Allahın önündə!

***

**5.** Allahın haqq-ədaləti təməlidir həyatın.
Şamil etsək nizamlayar intizamın hər qatın!
Yeganə pak həqiqətdir, alınmazdır o satın.
Oyan! Batsa qara geyər hər anı bu günün də!
Qalx! Andımız, borcumuz var məhz Allahın önündə!

***

**6.** Milli, dini ədavətlər sarsıdıb Yer üzünü.
Odlandırır cəhalətin, səfalətin közünü.
İlahinin ey müsəlləh əsgəri de sözünü.
Oyan! Hünər, sədaqətdir ad - sanı bu günün də!
Qalx! Andımız, borcumuz var məhz Allahın önündə!

***

**7.** La ilahə illəllaha, o Allahu əkbərə,
O Tanrıya, Yaradana, o Rəbbinə, Rəhbərə,
Məhz qulluğun həyatadır, varlığadır, bəşərə.
Oyan! Göstər rəşadətli vəfanı bu günüdə.
Qalx! Andımız, borcumuz var bir Allahın önündə!

***

**8.** İnsanlığı ucaldaq ki, nailliklər itməsin!
Bu aləmdə fəlakətlər hökmranlıq etməsin!
Niyyətlərlə dolu həyat faciəli bitməsin.
Oyan! Qoru kamalınla məkanı bu günündə.
Qalx! Andımız, borcumuz var məhz Allahın önündə!

***

**9.** Peyğəmbərlər tərəfindən xəbərdardır bu bəşər,
İdrak, şüur dəyişməsə böyük bəla yetişər.
İndi birlik zəruridir, bax qapını döyür şər!
Oyan! Sınaq haqlayıbdır insanı bu günündə.

Qalx! Andımız, borcumuz var məhz Allahın önündə!

***

**10.** İlahinin nə qədər ki, çiynimizdə əli var
Rəsuluyuq, alınmayıb səlahiyyət, ixtiyar.
Hüququmuz, səyimizdir yaşamağa bəxtiyar.
Oyan! Qoyma nəzarətsiz dövranı bu günündə!
Qalx! Andımız, borcumuz var məhz Allahın önündə!

***

**11.** Dinimiz bir çağırışdır-insanlığa insanı.
İnsaniyyət-yaşatmaqdır, qorumaqdır hər canı!
Bu ali bir məsuliyyət verib hədsiz imkanı.
Oyan! Çatmış xariqələr zamanı bu günün də.
Qalx! Andımız, borcumuz var məhz Allahın önündə!

Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin.
Amin.

## IX Fəsil
## YAS MƏRASİMLƏRİ
### AÇILIŞ

***Rəhman və Rəhim Allahın adı ilə***

***İlahi, bizi tərk etmiş peyğəmbərlərə, nəbilərə, imamlara, əməli saleh, xeyirxah niyyətli kəslərə-alimlərə, ziyalılara, müctəhidlərə, şəhidlərə, seyidlərə, qəriblərə, kimsəsizlərə, qohumlara, yaxın qonşu və dostlara, məsləki, dini bir bacı-qardaşlara rəhmət et. Yerləri Behiştlik olsun. Ruhları şad olsun.***

***Niyyətimiz***: Böyük ürək ağrısı ilə (mərhumla)* vidalaşmaqdır. İlahi, onun o aləmini təmin et. Ona rəhmət et.

**1.** Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Allahu əkbər!..Əşədü ən la ilahə illəllah.
Əşədü ən nə Muhammədən (təzim edib)
Rəsulullah (deyilir).

Ey ulu Tanrımız, ey Pərvərdigar,
Sənə tən, müqəddəs, pak kimimiz var?!
Hər səyin yönəlib rifahımıza,
Bərkidir inamı sabahımıza.
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Bir Sənsən bəşərin ümid, pənahı,
Bilən dərd-sərini, yuyan günahı.
Əlində ömrümüz, aqibətimiz,
Qiyamət günümüz, axirətimiz!
İlahi, dilərik kəramətini,
Mərhəmət rəhmini və rəhmətini.

Kim sığınmır qalana?
Ömür verib alana?!
Əbədi bir örnəksən
Hər gedənə, qalana!

Həyatda hər bir kəs əmanətindir,
Varlığın xəlqinə zəmanətindir!
Himayən hər nəslin olub həyanı.
Bir Səndən umuruq ömrün hər anı.
Ölüm bir haqdır ki, yox ona tədbir.
Dərdimiz böyükdür ver təmkin, səbir!
Yüksələ insanın Ərşə ah-vayı
Yetən yox imdada Səndən savayı.
Ən çətin anında ümidi yenə
Qırılmaz tellərlə bağlıdır Sənə!
Bir Sənsən eşidən fəryadımızı.
Və Səndən dilərik imdadımızı.
(Mərhumun) aləmdə qalanlarının
Və yada hörmətlə salanlarının,
(Bu hüznə)* yığılan soydaşlarının,
Yas tutan bacı və qardaşlarının
Təzimlə... (təzim edib) önündə surətlərinin,
Peyğəmbər Məhəmməd Həzrətlərinin
Adından dilərik lütfən amanı,
Rəhminə hamının vardı gümanı.
Qəbul et, ruhunu pak məkanına.
Həyan ol, Cahanda hər qalanına!
Allah, yas əhlinin harayına çat,
Himayən yetirsin təskinlik, nicat.
Allahumməsəlli əla Muhamməddin
Və ali Muhamməd.

**Fatihə**

--------------------------------------
---------------------------- oxunur.

Allah rəhmət etsin.

**Bismillahirrəhmanirrəhim**
**Əlhəmdü lillahi Rəbbil aləmin…**

Rahatlıq tapmayan burda canına,
Sığınan sehirli o məkanına.
Əl çəkən Cahanın naz-nemətindən,
Ən əziz əhlindən hər niyyətindən.
Hər şəhid olanı, fədailəri,
Qərib bu qürbətdə susan dilləri.
Həyatda kam alan, almayanı da,
Layiqli iz salan, salmayanı da,
Görməyən, tökülən göz yaşlarını,
Dillərin fəryadın, ahu-zarını.
Görməyən, sarsılmış doğma canları,
Görməyən nə tutqun bu camalları;
Tükənməz sahibi ey mərhəmətin
Hər vəfat edənə çatır rəhmətin.
İzn ver, ömrünü bitirənləri,
Pənah o aləmə gətirənləri
Ehtiram, hörmətlə bir an yad edək,
Onların ruhuna səlavat deyək.
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

**Bismillahirrəhmanirrəhim…**
İlahi, möhtacıq kəramətinə,
Mərhəmət rəhminə və rəhmətinə.
Xəlqinə bu hədsiz qayğın, amanın
Günbəgün artırır mövcud imanın.
Hər əziz bəndənə yetsin salamın,
Rəhmətin çin etsin mənsub məramın.
Hər biri unutsun narahatlığı
Tapsınlar əbədi bir rahatlığı!
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd
Allah cəmi ölənlərimizə rəhmət eləsin.
Allah köməyimizə yetsin.

## VİDALAŞMA

***Rəhman və Rəhim Allahın adı ilə***
***Mövcud adət və ənənələrə tam riayət ətməklə!***

Allahuməsəlli əla Mühəmmədin
Və ali Muhamməd
Allahu əkbər!.. la ilahə illəllah
Rəhmanlı rəhimli ey qadir Allah,
Bir Sənsən sahibi bu kainatın.
Ən ali Hakimi mövcud həyatın.
Büsbütün varlığın yaradanısan,
Gözünün nurusan, gücü, canısan.
Bəlalı xəlqindir üz tutan Sənə.
Vaxtında hər kəsə əl yetirənə.
İlahi, ağırdır itgilərimiz.
İtir hey əvəzsiz incilərimiz.
Ürəklər ağrıdan, dərddən oyulur.
Hər köçən bəndənin yeri duyulur.
Canım, gözüm ay hanı,
Ümidimin həyanı?
Ay camaat, yanğınım
Qurudar bir dəryanı!
Canım, gözüm ay hanı?!
Bu an dərd, bəladır ötürənlərə.
Bundan pay götürür kədərlə hərə.
**İlahi, rəhim et,** doğma canlara.
***Rəhim et,*** həm tutqun bu camallara!
***Rəhim et,*** yas tutan soydaşlarına.
***Rəhim et,*** cəmi din qardaşlarına!
***İlahi, rəhmət et*** (bu bəndənə) Sən.
Qoy ruhu şad olsun mərhəmətindən.
Unutsun çəkdiyi narahatlığı
Və tapsın əbədi bir rahatlığı.

Mərhumun varsa, keç günahlarından.
Məhrumdur ən gözəl O, anlarından.
Sevindir ruhunu mərhəmətinlə
Və et, o aləmdə hifz rəhmətinlə.
Torpağa tapşırsaq şux qamətini
Əskiltmə nəslindən kəramətini.
Heç kəsi duymasın tənhalığı, məhz
Himayən eləsin gedəni əvəz.
    Bəd xəbəri alan bilər.
    Belə dərddə yanan bilər.
    Bu dözülməz bir ağrını
    Məhz (atasız) qalan bilər!
İlahi, halisən dərd-sərimizdən.
Əskiltmə nəzəri üzərimizdən.
Nə bəla gələrsə məhz xəlqinə, ilk
Müqəddəs Varında tapar təskinlik.
Hər nədən, hər kimdən görsək yamanı
Bir Səndən dilərik möhlət, amanı.
    Yüksəlir Ərşə ahlar.
    Ürəklər qan-qan ağlar.
    Ayrılıq fəryadına
    El, oba qara bağlar.
İlahi, həyan ol, könülləri al.
Dözülməz ağrıya vaxt çəkər sığal.
Dərdinə təskinlik tapar hər bəndən
Umduğu köməyi görərsə Səndən.
Qərar və hökmünə sədd yox heç yanda,
Burda həm neçə min sirli Dünyanda.
Pozulmaz yazıdır ilk xeyir-duan,
Bu sirli məntiqlə püxtləşir can.
Yoxsa tam itirər həyat mənasın,
Dirilik təməlin, abi-havasın.

Hər ruha münasib yapdığın bədən
Varlığın olubdur məhz təmsil edən.
Keçirib hesabsız min illiyini,
Göstərir fəaliyyət, qabilliyyini.
Cahandır məhsulun, canlılar qulun.
Hər insan nəslidir ilkin Rəsulun!
Ölçüsüz qüdrətə qadirdi, güman
Kamil bir can ikən, bir Səndən uman
Çəkərsə əzablar, hey narahatlıq,
Aləmin dəyişir tapsın rahatlıq.
Yox aləmə gələn hədər,
İzi qalar, özü gedər.
Kim bilir, bu, qismətinə
Nə vaxt düşər, harda yetər,
İzi qalar, özü gedər?!
Verdiyin ən uzun o ömür hanı?
Bu fikir sarsıdır çoxdan insanı.
Ölüm bir haqq olub yox ona tədbir.
İtkimiz var bizə ver təmkin, səbir.
Yüksələ insanın Ərşə ah-vayı
Yetən yox imdada Səndən savayı.
Ən çətin anında ümidi yenə
Qırılmaz tellərlə bağlıdır Sənə.
İlahi, əbədi yatanlarını,
Və ağır sükuta batanlarını
Nə qədər etsək də vaxtaşırı yad,
Sən edə bilərsən ruhlarını şad.
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...
Aylar, illər dolana,
Sığınırıq qalana.
Bir nemətdir rəhmətin

Hər gedənə, qalana!
Bir daha dilərik Səndən amanı.
Sən ol, o aləmdə (onun) həyanı.
Adilsən, bağışla bir bəndən kimi
Bilib ya bilməyib etdiklərini.
Vardırsa, bağışla günahlarını.
Rəhmətin eləsin rahat varını.
Qəbul et, ruhunu pak məkanına.
Həyan ol, Cahanda hər qalanına.
Allah, yas əhlinin harayına çat,
Himayən yetirsin təskinlik, nicat.
(Mərhumun) ruhuna göstər mərhəmət.
Sən vəfat edənə məhz elə rəhmət!
Unutsun çəkdiyi narahatlığı
Və tapsın əbədi bir rahatlığı.
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd

**Fatihə**

------------------------------------------
---------------------------------- oxunur.

Allah rəhmət etsin.
Allah köməyimizə yetsin.

Səlavatlar...

## VİDA NAMAZI

***Rəhman və Rəhim Allahın adı ilə***

***Niyyətimiz***: Dini bir (mərhumun) o aləminin təminliyi naminə, adından son vida namazını qılmaqdır inşaallah.

Namaza hazırlığın və namazın tam mövcud şərtləri ilə və ya istəsəniz bu qaydada: Ən azı təzim 3-5, səcdə 5-7 saniyə qılmaq məsləhətdir.

***Niyyətimizin ərzi:*** İlahi, bəxş etdiyin sağlıq və əmin-amanlıqla iradənə arxalanıb, Sənə sığınıb mərhuma xatir bu vacib son vida namazını (onun) adından qılırıq inşaallah.

Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

**Fatihə**

-------------------------------------------
---------------------------------- oxunur.

**1.** Allahu əkbər!.. (ayaq üstə təzim edib)
Allahu əkbər!.. (çöküb səcdə qılıb, diz üstə durub)
Əşhədü ən la ilahə illəllah.
Əşhədü ən nə Muhammədən... (təzim edib)
Rəsulullah (deyilir).
Allahu əkbər!.. (səcdə qılıb, diz üstə durub)
Allahu əkbər!.. (təzim edib, ayağa durub)
Əşhədü ən la ilahə illəllah.
Əşhədü ən nə Muhammədən... (təzim edib)
Rəsulullah (deyilir).
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...
İlahi möhtacıq kəramətinə.

Mərhəmət rəhminə və rəhmətinə.
Dini bir (mərhumdan) ayrıldıq daha,
Tapşıraq canın pak, ziyarətgaha.
Tutaraq bu vida dəstəmazını
Adından qılırıq son namazını.

**2.** Allahu əkbər!.. (<u>çöküb səcdə qılıb, diz üstə durub</u>)

Ey bütün bəşərin ümid, pənahı,
Bilən dərd-sərini, yuyan günahı,
Adilsən! Bağışla bir bəndən kimi
Bilib ya bilməyib etdiklərini.
Varsa da bağışla günahlarını,
Rəhmətin eləsin rahat Varını.
Qəbul et, ruhunu pak məkanına.
Həyan ol, Cahanda hər qalanına.
İlahi, amin.

Allahu əkbər!.. (<u>səcdə qılıb, ayağa durub</u>),

Əşhədü ən la ilahə illəllah
Əşhədü ən nə Muhammədən... (<u>təzim edib</u>)
Rəsulullah (<u>deyilir</u>).
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...
Kaş, insan ömründən ölüm silinə,
Ehtiyac qalmaya son mənzilinə!
İndiki, Cahanı tərk edib canı
Sən ol, o aləmdə (onun) həyanı.
Qəbul et, adından son niyyətini.
Qılınan səcdəni, ibadətini.

**3.** Allahu əkbər!.. (<u>çöküb səcdə qılıb, diz üstə durub</u>)

Rəhman və Rəhim Allah adınla (onun) adından son vida namazını bitiririk inşaallah.

İlahi, dilərik ki, (mərhumun) qazancı həmişə o aləmdə sabitliyini təmin edəcək rəhmətin olsun inşaallah.

İlahi, niyyətimizi qəbul et. Mərhumun o aləmini təmin et. Ona rəhmət et. Himayən və qayğın doğma və əzizlərinin üzərindən də əskik olmasın inşaallah.

Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

Əssalamü əleyküm (nəzərlər başımıza...) və rəhmətullahi (nəzərlər sol çiynimizə...) və bərakətuhu (nəzərlər sağ çiynimizə...), Əlhəmdü lillahi Rəbbil aləmin (nəzərlər qibləhə tərəf yönəlir). Amin (deyilir).

- Ya Allah!.. (deyib təzim edib, ayağa durmaq məsləhətdir).

***

***Rəhman və Rəhim Allahın adı ilə***
Tükənməz sahibi ey mərhəmətin,
Hər vəfat edənə çatır rəhmətin.
İzn ver, ömrünü bitirənləri,
Pənah o aləmə gətirənləri
Ehtiram, hörmətlə bir an yad edək,
Onların ruhuna səlavat deyək.
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Allah rəhmət etsin.
Yeri Behiştlik olsun.
Allah köməyimiz olsun!

## ZİYARƏTGAHDA

***Rəhman və Rəhim Allahın adı ilə***

**Girişində**

Alahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Allahu əkbər!.. la ilahə illəllah
Rəhmanlı rəhimli ey qadir Allah.

**1.** Bəlalı xəlqindir üz tutan Sənə -
Vaxtında hər kəsə əl yetirənə.
İlahi, əbədi yatanlarını
Və ağır sükuta batanlarını
Nə qədər etsək də vaxtaşırı yad,
Sən edə bilərsən ruhlarını şad!
Hər mərhum ruhuna göstər mərhəmət.
Hər vəfat edənə Sən elə rəhmət!
Hər biri unutsun narahatlığı,
Tapsınlar əbədi bir rahatlığı!
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Əssalamü əleyküm, əziz soydaşlar,
Məsləki, dini bir bacı, qardaşlar
Allah sizə də, bizə də rəhmətin əsirgəməsin. Amin.

**İlkin mərasimdə**

**2.** Biz (ondan) əbədi ayrıldıq daha,
Tapşıraq canın pak ziyarətgaha.
Allah, yas əhlinin harayına çat,
Himayən yetirsin təskinlik, nicat!
Əlhəmdü lillahi Rəbbil aləmin.

**3.** Tükənməz sahibi ey mərhəmətin,
Hər vəfat edənə çatır rəhmətin.
İzn ver ömrünü bitirənləri,
Pənah o aləmə gətirənləri

Ehtiram, hörmətlə bir an yad edək,
Onların ruhuna-səlavat deyək.
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Cəmi ölənlərimizə Allah rəhmət etsin.
Sən yetir hər kəsə öz niyyətini,
Keçirsin mərasim, ziyarətini!
**Daxildə**
Bismillahirrəhmanirrəhim
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Vəssalamü əleyküm, köçən soydaşlar.
Məsləki, dini bir mömin qardaşlar.
Zəhmətkeş insanlar, sanlı igidlər,
Mirzələr, alimlər, ey müctəhidlər.
Babalar, nənələr, əmi, dayılar,
Seyidlər, hacılar, kərbəlayılar.
Can fəda verənlər, şəhid olanlar
Və bivaxt nəslindən ey ayrılanlar,
Qəriblər, yetimlər, unudulmuşlar,
İntizar, həsrətdə uyub durmuşlar;
Əssalamü əleyküm doğma-əzizlər.
Analar, bacılar, ey gül bənizlər,
Ey ruhu narahat, niskil qalanlar,
Ey bizi Tanrıdan xəbər alanlar,
Niyyətlə gəlmişik ziyarətgaha,
Ey ruhu yaxınlar, o pak dərgaha,
O, bilir məqsədlə amalımızı,
Ovqatı təlx olmuş əhvalımızı!
Adil hökmü olan O,
Canı verən alan O,
Harayına xəlqinin

Həm yetən O, qalan O!
İnşaallah doğruldar ümidimizi,
Bu vacib gəlişlə görüşümüzü.
Təmkinlə bitirib narahatlığı,
Taparıq təskinlik və rahatlığı.
Allaha üz tutub hamılıqla ilk
Diləriк, yeriniz olsun Behiştlik.
Dilərik rəhmini, mərhəmətini,
Əminik, əskiltməz O, rəhmətini.
Ehtiram hörmətlə olunursuz yad
Ki, Allah eləsin ruhunuzu şad.
Onunla bağlıdır bu var-yoxumuz,
Həm sağlam canımız, mətin ruhumuz.
Əlində ömrümüz, aqibətimiz,
Qiyamət günümüz, axirətimiz,
Ona tam məlumdur itkilərimiz,
İtir hey əvəzsiz incilərimiz.
Görürsüz, ürəklər dərddən oyulur,
Sizin də yeriniz daim duyulur?!
**Bismillahirrəhmanirrəhim**
Əlhəmdü lillahi Rəbbil aləmin.
Hər mərhum ruhuna göstər mərhəmət,
Hər vəfat edənə Sən elə rəhmət.
Allah yas əhlinin harayına çat,
Himayən yetirsin təskinlik, nicat.
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Allah rəhmət etsin.
Allah köməyimizə yetsin.
Yerləri Behiştlik olsun.
**Qəbul et,** hər kəsin səy, niyyətini,
Mərasim ilə bu ziyarətini!

## TAPŞIRMA MƏRASİMİ

***Rəhman və Rəhim Allahın adı ilə***

***Niyyətimiz:*** (Mərhumun) pak canın torpağa tapşırmaqdır inşaallah.

***Dəfn mərasiminin mövcud tam şərtləri ilə.***

Əlhəmdü lillahi Rəbbil aləmin.
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd
Allahu əkbər!.. la ilahə illəllah.
Rəhmanlı rəhimli ey qadir Allah.
Bir Sənsən bəşərin ümid, pənahı,
Bilən dərd - sərini, yuyan günahı.
Əminik, bir Sənə - Allahımıza,
Şövqün nur verər bu ocağımıza.
Qərar və hökmünə sədd yox heç yanda!
Burda həm neçə min sirli Dünyanda
Müxtəlif varlıqlar yaradanısan!
Sayəndə dirçəlib yaşayır hər can.
Hər anın hökmünə gətirməyə tab
Hər dildə, dinlərdə Sənədir xitab!
Hər nədən, hər kimdən görsək yamanı
Bir Səndən dilərik möhlət amanı.
İlahi, (mərhumdan) ayrıldıq daha.
Qəbul et, ruhunu o pak dərgaha.
Müfəssəl bilirsən aqibətini.
Dilərik, təmin et axirətini.
İlahi, dilərik kəramətini,
Mərhəmət rəhmini və rəhmətini.
Ölüm bir haqdır ki, yox ona tədbir.
İtkimiz böyükdür, ver təmkin, səbir.
Hər itkimiz balandır,
Ömrü Səndən alandır.

Bu aləmdən köçən o,
Min dərd çəkən qalandır!
Yox qalan kənarda nəzarətindən.
İltifat, lütfündən, o izzətindən.
Hər bir can yaşayır mərhəmətinlə
Və tapır rahatlıq məhz rəhmətinlə!
Sənsən həm dinimiz, etiqadımız.
Varsan ki, əminik var imdadımız!
İlahi, rəhmət et (bu bəndənə) Sən.
Qoy ruhu şad olsun mərhəmətindən.
Unutsun çəkdiyi narahatlığı
Və tapsın əbədi bir rahatlığı!
Torpağa tapşırdıq şux qamətini.
Əskiltmə nəslindən kəramətini!
Nurlandır qaranlıq və dar məzarı.
O mövcud yastığın et yumşaq barı.
(Mərhumun) varsa keç günahlarından.
Məhrumdur ən gözəl o anlarından.
Bu an dərd-bəladır ötürənlərə.
Bundan pay götürür kədərlə hərə.
Verdiyin ən uzun o ömür hanı?
Bu fikir sarsıdır çoxdan insanı.
Əşrəfi olduq hər ziyarətgahın.
Dinlə bu qəlblərin fəryadın, ahın.
Bizə hər itkimiz oturur baha.
Ümidlər qırılır bəzən sabaha.
Ölümü Sən rəva bilmədiyin can
Tapmış bu azarı günahlarından.
Ömrümüz-ölçülməz mərhəmətindir.
Təltifin himayən və rəhmətindir!
Dərdinə təskinlik tapar hər bəndən,
Umduğu köməyi görərsə Səndən.

Dil deməyə sözüm hanı?
Ocağımda közüm hanı?
Bu həsrətli ayrılığa
Allah, bizdə dözüm hanı?
Ey ulu Tanrımız, ey Pərvərdigar
Səndən, yas əhliyik diləyimiz var.
Görürsən, əzizdir itkilərimiz?
İtir hey əvəzsiz incilərimiz.
Görürsən, ürəklər dərddən oyulur?
Bu köçən (bəndənin) yeri duyulur.
Qəbul et, ruhunu pak məkanına.
Həyan ol, Cahanda hər qalanına.
Heç kəsi duymasın tənhalığı, məhz
Himayən eləsin gedəni əvəz!
Aman, gəl bu dərdi çək,
Ya önündə bəndi çək.
Yox həcmi, nə miqdarı,
O tükənməz çəkha çək.
İlahi, həyan ol könülləri al.
Dözülməz ağrıya vaxt çəkər sığal.
Yüksələ insanın Ərşə ah-vayı
Yetən yox imdada Səndən savayı.
Ən çətin anında ümidi yenə
Qırılmaz tellərlə bağlıdır Sənə.
Cahanlar, aləmlər yapan da Sənsən,
Varlığa həyansan məhz xəlq edənsən!
Həyatda kim olub günahsız, səhvsiz,
Ehtiyac görməyib, yaşayar nəfssiz?
Yaşayıb insani ləyaqətilə,
Sənə tam sığınıb sədaqətilə?
Hər işi, əməli olub lehinə,
Səyləri dönməyib öz əleyhinə?

Həm Sənə səmimi təzim, ibadət
Hər yurdda, obada olubmu adət?!
Ey bütün varlığın tale yazanı,
Yaradıb, ram edən sonsuz fəzanı!
Nəfsimiz yaradan şeytana lənət!
Qoymaz ki, qazanaq layiqli rəhmət.
Hər ömrə vəba tək dərd yükləyəndir,
Hər mənfur işlərə sürükləyəndir.
Salınmır bərk bəndə yalan hiyləsi,
Zorundan çəksə də dad əhatəsi!
Sızanaq hovlansa hər-hansı canda
Ağrısı incidir onu hər yanda.
Nəfslə bağlıdır aqibətimiz,
Qiyamət günümüz, axirətimiz!
İlahi, olmayır ziyanımız az.
Mərhəmət və rəhmin yenə azalmaz.
Vay, soldu vaxtsız gülüm,
Qaraldı ömrüm, günüm.
Qovrulub yandı qəlbim,
Sovruldu göyə külüm!
Həyatda hər bir can-əmanətindir!
Varlığın xəlqinə-zəmanətindir.
Rahatlıq tapmayan burda canına,
Sığınan sehirli o məkanına,
Əl çəkən Cahanın naz-nemətindən.
Ən əziz əhlindən, hər niyyətindən.
Hər şəhid olanın, fədailərin,
Qərib bu qürbətdə susan dillərin.
Həyatda kam alan, almayanın da,
Layiqli iz salan, salmayanın da,
İftixar hissilə olunursa yad,
Dilərik edəsən ruhlarını şad.

İlahi, göstərib mərhəmətini
Əskiltmə onlardan Sən rəhmətini.
Əlhəmdü lillahi Rəbbil aləmin.
(Mərhumun) aləmdə qalanlarının
Və yada hörmətlə salanlarının.
(Bu hüznə) yığılan soydaşlarının,
Yas tutan cəmi din qardaşlarının
Təzimlə (təzim edib), önündə surətlərinin,
Peyğəmbər Məhəmməd Həzrətlərinin
Adından dilərik lütfən amanı.
Sən ol, o aləmdə (onun) həyanı.
Allah, yas əhlinin harayına çat.
Himayən yetirsin təskinlik, nicat.
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd

**Fatihə**

-------------------------------------------
---------------------------------- oxunur.

Allah rəhmət etsin.
Yeri Behiştlik olsun
Allah köməyimizə yetsin
**Səlavatlar**...

**Sonluq**

Ən doğma, ən əziz olanlarını,
Yığılıb son yola salanlarını
Himayən qorusun hər bir azardan.
Xatadan, bəladan, mərdimazardan.
Bədnəzər gözlərdən, cadu yazardan.
Sən yetir hər kəsə öz niyyətini!
Qəbul et, səyini, ziyarətini
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

## YAD ETMƏ

**Kişilər məclisində**

***Rəhman və Rəhim Allahın adı ilə***

Əssalamü əleyküm, yaxın soydaşlar,
Məsləki, dini bir mömin qardaşlar,
Babalar, atalar, əmi, dayılar
Seyidlər, hacılar, kərbəlayılar,
Yaxından, uzaqdan sayıb gələnlər
Və zəhmət çəkənlər, kömək edənlər,
Qohumlar, qonşular, əziz qonaqlar,
Məmnunuq mərhuma bu sayğınız var!
… Və rəhmətullahi və bərakətuhu…

**Qadınlar məclisində**

***Rəhman və Rəhim Allahın adı ilə***

Əssalamü əleyküm, doğma, əzizlər,
Nənələr, analar, ey gül bənizlər,
Bibilər, xalalar, gəlin, bacılar,
Seyidlər, möminlər, xanım hacılar,
Yaxından, uzaqdan sayıb gələnlər
Və zəhmət çəkənlər, kömək edənlər,
Qohumlar, qonşular, əziz qonaqlar,
Məmnunuq mərhuma bu sayğınız var!
… Və rəhmətullahi və bərakətuhu…

***Niyyətimiz:*** ( Mərhumu) yad etməklə bir olan Allaha sığınıb təskinlik tapmaqdır inşaallah.

Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

**Fatihə**

------------------------------------------
---------------------------------- oxunur.

**Səlavatlar** (deyilir)

**1.** Allahu əkbər!.. la ilahə illəllah,
Rəhmanlı rəhimli ey qadir Allah.
Ölçülməz qüdrətin, gücün - Qalibsən.
Göylərə, Yerlərə sahib - Xaliqsən.
Bu milyon illəri keçib gəlincə
Nəsillər çıxarıb mühüm nəticə.
Nəhayət əyani duymuşuq bunu
Həyatdan ayrılmaz mövcudluğunu.
Bir Sənsən sahibi bu kainatın.
Ən ali Hakimi mövcud həyatın.
Günəşdən, havadan, torpaqdan, sudan
Xəlqinə Sənsən ən zəruri olan!
Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Qərar və hökmünə sədd yox heç yanda.
Burda həm neçə min sirli Kahanda
Sən, küllü ixtiyar sahibisən bir.
Dünyalar, varlıqlar yapmağa qadir
Allahsan əbədi, xilqətin çoxdur.
Müqəddəs və təksən, şərikin yoxdur!
Xaliqsən-hər bir can əmanətindir.
Varlığın-xəlqinə zəmanətindir.
Varınla varlanır varlıqlar qərəz
Ən varlı Varlıqsan yox Sənə əvəz.
Qüdrətin ölçülməz, təsvir edilməz.
Xəlqinin yolunda maneə bilməz.
Hamının səadət gətirənisən,
Gündəlik ruzisin yetirənisən.
Adınla bağlıdır zəfərlərimiz,
İmdada yetənsən büdrəyəndə biz.
Əlində ömrümüz, aqibətimiz,
Qiyamət günümüz, axirətimiz.

Bir Sənsən dinimiz, etiqadımız.
Varsan ki, əminik var imdadımız.
Əlhəmdü lillahi Rəbbil aləmin.
İlahi, rəhmət et, (bu bəndənə) Sən.
Qoy ruhu şad olsun mərhəmətindən!
Unutsun çəkdiyi narahatlığı
Və tapsın əbədi bir rahatlığı.
İlahi, həyan ol, könülləri al,
Dözülməz ağrıya vaxt çəkər sığal.
Nə bəla gələrsə bu xəlqinə, ilk
Müqəddəs Varında tapar təskinlik!
Adil hökmü olan Sən.
Canı verən, alan Sən.
Harayına xəlqinin
Həm yetən Sən, qalan Sən.
(Mərhumu) bir anlıq gəlin yad edək
Və onun ruhuna səlavat deyək.
Allahumməsəlli əla Muhamməddin
Və ali Muhamməd.
Allah rəhmət etsin.
**2**. Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı.
Sarsılmaz əqidən, kamil idrakın
Daima yaradır hər şeyin pakın.
İnamın dönürsə ömrünə varın,
İnadın artırır saf duyğuların.
Yaradıb varlığı həm öhtənə tək
Götürüb edirsən qulluğu gerçək.
Hər canın harayın məhz anmağınla,
Köməyə müntəzir dayanmağınla
Layiqsən əbədi, hədsiz hörmətə,
Önündə səcdəyə və ibadətə!

Misilsiz gücün var, cəsarətin də,
Könülsüz yox bir can itaətində!
Haqların haqqısan, uğurlar uğru,
Əməli salehsən, xeyirxah, doğru.
Şükür və təriflər bu sayğınadır,
Var-yoxa yanğınla həm qayğınadır!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Sənsiz bir can belə almaz kam nə həzz.
Bu mövcud həqiqət təkzibedilməz.
Xaliqsən gözümüz fərağındadır,
Fikrimiz həmişə sorağındadır.
Sənə sidq ürəklə kim meylin salır
İmana gəldikcə səhvi azalır.
Zülmətdən çıxırsa kim işığına
Dönürsən ömrünün yaraşığına!
İnamla tuturuq pak ətəyindən.
Hər bir an körpə tək umuruq Səndən.
Dilərik rəhim et, doğma canlara,
Rəhim et, bu tutqun gül camallara
Və (onun) təmin et, o aləmin Sən,
Qoy ruhu şad olsun mərhəmətindən!
Aylar, illər dolana,
Sığınırıq qalana!
Bir nemətdir rəhmətin
Hər gedənə, qalana!
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Allah rəhmət etsin.
**3.** Allahu əkbər!..
Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
Rəhmanlı rəhimli, mərhəmətlisən,

Təmkinli, səbirli, kəramətlisən.
Günəşi olmusan bütün xilqətin,
Adillik, paklığın, haqq-ədalətin.
Hər anın nümunə ibrətgahısan,
Varlığın əbədi bir Allahısan!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Bəşərə paydırsa ömür illərin
Cahandır meydanı xariqələrin.
Nə işdən yapışsaq bu məkanında
Hər işlək əlin də, hər zəkanın da.
Dayağı hər şirin diləklərinin
Olursan, nurusan bəbəklərinin!
Hər bir can təmindir bol nemətinlə,
Ən sabit haqqıyla, ədalətinlə.
And olsun, xəlqinə Varlığındır bəs!
Şükür ki, kölgəndə alırıq nəfəs!
Yox Sənə bərabər nəzərimizdə,
Ölçüsüz haqqın var üzərimizdə.
Nə qədər önündə qılsaq səcdəni,
Öyünsək Səninlə, öysək də Səni
Bənzər bir zərrəyə ibadətimiz,
Ölçüyə sığarmı səadətimiz?!
Bismillahirrəhmanirrəhim …
Və edər imtina köməyindən kim?
Hakimi olduğun ömür möhlətdir,
Mülkündə varlığa ayrılan həddir!
Hər bir can yaşaya yeddi dövrünü,
Xeyrilə bəzəyə ötən ömrünü!
Bü ülvi aləmin məkandır bizə,
Sanındır nur verən düşüncəmizə.
Dühandır bəsləyən minlərlə nəsli,
Var ikən varlığın itərmi əsli?!

Hər biri gücünün bir carçısıdır,
İradə, hökmünün icraçısıdır.
İlahi, möhtacıq kəramətinə,
Mərhəmət, rəhminə və rəhmətinə.
Ölüm bir haqdır ki, yox ona tədbir.
İtkimiz böyükdür ver təmkin, səbir.
Pozulmayan yazı var.
İlin qışı, yazı var.
Hər müstəqil bir ömrün
Uzunu var, azı var,
Pozulmaz bu yazı var.
Ehtiram, hörmətlə gəlin yad edək.
(Mərhumun) ruhuna səlavat deyək.
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Allah rəhmət etsin.
**4.** Allahu əkbər! Əşədü ən la ilahə illəllah.
Əşhədü ən nə Muhammədən... (təzim edib)
Rəsulullah (deyilir).
Ey kamil Dünyanı quran, Banisi,
İstedad, idrakın mütləq Dahisi.
Rəbbisən hər elmin, ağıl-kamalın,
Sahibi tükənməz izzət-calalın.
Vəhyinlə xəlqindir məhz yaradanı
“Tövrat“ın, “Zəbur“un, “İncil“, “Quran“ın.
**Din Sənə məxsusdur,** şübhə yox buna,
Var hava, su kimi ehtiyac ona!
O, bizə gərəkdir, zəruri haqdır
Hər cana mənəvi, maddi dayaqdır.
Hər yetən tövsiyə və təlimlərin
Güdür xoş rifahın bütün ellərin!
Zəkalar alırsa nur qüdrətindən,

Götürür gücünü haqq din dinindən!
Musanın, Davudun o həyat tərzi
Və Sənə inamın Bəşərə ərzi.
İsanın çağrışı və faciəsi,
Məhəmməd Rəsulun... (<u>təzim edib</u>)
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Hər bir ayəsi
Dərslikdir dünyanın camaatına,
Gərəkdir insanlıq təlimatına.
Daim var zəruri tələbat buna.
Çəkəndir adillik, haqqın yoluna!
Həzrəti Məhəmməd əleyhissalam
Tərbiyə, təlimli tükənməz kəlam
Bəşərə yetirib iradənlə pay.
Hikmətlər qapısın açıb taybatay
Etdi din, insanlıq elmini hasil.
Müqəddəs "**Quran-i-Kərim**" i nazil
Yazmaqla riayət məramnaməsin,
Pak, ülvi amala döndü haqq səsin!
Zəkası saçdıqca nur ayəsində,
Qüdrətin şövq edir hər kəlməsində.
Elə bir dövranın yapdı təməlin
Yetirsin hamıya mübarək əlin!
Hər nəsil önündə görsün Rəhbərin,
Rəbbinə sığınıb çalsın zəfərin!
Həm olsun mübariz, dözümlü, mətin,
Carçısı, dayağı haqq-ədalətin!
Həm yetsin hər kəsə göndərdiyin həbb,
Ey fitri İstedad, görünməyən Təb!!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Bərkidib haqq-dinə inamımızı,

Tanıtdı ən ali İmanımızı!
Yetirib hikmətlə hər bir buyruğu,
Sənə sidq ürəklə edək qulluğu!
Tərəqqi və elmə verib təkanı,
Bağlayır köküylə şüur, zəkanı,
Bərkidib ümidi, açır imkanı,
Şəriət nurunun ədəb-ərkanı
Qadirdi dəyişə vaxtı, məkanı
Hər canlı varlığa aid «Quran»ı!
Çalış düş Cənnətə pak inamınla.
Xeyirxah əməlin, həm kamalınla
Sən tətbiq etdiyin möcüzəsilə
Allahın vədinin iradəsilə!
İnşaallah.
Mənəvi paklığa layiq əxlaqı.
Səxavət, adillik, ədalət, haqqı
Və ali şərtlərin insaniyyətin
Təməli eləyib İslamiyyətin
Yetirdi, insanın nə edəcəyin
Ki, qursun aləmdə xoş gələcəyin!
Bismillahirrəhmanirrəhim
Əlhəmdü lillahi Rəbbil aləmin...
Hər deyən dillərin canına qüvvət!
O, etdi bu haqqı anmağa dəvət.
Etsək dərk və tətbiq hər vəhyini biz
Məhz icra olunar tam vəzifəmiz!
Və düzgün qaydalar möhkəm yaranar,
Yerdə xoş niyyətlər daim canlanar!
Törədə bilməzdik ağır bəlalar
Sərt, adil tədbirlər qarşısın alar.
Dəf edər qayğılı zəhmət birliyi
Səfalət, cəhalət və geriliyi!

Bulanlıq duyğular, hisslər durular,
Əbədi həmrəylik, dostluq qurular.
Keçilməz  sərhəd nə sədlər qalardı!
Dövlətlər, millətlər qardaş olardı!
İnşaallah.
Bir mərkəz idarə etsə hər dini.
İnsanlıq geyər öz qiyafətini.
Firavan ötərdi həm illərimiz,
Həm razı qalardı varislərimiz.
Ümumi qaydalar məhz yaranardı,
Bu Yerdə Behiştlik həm canlanardı!
Möhtəşəm rifahlı ötsə əsrlər,
Narazı qalmazdı bütün nəsillər!
İnşaallah.
Ey, saysız-hesabsız din-imanlılar
Dünyanın bilirik bir Allahı var.
Adildir, ədalət-haqq sahibidir,
Hər mövcud kahanın pak Rahibidir!
Nə qədər ki, əli çiynimizdədir
Güclüyük, gücü hər birimizdədir!
Tapsa hər qanunda təlimi əksin,
Qorunar hüququ-haqqı hər kəsin!
Olar hər dövlətin qanun rəhbəri,
Zərgər tək yerinə düzər hər zəri!
Qoruyub ən gözəl ənənələri,
Çin edər hər mövcud əfsanələri!
İlahi, yox bir nəfərin,
Bilə həddin səfərin!
Edirsən bu möhlətə
Tələb hansı zəfərin?
Kaş bilə hər nəfərin!
Hərə öz işini görə yerində.

Dövlət, xalq götürə tam xeyirin də!
İnşaallah.
O, bizi yaşadan, kamilləşdirən,
Ən ali kürsüdə həm əyləşdirən
Məhz təsdiq eləyir **Ali həzrəti**
Ki, təmin olunsun tam nəzarəti!
Yerlərdə işləsin düzgün fərmanı,
Hər kəsin dərdinə yetsin dərmanı!
Qayğımız güdülsün hər tədbirində,
Bəlalı görməsin xəlqin birin də!
Rəhməti əhatə edə rəiyyətin,
Şəriət-dinin, həm insaniyyətin!
İnşaallah.
İstəməz verdiyin O, geri alsın,
Qəlblərə toxunsun, narazı salsın.
Güdsə də hər xalqın haqqın, marağın,
Görmək də istəsə daim xoş çağın
And olsun, gözündən düşənlər ki, var
Əziyyət, əzabda olar, çırpınar!
Cahan tək minlərlə əyalətində
Könülsüz yox bir can itaətində!
Surəti müxtəlif adla hallanır,
Qüdrəti hər yanda eyni canlanır!
Hər canlı gücünün bir carçısıdır,
İradə hökmünün icraçısıdır!
Rəbbimiz siyasət xiridarıdır!
İcraçı xəlqidir bu qərarıdır!
O, küllü ixtiyar sahibidir bir.
Dünyalar, varlıqlar yapmağa qadir
Allahdır əbədi, xilqəti çoxdur.
Müqəddəs və təkdir, şəriki yoxdur!!
Əlhəmdü lillahi Rəbbil aləmin.

Möhləti, imkanı verir hər nəslə,
Təminat yaradır həm Qızıl əsrə.
Məhz olaq sahibi elə dövranın
Sayıla ən gözəl dövrü zamanın.
Yer ola beşiyi insaniyyətin,
Ən yüksək mərifət, mədəniyyətin!
Hər canı canı tək sevə bilsinlər,
Həm qulluq görsünlər, qulluq etsinlər!
İnşaallah.
**Ey insan,** sığınaq Allahımıza,
Zamindir firavan rifahımıza!
Olmasa bu xofu, hədsiz həyanı
Bil, qalar viranə varın məkanı.
Nə yada düşərdi itkilərimiz,
Göz açmaq sabaha istəməzdik biz.
Onsuz bu ümidlər tam qırılardı,
Kim-kimə inanıb həyan olardı?!
Əstafurullah.
Kəramət rəhminə gətirsək pənah
Hər mümkün bəladan qoruyar vallah!
Şükür, hər aləmə nəzarəti var,
Qayğısı onların birliyin saxlar.
Bir Ondan diərik imdadımızı,
Əminik, eşidir fəryadımızı.
İlahi, dilərik, qoy möminlərin
Behiştdə münasib tutsun yerlərin.
Yox aləmə gələn hədər,
İzi qalar, özü gedər!
Kim bilir bu qismətinə
Nə vaxt düşər, harda yetər,
İzi qalar, özü gedər?!
(Mərhumun) qalmasın narahatlığı.

Rəhmət et, qoy tapsın tam rahatlığı!
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Allah rəhmət etsin.
Allahköməyimiz olsun.
**5.** Allahu əkbər!..
Ey kamil Dünyanı quran, Banisi,
İstedad, idrakın mütləq Dahisi.
Bu mövcud Cahanın, Xudavənd-aləm
Ecazgar hüsnüylə xəlqinə hər dəm
Nümayiş etdirir təb və cəhdini!
Yaşadır an və gün dəsti-xəttini.
Hər qurğun kamillik möcüzəsidir,
İdrakın ən yetkin nümunəsidir.
Hikmətin hər şeydə mövcuddur lay-lay,
Hər zərrən sərvətdir, tükənməz bir pay.
Hər biri həyatın açır bir üzün,
Hər şeyin yapmısan gecə, gündüzün.
Özünə münasib zənginliyilə,
Şüura sığmayan ənginliyilə!
Ən həssas qayğının, səyin, zəhmətin
Bəhrəsi olubdur mövcud Cənnətin!
Odur ən füsunkar aləmin biri,
Hər canın əvəzsiz ləl-cavahiri!
Əyani Cənnətdir yoxdur timsalı
Əfsuslar, narahat edir iqbalı.
Qayğısız soyulur, çoxdur xəracı.
Vətəndir! Yardıma var ehtiyacı!
Ayılmır ağılın bəsirət gözü,
Qavrayıb dərk edə nəhayət düzü,
Pozulur varlığın həyat ahəngi,
Çalınır ümumi fəlakət zəngi!

Fəlakət seçməyir yaxşını-pisi.
Amansız məhv edir hər cinsi-irsi!
Mənəvi, həm maddi o çəkər dağı,
Ölçülməz ziyanın ucu-bucağı!
İnsanlıq itirər nailliklərin,
Büsbütün zəhmətin minilliklərin!
Əstafurullah.
Ey bizi yaşadan, kamilləşdirən,
Ən ali kürsüdə həm əyləşdirən.
Adəmi yapanda vardı niyyətin,
Göstərsin qüdrətin insaniyyətin!
Həm olsun hər cana gərəksə dayaq
O, təmsil etdiyin ali sayaraq,
Yetirsin onlara dərdi-sərində,
Bəlalı qalmasın Yer üzərində!
Hər canı bağlasın iradəsinə
Və olsun cavabdeh Yer kürəsinə!
Cahandan həm alsın kamını hərə,
Həm qalsın füsünkar o, varislərə.
Hər nəslin payı var bu əmanətdə.
Yaraşmaz haqlara məhz xəyanət də!
Cahanlar yaradan, aləmlər quran,
Varlığı xəlq edən və həyan duran.
Öz aqil dövrünü ötüb yaşımız.
Xurafat torundan çıxmır başımız.
Dönsək də, ölçülməz qüvvəyə nəhəng
Əfsus hər təlimin qavranır çox ləng!
Nədənsə baxırıq çağrışına xor.
Nə edir bizi kar, ağlımızı kor?
Və buna münasib veririk xərac.
Olunur el-oba, bu aləm tarac!
Gücümüz lərzəyə gətirib Yeri.

Nəfsimiz hər nəfsi qoyubdur geri!
Vallah o dönəndə şeytanımıza,
Hakimdir həm ruha, həm canımıza.
Hər dövrə vəba tək dərd yükləyəndir,
Hər mənfur işlərə sürükləyəndir!
Əstafurullah.
Salınmır bərk bəndə yalan, hiyləsi.
Zorundan çəksə də dad əhatəsi.
Keçir çox qanundan, iradədən yan.
Pozulur həm nizam, həm ədəb-ərkan.
Yolxucu azar tək hey çəkir dağı.
Yox dəyən ziyanın ucu-bucağı.
Harda güc veririk hərb ilə zora
Olur bir əyani "cəhənnəm" ora!
Talayır, dalayır insan-insanı,
Ağıllar müqəssir sayır Şeytanı.
Qururuq min çirkin oyun özümüz,
Nə qədər var yığsaq doymur gözümüz!
İrtica rəqabət hopub beyinə,
Yox qurub-yaradan çiyin-çiyinə.
Qurduqca tam sərbəst azad cəmiyyət,
İfrata varırıq yox məsuliyyət!
Kim bizi bizdən çox olur çaşdıran,
Fəlakət gününü yaxınlaşdıran?!
Dəhşətli fəlakət əlamətləri
Vüsətlə bürüyür bütün elləri.
Unudur aləmi bulandıranlar,
Fəlakət məşəlin odlandıranlar,
Çirkabın ödənci bahadır-baha
Hamını o həsrət qoyar sabaha!!
Ya pozğun əxlaqı, Çirkin əməli
Olar bu xilqətə xitam verməli!

Fərdi ya ümumi verilər cəza,
Yerində, vaxtında baş verər qəza!
Bu hökmü mələklər edərlər icra,
Əbədi dərs olsun həm qalanlara!
Əstafurullah.
«**Quran-i-Kərim**» də çox xilqətlərin!
Açıb tən, örnəklik aqibətlərin!
Allah bizə göstərməsin…
Kimisə müqəssir görməyək qəti!
Özümüz basırıq haqq-ədaləti!
Məhz insan qayğısı xoş ünsiyyəti
Günün ən tapılmaz olub neməti!
İnsanlıq görünmür nəfsin lığında,
Çıraqla baxsaq da Gün işığında!
Nəfsimiz yaradan şeytana lənət!!
Qoymaz ki, qazanaq layiqli rəhmət.
Bəd əməl mənsubdur hər birimizə.
Paklıqla sədd çəkək bu kirimizə!
Bununla bağlıdır gələcəyimiz,
Axirət günündə görəcəyimiz!
Yedikcə səhvlərin zərb kötəyindən
Körpə tək tuturuq bərk ətəyindən.
Himayən qorusun bizi azardan,
Xatadan, bəladan, mərdimazardan.
Bədnəzər gözlərdən, cadu yazardan!
Amin.
Banisi və Rəbbi bu aləmlərin,
Ən ali Şahidi iş-əməllərin,
İradən yetirib bizə buyruğu,
Can-başla həyata edən qulluğu
Yön tutur pak Sənin haqq dərgahına
Qazanır əfvini hər günahına!

Bilən yox bir nəfərin
Həddin ömrün-səfərin.
Edirsən bu möhlətə
Tələb hansı zəfərin?!
Kaş bilə hər nəfərin.
Mərhumun ruhunu gəlin yad edək,
Sanına birlikdə səlavat deyək.
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Allah rəhmət etsin.
**6.** Bismillahirrəhmanirrəhim…
Əlhəmdü lillahi Rəbbil aləmin.
Səmavi kitablar fövqündə duran
Vəhyinlə yetirir müqəddəs «**Quran**»,
Bizə vaxt ayrılıb Qiyamətəcən!
Hökmünlə önündə olacağıq cəm,
Həzrəti İsrafil suru çalanda,
Bu dağlar düzlərə döndüyü anda
Onurğa sütunun ilk düyünündən
Qalxacaq hər bir can rüşeyimindən!
**Ey insan**, bu ağır hesabat günü
Açılır hər ömrün sirli düyünü!
Hər yetən ayənin hökmünə uyğun
Ölçülür iradən, nəfsin və duyğun.
Hissimiz ədaya dönər ya dərdə
Əməllər edəndə qazancın əldə,
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində!
Çoxumuz diz üstə əfvin diləri!
Hər yetən ayənin gücün bilərik.
Cəhənnəm qorxusun, Cənnət müjdəsin
Görüb dərk edərik tam haqqın səsin

Ki, Bizə, Cahana dəqiq ayrılan
Zamana sahibdir, rəhbərdir «Quran»!!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Sağ ələ verilə kaş dəftərimiz,
Qurtulaq cəhənnəm əzabından biz!
İnşaallah.
Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı!
İnsanlıq hamının məhz nemətidir!
Saçdığı nurudur, qiyafətidir.
Bu vergin hər canın hədsiz nəfidir,
Göyün də, Yerin də o əşrəfidir!
Məhz ona ayrılıb tarixi möhlət,
Qiyamət günü də qoyulub son hədd
Ki, Yerdə Behiştlik yarada-qura,
Xəlifə sayıla, qulluqda dura.
Həm aça mənsubluq hər imkanını,
Həm yapa özünə pay məkanını!
Cəhalət döndərmiş onu hədəfə,
Kamillik yol verməz bu ağır səhvə.
İnşaallah.
İlahi, kimin məhz zəkası-helmi
Ya kamil şüuru, bəsirət elmi
Tam açar, Qiyamət dövrün sirlərin,
Oyadan həyəcan, qorxu hisslərin?!
Bunu, həkk beyninə etsin hər qamət,
Fəlakət deyildir Haqqı-qiyamət!!
Azğınlar fəlakət sayırlar bunu
Qorxutsun hamını həyatın sonu!
Qırsınlar inamı, ümidimizi,
Fanilik həmdəmi eləsin bizi.
Əstafurullah.

İlahi, sadiqsən hər iradənə,
Məntiqlə yanaşsaq mövcud ayənə;
İşimiz zəfərlə tamamlanarsa,
Həvalə olunan haqq canlanarsa.
Hər nəslin, hər kəsin son hesabatı
Bəxş edər mənsubluq ona həyatı!
Xeyirxah zəhmətdə var böyük hikmət
Sən ki, məhz etmisən o Cənnəti vəd!
İnşaallah.
Bəs bayram deyilmi Qiyamət günü?!
Hər bir kəs təmasda dinlər hökmünü
Fəzilət-izzətin, hədsiz şəfqətin,
Kəramət, mərhəmət, rəmim-rəhmətin,
Ən gözəl hisslərin, xasiyyətlərin,
Ən ali, ən təmiz ad-sifətlərin
Sahibin?! Müqəddəs, pak, xeyirxahı
Hamı hey görməyə can atıb axı!!
İlahi, o günü(!), qeyri-adi gün
Görəcik zamanın ən sabit dövrün!
Bayramdır sağlara, «ölülərə» də.
Cəhənnəm əzabın görənlərə də
Verilər dinclik o qeyri-adi gün,
Hər işi mələklər görəcək bütün.
Yapılar təmizlik, səliqə - sahman,
Sanki Ərş enibdir bu Yerə haman!
Sonsuz bir möhtəşəm meydan qurular,
Hesabat verənlər ora buyrular!!
O günü (!) dərk edər cəmi bəşərin
Həyatın mənasın, ömrün dəyərin.
O günü (!), bu qeyri adi bir günü,
Tək Allah verəcək ancaq hökmünü!
Dinləyib Şeytanın məlumatını,

Hər nəslin, hər kəsin hesabatını
Həm uyğun dövrünə, təyinatına,
Həm maddi, mənəvi təminatına,
Nə qədər yüksəldib insani irsin?
Nələrlə yükləyib nəslin, varisin?
Kimlərlə kökünü o, birləşdirib,
Nələrlə daxılı zənginləşdirib?
İnşaallah.
O günü (!), bu qeyri adi bir günü,
Tək Allah verəcək ancaq hökmünü!
Hər mömin həsrətlə gözləyir bunu,
Haqqın tam zəfərin, öz uğurunu!
Əhsən və təriflər yağar adına,
Bu, fəxri təltifdir bütün zatına,
Olarlar sakini əsl Cənnətin.
Duyarlar dəyərin o səltənətin,
Hər tətbiq edilən möcüzəsilə
Allahın vədinin iradəsilə!
İnşaallah.
O günü (!), bu qeyri adi bir günü,
Tək Allah verəcək ancaq hökmünü!
Hər kafir dönəcək ərimiş muma!
Ölüm yox qurtuluş diləyə-uma.
Əl-ayaq zəncirlər əməl şələsi,
Hər yana yayılar şivən-naləsi!
Sol ələ dəftəri verilənlərə
Hər yandan min lənət yağdırar hərə!!
Rişxənddən mənliklər göyə sovrular,
Vücudlar qaralar, yanar, qovrular!
Allah bizə göstərməsin.
Qiyamət deyilən o günümüz kaş
Hamının bayramı olaydı qardaş!

Vaxtında əl tutsaq bir-birimizə
Döymərik nə başa, nə dizimizə!
Hər dövrün keçərdik sərt sınağından.
Didərgin düşməzdik Cənnət bağından.
Allahın doğrultsaq etimadını,
Adəmin qorusaq şərəf-adını,
Qaydalar, qanunlar ümum yaransa,
Bu Yerdə Behiştlik əgər canlansa
O günü (!), bu qeyri adi bir günü,
Məhz hamı bəxtəvər duyar özünü!
Dönərdik uğurlu səfərə görə
Ümidlər həsrətlə bağlanan yerə.
Mələklər edərdi pişvazımızı,
Hurilər çəkərdi hər nazımızı,
Allahın vədinin iradəsiylə,
Hər tətbiq olunan möcüzəsiylə!
İnşaallah.
Həm sabit yaşayar nəsillər burda!
İlahi nə salar dəhşətli oda
Ki, bizdən qurtarsın canın aləmin,
Əstafurullah.
Daha da kamilin yapsın Adəmin.

**Ey insan**, itirmə bu imkanını!
Unutma bəd nəfsin son məkanını!
Çalışaq batmasın ləyaqətimiz,
Vəzifə borcuna sədaqətimiz.
Qiyamət deyilən o günümüz kaş
Hamının bayramı olaydı, qardaş!
İnşaallah.
Çəkil, ey şüurun qəflət yuxusu,
Qəlb bilsin, nədəndir ürkü-qorxusu?!

Bilsin ki, yazılır xeyir-şərimiz,
Çıxartsın hökmünü əməllərimiz.
Ədalət və haqqın çərçivəsində,
Ən ali adillik səviyyəsində.
İlahi, vardırmı elə bir bəndən,
Məmnunsan işindən, itaətindən?
Həm maddi kasıbıq, mənəvi yoxsul.
Cəhalət edəndən varımızı qul
Dərd hopub hər canın yeddi qatına,
Kim qalır üzü ağ hesabatına?!
Kəramət rəhminə gətirrik pənah,
Yetir bu bəladan qurtuluş, Allah.
Hər zülmət guşəyə nurun saçıla,
Kələf tək yığılan sirlər açıla.
Eləyək insanlıq zirvəsini fəth,
Bəşəri qüdrətə diz çökə qəflət.
Salehlik hər işin ola təməli,
Günəşlə bəhs edə insan əməli!
Firavan yaşayaq mərhəmətinlə
Və tapaq rahatlıq o rəhmətinlə!
Tək Sənə möhtacıq, Rəbbi aləmin.
Xəlqinin görürsən kədərin, qəmin.
Görürsən, ağırdır itkilərimiz.
İtir hey əvəzsiz incilərimiz.
Görürsən, ürəklər dərddən oyulur.
Hər köçən bəndənin yeri duyulur.

Hər itkimiz balandır.
Ömrü Səndən alandır.
Bu aləmdən köçən o,
Min dərd çəkən qalandır!

Toxtaxlıq tap, bərki, ürək,

Kim etməyir aləmi tərk?!
İgid ərlər, nəsillər də
Duyub ölmü bir haqqı tək.
Toxtaxlıq tap, bərki, ürək!
Həyan ol, duymayaq tənhalığı, məhz
Himayən, eləsin gedəni əvəz!
Həyatda hər bir can əmanətindir,
Varlığın-xəlqinə zəmanətindir.
Şükür və təriflər bu sayğınadır,
Var-yoxa yanğınla həm qayğınadır!
(Mərhumun) aləmdə qalanlarının
Və yada hörmətlə salanlarının,
(Bu hüznə) yığılan soydaşlarının,
Yas tutan dini bir qardaşlarının
Təzimlə, önündə surətlərinin,
Peyğəmbər Məhəmməd (təzim edib)
Həzrətlərinin (deyilir)
Adından dilərik lütfən amanı.
Rəhminə hamının vardı gümanı.
Allah yas əhlinin harayına çat,
Himayən yetirsin təskinlik, nicat.
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
Əlhəmdü lillahi Rəbbil aləmin.
Allah rəhmət etsin.
Yeri Behiştlik olsun.
Və yetir hər kəsə öz niyyətini.
Qəbul et, səyini, ziyarətini.
Bu dərdli xəlqini qoru azardan,
Xatadan, bəladan, mərdimazardan.
Bədnəzər gözlərdən, cadu yazardan.
İlahi, amin.

## EHSAN

***İlahi, amin***

***Əlhəmdü lillahi Rəbbil aləmin***

***Niyyətimiz:*** (Mərhumun) doğma və əzizlərinə hamılıqla təskinlik verməklə dərdlərinə şərik olmaq və bir olan Allahdan onlara sağlamlıq, əmin-amanlıq və bol bərəkət diləməkdir inşaallah.

Önündə kainat, zaman çöküb diz,
Hər bir güc sahibi mütidir şəksiz!
Büsbütün varlığın yaradanısan,
Gözünün nurusan, gücü, canısan.
Xəlqinin yolunda hüdud bilməyən,
Hamilik köməyin əsirgəməyən.
Hər nəslin olmusan daim həyanı,
Bir Səndən umuruq ömrün hər anı.
Hər nədən, hər kimdən görsək yamanı
Bir Səndən dilərik möhlət, amanı.
Hamının səadət gətirənisən,
Gündəlik ruzisin yetirənisən.
Adınla bağlıdır zəfərlərimiz,
İmdada yetənsən büdrəyəndə biz.
Şükür və təriflər bu sayğınadır,
Var-yoxa yanğınla həm qayğınadır!
Gərək səy, zəhmətin unudulmaya,
Önündə naşükür bəndən olmaya!
Kəramət rəhminə gətirrik pənah,
Hər mümkün bəladan hifz elə, Allah!
**Bir Sənsən Hakimi fələyi-çarxın,**
Əfv, aman sahibi o qərargahın!
Layiqsən əbədi hədsiz hörmətə,
Önündə səcdəyə və ibadətə!
Əlhəmdü lillahi Rəbbil aləmin.

Ey bütün varlığın tale yazanı,
Yaradıb ram edən sonsuz fəzanı!
Bu ağır gündə də tək qoyma bizi,
Təmin et, rahatlıq, dincliyimizi.
Ölüm bir haqdır ki, yox ona tədbir.
Böyükdür itkimiz, ver təmkin, səbir.
İlahi dilərik hamılıqla ilk
(Mərhumun) yerini Sən et Behiştlik!
Qəlbləri sarsıdıb bu dərdin dağı.
Qoyma bu ocağın sönsün çırağı!
Bol elə nemətin, çörəyin, duzun
Və et, yas əhlinin ömrünü uzun.
Qoyma, hiss etsinlər itkilərin, məhz
Himayən eləsin, gedəni əvəz!
Külfəti olmasın heç kəsə möhtac,
Bilməsin həyatda nədir ehtiyac.
Bol elə ruzinin bütün növünü,
Qoy, rahat yaşasın onlar ömrünü.
Evində(mərhumun) var azalmasın.
Qoy, ruhu narazı, niskil qalmasın.
Əskiltmə mərhəmət, kəramətini,
Onların yetir hər xoş niyyətini.
Qoy zəhmət çəkənlər etsinlər halal.
Heç kəsin düşməsin ürəyinə xal.
Ruzini zəhmətlə toplamışsa əl
Verdiyin bərəkət yetirməz xələl.
Qəbul et, sanına tutulan yasın.
Allah, qoy dərdlilər təskinlik tapsın!
Allah, yas əhlinin harayına çat,
Səninlə tapılar hər dərdə nicat!
Cahanda hər bir can əmanətindir,
Varlığın xəlqinə zəmanətindir.

Hər biri gücünün bir carçısıdır.
İradə hökmünün icraçısıdır.
Sənsiz bir kəs belə almaz kam nə həzz,
Bu mövcud həqiqət təkzibedilməz.
Cahanlar, aləmlər yapan da Sənsən,
Varlığa həyansan məhz xəlq edənsən!
Ey ulu Tanrımız, ey Pərvərdigar
Sənə tən, məqəddəs, pak, kimimiz var?
Bir Sənsən sahibi hədsiz şəfqətin,
Fəzilət, kəramət, rəhm - rəhmətin.
Ən həlim ünsiyyət, mədəniyyətin.
Ən mütləq mərifət, səlahiyyətin.
Hər qəlbin şəfqətli həbibi Sənsən.
Hər dərdin ecazkar təbibi Sənsən.
Hər səyin yönəlib rifahımıza,
Bərkidir inamı sabahımıza.
Artır yas əhlinin hər imkanını,
Qəbul et niyyətli bu ehsanını!
Əlhəmdü lillahi Rəbbil aləmin.
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.

**Fatihə**

-------------------------------------------
---------------------------------- oxunur.

Allah qəbul etsin.
Allah, köməyimizə yetsin,
Allah, rəhmət etsin.

**Səlavatlar...**

**Bismillahirrəhmanirrəhim**
**Əlhəmdü lillahi Rəbbil aləmin.**
Tükənməz sahibi ey, mərhəmətin

Hər vəfat edənə çatır rəhmətin
İzn ver, ömrünü bitirənləri
Pənah O, aləmə gətirənləri
Ehtiram, hörmətlə bir an yad edək,
Onların ruhuna səlavat deyək:
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd.
İlahi, möhtacıq kəramətinə,
Mərhəmət rəhminə və rəhmətinə.
Xəlqinə bu hədsiz qayğın, amanın
Günbəgün artırır mövcud imanın.
Hər əziz bəndənə yetsin salamın,
Rəhmətin çin etsin mənsub məramın.
Hər biri unutsun narahatlığı
Tapsınlar əbədi bir rahatlığı!
Allahumməsəlli əla Muhammədin
Və ali Muhamməd

Cəmi ölənlərimizə və valideyinlərimizə Allahın rəhməti və salamı olsun. Allah köməyimizə yetsin

Məclisi tərk edənlər üçün "**Fatihə**" oxunur.
Bismillahirrəhmanirrəhim...
Sən yetir hər kəsə öz niyyətini,
Qəbul et səyini, ziyarətini.
Bu dərdli xəlqini qoru azardan,
Xatadan, bəladan, mərdimazardan,
Bədnəzər gözlərdən, cadu yazardan!
Əlhəmdü lillahi Rəbbil aləmin.

Bir daha xeyirlərdə görüşək inşaallah!

***Allah əmanətində***

***İlahi, amin***

# XÜLASƏLƏR

## ƏRƏB
## İNGİLİS
## RUS
## DİLLƏRİNDƏ

بسم الله الرحمن الرحيم

الحمد لله والصلاة والسلام على رسول الله وآله وصحبه اجمعين وبعد:

فالدين النصيحة، وإنني لك من الناصحين أن تحافظ على هذا الكتاب ليكون لك حصنًا من كل شر، وحرزًا من كل سوء، وحجابًا من كل مكروه، وحفظًا من كل بلاء، وامامًا من كل فتنة، وعاصمًا من كل مهمة، يتلوه المسلم والمسلمة دقائق محدودة في كل صباح ومساء، فيجد القارئ الراحة والسكينة، والرضاء والطمأنينة.

بقراءة هذا الكتاب ينشرح الصدر، ويعظم الأجر، ويسهل الأمر، ويحط الوزر.

بقراءة هذا الكتاب يذكر الرب، ويكشف الكرب، ويطمئن القلب.

بقراءة هذا الكتاب يتقرب الى الرب، ويتنزل به الميزان، ويخسأ به الشيطان.

«ولذكر الله أكبر والله يعلم ما تصنعون»

«والذاكرين الله كثيرًا والذاكرات أعدَّ الله لهم مغفرة وأجرًا عظيمًا»

الانسان وإضافة الى بدنه الجسماني - الذي يتألف من بناء معقد ودقيق - ينطوي على بعد آخر هو الروح والذي يعدُّ أكثر اسرارًا وتعقيدًا، حتى يصعب التعرف عليه الا من خلال مسارب نفسية عميقة.

الانسان ينطوي على مجموعة إدراكات فطرية منها : تمجيده
للامانة ، الصدق ، والعدالة ، والتي لها جذورها في الروح
وهو تمييل ولوجه المحيط الطبيعي والعلمي ، يؤمن معلوماته تلك
من خلال هذه الادراكات ، غير انه قد يتسى بعض ادراكاته هذه بعد
ولوجه دنيا العلم والطبيعة او ربما يتشكك فيها .
ومن هنا فان البحث عن الدين وعن الله مودع في الفطرة الانسانية ،
ويتكامل هذا الشعور من خلال مساندة العقل والدليل .
والميول الفطرية في الانسان عميقة جدًا وواضحة ، ولولا الدعاية
المضادة للدين ، والمحيط الغير مساعد لوجد الانسان مكانه المناسب
في نظام الكون ، ولادرك وجود القوة المطلقة الى تسيير شؤون العالم .
الانسان ، عندما يشاهد العلم والقدرة والارادة في ذاته
وهو جزء صغير في هذا العالم الواسع - يدرك وجود ارادة وقدرة تحكم
هذا العالم ، وضرورة وجود عقل كلي في ما وراء الطبيعة ، حيث
تصدر عنه حركة هذا العالم ، الذي ينتمي اليه الانسان نفسه .
وفي هذا يقول الامام حسين (ص) :
« الهي ... كيف يستدل عليك بما هو في وجوده مفتقر اليك ؟!
أيكون لغيرك من الظهور ما ليس لك حتى يكون هذا المظهر لك ؟!
متى غبت حتى تحتاج الى دليل يدل عليك ؟!
ومتى بعدت حتى تكون الآثار هي التي توصل اليك ؟!
عميت عين لا تراك ... »

. لقانون العلية جذوره في اعماق الفطرة الانسانية ، فالانسان

في البدء يرى في أعماق نفسه علّة لإرادته وأعماله ومن ثم يشاهد في العالم الخارجي أنه لا معلول دون علة ولا مصنوع دون صانع. فيعمم ذلك على كل شيء.

والإنسان — حتى الطفل — لا يرى ظاهرة ما إلا وحاول أن يجد منشأها وعلّتها.

وإذن فوجود العلة مسألة بديهية وضرورية، وهي بالتالي مسألة فطرية ليست مكتسبة. مثلما يكون العلم في أساسه مجرد بحث عن أسباب وعلل الظواهر والعلاقة بينها.

الخطاب:

بسم الله الرحمن الرحيم

أصحاب الكتاب والقراء المحترمون!

نهدي هذا الكتاب أمانة لكم بإذن الله تعالى.

ولكل جيل من الأجيال نعمة وقسمة من هذا الكتاب.

أرجوكم أن تقرؤوها بدقة ونأمل أن هذا الكتاب سوف يلعب دورا مهمًا بإذن الله في تثبيت شعوركم الديني. بدون أية نية مادية

وهو كتاب اليوم والغد إن شاء الله، ويجب أن تعرفوا أنه:

- إن دعاءك يستجاب أول بأول

ويتكون الروح بهذا المنطق الكامل

إلا وتفقد الحياة معناها كليًا

وروح وسراج للكائن الحي...

نأمل بأن هذا الكتاب ومحتوياته ومضامينه تتحقق بإذن الله تعالى وآمالنا الموجهة إلى التعاون والتضامن وصداقتنا

المملكة في حقل سياستها السياسية العادلة، وادابها وحضارتنا وحياتنا السعيدة عموما، وديننا الحنيف. ويقول الشاعر:

«ان الانسانية نعمة تعطى لكل انسان بسواء.

ونوره الموسع، ومظهره الصحيح
هذا تمتع من شرائع له بدون حدود
وأشرف المخلوقات في الأرض والسماوات
وهو الذي اختاره التاريخ البشري،
والحد النهائي هو يوم القيامة
يبني جنته في الحياة الدنيا
ويعتبر خليفة لله ويعبد لربه
ويفتح امكانياته الكامنة والباطنية
ويستقر في المقام المعين له،
ان الجهل عمله هدما لنفسه
والكمال لا يرضى بهذا الخداع المدعى.

» ان كنتم متفائلا، ومسالما، ومحبا
ودائما للحق والعدالة؟!

ونتمنى لكم امانا واستقرارا
والسلام عليكم، ورحمة الله وبركاته

قال الله تعالى: "أهم يقسمون رحمت ربك نحن قسمنا بينهم معيشتهم في الحياة الدنيا ورفعنا بعضهم فوق بعض درجات ليتخذ بعضهم بعضا سخريا ورحمت ربك خير مما يجمعون. ولولا ان يكون الناس امة واحدة لجعلنا لمن يكفر بالرحمن لبيوتهم سقفا من فضة ومعارج عليها يظهرون. ولبيوتهم ابوابا وسررا عليها يتكئون. وزخرفا وان كل ذلك لما متاع الحياة الدنيا والآخرة عند ربك للمتقين". (سورة الزخرف، ٣٢-٣٥)

ان ذكر الله له آدابا، وان حضور القلب مع اللسان حال الذكر هو أهمها وآكدها. فعلى المؤمنين به فإن الذاكر لا يكاد يصل الى شيء من فوائد الذكر وثمراته المقصودة الا بالحضور.

ومن آداب الذكر ان يكون الذاكر لله على أكمل الآداب وأحسن الهيآت ظاهرا وباطنا؛ وان يكون على طهارة وتطهير تامة، وان يكون في حال ذكره خاشعا لله تعالى، معظما لجلاله، مستقبلا للقبلة، مطرقا ساكن الاطراف، كأنه في الصلاة.

ثم ان المطلوب من العبد: أن لا يزال ذاكرا لله في جميع احواله وعلى دوام اوقاته. فان امكنه الدوام على هذه الآداب التي ذكرناها من الطهارة والاستقبال، وغيرها في دوام احواله كما هو شأن ارباب الخلوة والانقطاع الى الله تعالى - فحسن ودوام. وان لم يمكنه الدوام على ذلك وهو الأكثر والاغلب - فينبغي له أن يجعل له وقتا معينا يجلس فيه للذكر، متأدبا بهذه الآداب التي ذكرناها، وبما في معناها مما لم نذكره؛ ثم لا يزال في بقية اوقاته ذاكرا لله قائما وقاعدا ومضطجعا

من غير حد ولا تقييد، كما قال تعالى: «فاذكروا الله قياما وقعودا وعلى جنوبكم ...» (سورة النساء: ١٠٣)

وأحسن ما قال الشاعر:

... ان يكون الانسانية حاكما للجميع

وتصان كمثل من حقوقه

تظهر الرقابة الجادة في كل مكان

وتلقى على كل جان وجنايته

ويصبح نيته تبدد الاتعسين

وتغرق في نور الانسانية ...»

ويدعو الكاتب جميع البشرية للعبادة والطاعة باحسن عبادة وطاعة وذلك دعوة مشتركة كافة الاديان السماوية السابقة لله تعالى وهو يساعد كافة الاعمال الخيرية الموجهة الى تحقيق تلك الاعمال ويوصي التعبير عن طاعتنا واحترامنا وهدايتنا:

«... الهواء والماء لهذا الروح الأمين.

سواء النعم المادية او نور ايماننا

نحاول ان لا تصرف لنا عبثا

ونعطي حقه ادام على قيد الحياة

وكذلك يدعو لربط كافة اعمالكم النبيلة باسم الخالق وانهاء هذه الاعمال باسمه:

- لا يساوي احد بك في نظرنا

وعطفك علينا بدون حدود

وعبادتنا كأنها ذرة صغيرة

هل لسعادتنا حدود محدود ...

ان كتاب الخالق الذي يحمل احد الاسماء الحسنى لرب العالمين عز وجل يوجه لكل انسان بالرغم من قوميته و عرقه، وجنسيته الى فهم وادراك نفسه وما يحيط به فهمًا صحيحًا . انه يحاول الى محو كل اثار الشكوك والريبة التي كونها الخرافات والمذاهب الالحادية في قلوبنا في بعض منعطفات حياتنا الحضارية و يعزز ايماننا بالله الاحد، وحبنا الصادق المخلص له الذي يطلب رضاه خاصته . انه يشير و يؤكد مقام الخالق الذي لا بديل له ولا أعلى منه، والذي تحتاج البشرية اليه اكثر فاكثر مما الى حرارة الشمس والهواء والماء :

" ان دعاءك يستجاب اول بأول
ويكون الروح بهذا المنطق الكامن
الا و تفقد الحياة معناها كليًا
و روح و صلاح الكائن الحي "

ان هذا الكتاب المقدم للقارئ المؤمن يتحدث عن افعال و امور صالحة للخالق عز وجل التي لا تسع داخل حدود معينة و عن ربوبيته و الوهيته التي تعتبر أسوة حسنة لكل البشرية و عن قيمه و معاييره و منطلقاته الانسانية السمحة التي هي ذروة الطهارة و القداسة تشعر البشرية حاجة ماسة اليها.

ان كتاب الخالق الذي ألفه ايلمان وايلخان حفيدا الشيخ شاه سليم

على بك اوغلو عمر لينيسكي - رجل الدين المعروف في النصف الاول للقرن العشرين يؤكد مرة أخرى ان هالة النور التي ينشرها الوجهة رب العالمين وما الك يوم الدين بلا انقطاع ، وان هذا النور الساطع بالذات هي قاعدة روحية و معنوية لعبودية الانسان للخالق الاحد لا شريك له . و يقول المؤلفان في مقدمة الكتاب :

« اسم الخالق أعلى فاعلى من كل اسم ،
والايمان به دواء من كل داء ،
اذا كان علوا للخالق بدون حدود
لا يمكن ان تعد عدالته و سماحته . »

ان هذه الحكمة الالهية التي تحتوي عليها مقدمة الكتاب قد تتسع بها كل مضمونه .

ان التوجه و الخطاب الى الخالق الاعلى بالخشوع و الخوف و التقدير و الاحترام يؤكد ان هو بالذات الوجود الاعلى لا مثيل له .

و يؤكد الكتاب ازلية الرب و ابديته و قدرته الغير محدودة و استطاعته لخلق كل ما يشاء .

« يا خالق العالمين يا ايها القدر المطلق ،
يا صاحب كل معرفة و علم
ذكاؤك يخلق الف نفس كل يوم
وقدرتك تعطي دفعة لهذه الحياة ... »

بلا شك ان كتاب « الخالق » الذي يتميز بكل وضوح و تفاصيل الى الكرامة

...

العظيمة و رحمته اللامحدودة و مغفرته و قدرته وسماحته سوف يكسب اهتماما عميقا لدى القراء المحترمين. ان شرح وايضاح الاحكام والتوصيات القرانية كالعلاقة الوطيدة بين العالمين اللذين تتشكل من اجل الحياة الابدية في الحياة الدنيا والاخرة والخيرات والنعم والضبط والربط والحق والعدالة والاصرار الدائم والاستعداد للوساطة من موضع المعاصرة وانطلاقا من حاجتنا الماسة الى هذه التعليمات السماوية. يكون مضمون خاص لهذا الكتاب.

وكتاب الخالق يقدر حق التقدير و الذي جعلناه من توصيل من فضله خلائق له في الحياة الدنيا وتؤكد مرة أخرى الحقائق الايجابية التي جاءت في الكتب السماوية المقدسة بالتوراة و الانجيل و القرآن الكريم بدعو البشرية الى الايمان الصادق والمخلص والحر وأن تعبدوا له وحده و ان تؤدوا العهود التي تعقدتموها مع الخالق:

« ولو سجدنا امام وجودك ليلاً ونهاراً
و افتخرنا و رفعنا ثناءك
ان عبادتنا ليحسب الا ذرة
فهل هي تقابل بسعادتنا ؟... »

ان هو لنا الكتاب يقدم ان للقراء المحترمين معلومات مهمة عن تقعيد واجبات من قبل نبينا الاول اكرم صلى الله عليه وسلم والمبعوث الى البشرية والذي يمكن ان يكون مثالا بادرا لاصلاح

الحياة المعاصرة الى ما هي أحسن ويربطه باحتياجات الحياة المعاصرة
المملوءة بالكوارث:
«إنه هو الدين يؤمن،
وحدة العالمين بقدرته الإلهية
انه هو لا حول ولا قوة إلا به
كون العالمين ليعبدونه
وتربط كل نفس بإرادته
ليكون مسئولا عن حياته...»
أنهما يذكران ان المنجزات المحققة من قبل البشرية لم تصل بعد إلى
مستوى تحدياته وتطلعاته وانقد عامل الوقت في هذا المسير لمستقبل
الانسانية، ويعلون ان تحقيق معجزات خارقة قريبة الى الله تعالى. والكتاب
يؤشر إلى المقاصد المقدسة لأركان الاسلام كالصلاة. والصوم والزكاة، والى
الاهمية البشرية للتعاليم الالهية والانسانية التي يلقيها الله تعالى
عن طريق الوحي الالهي الى خاتم الانبياء محمد صلى الله عليه وسلم ولمعتقداتنا التي
اصبحت نمط حياتنا وجزء حضارتنا ويدعو الى استيعاب الحقائق القرآنية
وتطبيقها في الحياة الدينية والدنيوية:
«... ان كلا من آي رسول الله محمد،
لتوصية وعبرة لسكان العالم
وهي حاجة من حاجات البشرية
ومطلب من المطالب الضرورية
وهي التي تهدي الى طريق الهداية»

ان القرآن الكريم الذي احتل مكانا لا مثيل له وحياة البشرية جمعاً
وكتاب الخالق الذي يعكس ارادة الله والمستوى الادراكي الواقعي للتعاليم
الالهية من قبل البشرية في الوقت الحاضر، وتطلق مبادئها الانسانية
تقلب اساساً متيناً لتعطي ان كلا ينطلقان من منطلقات ذاتها.

وبالعكس من المادية التي اعتمدت في المعنى المستقيم على ما خلقه الله
تعالى وحاولت ان تكذبه والالحادية التي تخدع البشرية بدعايتها المسمومة.

ان كتاب الخالق ينطلق من مضمون النصوص المقدسة للقرآن الكريم الذي هو
الوريثة اللائقة للاماني العلوية بسلسلة من الكتب السماوية ويؤكد بشكل واضح
ان ديننا يبعد كل البعد من الخرافات والاساطير وخبث الجحيم المختلفة
انه عالم إلهي يواتي ارادة الله!

«الدين يدعو الى خدمة الحياة،
وهو دعوة للانسانية ونداؤها
لا تحدد ماضيه وتاريخه
وهو العلم الرباني لا ينكر
الدين نور ينور الغد
وهو من ارادة الله وحكمته....

إنه كتاب يحتوي على مبادئ مقدسة المصادر والمنابع الدينية
وتحاول ان تحرر تصورنا من اساطير السابقين ويعتمد على قاعدة راسخة

التعاليم الانسانية المنطلقة من المتون للكتب الالهية.

ولنتوجه ابصارنا الى بعض من بنود دعوته الموجهة الى البشرية برمتها:

«لا اله الا الله والله اكبر، ان سجودك وركوعك
لرب العالمين لخالق المخلوقات
وللحياة، وللبشرية كلها
واستيقظ كي يوناتك الرشيدي يوما هذا
ثم أتى لنا عهود ايام الله الاحد...»

ويشرح الصور التي حولنا اكثر فاكثر معتمدا على قوى الموازنة والاستقرار الالهية وبوضع موقع الاسلام ومواضيع السياسة، والاستقلال وذلك مما يزيد تأثير الكتاب على معنوية القارئ تأثيرا ايجابيا. انه يعبر من المنجزات العلمية التي يمكن التعبير عنها بلغتنا البسيطة الشائعة، وعن الاسس الاجتماعية التي سوف يبنيها مجتمعنا، وعن المرحلة الزمنية لتنفيذ المنهاج البشري الاول ضد الحالات السلبية التي تحكم في الحياة الدنيا مثل العنف والبطلان والبرودة، وعدم الاهتمام بالخير، ويدعو البشرية لخلاص الكرة الارضية من الكوارث الملحمة:

«... لنزرع الانسانية لكي لا تفقد الانجازات
والا تحكم الكوارث في هذه الحياة
والا تنتهي الحياة المملوءة الامال بالفشل...»
وكذلك يقول:

«... ان الكرة الارضية هي الوطن العام للبشرية؛
انها لطيفة وعزيزة لنتعاون

ولنحول ارضنا الى الجنة من جديد

يرضى بنا خالقنا الاعلى

آمين ....

ان كتاب الخالق لهو فلسفة الحياة . وانه يدعو الى الصداقة بين الشعوب والى الوحدة البشرية والتضامن العام و المنافسة الحرة والتعاون والطائفة وتنظم مسئولية كل فرد امام القانون .

ان المؤلفين الذين قدموا لنا ابحث اسم الخالق المبارك يحتوي على احكام سنته البشرية التي لا تتغير ولا تتبدل . ويعلم البشرية التعاليم الالهية الصحيحة .

وهذا الكتاب يدافع باذن الله عن الحق و الاسلام الشخصي لكل فرد من المواطنين العاديين في دائرة الدولة . و من التعبير الكبير بكل عدل ومساوات .

ان الكتاب يرى ضمان حياة كل طبقة من طبقات المجتمع بالرغم من النظام السياسي وانظار التضامن والوحدة الاجتماعية والعدالة عند تطبيق ذلك التعاليم في المجال العملي :

... ان الحق والعدالة هي اساس الحياة

اذا طبقتها سوف تنظم كل عدالة

الحقيقية من الظاهرة لا يمكن سترها ....

والكتاب يعبر عن يقين ان استقرار قوانين الحق والعدالة في ظروف استقلال الدولي التام وشمولها على جميع المواطنين سوف يكون قاعدة للوحدة الوطنية والمساوات

وايضا كتاب الخالق من مقدمته حيث يعطي معلومات تفصيلية من مضمون الكتاب

نحو كتاب العبادة لله الاحد لا شريك له.

وقد ألف الكتاب بلغة الشعر الجذابة تعود عليها اجدادنا وخطابا الى الناس ويصور الكتاب مناظر حياتية عديدة من ماضينا ومن حاضرنا ويتغنى الترابط الوثيق بين الله تعالى وبين عباده الصالحين:

« انت صاحب العرش العادل

وانت تعطي النفس وانت تقبضها

وانت وحدك الذي تنجد البشر... »

والكتاب يبتدئ وذلك لاول مرة بسورة الفاتحة المباركة وابواب التوديع والكلف والتذكير والاحسان ومراسم التعزية باللغة الآذربيجانية

كان الكتاب يكمل مراتب اللانهائية التي اجتازتها البشرية خلال القرون الطويلة وآمالها الاعتقادية قربا الى ملكوت الله تعالى انه لمرآة تعكس تذكر البشرية وتقديرا للذين خلقهم الله تعالى. والنعم التي اهداها كانة مجموعة لمنبرت امارك و فهم التوصيات الحسنة التي انتشرت باذن الله خلال عشرات الآلاف من السنين واهمية القيم المادية والمعنوية التي نفتهما. لايكن محددا ان تثبيت تلك المعايير والقيم في الحياة العملية سوف توفر كل امكانيات ضرورية لكي يستطيع الانسان ان يحمل امام الله تعالى رسالته العليا والامر المسؤول ستخلوقه الله في الحياة الدنيا ان شاء الله.

ان كتاب المالك سوف يحافظ في حياة العباد الصالحين طاقته العصرية المعنوية و اهميته بين المجموعة المؤلفات التي نشرت خلال السنوات الاخيرة للقرن العشرين و ذلك نظراً للمواضيع المطروحة فيه، وشموليته واحاطته، وضروريته لوجه ايمانا

الى ماهية الافكار الميتافيزيقية العميقة التي تنسب الى الخالق الاحد الذي هو المؤسس المطلق الوحيد للحق والعدالة وهو الذي يدافع عنه:

"... اذا تكون القوانين تحكم البلاد
و تكون حقا لكل مواطن
تزداد فيه الرقابة والمسؤولية
و تجذب الجمهورية الى الوحدة ...
و لنحاول ان تنشر حكمة الحياة الى كل ذي الاثر ..."

"... يكون حاكما بدراية
و يعطي الحرية للنشاط الابداعي
يكون مقامه اعلى من مقام تجار ..."

و اذا نأمل ان كتاب الخالق سوف يصبح كتعليمات انسانية للبشرية التي سوف تستطيع ان ينظم امتنا تضامنا و وحدتنا و التعاون المثمر بيننا في القرن الواحد و العشرين بارادة الله ان شاء الله.

هذا الكتاب يدعو البشرية الى الصبر و الاستقرار.

و أصبح هذا الكتاب الذي كان نتيجة للعمل الدؤوب خلال سنوات عديدة لابداع الملاقا و انه يهدى باسم الله تعالى.

و إننا على ثقة ان كتاب الخالق سوف يصبح كتابا مستحبا لكل من يحمل ذرة حب الى الله تعالى...

انه كتاب اليوم ... و كل يوم و سافخر كل مسلم باقتنائه و قراءته و يحفظكم الله. آمين.

ان الكتاب لا يباع بل يوزع مجانا

اولا وقبل كل شيء نود ان نعبر عن شكرنا وامتناننا للحج صابر حسنتلي، وطوارق وهاب ارتنلي حسن زاده، وسولماز ياور تميزي سليمانوغه، شاهين حاجي اوغلو تمليبوف للمشاركة الفعالة في نشر هذا الكتاب

وكذلك لعائلة اتا مجيدي اوغلو علي زاده، وبرهان جهانكير اوغلو عزيزوفا، ولمنت جابر اوغلو ابراهيموفا، ونضالة قربان علي كبيري المحترمين لاعداد الكتاب للنشر الثاني والطبع وكذلك للمترجمين رابو مرسلوف، وسعاده خانم، ونجيبه ليطمان بيري، وحافظ خير الله اوغلو أبيف، واعضاء هيئة التحرير جميعا.

ونرجو بقبول الشكر والعهد الامتنان

ويرضاكم الله أجمعين

## INTRODUCTION

***In the name of the Most Merciful***
***(Rahman and Rahim) Allah***

The book "Khalig" saintly named after Allah draws the attention of each human being to understand himself and the environment regardless his nationality, rase and sex. It tries to remove the shadows of suspicion and uncertainty caused by religious superstition at certain periods of our history and to enhance our firm belief in Allah up to devoted affection. It resolutely reveals Khalig's unmatched and exceptional position in our life like this:

Hey, the Writer of the entire creature
Curbing the created endless space
There's no bar to Your decision or order
Both here and in the thousands of mysterious Worlds…
More than the sun, air, earth, water
It s you that most inevitable to your created!..

And notes:

Hey, Our great God, our Founder
Who do we have equal, holy, honest to you?!
Fates Your first benediction seals,
With this mystic logic are set soles,
Otherwise it's meaning life will lose,
Foundation of vitality, its climate

This book deals with His unstinted kindness, His divinity caused by incontrovertible features, the values of humanity which are the highest peak of justice and goodness and which became an important moral needs of the whole mankind.

Immense Your solidity, strength You re the Winner.
You re the owner of Skies, Earths You re the Founder.
The universe, time Fallen on their knees in front of You
All the owner of power is dutiful, with no doubt!
… You re the one owner of entirely rights.
Able to create the worlds, creatures.
You re Allah for eternal, Your creature is a lot

You re Holy and One, there s no companion of Yours!

The work "Khalig" by brothers Elman and Elkhan grandsons of the great and famous religious figure of our century (victim of persecutions in 1937) Sheik Shahsalim Alibey oglu Arablinski notes that the flaming light continuously emitted by divine image of our Creator - the Eternal Lord of Power and Rule of the infinite Universe - is the only basis of humanity. Authors consider their responsible duty and right to reveal this truth as Allah's eternal will.

Allah's name is exalted to the heavens,
Faith in Him - a very good remedy!
His Greatness, Justice, Mercy and Bounty,
Poured out in unstinted measure, firmly...

This wisdom is brought by “Introduction with boundless belief and sincerity is absorbed into all internal world of the book with its perfume, rhyme and freshness. Appealing to the Creator with great respect and esteem all the time, affirms His being only, whom everybody is in hope, confirms He s non-substitutive, the highest and holy that everybody takes refuge in.

...You re the Creator everybody s Your entrusted.
You re being is surety to Your creature.
... You have been our religious and faith.
We re sure we have help so You exist...

This wisdom given with all sincerity and inexhaustible faith in the Preface has been absorbed in the book's inner world with its aroma, harmony and freshness. The address to Khalig all along the book with profound respect states that He is the One, Unmatched, Highest and the Holiest Creature who inspires everybody with hope and protection. The book stresses Khalig's genius, almightiness and inexhaustible creative ability as the Creator of our life:

Neu, the Creator, Founder of the whole Universe!
The Absolute Genius of talent and consciousness
Every day thousand souls Your mind animates,

Thus the life Your Giftedness stimulates...

With no doubt the book “Xaliq which a little more comprehensively explains Allah's great generosity, mercy and charity, patience and self-restrainty, effort and labor, paternity and mastership protection will be cause unlimited interest of respected readers, If God pleases!

Created unequaled Paradise space,
Specific perfect body to every existing creature
And have been support, God, sage,
Spends effort, labor, immeasurable patience
And what's the reason of such amount of care?
Let's think, what's demanded from humanity?!

They have written close link of worlds that built for this eternal life, works which making unity with a reminding wisdom.

...One upon another, inside among another seven, universe is,
Has four generic of existence - image of beauty:
Angels, spirits, demons, humans
Have aims, histories belonging to themselves!
One aim is created in four stages,
Still an intensive work is going on in four directions.
Every order belongs to four beautiful genders,
One single will is four purposes!..

Lightening of discipline of constant state organization of Khalig, his justice and right, humane instructions, which is directed to set our independent well-being with the help of his permanent obstinacy and direct help, arises special love to this book:

If humanity was everyone's judge,
Protected like his right and justice,
Might be arisen powerful control in everywhere,
Nor crime non servitude might not be arisen.
Lets make real of this intention of thousands years,
Let's be plunged to the light of humanity!

There can be no doubt that the work "Khalig" revealing

Allah's Great Generosity, Mercifulness, Grace, Forgiveness, Self-Restraint, Patience, Effort and Labor, Paternal Protection and Teaching Skill will greatly interest all respected readers. In particular, love to this book is arisen by the modern treatment of human instructions to establish the convenience of our own life by means of close relations between the worlds created for this eternal life, Khalig's discipline - the base of this stable statehood, His allied affairs, truth and through His mediation and by constant persistence. The work "Khalig" responds to the historical reality of Holy Books, such as The Gospel ("Tovrat"), The Psalter ("Zabur"), The Bible ("Injil") and Holy Qur'an where unstinted bliss is taken into account at was gifted to us on coming into the earthly Heaven. This book calls the people who have a profound respect for the One Allah and firmly believe in Him to trust, worship and pray for His Bounty, Protection and serve Him and life with all the responsibility they have. At the same time it calls them to begin and complete all their works with the words "in the name of Allah".

The book estimates every well-wisher activities about this service as the highest duty of humanity in front of Allah. Notifies of importance of our swearing in front of Allah for feeling the seriousness of this duty on us. Really advises to show our humane attitude with obedience and volition to His eternal care and respect.

...Air, water that belong to this body,
Every material, blessing, light of the Sun,
Let's try not to spend for vain
And become alive in front of you when we breathe!..

The book emphasizes Allah's unexampled right on us with great sincerity:

There s no equal to you in our view,
You have immeasurable right on us!
How much we worship You,
Sound Your praises, boast of You,
Just like a grain is our praying,

But our bliss knows no measure!

In the book "Khalig" the authors give new detailed information of our first Prophet Adam's existence, His responsible human's duty as Allah's Worthy Mission on earth and, closely associating it with modern epoch, narrate about his work that may recover humanity in our days. They give irrefutable arguments for the fact that our Prophet Adam was the master of all the situations providing his life and activity among huge predators in terrible and horrible period:

For the first time Ne's provided
The unity of the two worlds!
With ample opportunities,
Should be mindful of his duties!...
Bow his will to each of beings
And should answer the earth for this! ...

Here it is mentioned that the success achieved together with failures in the process of history are much more lagging behind the human intellect. In this respect the book "Khalig" which draws our attention to the fact that waste of time is a flagrant sin is aimed at enthusing the people to work in solidarity in order to win the One Allah's Love. The book "Khalig" which reveals the world-scaled importance of humanity and divinity instructions given by the last Prophet Muhammad, Glory be to Him, at Allah's Command and the great ideas of our religious faith basis such as Prayer and Lent which have become the important custom and tradition proudly calls the mankind to learn the ayahs of the Holy Qur'an and to use them with dignity:

Muhammed Rasul's - the Messenger's each verse,
The Guidance for all over the Universe
Much necessary to human instructions,
There're always immediate demands for this,
And to the way of truth it does justice!..

The conformity at the bottom of noble aims of books "Khalig" which reflects mankind perception of humanity instructions nowadays by Allah's Will and the Holy Qur'an which is

unmatched in life manifests the fact that both of them are of the same descent.

... Let every effort makers in this matter to know
Considers every time that someone is guilty.
...Faith to Allah is important to human.
It s guarantee for happy life, also glory.
...Faith is power of every reform
Solves fortune of every period.

Being guided by materialism, accepting all Allah's created, based on the deep roots of atheism and its dialectics and on the Nolu Qur'an that is a worthy successor of great ideas of ancient divine books, "Khalig" resolutely stresses that our religion is far from myth and falsehoods. It proves with reasons that it's the highest science by Khalig's will:

Each man the religion does invite,
And call to serve for humanity!
It is our tomorrow's bright light,
And the science of sciences certainly!...
Might of essence is without limits,
Is Allah's Command, Will and Mercy! ...

"Khalig", which tries to immortalize the great ideas of divine books by Allah's will and to divert our imagination from ancient fancies is a modern religious divine book selflessly calling to serve wholeheartedly life guided by the firm foundation of humanity instructions given by the eternal Lord of Truth and Justice under whose protection we always are.

There is no God but Nim - the One Allah!
The Creator, Cherisher and Leader,
Wake up! Serve life, mankind and creature,
And express your faithfulness to Allah!
Get up! We've oath, duty before Allah!...

The explanation of the environment mysteries based on Allah's equilibrium laws and views on policy and sovereignty as the first divinity instruction are increasing the interest in the book.

It informs about our future scientific achievements, the highest peak of social principles of the society, the highest peak of social principles of the society, the first mankind's program of the epoch when our ease and comfort will be provided.

Appeal to Allah in the <<Last word>> is very typical by informing from future scientific achievements, from high peak of public basis which society is going to create, from the first program of age which will be able to provide our peace and calmness in easy language:

To the most innate intellect, mind, science,
To the highest consciousness, thinking, sense,
To the life, existence special to spirits,
And if we belong to the best time,
Still need your control and surveillance,
Let your creation not to do repetition of their past!..
Let Universe not to see disasters,
To human indecent actions.
Non moral corruption, nor dirty behavior,
Let be the last, must be break off the possibility!
Asta'furullah.

The book, which makes a protest against violence and injustice, negligence and coolness in this world calls the people to defend the Earth from terrible calamities for the sake of this life:

Let us raise the humanity in order not to lose
The give no way for misfortunes to dominate over
For tragic events in our life with strong hopes
and achievements
The earthly Heavens
Great expectations

Or:

Calamity doesn't choose good or bad
Destroys every gender merciless!
It wounds deeply material and spiritual,
Immense of the harm is immeasurable.

Or:

The earth for all is the only Motherland,
Dear, delicate, let's take by each other's hand...
And turn it into the earthly Paradise!
For not to displease the One Allah who's Wise!

The work "Khalig" is a philosophy of life. This book, which propagandizes the peoples' friendship, the human unity, solidarity, beneficial competition and cooperation, tranquility, pure human-moral qualities, Supreme State and Statehood as Allah's instructions, is the educative, impressive, approvable and modern chronicle showing everybody's responsibility to Khalig.

First time in our history that have earned Allah's Grace and Mercifulness, the authors managed to write "Khalig" book, which is saintly named after Allah and reveals various basic human instructions with relevant details together with His laws of Truth and Justice:

Let goodwill news reach to everywhere,
Let attentions direct its way to Azerbaijan!
Blessed calling of Yours to all nations,
Let show a way to all believers by spreading brilliance

From the humanity point of view, this book, in the name of Allah, defends a kind private interests of all people, from an infant to an old man, from a worker to the head of State. As this book treats that regardless political system, the reason of living of all sections of the State in the atmosphere of friendship, solidarity and unity within the limits of full activity is the application of these instructions to our life, it recommends everybody to grasp their essence and to benefit by them patiently:

The One Allah's Way of Truth and Justice,
Is the foundation of life, the basis,
If we apply it to every section,
No doubt, it'll regulate their discipline,
The only righteousness that is not sold...

Or:

Wishes, purposes of these laws
Let the calmness make peace of bodies…
To set the best well-being of ours,
Our tomorrow that You guarantor.

The book finely clears up the remaining of the laws of truth and justice always stable verily in the state of inherent independency and their equal application to everybody will establish a firm foundation of unitu and equality. As a matter of fact "Khalig" is a book of prayer to the One Allah.

It consists of "Prefase", 9 parts, 63 main and 70 subsections that are slowly discovering the essence of this worship with full explanations in order to put an end to uncertainty and doubt in people's souls concerning its necessity. It has been written in clear and simple style and rhythmic tone addressing the people and belonging to our forefathers. Describing figuratively the scenes of the Universe's past and present, the book also glorifies our close and everlasting links with Allah:

Who is Almighty? - You!
Gives and takes the soul? -You!
Answers our call? - You!
Sees and hears, knows all? -You!

It is the first time the funeral ceremonies have been given in our mother tongue in sections Introduction" ("Fatiha" - the first surah of the Holy Qur'an), "Farewell", "Mission", "Memoirs" and "Funeral Banquet" ("Ehsan"). As if the book "Khalig" mentally overcomes all the untold stairs slowly lifted up for many centuries towards Allah's kingdom by people in great hope connected to their faith and convictions.

It is the mirror reflecting the inmost world and the deeds of the mankind that shows its attitude to Allah, His creatures and gifts.

The book is the combination of our present fruitful perception of divine instructions "scattered and brought-up" for thousand years always in the name of Allah. The importance of revelation of material and spiritual values by this book has no measure.

The recovery of these values to us with the aid of Allah will enable the human generation to justify with righteous deeds and spiritual purity our Creator's Glorious and Honorable name in His presence as Almighty Messenger (Rasul) of this earthly

Paradise. In sha'a Allah (Allah willing).
Sum up Allah's education in your brain,
It s ignorance, advance it!
Know, if that Founder is your support point
It s possible to make up side down of the ground too!..

According to its significant and complete contents, importance and unraveling of its plot this book among those written in the last years of the XX century will keep its present force in our life forever.

Let's have a look at the most unchangeable democratic thought given by the name of Allah, the Lord of Truth and Justice and the Cherisher:

If the standing laws rule over the state,
And respond to the right of each person,
It'll increase control, responsibility,
Make the Republic to live in unity...
If we apply the laws of Truth and Justice,
The leading Powers Will assume new aspect,
There won't be Neutral Opposition, in fact!
The honesty would be weapon of the State,
To defend everybody' s right and interest!

Let's reveal its one more wisdom concerning each official:

The casting vote in his native land,
Creating right be in his hand,
If his deeds are in Unity,
With his work and humanity,
His right and his authority,
Will be protected, certainly

We hope that the book "Khalig" will be able to establish our public tranquility, solidarity and unity, beneficial cooperation and will turn into one of the highest valuable humanity

instructions of mankind in the forthcoming twenty first century by Allah's Will. Insha'a Allah. This book invites all the readers to show restraint and hold themselves in great patience.

If we accept with all of us and carry out Allah's instructions by converting it to the most responsible measures, reflecting it in our highest laws intelligence brought by the book would be true:

Our Founder is salesman of politics.
Executive is His creature, this is decision!
Accept his instruction and recommendations.
He cares about well-being of nations,
...Conform, let be protected of your right, interest.
Let Him to finish every crisis!
...Conform, let the right become repaired such,
Every right of human become balanced completely!
Let unity of brotherhood arise
Let the obvious paradise come alive on Earth!
Conform, to establish of humanity,
To let the prison and Hell become empty forever!

The value of the book originated by the work for long years (1985 - 20011) lies in the fact that it hasn't been written for a profit or benefit and is distributed for free. In accordance with the authors' desire, this book is given as a gift in the name of Allah who is work for the sake of our great future, good and kind deeds and stability. We believe that "Khalig" will be a favorite book of everyone whose heart is full of love for Allah.

In sha'a Allah. May Allah help you. Amen!

***Hadji Sabir Hasanly***
***Turan Vahab oglu Hazanzadeh***
***Solmaz Yaver kyzy Suleymanova***
***Shahin Hadji oglu Aliyev***

Translator: **Saadat Sultan kyzy Karimova**
**Rahim Allahverdi oglu Agayev**

## РЕЗЮМЕ

***Во имя Аллаха Всемогущего и Милосердного***

Книга "ХАЛИГ" ("Создатель"), названная священным именем Аллаха, помогает каждому человеку, независимо от расы, национальности, пола постичь свой внутренний и окружающий мир. Она пытается стереть следы сомнений, оставленных в нашей душе религиозными предрассудками в определенный период истории, возвысить нашу веру в Аллаха до неизменной любви, требующей самоотверженности. Она раскрывает нам исключительное и незаменимое место, занимаемое Аллахом в нашей жизни:

О судеб всех существ вершитель,
Создатель вселенной, ее покровитель,
Твоя воля сметает преграды во прах,
Как здесь, так и в других неведомых мирах.
Ты солнца, воздуха, земли важней,
Необходимее воды для всех людей!

и отмечает:

Всевышний наш, разве Тебе
Есть равные в святости и чистоте?
Благословенье первое Твое не изменить,
И с таинством его нам развиваться, жить.
Ведь без него жизнь смысл потеряет
Свою основу, силу исчерпает...

Повествуя о благородной деятельности Всевышнего, о божественности, которую создали его неопровержимые особенности; о ценностях человечности, являющейся вершиной чистоты и непорочности и ставших важной духовной потребностью всего человечества, книга подтверждает безграничность Его полномочий и влияния, как создателя вселенной:

... Лишь ты подвластен всеми управлять,
Творить миры, живое создавать.
Ты - свят, ты - вечен, ты - един,
Ты всей вселенной властелин!
...Тебе полновластием лишь обладать
Умением миры и существ создавать.
Ты вечен средь тысяч созданий прекрасных,
Ты свят и един, и нет тебе равных

Книга "ХАЛИГ" создана братьями Эльманом и Эльханом Башироглу - внуками известного религиозного деятеля XX века - Шейха Шахсалима Алибек оглы Араблинского (жертва репрессий 1937 г.). В ней отмечается, что единственной основой человечности является теплый свет, непрерывно исходящий от божественного образа Создателя - вечного хозяина и правителя бесконечной Вселенной. Авторы считают своим ответственным долгом раскрыть эту истину, как неизменную волю Аллаха.

Это имя святое превыше всего.
Бальзам для души - наша вера в него.
Недосягаема Его высота,
Безмерны справедливость Его, простота...

Первая мудрость, которая с верой и искренностью раскрыта в предисловии своей свежестью и гармоничностью пронизывает весь внутренний мир книги. Почтительное обращение к Создателю на протяжении всей книги, подтверждает то, что с ним - единственным, незаменимым, святым связаны все наши надежды.

...Всего живого на земле Ты покровитель,
Ты для существ - укромная обитель.
...Ты - наша вера, убежденье,

Ты есть, и есть у нас спасенье

Книга отмечает гениальность, могущество, всесилие Создателя:

Мира совершенного Создатель,
Гений разума, таланта, Основатель,
Лишь за день тысяча существ Твой разум сотворяет,
И этим мастерством Твоим жизнь вечно
процветает...

Книга "ХАЛИГ", более подробно раскрывающая безграничное терпение, старания и труд, отцовское и наставническое попечение Аллаха, безусловно, заинтересует уважаемых читателей.

Он Рай бесподобный создал, сотворил.
В нем существ совершенной душой одарил,
Для них опорой, целителем стал,
Безмерной заботой своей их объял.
В чем же причина заботы такой?!
От нас ожидает ответ Он какой?!

В особенности любовь к этой книге пробуждает современное освещение крепкой взаимосвязанности между мирами, созданными во имя вечной жизни:

Друг над другом, друг в друге семь мирозданий
В них четыре вида прекрасных созданий,
Ангелы, духи, джинны и люди
У всех свои дела, истории, судьбы.
Четыре этапа - идея одна,
Работа очень напряжена,
В четырёх направлениях указанье дано,
Целей четыре управленье одно!..

их единой деятельности, а также порядка, справедливости, являющихся основой стабильного правления Создателя, и учений о человечности, которыми

он настойчиво направляет нас к самостоятельному созданию благосостояния, нам при этом отмечает:

Коль человечность всеми будет управлять,
Её, как и права, все будут защищать,
Под жёстким контролем окажется всё,
От преступлений, неволи нас это спасёт!
Достигнем же цели тысячелетий,
И постигнем свет человечности этим!

Книга "ХАЛИГ" обращает внимание на бесконечное счастье, подаренное нам нашим появлением в этом райском Мире, и, присоединяясь к голосам истины Священных книг - "Евангелие", "Псалтырь", "Библия", "Коран", доносящимся из истории, призывает людей в знак благодарности и почета, бесстрашно веруя, искренне поклоняться Аллаху за все, что Он нам дал, молиться и с ответственностью служить Ему и жизни.

Равных Тебе не знаем мы,
Права Твои границы лишены.
Лишь на Тебя нам нужно уповать.
Лишь Ты надежды в жизнь способен претворять.

Книга заявляет о том, что каждому человеку в связи с его службой нужно давать клятву перед Аллахом, а также советует начинать и завершать любое доброе дело с произнесения имени Аллаха.

Книга искренне отмечает исключительное право, которое имеет Аллах над нами:

Надо стараться, чтоб воздух, вода
И Солнца свет, и все блага
Не тратились на нас впустую,
И оправдать всё пока существуем.
Сколько мы ни поклонялись бы Тебе, любя

Хвалиться ль будем мы Тобой иль восхвалять Тебя,
Наше поклонение так ничтожно,
Ведь счастье измерить невозможно...
...Нигде тебе нет равных! Знаем сами,
Что безгранична власть Твоя над нами.

В книге даются более правдоподобные сведения о создании первого пророка - Адама; о человечности, являющейся его ответственным долгом, как достойного представителя Аллаха на Земле и, связывая с нашим временем, рассказывают о его деятельности, которая способна восстановить человечность сегодня. Они объясняют причины могущества Адама его существованием среди огромных хищников в опасное время:

Ты на Земле Адама сотворил.
Он силы четырех миров в себе соединил!
Могуществом его ты одарил,
Чтоб верой и умом тебе служил,
Чтоб всех он воле своей подчинял,
Чтобы за Землю ответственным стал!

Наши достижения, возвышающиеся вместе с неудачами на протяжении всей истории, напоминают нам о том, что они очень отстают от огромных возможностей, присущих человеку. В связи с этим книга "ХАЛИГ" доводит до нас то, что потеря времени - большой грех и считает своим высшим долгом привлечь людей к совместному созиданию, дабы завоевать любовь Аллаха.

Раскрывая общечеловеческое значение таких учений, как человечность и богословие, посланных нам по воле Аллаха пророком Мухаммедом, а также высшие идеи основ нашей религии - Намаза и Оруджа,

превратившихся в важную для нас традицию, книга "ХАЛИГ" призывает человечество изучать священный "КОРАН" и достойно использовать его в жизни:

...Обращение Мухаммеда, Корана каждая из строк
- Учебник людям всей планеты, всей Земли,
Мы человечности учиться б по нему могли,
Которая всегда, везде нужна,
Ведь к правде, справедливости нас приведет она.

В сущности совпадение основных высших идей священного "КОРАНА", занявшего свое незаменимое место в жизни, и книги "ХАЛИГ", отражающей человеческое восприятие современных богословных учений, доказывает их происхождение от общих корней. "ХАЛИГ" служит правильному восприятию требований о поклонении единому Аллаху, поставленных перед людьми всеми священными книгами, а также использованию их в современной жизни.

...Пусть те, кто чего-то добиться хотят,
Пусть те, кто во всем кого-то винят,
Знают, что вера в Аллаха важна,
Благополучие и славу принесет лишь она.
Вера - сила реформ, лишь она
Судьбу времен определять вольна.

Опирающаяся на материализм, принимающий все, что, в сущности, создано Аллахом, на глубокие корни атеизма, основывающегося на его диалектике, а также на священный "КОРАН", являющийся достойным нас-ледником высших идей древних богословных книг, "ХАЛИГ" решительно подчеркивает отдаленность нашей религии от мифов и вымыслов и вескими доводами подтверждает, что наша религия по воле Аллаха является высшей

наукой:

К служенью жизни и сейчас
Религия зовет всех нас!
Сила велика ее, значение неизмеримо.
Она - наука из наук, что неопровержимо!
Она - свет завтрашнего дня для нас!
Она - Всевышнего и воля, и наказ!

"ХАЛИГ" - это современная религиозная книга, которая по воле Аллаха хранит высшие идеи религиозно-богословных источников, стремится оторвать наши представления в этой области от легенд, неверно воспринятых в древности и, опираясь на прочные основы учений о человечности, данных нам вечным обладателем правды и справедливости, под покровительством которого мы находимся, призывает самоотвержено служить жизни. Обратим внимание на отрывок из "Призыва", обращенный ко всем:

Служение Создателю, Всевышнему, Творцу,
Единому Аллаху и нашему Отцу -
Значит служенье человечеству и жизни для всех нас
Очнись! И верность, и отвагу ты прояви сейчас!
Вставай! Ведь долг и клятва перед Аллахом есть у нас!

Объяснение таинств окружающего мира, опирающееся на законы равновесия, созданные Аллахом, а также взгляд на политику и независимость, как на первые богословные учения, повышают интерес к книге. "ХАЛИГ" повествует о наших будущих научных достижениях, о самой высокой вершине социального состояния, которые будут достигнуты обществом, о первой программе человечества того

времени, которое обеспечит нам мир и покой.

Хоть разумом светлым Ты нас одарил,
Мышлением, талантом не обделил,
Дал ум нам и жизнь, что присуща душе,
И живём в наилучшее время уже,
Всё ж важен контроль, управление Твоё
Чтоб не вернуть нам прошлое своё,
Чтоб мир катастроф и бедствий не знал,
И действий, постыдных для нас, избежал.
Свидетелем безнравственности больше не был,
Чтоб грязным поступкам возможности не дал!

Данные строки о человечности в современном понимании пробуждают особую любовь к этой книге

Эта книга, голосующая против господствующих в мире насилия и несправедливости, холодности и равнодушия, призывает людей во имя жизни защищать Земной Шар от бедствий.

Возвысим человечность,
чтоб достижений нам не потерять,
В этом Раю несчастьям
не властвовать, не управлять,
Чтоб полная стремлений жизни
трагичной не была для нас...

Или:

Одна на всех нам Родина дана,
Объединимся! Ведь нам всем так дорога она...
И Шар Земной пусть в Рай вновь превратится!
Создатель наш пусть нами лишь гордится!
Аминь.

"ХАЛИГ" - философия жизни. Эта книга является летописью, поучительным, трогательным, достойным

одобрения произведением, пропагандирующим дружбу народов, единство всего человечества, всеобщую солидарность, полезное соперничество и сотрудничество, безопасность, а также такие качества, как человечность и нравственность. Она развивает идеи высшего государства и управления, как учений, данных нам Аллахом. Эта книга также повествует об ответственности перед Аллахом, которую несет каждый.

Впервые в истории по милости Аллаха авторам довелось написать книгу, которая носит Его священное имя, и которая более подробно доводит до нас основы необходимых человеческих учений, вместе с законами права и справедливости, созданными Аллахом. Свою цель авторы раскрывают так:

Пусть благая весть по свету пролетит,
Весь мир к Азербайджану взоры устремит.
Пускай, призыв благословенный твой
Людям укажет путь, свет направляя свой.

Эта книга с точки зрения человечности справедливо защищает благие интересы всех, как простых рабочих, так и глав государств, как детей, так и стариков.

Книга указывает и раскрывает основы единства и солидарности всех слоев общества в государстве, независимо от его политического строя, основу дружеских и товарищеских отношений, а также цель существования - в претворении этих учений в жизнь и в созидании, советуя всем постичь их сущность и воспользоваться ими.

Правосудие Аллаха - это жизни основа,
Коль станем мы блюсти его - порядок будет снова.

Его лишь правда чиста, неподкупна сейчас...

Или:

Намеренье и цель законов этих -
Создать покой, удобство всем на свете...
Чтоб благоденствия нам всем достичь,
В благословенном дне завтрашнем жить.

Книга с особой тонкостью объясняет, что стабильность законов права и справедливости, а также соблюдение их всеми, создаст прочную основу для равенства и единства.

В сущности "ХАЛИГ" - это современная книга богослужения, раскрывающая суть поклонения человека единому Аллаху. Она состоит из "Предисловия книги", 9 частей, 63 основных, 70 вспомогательных разделов, в которых с подробными объяснениями постепенно раскрывается сущность поклонения для того, чтобы ни у кого не оставалось сомнений в его необходимости.

Книга написана в форме обращения к людям на поэтическом, легко воспринимаемом, певучем языке, присущем нашим предкам.

Описывая эпизоды прошлого и настоящего Мира, книга воспевает нашу крепкую и вечную привязанность к Аллаху:

Лишь справедливый Ты даешь приказ,
Нам даришь жизнь, ее лишаешь нас,
Нашим молениям внимаешь,
И в нужный час нам помогаешь.

В книге впервые описана траурная церемония на родном языке, что еще больше помогает нам найти утешение в вере и поклонении Аллаху.

Книга "ХАЛИГ" мысленно преодолевает те бесчисленные ступени, которые в течение веков люди воздвигали своими великими надеждами, связанными с их верой, убеждением, и устремляли к резиденции Аллаха.

Книга "ХАЛИГ" - это зеркало, отражающее внутренний мир и деяния человечества, отношение к Аллаху, его созданиям, его дарам.

"ХАЛИГ", является совокупностью всего воспринятого нами сегодня из религиозно-богословных учений, оберегаемых и распространяемых по воле Аллаха тысячелетиями. Раскрытое ею значение моральных и материальных ценностей неизмеримо. Восстанов-ление этих ценностей даст возможность человечеству своей нравственностью оправдать перед Создателем свое славное и достойное имя Посланника в этом Раю.

Нам учение свое послал Аллах,
Чтоб невежество развеяли мы в прах.
Знай, и землю сможешь ты перевернуть,
Коль опора - Аллах, то есть верен твой путь.

Книга "ХАЛИГ" всегда будет сохранять свое значение, актуальность, необходимость среди произведений, написанных в последние годы XX века, своей многозначительностью и содержательностью. Обра-тим внимание на демократичную мысль, данную име-нем Аллаха - создателя и блюстителя самого стабиль-ного правосудия и справедливости:

Если законы государством будут управлять,
Права людей всех станут отражать,
Контроль, ответственность усилятся тогда,

Единство будет в обществе всегда..
По справедливости и чести
Твои ученья восстановим если,
То новым правительство станет,
И оппозиции конец нагрянет,
Справедливость государством будет управлять,
Чтоб всех права и интересы защищать.
Отчужденности, невежества не стало б,
Человечность совершенная всем управляла б.

Раскроем еще одну мысль, обращенную к гражданам всех государств:

Чтобы в своем краю он управлял,
Свободно чтоб творил и создавал...
Чтоб были полномочия, права защищены,
Коль труд и человечность в нем объединены.

Мы уверены, что книга "ХАЛИГ" по воле Аллаха превратится в одно из ценных учений о человечности и сумеет привести к благополучию, единству, солидарности, полезному сотрудничеству в грядущем XXI веке.

Если мы отнесемся к учениям Аллаха, как к самым ответственным мероприятиям, и, отразив их в высших законах, единогласно примем и будем исполнять, то миссия данной книги будет выполнена:

Аллах один всем управляет,
А волю его существа исполняют!
Прими Его заветы и ученья,
Лишь это даст нам всем благословенье.
... Исполни, интересы твои чтоб защищались,
Все кризисы, чтоб позади остались,
Чтобы в порядок все законы привести,

Чтоб равноправие людей блюсти,
Чтоб братство, единство восстановилось,
И Райская жизнь на Землю явилась!
И человечность чтоб восстановить,
Чтоб никому в тюрьме, в Аду не быть...
Аминь.

Ценность этой книги, создаваемой в течение многих лет (1985 - 2011 г.г.), состоит еще в том, что она не продается и написана не ради выгоды! Именем Аллаха книга по желанию авторов отдается в подарок тем, кто трудится во имя счастливого будущего, во благо всего, во имя восстановления человечности.

Мы верим, что "ХАЛИГ" станет любимой книгой каждого, кто хранит в душе любовь к Аллаху.

Да поможет вам Аллах.
Аминь.

***Гаджи Сабир Гасанлы***
***Туран Вахаб оглу Гасанзаде***
***Солмаз Явер гызы Сулейманова***
***Шахин Гаджи оглу Алиев***

Перевод:
***Наджибы Эльман гызы***
***Ибрагимовой (Араблинской)***

# QEYDİYYAT

- Dühan*dır- Yeddi göy qatı ilə yeddi haqq və yeddi ədalət qanununa işarədir.

- Bəndə* - Bir olan Allahını dərk edib ürəkdən sevən, varlığına qəlbən **bənd** olub sığınan, yetirdiklərinə riayət edən möminlərə, əməli salehlərə və xeyirxahlara deyilir.

Unutmayaq ki, Allahın ləyaqətli və sədaqətli qulu olmaq könüllü bəndəlikdən daha şərəflidir inşaallah.

- Gün* - Günəş deməkdir.
- Səh.178 - Yağısı-yağım* - düşməni - düşmənim - deməkdir
- Cənnət*in - (səhifə 61, 94, 284) - Cahana işarədir.
- Helm*ini - İstedad deməkdir.
- Amillər*indən - Günəşə, havaya, torpağa və suya - işarədir.
- Şeytan* - Baş hərfləri kiçik yazılanlar bəd nəfsdən yaranmışa işarədir
- Şeytanı* - Baş hərfləri böyük yazılanlar nurdan yaranmışa işarədir (səhifə 57, 218, 239)
- *Atalar sözü (səhifə 240, 270)
- Varından* - topladığı mala-dövlətə işarədir.
- Versiz* - Yersiz, gərəksiz, lazımsız, münasibsiz fikirlərə işarədir.
- Elçi qərargah* - Nəhayət, bəşər tərəfindən ilk elçi seçilməyinə işarədir.
- Siyasətçilər* - Siyasəti "çirkin oyun" adlandıran və bu oyunu aparan kəslərə işarədir (səhifə 269, 273).
- Siyasət* - Xoş həyat naminə Allahın yeritdiyi təlimlərin təbliği və bərqərarlığı üçün aparılan fəaliyyətdir
- Elçi*nə və Rəsul* - Peyğəmbərə işarədir.
- Haqq alətinə* - Mövcud hakimiyyətə işarədir.
- Yadlıq azarın* - Ögəyçilik, biganəçilik, soyuqluğa işarədir.
- Yeddinci təminat* - 1. Allahın zaminliyi, 2. Dühası, 3.Günəşi, 4. Havası, 5. Torpağı, 6. Suyu kimi 7.Yuxuya işarədir.
- (Mərhumun)* - Bu işarələrdə adı, soyadı çəkilə bilər.
- Mənlik bəhsin* - (səhifə 209) Bütün canlıların Allahın önündə bərabərliyinə işarədir.
- (bəyə-gəlinə)* - yəni ziyafət sahibinin də adı çəkilə bilər.
- (bu hüznə)* - yəni keçirilən mərasimin günü (üçü, yeddisi, qırxı, ili) deyilə bilər.

**QEYDİYYAT**

*Rəhman və Rəhim Allahın adı ilə*

**Nəsillərə**

***İlahi, iradənə arxalanıb Sənə sığınaraq haqq dinimizlə əmin-amanlıq naminə, insaniyyətlik və qardaşlıq yolunda mübarizə aparanlara və çalışanlara səs verib dəstəkləməklə sıralarında olmağımızı imzamızla təsdiqləyirik inşaallah.***

***Ey insanlar!Allahın iradəsi ilə müqəddəs səmavi kitabların*** (Tövratın, Zəburun, İncilin) ***fövqündə duran "Quran-i-Kərim"in ən möhkəm təməl üzərində yaradıb, bərkidib ucaltdığı və "Xaliq"in hədsiz bir inamla təsdiqləyib müasirliklə dəstəklədiyi "Dini-etiqad" səltənətinin olmuş və olacaq bütün sakinləri onlara vəd edilmiş həmi ruhi, həm də O günü (!) əsl cismani Cənnətə əbədi dəvət olunacaqlar inşaallah!!***

***Rəhmanlı və rəhimli Allahımıza şəksiz-şübhəsiz iman gətirib tam səmimiyyətlə pak və müqəddəs varlığına sığınırıq inşaallah.***

***Əlhəmdü lillahi Rəbbil aləmin.***

1. Elman və Elxan Ərəblinski qardaşları.

# MÜNDƏRİCAT


TƏQDİMAT .......... 4
MÜRACİƏT .......... 5
GİRİŞ .......... 7

I FƏSİL

FATİHƏ .......... 19
ÖN SÖZ .......... 20
İBADƏT .......... 26
SƏCDƏ .......... 30
TƏZİM .......... 32
ƏRZİMİZ .......... 38
AND .......... 40

II FƏSİL

CAHAN .......... 44
İNSAN .......... 48
RUHLAR .......... 60
BƏŞƏR .......... 68
HƏZRƏTİ MƏHƏMMƏD ƏLEYHİSSƏLAM .......... 75
ZAMAN VƏ DÖVRAN .......... 83
MƏNƏVİYYAT VƏ İNSANİYYƏT MƏRAMNAMƏSİ .......... 85

III FƏSİL

NAMAZ .......... 96
GÜNÜN NAMAZLARI .......... 104
ETİRAF .......... 120
ORUC .......... 121
CÜMƏ AXŞAMI .......... 129
SEÇKİ .......... 133
ZİYAFƏTLƏRİN AÇILIŞI .......... 136

IV FƏSİL
HƏMRƏYLİK İDDİALARI

XALİQ .......... 138
DÜNYA .......... 143
HƏYAT .......... 166
VƏTƏN .......... 177

AİLƏ ........................................................................................ 180
DÖVLƏT .................................................................................. 184
DÖVLƏTÇİLİK ....................................................................... 187

V FƏSİL
İDARƏ MÜDDƏALARI

İNAM ........................................................................................189
TƏMİZLİK ...............................................................................192
SEÇKİ ......................................................................................195
MÜLAHİZƏLƏR ......................................................................197
MÜSTƏQİLLİK .......................................................................201
HAQQ VƏ ƏDALƏT ................................................................204
BİRLİK .....................................................................................210

VI FƏSİL
ETİQAD

ZƏRURİYYƏT ..........................................................................214
QAVRAYIŞ ...............................................................................221
DAXİLİ DÜNYAMIZ ................................................................236
NİYYƏT ....................................................................................243
TARİXİ YADDAŞIMIZDAN ....................................................250
TÖVSİYYƏLƏR ........................................................................256
TARİXİ MÖVCUDLUQ .............................................................266

VII FƏSİL
EHTİRAM

ƏBƏDİ BAĞLILIQ ................................................................... 277
DIN ............................................................................................280
VARİS ........................................................................................ 286
MÖCÜZƏLƏR ............................................................................ 291
XƏBƏRDARLIQ ......................................................................... 301
YARANIŞ ................................................................................... 304
YAŞAYIŞ .................................................................................... 306

VIII FƏSİL
TANIŞLIQ

TƏQDİMAT ................................................................................ 311
İLKİN RƏY ................................................................................. 315

QİBLƏHDƏN GƏLƏN SƏDA ................................................ 318
NƏTİCƏ ........................................................................... 321
QIZIL ƏSR ........................................................................ 324
XİTAB .............................................................................. 339
ÇAĞIRIŞ ........................................................................... 350

## IX FƏSİL
## YAS MƏRASİMLƏRİ

AÇILIŞ ............................................................................ 353
VİDALAŞMA ...................................................................356
VİDA NAMAZI ................................................................ 360
ZİYARƏTGAHDA ............................................................ 363
TAPŞIRMA MƏRASİMİ ................................................. 366
YAD ETMƏ ...................................................................... 371
EHSAN ............................................................................. 393

## XÜLASƏLƏR

ƏRƏB DİLİNDƏ ............................................................. 398
İNGİLİS DİLİNDƏ .......................................................... 414
RUS DİLİNDƏ ................................................................. 425
QEYDİYYAT-1 ............................................................... 438
QEYDİYYAT-2 ............................................................... 439
MÜNDƏRİCAT ................................................................ 441